**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN**
**CƏLİLABAD FİLİALI**



# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏT TƏRƏNNÜMÜ

**Respublika elmi konfransının**

**MATERİALLARI**

**CƏLİLABAD - 2025**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN**
**CƏLİLABAD FİLİALI**

# “AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏT TƏRƏNNÜMÜ”

**Respublika elmi konfransının**

**MATERİALLARI**

**Cəlilabad, 28 noyabr 2025**

**Konfransın Təşkilat Komitəsi**

**Sədr**

Prof. Cəfər Cəfərov - ADPU-nun rektoru, tarix elmlər doktoru, professor

**Sədr müavinləri**

Prof. Asəf Zamanov - ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor

Dos. Xudayar Sultanlı - ADPU Cəlilabad filialının direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent

**Üzvlər**

Prof. Mahirə Hüseynova - ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor

Dos. Razim Məmmədov - ADPU-nun Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent

Prof. İbrahim Bayramov - ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor

F.ü.f.d. Nigar Aslanova - ADPU-nun Elmi-təşkilati şöbəsinin Elmi nəşrlər bölməsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru

C.ü.f.d. Eldar Muradlı - ADPU-nun Cəlilabad filialının Tədris və elmi işlər üzrə direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru

B/m. Dürdanə Əliyeva - ADPU-nun Cəlilabad filialının Keyfiyyətin təminatı şöbəsinin müdiri, baş müəllim

B/m. Səbinə İsmayılova -ADPU-nun Cəlilabad filialının "Təbiət və sosial elmlər, onların tədrisi texnologiyası" kafedrasının müdiri, baş müəllim

F.ü.f.d. Yədulla Dadaşlı -ADPU Cəlilabad filialının "Dil-ədəbiyyat və pedaqoji elmlər, onların tədrisi texnologiyası" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent

## MÜNDƏRİCAT

## I BÖLMƏ: KLASSİK AZƏRBAYCAN POEZİYASINDA TƏBİƏT TƏSVİRLƏRİ

**Təyyar Cavadov**
Romantizmin estetikası, təbiətin simvolikası (Ə.Cavadın yaradıcılığı əsasında) .............................8
**Yədulla Dadaşlı**
Mahirə Nağıqızının poeziyasında vətənimizin təbii gözəlliklərinin təsviri.....................................12
**Yədulla Ağazadə**
Seyid Əbülqasim Nəbati yaradıcılığında insan və təbiət tandemi...................................................15
**Akif Əhmədov**
Klassik Azərbaycan poeziyasinda təbiət təsviri.................................................................................17
**Fərid Əzimov**
Azərbaycan poeziyasında təbiət və insan duyğularının psixoloji harmoniyası................................20
**Səkinə Ələsgərova**
Klassik ədəbiyyatda təbiət simvolikası və çeşidli dərk modelləri...................................................22
**Tofiq İsgəndərov**
Azərbaycan poeziyasında təbiət və insan harmoniyası.....................................................................24
**Mirzəhra Hüseynzadə**
İmadəddin Nəsimi poeziyasinda təbiət motivləri ..............................................................................28
**Nadir Babayev**
Ədəbiyyat və ekoloji mədəniyyət: müasir yanaşmalar.....................................................................30
**Nəzrin Bəşirova**
Poeziyamızda Qarabağ təbiətinin təsviri...........................................................................................32
**Mədinə Nəsirli**
Şah İsmayil Xətainin "Dəhnamə" əsərinin "Bahariyyə" hissəsində təbiətin tərənnümü...................35
**Bəxtiyar Məhərrəmov**
Azərbaycan coğrafiyasının tədrisində poeziya nümunələrindəki təbiət təsvirlərindən istifadə üsulları.............................................................................................37
**Aytən Səmədova**
Təbiət təsvirlərində təsviri vasitələrin funksiyası..............................................................................40
**Şəmsi Hüseynov**
Molla Pənah Vaqif yaradıcılığında Azərbaycan təbiətinin təsviri....................................................42
**Zaur Ağazadə**
Məhəmməd Füzulinin "Fəzliyə Nəsihət" qəsidəsində təbiət hadisələrinin insan tərbiyəsində rolu...43
**Ruqəyya Babaşova**
Klassik Azərbaycan ədəbiyyatında təbiət tərənnümü.........................................................................45

## II BÖLMƏ: ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ

**Mahmud Allahmanov**
Hüseyn Arif poeziyasında təbiət simvolikasının bədii-estetik funksiyası........................................47
**Eyvaz Eminalıyev, Türkan Hüseynova**
Məmməd Araz yaradıcılığında vətən peyzaj təsvirlərində.................................................................50

**Aydın İbişov**
1900-1940-ci illər Azərbaycan uşaq şairlərinin poeziyasında təbiət motivlərinin tərənnümü...........52
**Mahmudağa Qasımov**
Abdulla Şaiqin yaradıcılığında təbiət motivləri.........................................................................57
**Miryusif Məmmədov**
Fikrət Qocanın "Şuşa" şeirində təbiət lövhələri və insan düşüncələri.............................................60
**Tahir Kərimli, Aygün Əlizadə**
Musa Yaqub poeziyasında təbiət və insan harmoniyası...................................................................62
**Rüqəyya Muradlı**
Zəlimxan Yaqub poeziyasinda təbiət təsviri.....................................................................................64
**Saçlı Ağayeva**
Azərbaycan nəsrində təbiət təsviri...................................................................................................66
**Şahin Cəbrayılov**
Təbiətin vurğunuyam əzəldən...........................................................................................................68
**Səbinə İsmayılova**
Məmməd Araz poeziyasında təbiət – milli ruhun poetik ifadəsi......................................................71
**Şöhrət Namazova**
Qarabağ və Şərqi Zəngəzurun işğalı dövründə Vətənin poetik tərənnümündə fəlsəfi dərkin işığı...........................................................................................................................................73
**Mübariz Süleymanov**
Çağdaş Azərbaycan poeziyasında təbiətin tərənnümü...................................................................77
**Pakizə Əliyeva**
Arif Abdullazadənin poeziyasinda təbiət təsviri..............................................................................79
**Razim Məmmədov**
Hüseyn Arifin poeziyasında təbiət mövzusunun tərənnümü............................................................81
**Nübar İbrahimova**
Uşaq qəlbinə sığan dünya: təbiət Mirvarid Dilbazinin poeziyasında...............................................84
**Məlahət Babayeva**
Zəlimxan Yaqubun yaradıcılığında təbiət motivləri..........................................................................87
**Sitarə Vüsal**
Çağdaş Azərbaycan ədəbiyyatında təbiətin tərənnümü....................................................................89
**Məhrux Dövlətzadə**
Musa Yaqub poeziyasında təbiət bəşərin əxlaqi-estetik amili kimi.................................................91
**Nigar Aslanova**
Azərbaycan sərbəst şeirində təbiətin müasir poetik interpretasiyası................................................94
**Elnarə Axundova**
Qədir Paşa Elsevər yaradıcılığında təbiətin tərənnümü....................................................................95
**Elnarə İsmayılova**
Təbiət və insan Hüseyn Arifin poetikasında.....................................................................................97
**Mehparə Əliyeva, Rəna Hüseynova**
Bayram Bayramovun əsərlərində təbiətin təsviri...............................................................................99
**Vəsilə Razimi**
Abbas Səhhətin uşaq şeirlərində təbiət gözəlliklərinin bədii təsviri................................................100

**Mobil Məcidov, Seymur Süleymanov**
Şuşa təbiətinin çağdaş Azərbaycan ədəbiyyatında bədii inikası....................................................102
**Xalidə Talıbova**
M.Müşfiqin əsərlərində təbiət təsvirləri............ ..................................................................105
**Qəmər Alxanova**
Yavuz Bülənt Bakilerin yaradıcılığında təbiət və Qarabağ faktoru..............................................108
**Dürdanə Əliyeva**
İnklüziv siniflərdə təbiət məzmunlu ədəbi materiallarin sosial-emosional öyrənməyə təsiri..........110

## III BÖLMƏ: AŞIQ YARADICILIĞI, FOLKLOR VƏ EKOLOJİ MƏDƏNİYYƏT

**Bilal Hüseynov**
Ətraf aləmin öyrənilməsində və qorunmasında folklor nümunələrinin rolu..................................112
**Ələsgər Mirzəzadə**
Novruz bayramında təbiət təsvirləri..........................................................................................117
**Emin Zeynalov**
Divan ədəbiyyatından aşıq poeziyasına: təşbib poetik formalarının transformasiyası...................121
**Minayə Məmmədova**
Ekoloji mədəniyyətin formalaşmasında ekoloji tərbiyənin rolu....................................................122
**Mürvət Abbasov**
Azərbaycan aşıq sənəti qloballaşma şəraitində.............................................................................125
**Qüdrət Umudlu**
Arxaik folklorumuzda “təbiət və insan” mövzusu..........................................................................127
**Ulduz Murşudova**
Dini sinkretizmin (müxtəlif inancların qarışığı) tədqiqi..................................................................130
**Xudayar Sultanlı**
Səməd Vurğunun poeziyasında təbiət motivləri və ekoloji tərbiyə................................................132
**Fatiməxanım Qasımova**
Azərbaycan pedaqoji fikir tarixində ekoloji tərbiyə məsələləri......................................................134
**Vüsalə Nəsibova**
Qarabağ folklor mühitində aşıqlar və el şairləri.............................................................................137
**Aysel Həşimzadə**
Aşıq Ələsgərin qoşmalarında antroponimlərin müxtəlifliyi............................................................142
**Firidə Mustafayeva**
Aşıq yaradıcılığında riyazi qanunauyğunluqların təhlili.................................................................145
**Təranə Əkbəri**
Ekoloji mədəniyyətin formalaşmasında təhsil sisteminin rolu........................................................146
**Ləman Mustafayeva**
Medianın və sosial şəbəkələrin ekoloji mədəniyyətin formalaşmasına təsiri.................................148
**Yaqut Qasımova**
İqlim dəyişmələri fonunda ekoloji mədəniyyətin vacibliyi..............................................................150
**Rövşən Qurbanov**
Folklorun nağmə janrının ekoloji tərbiyədə rolu...........................................................................152

**Sevinc Baxşiyeva**
Şirvan  tərəkəmə folklor nümunələrinin dil və üslub xüsusiyyətləri..............................................154
**Şəlalə Seyidova**
Folklor nümunələrinin ibtidai sinif şagirdlərinin emosional inkişafı və milli-mənəvi dəyərlərinin tərbiyəsində rolu..........................................................................................................155
**Zərifə Həmidova**
Ekoloji maarifləndirmənin insan həyatında rolu..............................................................................157
**Firuzə Mirzəyeva**
Aşıq Ələsgər yaradıcılığında təbiətin tərənnümü.............................................................................160

## BÖLMƏ: KLASSİK AZƏRBAYCAN POEZİYASINDA TƏBİƏT TƏSVİRLƏRİ

**Təyyar Cavadov**
e-mail: tayyarsalamoglu@gmail.com
ADPU-nun professoru

# ROMANTİZMİN ESTETİKASI, TƏBİƏTİN SİMVOLİKASI
## (Ə.Cavadın yaradıcılığı əsasında)

Digər romantiklərdə olduğu kimi, Ə.Cavadın da mübarizə idealı vətən və millətin taleyi ilə üzvi vəhdətdə götürülürdü. Ə.Cavad "həyat mübarizədir" fikrini həm də vətən sevgisi, vətənə məhəbbət idealı ilə bağlayır. Şairin məntiqinə görə, millət mübarizə meydanına ona görə atılmalı, inkişaf edib yüksəlişə nail olmalıdır ki, o, "yalçın qayalı", "şahin yuvalı", "ərlər obası" bir yurdu, vətəni təmsil edir:

Sev bu yalçın qayaları,
Bunlar şahin yuvası.
Sev bu izsiz ormanları,
Bunlar ərlər obası.

Bu yalçın qayaları sev, bu qayalar və yuvalar uğrunda mübarizədən çəkinmə-Ə.Cavadda "həyat mübarizədir" idealının romantik bədii inikası belədir. Şairin yaradıcılığında Vətən idealı millət idealı ilə çulğaşmış şəkildə təzahür edib şaxələnir. Vətənin və millətin müstəmləkə şəraitindəki ağır həyat tərzi şairin yaradıcılığına qəm, kədər, taledən şikayət motivləri gətirir.

Yaralıdır könlüm quşu, yaralı,
Yaralandı yazıq şair olalı –

misraları ilə başlayan "Yaralı quş" şeirini həmin motivlərin Ə.Cavad poeziyasında uğurlu romantik ifadəsi hesab etmək olar. Şeirdə əks olunan daxili məna – şairin romantik idealı onun zahirən ifadə etdiyi mənadan qat – qat dərindir. İlk baxışdan bu şeir aşiqin öz məşuqundan şikayəti kimi mənalandırıla bilər:

Kədərli bir qəlbin yanıq fəğanı,
Yandırır ürəyi daşdan olanı!
Ovçu, bu çırpınır, öldürmə bunu,
Yaralandı yazıq aşiq olalı.

Lakin şeirdəki "aşiq" ifadəsi klassik şeirdən gəlsə də, klassik mənasından uzaqdır; vətən və millət vurğunu anlamına gəlir. Şair vətənini və millətini "sevgili" sifətində görür, ona bütün qəlbi ilə aşiqdir. Sual meydana çıxır: Nə üçün bəs "Yaralandı yazıq aşiq olalı?" Misranın poetik tutumu vətənin və millətin ağır vəziyyəti, dərdləri ilə bağlı assosiativ təsəvvürün güclənməsinə, aydınlaşmasına, şairin ideya mövqeyinin oxucu üçün aydınlaşmasına kömək edir.

Yurdundan ayrılmış,yuvadan uzaq...
Ümidi sənədir, ey yaradan haqq, –

misraları isə ünvanı konkretləşdirir yaradıcılığının ilk günlərindən başlayaraq Ə.Cavadın lirikasında bu şikayət, kədər motivi ardıcıl və davamlı bir xarakter alır. Bu cəhəti onun yaradıcılığı üçün nə təsadüfi hadisə, nə də fərdi xarakteri və şəxsi istəkləri ilə bağlı bir hal hesab etmək olar. Bu

notlar şairin lirikasına dövrün, zamanın, cəmiyyətdə gedən ictimai-siyasi proseslərin diktəsi ilə daxil olurdu. Ə.Cavadın romantik lirikasında vətəndaşlıq mövqeyi çox güclü idi. O, müstəmləkə rejiminin Azərbaycan və ümumən türk xalqlarını necə ağır bir vəziyyətə saldığını çox gözəl dərk edir, çıxış yolları axtarır, tapa bilməyəndə ah-fəryad edir, özünü yaralı bir quş kimi təsəvvür edir, ümidini haqqa bağlayırdı. Bu ideya-estetik mövqeyi ilə Ə.Cavad özündən əvvəlki romatiklərlə birləşirdi. "Yaralandı yazıq aşiq olalı" misrası ilə vətənə olan sevgisini ifadə edir. Vətənin gerçək vəziyyətinin ağırlığı onun qəlbini yaralayır.

Ə.Cavadın yaradıcılığının mahiyyətini dəqiq təsəvvür etmək üçün "Nədən yarandın" şeirinə diqqət yetirmək zəruridir. Bu şeir Ə.Cavad poeziyasında sevgi, məhəbbət idealının mühüm mövqeyə malik olduğunu göstərir. Lakin bu məhəbbət geniş mənada anlaşılmalıdır. Çünki burada şair cismani gözəlliyin, təbiətin əsrarəngiz mənzərələrinin onun ilhamını coşdurduğunu etiraf etməklə yanaşı (Səhər dilli bir fırçanın əlilə; Ahuların duruşundan yarandın; Ay işığı gözəlliyin, qızlığın; Çiçəklərin öpüşündən yarandın), ilahi varlığa, ideal olana, müqəddəslərə inam və etiqadını da ifadə edir:

Sən qüdrətin aşıb-coşan vaxtında
Mələklərin gülüşündən yarandın.

Bu misralar şairin nəinki bir olan Allahın varlığını qəbul etməsini, ona böyük məhəbbətini, həm də məhz onun qüdrətilə ilhamının coşduğunu göstərir. İkinci misradakı mələk ifadəsi də indiki anlamdakı gözəl mənasında yox, İslam dinindən, Qurandan gəlmə məzmununda, müqəddəs varlıqlara məhəbbət kimi anlaşılmalıdır.

Ən qədim dövrlərdən nəzəri fikirdə sənətin predmetinin gözəllik olduğu etiraf edilmişdir. Ə.Cavad da belə hesab edir. Lakin şairin fikrincə, əsl kamil, həqiqi gözəllik cismani və mənəvi gözəlliyin vəhdətində meydana çıxır. Bu fikrin "Nədən yarandın" şeirindəki romantik ifadəsi belədir:

Gözəllikçin təbiətlə qüdrətin
Yavaşca bir sovuşundan yarandın.

Ə.Cavad şeirinin romantik təbiətini axıra qədər anlamaq, onun məzmununu və ideyasını dürüst təsəvvür etmək üçün aşağıdakı misralara da xüsusi diqqət yetirmək zəruridir:

Qaranlıqda boğularkən ümidin,
Dan ulduzu yürüşündən yarandın.

Bu misralardakı "qaranlıq" və "dan ulduzu" ifadələri ümumən romantik şeirə xas olan bir məzmunu ifadə edir. Yəni, söhbət nə gecənin qaranlığından, nə də səhər doğan dan ulduzundan getmir. Qaranlıq ifadəsi şairin vətənin və millətin ağır vəziyyətindən doğan narahatçılığını (boğulan ümidini) ifadə edirsə, dan ulduzu xoş gələcəyə ümidini simvollaşdırır.

Ə.Cavad şeiri daha çox ictimai məzmunda, lakin romantik donda təzahür edir. Bu poeziyada daimi romantik bir obraz var: Dan ulduzu. Bu obraz şairin bitib-tükənməyən arzularının simvoludur, vətənin və millətin xoş gələcəyinin təcəssümüdür. Dan ulduzuna Ə.Cavad şeirində bəzən "sağlıq ulduzu", bəzən də sadəcə olaraq "ulduz" kimi müraciət olunsa da, onun görünüşünü şair həmişə arzulayır, sanki həyatı bu ulduza bağlıdır:

Doğmaz oldu artıq sağlıq yıldızı,
Ay görmədik, gecə saydıq yıldızı!
Nədən gəlməz, Allah, səhərin qızı?
Gəlsin ki, yolçular yol üstündədir.

Bu ulduz görünməyəndə, göy üzünü şəfəqlərə qərq etməyəndə isə şairin dərdi birə-on artır:

Yıldızsız göyündən şikayətim var!
O qədər ki dərdin!.. bir quş nə yapar?!

Şeirin misraları məntiqi baxımdan bir-birini tamamlayır. Dan ulduzu görünmür, deməli, şairin dərdinin üstünə dərd gəlir; Digər tərəfdən, göydə yıldız görünə bilməz, çünki dərdin sayı-hesabı yoxdur. Bu mənada Ə.Cavad şeirində "dan ulduzu"nu ancaq "əvəzedilməz təşbeh" nümunəsi hesab etmək doğru olmaz. Heç təsadüfi deyildir ki, Ə.Cavadın "Dan ulduzu" adlı ayrıca bir şeiri də vardır. Bu əsər romantik şeirin ən uğurlu nümunələrindəndir. Burda öz həqiqi mənasında anlaşıla bilən bircə misra, bircə poetik ifadə də yoxdur:

Bu qaranlıq gecə nə qədər sürdü,
Yetiş imdadıma, ey dan ulduzu!

Onu da qeyd edək ki, Ə.Cavad poeziyasında "dan ulduzu" ümidin, xoş gələcəyin daşıyıcısıdırsa, "qaranlıq gecə" burda vətənin ağır dərdlərinə, zülmə, zorakılığa, nahaq tökülən qanlara işarədir. Şeirin sonrakı misralarındakı simvolik işarələr də (qudurğan qasırğa, çarpaşıq yollar, zülmət, uçurum kimi ifadələr) bunu aydın sübut edir:

Qudurğan qasırğa, çarpaşıq yollar,
Yolunda zülmət var, uçurumlar var.
Yetiş ki, ömrümün karvanı ağlar,
Aman, gəl dadıma, ey dan ulduzu.

Bir vətəndaş və şair kimi Ə.Cavadın tərcümeyi-halı Birinci Dünya müharibəsi ilə sıx bağlıdır. Məlumdur ki, o, bu müharibə illərində "Cəmiyyəti-Xeyriyyə"nin ən fəal üzvlərindən biri kimi türk ellərini qarış-qarış gəzmiş, müharibənin Rusiyanın tərkibindəki türk xalqlarına gətirdiyi fəlakətləri öz gözləri ilə görmüş, cəmiyyətin xətti ilə onlara mümkün olan maddi yardımı da göstərmişdir.

"Göy göl"də Ə.Cavad bolşeviklərin "haqq" işini, sosializm quruculuğu uğrundakı mübarizəsini yox, canından artıq sevdiyi vətənin bir parçası olan Göy gölü-onun hesaba gəlməz gözəlliklərini tərənnüm etmişdi:

Kəsin eyşi-nuşi, gələnlər, susun,
Dumandan yorğanı, döşəyi yosun,
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı, Göy göl.

Ə.Cavad məhz bu mövzuda yazdığı üçün, öz daxili dünyasının, şair ilhamının sövq etdiyi mövzuda yazdığı üçün həbs edildiyini çox yaxşı başa düşür:

Borana düşdüm,
Yüz qana düşdüm,
Adını çəkdim,
Zindana düşdüm.

Lakin şairin böyüklüyü burasındadır ki, bunun üçün o, zərrə qədər də olsa, peşmançılıq hissi keçirmir, əksinə, Göy gölü vəsf etməyən bir dil, Göy göllə çırpınmayan bir könül, Göy göldən yazmayan bir əl Ə.Cavada lazım deyildir:

Assınlar məni,
Kəssinlər məni,
Qoy türmələrə
Bassınlar məni.
Neynirəm könlü?

Neynirəm dili?
Səndən yazmasam,
Neynirəm əli?!

Bu etirafdakı “Göy göl” anlayışının məzmunu olduqca genişdir. “Göy göl” ifadəsi burada şairin ilhamının, əqidəsinin ona təlqin etdiyi mövzular mənasında başa düşülməlidir. Həbsxanada ikən yazılan bu bir neçə bənd əslində Ə.Cavadın 1924-cü ildəki “Bəyannamə”sinə tamamilə müxalif olan bir sənət məramnaməsi, manifesti kimi qəbul edilməlidir. Şair demək istəyirdi ki, onu həbsxana küncünə atmaq, hər cür əzab vermək, hətta məhv etmək olar, lakin sənət məramından, öz duyğu və düşüncələrini ifadə etmək istəyindən döndərmək olmaz. “Göy göl”lə bağlı Ə.Cavada qarşı edilən hücumların bir əsas səbəbi də şeirin son dərəcə yüksək sənətkarlıq nümunəsi kimi meydana çıxması idi. Yəni bu şeirdə Göy gölün misilsiz gözəlliyi və bu gözəlliyin insan qəlbində yaratdığı duyğular uğurlu poetik ifadəsini tapmışdır. O zamankı Azərbaycan proletariatının ideoloqlarından biri S.Ağamalıoğlunun bu şeiri ilk dəfə oxuyan zaman “Kim deyir ki, Azərbaycanın Puşkini yoxdur” deməsi də qətiyyən təsadüfi sayıla bilməz. O zaman Ə.Cavada əsasən müxalif mövqedə duran S.Vurğunun bu şeirə qarşılıq olaraq “Göy göl” şeiri yazması, lakin sonralar özünün şeiri ilə müqayisədə Ə.Cavadın əsərinin əsl poeziya nümunəsi olmasını etiraf etməsi də Ə.Cavadın “Göy göl”ünün yüksək sənətkarlıq qüdrətindən xəbər verirdi. M.Vəkilovun xatirələrindən məlum olduğu kimi, S.Vurğun bu şeiri öz “komsomolçuluğuna salıb” yazmışdı. Yəni əsas məqsəd Ə.Cavadı və onun şeirini nəzərdən salmaq olmuşdusa, M.Müşfiqin, çox-çox sonralar isə Türkiyədə yaşayan azərbaycanlı mühacir şair Alazan Baycanın bu mövzuda yazdıqları şeirlər Vətənin solmaz bir parçası olan Göy göllə bağlı Ə.Cavadın poetik sözünün sehrinə düşüb təsirlənmələri ilə bağlı idi. Ə.Cavadın “Göy göl”ünə qarşı hücumları Alazan Baycan təkcə şairə yox, ana təbiətə, əsrarəngiz gözəlliyi ilə ürəkləri oxşayan Göy gölün özünə hücum kimi mənalandırmaqda tamamilə haqlı görünür:

Vurğun boyun əydi yadlar deyənə,
Ağılı ox atdı, dəydi sinənə!
Yaralandın, susdun, dilləndin yenə,
Yaşasın azadlıq, sən yaşa, Göy göl!

Göy gölün gözəlliyi misilsizdir, axıra qədər təsvir edilməsi qeyri-mümkün olan bir gözəllikdir. Dörd bir tərəfdən başı göylərə bülənd olan sıx meşə ilə əhatə olunmuş dərin dərənin dibindəki göz yaşı kimi dumduru, mavi sulu gölün yaratdığı təbii mənzərə hər bir insanı vəcdə gətirməyə, bu təbiilik, saflıq və gözəllik qarşısında onun qəlbini min bir duyğu ilə çırpındırmağa qadirdir. Lakin bu qeyri-adi mənzərənin ürəkdə yaratdığı duyğuları hər bir insan təsvir etməyə qadir deyil. Bu gözəlliyin insan qəlbində yaranan əks-sədasını, oyatdığı hiss-həyəcanları ifadə etmək üçün ecazkar bir qələm sahibi olmaq lazımdır. “Göy göl” şeirində istedadlı qələm sahibinin odlu bir ürəklə Göy gölün təbii mənzərəsini necə canlı, cazibədar və həqiqətə uyğun şəkildə ifadə etməsi heyranedicidir:

Dumanlı dağların yaşıl qoynunda,
Bulmuş gözəllikdə kamalı Göy göl!
Yaşıl gərdənbəndi gözəl boynunda,
Əks etmiş dağların camalı Göy göl!

Gecələr Göy gölün sularında bərq vuran ay və ulduzların yaratdığı son dərəcə təbii mənzərə bu şeirdə təsvir obyektinin gözəlliyini canlandırmaq üçün uğurlu bədii tapıntıdır:

Sənin gözəlliyin gəlməz ki, saya,

Qoynunda yer vardır yıldıza, aya.
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl!

Bu şeirdə Ə.Cavadın təsvir etdiyi "ay" və "ulduz", yuxarıda qeyd edildiyi kimi, uğurlu bədii detal idi, yoxsa siyasi rəmz- işarə? "Göy göl" şeiriylə bağlı Ə.Cavada verilən ittihamlardan birində "ay-ulduz"un simvolik xarakter daşıması və ADR-in bayrağındakı "ay-ulduz"a işarə kimi düşünüldüyü irəli sürülürdü. Bu ittiham müəyyən həqiqəti ifadə edirdi. Göy göl müstəqil Azərbaycanın gözəllik-mövcudluq simvolu kimi alındıqda onun öz qoynunda "ay-ulduz"a yer verməsi tamamilə məntiqi idi. Lakin bu məntiq uğurlu bədii detalın milli duyğulu hər bir insanın beynində yarada biləcəyi assosiativ bir mövcudiyyət idi. Bu assosiativliyi son bənddəki daha açıq xarakterli rəmzlər bir daha qüvvətləndirir:

Bir sözün varmıdır əsən yellərə,
Sifariş etməyə uzaq ellərə.

Məhz həmin rəmzlərin doğurduğu assosiasiya idi ki, o zaman proletar mövqeyi nümayiş etdirən həmkarlarının çox ciddi narahatlılığına səbəb olmuşdu.

**Yədulla Dadaşlı**
email:dadaşlıyədulla@mail.ru
ADPU Cəlilabad filialının dosenti

## MAHİRƏ NAĞIQIZININ POEZİYASINDA VƏTƏNİMİZİN TƏBİİ GÖZƏLLİKLƏRİNİN TƏSVİRİ

Çağdaş Azərbaycan poeziyasını yaradan sənətkarlar sırasında Mahirə Nağıqızının adı ehtiramla çəkilir. Onun parlaq istedaddan və gərgin zəhmətdən yaranan, milli hisslər aşılayan, inam və əqidədən yoğrulan şeirləri doğma vətənimizə sonsuz sevgimizi bir daha artırır. Dərin həyati müşahidələr və poetik təfəkkürdən qaynaqlanan nadir poeziya örnəkləri Mahirə xanımdan həyat həqiqətlərini bədii mətn həqiqətlərinə ustalıqla çevirməyi bacaran novator bir şair kimi söz açmağa imkan yaradır. M. Nağıqızının poeziyasının mayası və qayəsində doğma ana məhəbbəti ilə vətən sevgisi, anaya və vətənə bağlılıq motivləri birləşir və " ana vətən" obrazına çevrilir. O, doğma anasını sevdiyi qədər doğma vətənini də sevir, hər iki amala ürəkdən bağlanır. Təbiidir ki, Azərbaycan sevgisi, yurd-yuva, el-oba məhəbbəti Mahirə xanımın canına, qanına ana südü, ana öyüdü ilə keçmiş, sonralar vətənçilik duyğuları aşılayan şeirlərinin tematikasına çevrilmişdir. Azərbaycanın təbii gözəlliklərinə vurulan, qəlbi vətən eşqi ilə coşan, qürurlanan şair belə bir diyarın övladı olmasından sonsuz fərəh hissi keçirir. Mahirə xanım üçün vətənimizin hər dağı, hər daşı, hər qayası, hər gülü, çiçəyi əzizdir, çünki bunlar müqəddəs vətən torpağının bir parçası, bir gözəlliyidir. Təbiət vurğunu olan şair onun ülvi gözəlliklərini poeziya dilinə ustalıqla çevirir, vətən təbiətinin gözəlliklərini yeni deyim tərzi, poetik üsulla qələmə almaqla, novator ifadələr işlətməklə dəyərli poeziya örnəkləri yaradır. "Qaxda payız" şeirində Qaxda payızın dağlardan başlanmasını söyləyən, Qaraqayanı şahinlər yuvasına, Kürmükçayı yaz dəlisinə bənzədən şair "Qubada payız" şeirində

Afurca şəlaləsinin adını çəkir, təbiətin payız fəslini gəlin köçürəcək qız analarına oxşatmaqla tutarlı poetik obraz yaradır:

Təbiət elə bil qız anasıdır,
Gəlin köçürəcək qəlb sirdaşını.
Sevincdi, kədərdi- bilməz hansıdır,
Xəlvəti axıdar gözün yaşını.

M.Nağıqızı "Dağları" şeirində qışda dağların dumana, çənə bürünməsindən, dağ çayının ilan kimi torpaqda sürünməsindən, dağların ağ duvaqlı gəlin kimi qarla örtülməsindən, dağlarda şənliyin kəsilməsindən, el-obanın isti otaqlarına çəkilməsindən söz açır. "İlisuda yaz" şeirində isə bahar fəslinin təbiətə gəlişi ilə həyatın canlanmasını, başı süd kimi dumana bürünmüş dağlarda qartalların qıy vurmasını, Nohurgölün bulaq saflığını, dağ yamaclarında xalıya bənzər gül-çiçəyin bitməsini təsvir edir. Şahverdi, Qoçyataq şəlalələrinin büllur kimi saf sularını əfsanəvi dirilik suyuna bənzətməklə vətənimizin ilahi gözəlliklərini gözlərimiz önündə canlandırır:

Dağların başında duman süd kimi,
Sərkici gözlərdi, daşırmaq olmaz.
Meşələr baftası dağ yamacının,
Nə süslü görünür İlisuda yaz...

2013-cü ilin yaz fəslində ana yurda- Naxçıvana gələn şair təbiətin gözəlliklərinə heyranlıqla baxır, bağçaların, bağların çiçək açması, çinarın gəlin kimi bəzənməsi, təpələrin al-qumaşa bürünməsi, novruzgülünün çiçəkləməsi, bülbüllərin cəhcəhi şairdə xoş bir ovqat yaradır, onun vətən sevgisini bir daha gücləndirir.

Görüşünə tələsmişəm dağların,
Çiçək açan bağçaların, bağların,
Gəlin kimi o bəzəkli çinarın
Çiləsinə, min nazına gəlmişəm,-

deyən şair Azərbaycan təbiətinə vurğunluğunun səbəblərinə də aydınlıq gətirir. "Elə-belə sevmirəm" şeirindən öyrənirik ki, bir göy yaylaqda təbiətin seyrinə çıxan M. Nağıqızı vətəni bumbuz bulaqlarına, zirvələri qarla örtülü dağlarına, kəmər kimi dağ belinə dolanan dumanına, "Baş sarıtel" havasının insanda milli hisslər oyadan xoş nəvasına, bülbüllərin budaqlarda mahnı oxumasına, nanəli dərələrinə, görə sevir. "Mən ana təbiəti elə-belə sevmirəm" deyən şair "Göygölün" şeirində Azərbaycan təbiətinin füsunkar gözəlliklərini əks etdirən Göygölü "Tanrı peşkəşi", "Allahın evi" adlandırır, bu gözəl dağlar gölünü seyr etdikcə qəlbi fərəh hissi, yurd sevgisi ilə aşıb-daşır:

Yenə çevrilibdi yığnaq yığana,
Gəldim dörd yanını gəzim Göygölün.
Bərəsi Hacıkənd, bəndi Toğana,
Beşiyi Kəpəzdir bizim Göygölün.

Göygölün göz oxşayan cəh-cəlalını heyranlıqla seyr edən şair Hacıkəndin, Toğananın və Kəpəzin adını çəkməklə, təbiətin bu əsrarəngiz möcüzəsini sevda quşuna bənzətməklə, ruhunun dağlarda, izinin Göygöldə qalmasının söyləməklə onu demək istəyir ki, vətənimizin hər guşəsi, hər parçası ilahi vergisi, əsl gözəllik mənbəyidir:

Heyranı olacaq burda kim gələ,
Allahın evidir, diləyin dilə,

Dünyanı gəzsəm də mən innən belə,
Ruhum dağlarındı, izim Göygölün.

"Göygölün" şeirini "Qurbanı olaydım özüm dağların" misrası ilə bitirməsi M.Nağıqızının Göygölün nümunəsində vətənimizin təbii gözəlliklərinə vurğunluğunun poetik ifadəsidir. Şairin gözəllik rəmzi olan Azərbaycan təbiətinə vurğunluğu dağlar haqqında yazdığı şeirlərdə öz bariz nümunəsini tapir. Şair Azərbaycan dağlarını bəzən ərköyün, dəlisov uşağa, bəzən də ürkək marala bənzədir, dağların qüdrəti, cəlalı qarşısında heyranlığını bildirir. Dağların qışda dumana bürünməsindən, daşqın dağ çaylarının buz bağlanmasından, dağların yaz gözəlliyinə həsrət qalmasından, yamacların ağ örpəyə bürünməsindən söz açmaqla zəngin bir təbiət lövhəsi yaradır. Və bu təbiət lövhəsi mahir bir rəssamın çəkdiyi təbiət gözəlliyini təcəssüm etdirən tablo ilə tam müqayisə olunmaq günündədir. Folklorda, klassik və çağdaş poeziyada dağlar haqqında xeyli şeirlər yazılsa da, Mahirə xanım özünəməxsus poetik ifadələri, fərdi yaradıcılıq üslubu, fərqli düşüncə üsulu ilə tamamilə orijinal bir yolla gedir. Dağlar haqqında bir neçə şeir yazması, hər dəfə də dağlara fərqli rakurslardan yanaşması, yeni fikirlər irəli sürməsi, yeni ideyalar aşılaması onun poetik axtarışlarının məntiqi nəticəsi kimi səslənir. M. Nağıqızının poetik düşüncəsində dağ mərdlik, mərdanəlik, vüqar, ilqar, etibar, ucalıq, əzəmət simvoludur. Şair onu da vurğulayır ki, mənəvi baxımdan ucalmaq istəsən, gərək vüqarını dağdan alasan. Əslində şair oğlunun simasında bütün Azərbaycan gəncliyinə vüqarlı, qeyrətli olmağı, doğruluq, düzlük, mənəvi təmizlik yolunu tutmağı, zamanla ayaqlaşmağı məsləhət görür. Hətta yaşlı anasının zəif vücudunu uca bir dağa, bulaqları gözünə bənzətməsi də onun vətən təbiətinə sevgisindən qaynaqlanır.

Zəif vücudunla uca bir dağsan!
Bütün dünyamızda sən bir dayaqsan.
Aləm röyadadır, sənsə oyaqsan,
Qurbanın olardım, olardım, ana!

Əgər dahi Şəhriyar "Heydərbabaya salam" poemasında dağları təbiətin şah əsərlərindən biri, tarixin əbədi olaraq görən açıq gözü adlandırırsa, əgər dağlar qoyununda doğulan Aşıq Ələsgər birinci "Dağlar" şeirində vətən dağlarının ayrı-ayrı fəsillərdəki gözəlliyini tərənnüm edirsə, Mahirə Nağıqızı həm dağlarımızın təbii gözəlliklərindən, həm əzəmət və vüqarından, həm düşmən qarşısında əyilməzliyindən, həm də ucalıq, saflıq, qürur mənbəyinə çevrilməsindən söz açır. O, vurğunu olduğu və poetikləşdirdiyi Azərbaycan dağlarına həm estetik həm də sosial meyarlarla yanaşır.

Sücaətdən xəbər yoxdur nə vaxtdır,
İnsafa gəl bir xəbər ver a dağlar!
Səni səndən artıq sevərdi, Vallah,
Harda qalıb bir xəbər ver, a dağlar!

"Olub" şeirində M.Nağıqızı şair Bəhmən Vətənoğlu ilə dağları qarşılaşdırır, vətən həsrəti ilə yaşadığını bildirir. "Sərin" şeirində isə dağların yamacını xalıya, qayalarını xınaya bənzədir. M.Nağıqızı alim-şair Həsən Mirzənin dağlara, dağların nümunəsində vətənimizin ilahi gözəlliyinə sonsuz vurğunluğundan, yurd-yuva həsrətindən vətəndaş yanğısı ilə danışır.

Həsən Mirzə müsafirin,
Sənə sevgi, eşqi dərin.
Dağ-deyib yumdu gözlərin,
Ünün yetdimi ona sənin? -

misraları Həsən Mirzənin vətən sevgisinin böyüklüyünü, nəhayətsizliyini anlamaq üçün tutarlı bir açardır. Mahirə Nağıqızı vətəndaş şairidir. Bu o deməkdir ki, o, vətənin hər daşının, hər qayasının, hər gülünün, çiçəyinin qədrini bilir, tarixi ədalətsizlik üzündən Araz çayı ilə ikiyə bölünmüş Azərbaycanımızın və cənublu soydaşlarımızın uğursuz taleyini, vətən həsrətini sənətkarlıqla mənalandırır. Bir gün vətənimizin bütövləşəcəyinə sonsuz inamını ifadə edir. Araz çayı sahilində bütöv vətən həsrətini ona görə Arazla bölüşür ki; Araz dərd çəkməyi yaxşı bilir.

Araz daşıya bilər,
Bəlkə, dərdimi bölər.
O bilir dərd çəkməyi,
Dağ üstə dağ çəkməyi.

Bu misralarda vətənini dərin məhəbbətlə sevən şairin vətənimizə, el-obamıza, əzəli-əbədi torpaqlarımıza bağlılığı ifadə olunur. “Biz görüşəndə” şeirində vətənimizin erməni faşist işğalçıları tərəfindən xarabazara çevrilməsindən danışan şair Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdərə kimi füsunkar gözəlliyi ilə göz oxşayan şəhərlərimizin düşmən caynağında inildəməsindən bəhs edir. Vətən gözəlliyinin əzəmətli simvoluna çevrilən çalın-çarpaz düyünlü dağlara, yarpızlı dərələrə, yaşıl ormanlara, laləli təpələrə, xalı çəmənlərə, yaralı torpagımıza həsrət qalmağımızdan kədər hissi keçirir. Bu işğalın keçici olmasına, torpaqlarımızın işğaldan azad olunacağına, yurdumuzun yenidən laləzara çevirəcəyinə dərin inamını poetik dillə oxucuya çatdırır. Ustad aşıq Ədalət Dəlidağlıya müraciətlə yazdığı “Dağları” şeirində vətən oğullarını torpaqlarımızı erməni işğalçılarından azad etməyə çağırır:

Dəlidağlı, dəlilərə hay elə,
Daha səbri yoxdu dözə dağların,-
Götür telli sazı bir tufan eylə,
Bəlkə, könlüm gedib gəzə dağları,

Yurdumuzun təbii gözəlliklərinin vurğunu olan Mahirə Nağıqızının milli və bəşəri duyğular aşılayan şeirləri gəncliyin vətənçilik tərbiyəsində olduqca önəmlidir.

**Yədulla Ağazadə**
Lənkəran Dövlət Universiteti,
Fil.e.d.prof.y.agazade@mail.ru

## SEYİD ƏBÜLQASIM NƏBATİ YARADICILIĞINDA İNSAN VƏ TƏBİƏT TANDEMİ

Yer üzünün əşrəfi olan insan ətraf-çevrə ilə, ana təbiətlə daim təmasdadır, onun üzvi bir hissəsidir. İnsan təbiətlə nəfəs alır, onun gözəlliklərindən vəcdə gəlir, çətinliklərindən qorunur, sınağa çəkilir. İnsanlar, xüsusən fikir, bədii düşüncə adamları sevincini, kədərini, düşüncələrini təbiətlə bölüşür, təbiəti, onun əsrarəngiz gözəlliklərini sözlərində, əsərlərində yaşadırlar. Odur ki, yaradıcı fərdlərin təbiət gözəllikləri barədə qələmə aldıqları hər zaman təzədir, yenidir, aktualdır. Onların tədqiqi, təbliği tarixi, bədii və tərbiyəvi əhəmiyyətə malikdir.

Təbiət gözəlliklərinin təsviri, tərənnümü klassik və orta əsr Azərbaycan poeziyasının əsas mövzularından biridir. Elə bir müqtədir, qüdrətli sənətkar tapmaq çətindir ki, yaradıcılığında

təbiətlə bağlı lövhələr olmasın. Qətran Təbrizinin, Xaqani Şirvaninin, Qazi Bürhanəddinin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin zəngin ədəbi irsində təbiətin tərənnümü böyük maraq doğurur. Ədəbi irsin də həm klassik üslubda, həm də xalq şeiri formasında ustalıqla qələmə aldığı qəzəl və qəsidələri, müstəzad və qoşmaları, gəraylıları ilə tanınan, XIX əsrin görkəmli sənətkarı Seyid Əbülqasim Nəbatinin yaradıcılığında insan və təbiət tandemi özünəməxsus bədii qüdrəti ilə diqqətimizi cəlb etməkdədir. Şairin bir çox qəzəl və qəsidəsində xüsusən “Gəz-gəz”, “Eylə”, “Nəçidir” rədifli əsərlərində buna rast gəlmək mümkündür.

Baxma şümşada, gözüm, sərvi-xuraman gəz-gəz,
Dərmə hər qönçəni, bir qönçəyi-xəndan gəz-gəz.

Şairə görə, şümşad, qöncə nə qədər gözəldirsə, insan gözəlliyinə çatmaz. İnsan bütün gözəlliklərin fövqündədir. Nəbati həqiqi diriliyin, yaşarı həyatın insanda, sevgi dolu istəkli könüllərdə olduğunu bildirir, onu bütün dünya nemətlərindən üstün sayaraq deyir:

Hardadır abi-bəqa, çeşmeyi-zəmzəm nəçidir,
Kövsərin adın eşit, badeyi-reyhan gəz-gəz.

Bahar, bahariyyələr əksər klassik şairlərimizin yaradıcılığından əsas mövzu olaraq keçir. Nəbati yaradıcılığında bahar iki məqamda qələmə alınmışdır. Birincisi təbiət hadisəsi kimi, ikincisi insanın ruhi-mənəvi ovqatı kimi təsvir edilmişdir. İnsan elə bir gövhərdir ki, o hər zaman könlünə baharı gətirməyi bacarmalı, bahar ovqatında olmağa çalışmalıdır. “Eylə” rədifli qəzəli bu cəhətdən xarakterikdir:

Gətir, saqi, meyi-gülgun, bu bəzmi bir bahar eylə!
O cami-ləlfam ilə bu xamı bir xumareylə.

Şeir insan gözəlliklərini təbiətlə müqayisə edir, lakin bu tandemdə üstünlüyi, qüdrəti yer üzünün əşrəfi olan insana verir” “Nəçidir” rədifli qəsidəsində aşağıdakı beytlər fikrimizin sübutu olaraq dəyərləndirilə bilər:

Ey gözüm, gəl gözə bax, nərkişi-şəhla nəçidir!
Zülfə bax, sünbülə bax, ənbəri-sara nəçidir!
Nə çıxar ər-ərü şümşad uzun əhməqdən,
Qəddə bax, qamətə bax, sərvi-dilara nəçidir.!

S.Ə.Nəbaitinin bir çox şeirləri bahariyyə səciyyəsi daşıyır. Baharın gəlişindən, təbiətin oyanışından vəcdə gələn insanın ruhu-mənəvi diriliyi şairin “Əcəb-əcəb” rədifli müxəmməsində parlaq bədii ifadəsini tapmışdır:

Gəldi bahar, fəsli-tamaşa əcəb-əcəb!
Etdi cahanı gör necə ziba əcəb-əcəb!
Xürrəm olubdu daməni səhra əcəb-əcəb!
Qümri edibdi sərvdə məva, əcəb-əcəb!
Məsti-tərəbdi bülbülü şeyda əcəb-əcəb!

Şeirdən anlaşılır ki, baharın gəlişi gözəl bir tamaşaya çevrilibdir. Dünyanı gözəlliyi ilə heyran qoyan bahar səhraları belə gülzara çevirmiş, sərvdə yuva salan qumru, gülün eşqilə oxuyan bülbülü coşdurmuş, nəğmələrə qərq etmişdir. Bu gözəlliyin içində insan sevincini, heyrətini təsəvvür etmək çətin deyildir.

Ey sünbüli-tərdən üzünə pərdə tutanım,
Ey qönçə dəhanım,
Pərvanə kimi başına qoy bircə dolanım,
Ey ruhi rəvanım.

Yaxud:
Ey qaməti şümşad, boyu sərvi-sənubər,
Ey şuxi-sitəmgər!
Aya görəsən var bu cahan içrə sərasər,
Bir gül sənə bənzər? -

beytləri ilə başlayan müstəzadları da təbiət və insan gözəlliyinin vəhdəti, insanın bu gözəlliklər içində layiqli, üstün yeri yüksək poetik ustalıqla qələmə alınmışdır.

Seyid Əbülqasim Nəbatinin xalq şeiri üslubunda araya-ərsəyə gətirdiyi qoşma və gəraylılarda da təbiət gözəlliklərinin böyük şövqlə, məhəbbətlə, poetik qüdrətlə təsvir edildiyinin şahidi oluruq. Şair sözün qüdrətilə oyanışın, diriliyin rəmzi olan baharın portretini özünəməxsus ustalıqla qələmə almağı bacarır:

Genə bahar oldu, açıldı güllər,
Bülbül naləsindən tutulur qulaq.
Gül gülə sarmaşıb, çiçək çiçəyə,
Lalə cami-cəmdən gətirib soraq.

Nəbati bütün gözəllikləri uca Tanrının qüdrəti ilə əlaqələndirir. “Yaradıb” rədifli gəraylısında buna poetik bəyanatla aydınlıq gətirir:

Maşallah, qadir Allah
Gör necə dilbər yaradıb!
Gül üzündə əfşan-əfşan
Zülfi-müənbər yaradıb

Şairin bu istiqamətdə qələmə aldığı, Azərbaycan ədəbiyyatında ilk bəhri-təvil hesab etdiyimiz yeganə əsərində də təbiət və insan tandemi, ilahi qüdrət poetik ahənglə təqdim olunmuşdur. Maraqlı cəhət ondadır ki, ədəbiyyatımızda bəhri-təvilin qüdrətli ustası olaraq M.Ə.Sabir satirik ovqatda, S.Ə.Nəbati isə insan və təbiət gözəlliklərinin tərənnümü şəklində poetik düşüncələrinə geniş meydan vermişdir.

Deyilənlərdən aydın olur ki, S.Ə.Nəbati yaradıcılığında insan və təbiət varlığın, həyatın qüdrətli, şirin neməti olaraq ustalıqla qələmə alınmışdır. Bu kimi nümunələr bu gün də bədii və tərbiyəvi dəyəri ilə insanların mənəvi dünyasına xidmət etməklə sənətkarı, müəllifi oxucularının qəlbində yaşadır.

**Akif Əhmədov**
*akif.ahmedov72@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı

## KLASSİK AZƏRBAYCAN POEZİYASINDA TƏBİƏT TƏSVİRİ

Təbiət təsviri Azərbaycan klassik poeziyasında bədii düşüncənin ən mühüm istiqamətlərindən biridir. Bu poeziyada təbiət yalnız ətraf aləmin dekorativ mənzərəsi kimi deyil, ilahi hikmətin, mənəvi nizamın və insanın daxili aləminin rəmzi ifadəsi kimi işlədilmişdir. Klassik Azərbaycan ədəbi məktəbi Şərq poetik ənənəsinə əsaslanır və həmin ənənə daxilində təbiət hadisələrinin dərin fəlsəfi, mistik və etik mənası vardır.

Klassik poeziyada təbiət anlayışı insanın öz mahiyyətini dərk etməsi ilə birbaşa bağlıdır. Şairlər üçün kainat və insan bir-birindən ayrılmaz bir bütöv kimi qavranılır. Təbiətdə müşahidə olunan gözəllik, nizam, çeviklik və harmoniya eyni zamanda insanın daxilindəki mənəvi dünyanın əksidir. Bu baxımdan klassik poeziyada təbiət təsviri həm kosmik, həm də antropoloji xarakter daşıyır, yəni insanla kainatın vəhdətini ifadə edir.

Ən qədim nümunələrdən etibarən Azərbaycan poeziyasında təbiət hadisələri poetik təsvirin ayrılmaz hissəsidir. XI–XII əsrlərdən etibarən Şirvan ədəbi mühiti və Gəncə məktəbi bu baxımdan mühüm rol oynamışdır. Bu dövrün görkəmli nümayəndələri – Xaqani Şirvani və Nizami Gəncəvi təbiət təsvirini yüksək bədii səviyyəyə qaldırmışlar.

Xaqani Şirvani təbiəti yalnız estetik obyekt kimi deyil, həm də metafizik varlıq kimi dərk edirdi. Onun poeziyasında fələk, ulduz, ay, günəş, dəniz, dağ kimi obrazlar Tanrının qüdrətini və insanın bu qüdrət qarşısındakı acizliyini ifadə edir. Məsələn, Xaqani üçün fələk həm həyatın hərəkətverici qüvvəsidir, həm də insan taleyini idarə edən sirli qüvvədir. Onun poetik təbiət təsvirlərində insan və kainat arasındakı qarşılıqlı münasibət, bir növ dialoq mövcuddur. Bu dialoqda insan təbiət hadisələrindən ibrət götürür, onlarda ilahi nizamın rəmzini görür.

Nizami Gəncəvi isə təbiət təsvirini poeziyada yeni bir mərhələyə qaldırdı. Onun yaradıcılığında təbiət təkcə gözəlliyin simvolu deyil, həm də etik və estetik harmoniya modelidir. “Xəmsə”də dağların əzəməti, baharın gəlişi, ulduzların parlaqlığı və suyun axışı kimi elementlər hadisələrin emosional fonunu yaradır. “Xosrov və Şirin”də təbiətin dirçəlişi qəhrəmanların sevgi hissləri ilə paralel şəkildə təqdim edilir. Nizami üçün təbiət hadisələri sadəcə bədii təsvir vasitəsi deyil, həm də mənəvi tərbiyə mənbəyidir. O, təbiətin qanunlarını dərk etməklə insanın da öz daxili nizamını qoruya biləcəyinə inanırdı.

Nizaminin əsərlərində təbiət eyni zamanda insan-Allah münasibətinin bədii kodu kimi çıxış edir. Onun poeziyasında təbiət obrazları ilə fəlsəfi təlimlər birləşir; belə ki, insan təbiəti müşahidə etməklə həm öz varlığının mahiyyətini, həm də Tanrı ilə əlaqəsini dərk edir.

XIII–XV əsrlər klassik Azərbaycan poeziyasında sufi ideyalarının güclənməsi dövrüdür. Bu mərhələdə təbiət təsvirləri daha çox mistik və rəmzi məna qazanır. Nəsimi və onun ideya mənbəyi olan hürufilik təbiətə ilahi varlığın təcəllası kimi baxırdı.

Nəsimi poeziyasında insan bədəni və təbiət eyni mənbədən – ilahidən yaranmış iki aynadır. O, yazırdı ki, “Aləmin hər zərrəsində Həqqin nuru vardır”. Bu baxış təbiətin bütün elementlərini mənəvi məna daşıyan rəmzlərə çevirir. Gül insanın kamilliyinin, dəniz onun dərin düşüncəsinin, külək azad ruhun, səma isə ilahi biliyin rəmzidir. Nəsimi üçün təbiət Tanrının canlı kitabıdır – onu oxuyan şəxs varlığın sirlərini dərk edə bilər. Dahi şair İ.Nəsimi təbiəti tərənnüm edərkən mahiyyətə varır, ondakı gözəlliklərin qədrini bilməyə, onları olduğu kimi duymağa çağırır. Şair qəzəl və qəsidələrində təbiətdə baş verən fəsil dəyişikliklərini, o cümlədən yazın gəlişi ilə əlaqədar ətraf mühitdə, xüsusilə bitkilərin həyatında canlanmanın müşahidə edildiyini olduqca təbii vermişdir:

Çəmənlər müxtəlif oldu, həzar əlvan çiçəklərdən,
Açıldı laləvü nəsrin, şükufə gəldi əşcarə.
Açıldı nərgisü lalə, tutubdur yasəmən çadır,
Söyütlər, ərğəvan titrər, qamışlar mindi ənharə.

Nəsiminin təsiri ədəbiyyata şeirilə “Bahariyyə” janrını gətirən görkəmli Azərbaycan şairi Şah İsmayıl Xətaidən də yan keçməyib:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.

Yüz dürlü əba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər.

Füzuli yaradıcılığında isə təbiət təsviri emosional və psixoloji dərinliyi ilə seçilir. Onun "Leyli və Məcnun" poemasında təbiət hadisələri qəhrəmanların daxili aləminin güzgüsünə çevrilir. Məcnunun tənhalığı, səhranın susuzluğu, küləyin səsi, yağışın damcısı – hamısı onun ruhi iztirablarını ifadə edir. Füzuli üçün təbiət hisslərin dili ilə danışır; o, insanın sevincini, dərdini, kədərini özündə əks etdirir. Bu nümunə sözümüzün bariz sübutudur:

Ey əbr, hər əksiləndə suyin,
Dəryalara tökmə abi-ruyin!
Al suyi bu çeşmi-xunfəşandan,
Dəryalara həm bağışla ondan!

XVIII əsrə gəldikdə Azərbaycan poeziyasında təbiət təsviri realist istiqamət qazanır. Bu dövrün ən böyük nümayəndəsi Molla Pənah Vaqifdir. Vaqif klassik poeziyanın formalarından – qəzəl, müxəmməsdən istifadə etsə də, onun məzmunu və üslubu əvvəlki klassiklərdən fərqlənir.

Vaqifin təbiət təsvirlərində həyatilik, sadəlik və müşahidə üstünlük təşkil edir. O, gül, bülbül, bahar, su, dağ kimi obrazları rəmzlərlə yükləmir; əksinə, onları insan həyatının canlı hissəsi kimi təqdim edir. Onun poeziyasında təbiət insanla bir yerdə nəfəs alır, yaşayır, sevinir. Vaqif təbiəti gözəlliyin və həyatın tərənnümü üçün işlədərək, klassik poeziyada uzun əsrlər hökm sürmüş mistik təbiət baxışını real müşahidə ilə əvəz edir. Bununla belə, onun poeziyasında klassik ənənə tam qırılmır, Vaqifin ritm quruluşu, poetik dilin ahəngi, bədii təşbehləri klassik lirikanın davamıdır.

M.V.Vidadi isə təbiət motivlərinə daha çox fəlsəfi və elegik məna yükləmişdir. Onun şeirlərində payız, külək, yağış, qaranlıq kimi elementlər zamanın keçiciliyini, insan ömrünün müvəqqətiliyini ifadə edir. Vidadinin təbiət təsvirləri insana faniliyi xatırladır və həyatın mənasını dərk etməyə sövq edir. Bu baxımdan onun poeziyasında təbiət həm estetik, həm də mənəvi dəyər daşıyır.

Klassik Azərbaycan poeziyasında təbiət təsviri çoxqatlı semantik quruluşa malikdir. Gül və bülbül münasibəti məhəbbətin, bəzən də ilahi birliyin rəmzidir; su və dəniz – əbədiyyətin və sirrin dərinliyinin; dağ – səbrin və qüdrətin; külək – zamanın və taleyin; bahar – yenilənmənin; payız – faniliyin simvoludur. Bu simvollar əsrlər boyu poeziyada bir-birini tamamlayaraq vahid poetik sistem yaratmışdır. Ərəb, fars və türk ədəbiyyatlarında olduğu kimi, Azərbaycan klassik poeziyasında da təbiət vasitəsilə mənəvi kamillik, eşq fəlsəfəsi və həyat dərsləri ifadə olunur. Bu ənənə, xüsusilə Nizami və Füzuli vasitəsilə Azərbaycan poetikasında özünəməxsus məzmun qazanmış, daha sonra Vaqiflə realist istiqamətə keçmişdir.

Təbiət təsvirinin poetik funksiyaları çoxşaxəlidir: Estetik funksiya, simvolik funksiya, emosional funksiya, didaktik funksiya. Bu funksiyalar bütün klassik dövr ərzində sabit qalmış, yalnız məzmun və üslub baxımından dəyişmişdir. Beləliklə, klassik Azərbaycan poeziyasında təbiət təsviri bədii-estetik, fəlsəfi və mənəvi sistemin əsas komponentlərindən biridir. O, insanla kainatın, ruhla maddənin, reallıqla idealın vəhdətini göstərir. Bu poeziyada təbiət həm Yaradanın qüdrətini, həm də insanın daxili aləmini əks etdirir. Klassik şairlər üçün təbiətə baxmaq, əslində, öz mənini dərk etmək deməkdir.

Nizaminin universal harmoniyası, Xaqaninin dərin təfəkkürü, Nəsiminin mistik baxışı, Füzulinin ruhi lirizmi, Vaqifin realist təravəti və Vidadinin tənhalığı – bütün bu fərqli istiqamətlər təbiətin poetik obrazında birləşir. Azərbaycan klassik poeziyasında təbiət bəşəri düşüncənin, ilahi dərinliyin və milli duyğunun birləşdiyi məkandır.

**Fərid Əzimov**
ADPU Cəlilabad filialı, psixologiya müəllimi
E-mail: feridazimov512@gmail.com

# AZƏRBAYCAN POEZİYASINDA TƏBİƏT VƏ İNSAN DUYĞULARININ PSİXOLOJİ HARMONİYASI

Azərbaycan poeziyasında təbiət və insan duyğularının qarşılıqlı əlaqəsinin tədqiqi müasir humanitar elmlərdə aktuallığını qoruyan mühüm istiqamətlərdəndir. Təbiət və insan münasibətləri yalnız estetik kateqoriya kimi deyil, həm də mənəvi-psixoloji proseslərin ifadə forması kimi nəzərdən keçirilir. Qloballaşma və texnoloji inkişaf şəraitində insanın təbiətlə harmoniyasının pozulması problemi bədii yaradıcılıqda yeni məna kəsb edir.

Poeziyada təbiət motivləri vasitəsilə insanın daxili dünyasının, ruhi tarazlığının və mənəvi axtarışlarının ifadəsi bu mövzunu elmi baxımdan daha da dərinləşdirir. Klassik irsdəki təbiət obrazlarının müasir psixoloji təhlil kontekstində yenidən araşdırılması milli poetik ənənələrin inkişafını izləməyə imkan yaradır. Bu mövzu həm ədəbiyyatşünaslıq, həm də psixologiya elmləri arasında inteqrativ tədqiqat istiqaməti kimi dəyərlidir. Müasir poeziyada təbiət və insan münasibətlərinin bədii-fəlsəfi məzmununun aktuallaşması cəmiyyətin ekoloji və mənəvi problemləri ilə səsləşir.

Azərbaycan poeziyası öz dərin mənəvi kökləri, zəngin estetik məzmunu və çoxqatlı bədii strukturu ilə seçilir. Bu poeziyada təbiət motivləri təkcə xarici aləmin təsvirinə deyil, həm də insanın daxili aləminin, mənəvi sarsıntılarının və psixoloji təcrübələrinin ifadəsinə xidmət edir. Təbiət və insan duyğuları arasında yaranan bu qarşılıqlı əlaqə Azərbaycan poeziyasının ruhunu formalaşdıran əsas estetik prinsiplərdən biridir. Təbiətin obrazlı təsviri, insan hisslərinin təbiət hadisələri ilə eyniləşdirilməsi, poeziyada mənəvi harmoniyanın bədii təcəssümünü yaradır.

Klassik Azərbaycan poeziyasında təbiət və insan münasibətləri dərin fəlsəfi-psixoloji anlam daşıyır. Nizami Gəncəvi yaradıcılığında təbiət insanın mənəvi kamilliyinin güzgüsü kimi çıxış edir. Onun əsərlərində baharın gəlişi həyatın yenilənməsi, mənəvi oyanış, ruhun təzələnməsi kimi yozulur. Füzulidə isə təbiət obrazları insanın eşq, kədər və iztirab dolu hisslərini simvolizə edir. O, təbiətin dəyişkənliyini insan ruhunun ziddiyyətləri ilə vəhdətdə təqdim edir. Məsələn, külək, yağış və bulud kimi təbiət hadisələri Füzuli lirikasında sevgi ağrısının, tənhalığın və həsrətin poetik kodlarına çevrilir.
Nəsimi poeziyasında isə təbiət insani varlığın ilahi başlanğıcı ilə birləşir. Onun misralarında dağ, dəniz, günəş və ay obrazları insan ruhunun gücünü, yaradıcı enerjisini simvolizə edir. Bu baxımdan təbiət obrazlarının psixoloji yüklənməsi Azərbaycan klassik poeziyasının bədii-fəlsəfi dərinliyini müəyyən edən əsas amillərdəndir.

XIX əsrdə Azərbaycan poeziyasında təbiət motivləri daha sosial və ictimai məna qazanmağa başlayır. M.Ə.Sabir, Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani kimi şairlərin yaradıcılığında təbiət həm gözəlliyin, həm də ictimai ədalətsizliyin bədii fonuna çevrilir. Sabir təbiətin gözəlliyi ilə insan həyatındakı mənəvi eybəcərliklər arasında kəskin təzad yaradır. Bu zaman təbiət təkcə estetik müstəvi deyil, həm də psixoloji təsir vasitəsidir: şair təbiətin saflığını insan cəmiyyətinin mənəvi pozğunluğu ilə müqayisə edərək ironik bir kontrast yaradır.

XX əsrin əvvəllərindən etibarən təbiət motivlərinin poetik təqdimatı fərqli istiqamət alır. Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nigar Rəfibəyli kimi şairlər təbiəti insan duyğularının tərkib hissəsi kimi təqdim edirlər. Bu dövrdə təbiət və insan münasibətləri vətən, azadlıq, mənəvi bütövlük və sevgi ideyaları ilə vəhdətdə işlənir. Məsələn, Səməd Vurğunun "Azərbaycan" şeirində dağlar və çaylar vətən sevgisinin poetik rəmzləridir. Şairin "Komsomol" poemasında isə təbiət obrazları insan əməyinin və mənəviyyatının simvoluna çevrilir.

Bəxtiyar Vahabzadə təbiət və insan münasibətlərini fəlsəfi bir çərçivədə təqdim edir. "Təklik" şeirində təbiət hadisələri insanın tənhalığını və daxili vəziyyətini əks etdirir:

Kolların dibində tək bitdiyindən,
Boynu bükük olur bənövşənin də.
Od vurmasa, qabda su daşa bilməz,
Quş da tək qanadla dağ aşa bilməz.

Bu misralarda təbiət hadisələri insanın tənhalığını və daxili vəziyyətini simvolizə edir. Şairin təbiətə olan münasibəti, insanın daxili aləmi ilə paralellik təşkil edir.

Bəxtiyar Vahabzadənin lirikasında təbiət insanın daxili azadlığını, mənəvi sarsıntılarını və ruhi axtarışlarını ifadə edən əsas poetik vasitədir. Onun "Gülüstan" poemasında Araz çayı həm bölünmüş torpağın, həm də parçalanmış ruhun simvolu kimi çıxış edir. Burada təbiət yalnız coğrafi məkan deyil, həm də milli yaddaşın və insan duyğularının daşıyıcısıdır.

Müasir Azərbaycan poeziyasında da təbiət və insan duyğularının harmoniyası aktuallığını qoruyur. XXI əsr şairləri – Vaqif Səmədoğlu, Ramiz Rövşən, Məmməd Araz, Nəriman Həsənzadə və başqalarının yaradıcılığında təbiət hadisələri insan ruhunun, tənhalığının, qorxularının və ümidlərinin simvolik ifadəsinə çevrilmişdir. Məsələn, Ramiz Rövşənin şeirlərində yağış, dəniz, bulud və külək obrazları insanın daxili təlatümlərini əks etdirir. Onun poetik dili təbiətlə insan ruhu arasında sanki bir "psixoloji rezonans" yaradır.

Bu gün təbiət motivləri təkcə bədii-estetik deyil, həm də ekoloji və fəlsəfi məna daşıyır. Müasir poeziya insanın təbiətlə harmoniyasını itirməsi problemini qaldırır. Şairlər təbiətin məhvini insanın mənəvi deqradasiyası kimi dəyərləndirir və bu harmoniyanın bərpasını mənəvi xilasa aparan yol kimi görürlər.

Beləliklə, Azərbaycan poeziyasında təbiət və insan duyğularının psixoloji harmoniyası çoxəsrlik inkişaf yolu keçmiş, müxtəlif tarixi dövrlərdə fərqli poetik məzmunlar qazanmışdır. Klassik poeziyada bu harmoniya ilahi başlanğıc və mənəvi kamillik ideyası ilə bağlı idisə, müasir dövrdə o, insanın mənəvi ekosistemi, daxili tarazlığı və təbiətlə ruhi vəhdəti kimi təqdim olunur. Bu baxımdan təbiət motivləri Azərbaycan poeziyasının bədii-fəlsəfi sistemində həm milli düşüncənin, həm də ümumbəşəri dəyərlərin ifadə vasitəsinə çevrilmişdir.

Azərbaycan poeziyasında təbiət obrazları insanın daxili aləmini, hiss və duyğularını ifadə edən əsas bədii vasitələrdən biridir. Klassik və müasir poeziyada təbiət və insan münasibətləri estetik harmoniyanın, ruhi sabitliyin və mənəvi dəyərlərin bədii təcəssümünə xidmət edir.

Analiz göstərdi ki, şairlər təbiət hadisələrini insan emosiyalarının, sevinc və kədərinin simvolik ifadə forması kimi təqdim edirlər. Füzuli, Nizami, Vahabzadə və Ramiz Rövşən kimi sənətkarların yaradıcılığında təbiət obrazlarının psixoloji funksiyası insanın daxili konfliktlərini üzə çıxarmağa imkan verir. Müasir poeziyada təbiət motivləri ekoloji, fəlsəfi və mənəvi problemlərin bədii ifadə müstəvisinə keçmişdir. Bu isə göstərir ki, təbiət və insan duyğularının harmoniyası Azərbaycan poeziyasının mənəvi və estetik dəyərlər sistemində əsas yer tutur. Beləliklə təbiətin

insan psixologiyası ilə qarşılıqlı əlaqəsinin poetik inkişaf mərhələləri və bədii funksiyaları elmi cəhətdən əsaslandırılmışdır.

Aşağıda Ramiz Rövşənin "Allah" adlı şeirinin bir hissəsini təqdim edirəm:

Gecə birin yarısıdı,
Nə dünəndi, nə sabah.
İki günün arasında
Canım sıxılır, Allah.

Bu şeir, təbiət hadisələrinin insan ruhunun vəziyyəti ilə necə əlaqələndirildiyini və psixoloji harmoniyanın necə yaradıldığını göstərən bir nümunədir.

Ramiz Rövşənin şeirlərində təbiət hadisələri insanın daxili aləminin əks-sədası kimi təqdim edilir. Məsələn, "Yağış" şeirində yağışın səsi, insanın qəlbinin səsini əks etdirir:

Gecə yağış yağar-min səs, min səda,
Tikanlı nəğmələr dinləyər gecə,
İynələr sancılan, iynələr batan,
Zənci bədənitək inləyər gecə.

Bu misralarda yağışın səsi, insanın daxili təlatümlərini və ağrılarını simvolizə edir. Yağışın səsi ilə insanın qəlbi arasında bir paralellik qurulur.

**Sakibə Ələsgərova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: sakibaalesgerova@mail.ru

## KLASSİK ƏDƏBİYYATDA TƏBİƏT SİMVOLİKASI VƏ ÇEŞİDLİ DƏRK MODELLƏRİ

**Açar sözlər**. Təbiət, klassik ədəbiyyat, kultlaşmanın səciyyəsi, təbiət simvolikası, obrazlaşmanın xarakteri.

Ədəbiyyatın şifahi və yazılı qolu bütün parametrlərdə xalqın ibtidai düşüncəsindən bu yana olanları müxtəlif səviyyələrdə təqdimə həssaslıq nümayiş etdirir. Arxaik yaddaş, mifik zamanın rəngarəngliklərlə səciyyələnən çeşidlilik mənzərəsi, təbiət səviyyəsində kultlaşmalar, əfsanə, əsatir, rəvayət, nağıl, şərqi, bayatı, xalq mərasimləri kontekstində canlandırmalar simvollaşmanın funksionallıq mahiyyətini sərgiləyir. Dünya şöhrətli abidələr, klassik ədəbiyyatın görkəmli nümayəndələri zəngin mətn fakturasında təbiətin əsrarəngizliklərini, sirli-sehrli ecazkarlıqlarla dolu məzmununu təkcə ifadə etməklə deyil, həm də dərkə köklənməklə bir əlçatmazlığı diqqət önünə gətirir. "Bilqamıs", "Oğuz Kağan", "Boz qurd", "Manas", "Alpamış", "Kitabi-Dədə Qorqud", "Maday-Kara", "Koroğlu" və s. kimi şedevrlər mifik yaddaşda özünə yer almış təsəvvürləri prinsipləşdirməklə təbiəti dərkə köklənmişdir. Klassik ədəbiyyat bu kontekstdə dağ, dəniz, göy, gün, ay, ulduz, eləcə də təbiətin əsrarəngizliklərlə dolu flora və faunası timsalında olanları təqdimə həssaslıq göstərir.

Klassik ədəbiyyatın görkəmli nümayəndələri özlüyündə əsatir, əfsanə, rəvayət, hadisə, əhvalat səviyyəsində olanları bu və ya digər şəkildə təbiəti dərk baxımından müxtəlif aspektlərdə təqdimlə diqqət önünə gəlirlər. Semiotik işarələnmə, metaforik düşüncənin metamodel xarakteri

Q.Təbrizi, X.Şirvani, M.Gəncəvi, M.Təbrizi, N.Gəncəvi, Z.Şirvani, H.Təbrizi, M.Əvhədi, Ə.Təbrizi, Ş.İ.Xətai, M.Füzuli, R.Bağdadi, S.Təbrizi, Məsihi, Q.Təbrizi, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, Ə.Nəbati, X.Natəvan və s. sənətkarların timsalında əsaslı bir mükəmməlliyi sərgiləyir. Çiçək və baharın tanrısı olaraq vurğulanan Flora, eləcə də meşə və çöl ilahəsi, heyvanların himayədarı kimi dürlü əhvalatlarla ədəbiyyatı izləyən, mifoloji yaddaşda özünə yer alan Fauna arxaik qatın təsəvvürü olaraq sonrakı dönəmlər üçün simvolik işarələnmələrlə yaddaşlara öz izini qoymuşdur.

**Klassik poeziyada təbiət timsalında simvollaşmanın xarakteri**. Xaqani Şirvaninin "Zəmzəm quyusunun tərifi"ndə işarələnmənin ümumi məzmunu mifoloji və dini-fəlsəfi düşüncədə olanların bir bütöv olaraq açımına həssaslıq göstərir. Dirilik suyu, Zəmzəm bulağı ilə əlaqəli xalq düşüncəsində özünə yer alan təsəvvür ədəbiyyatın şifahi və yazılı qolunu əhatələməklə diqqət önünə gəlir. "Bu yer kürəsində müqəddəs nə var, bu ülvi çeşmənin üstündə durar" təsəvvürü bir neçə aspektdə təhlili zəruriləşdirir:

a) mifoloji təsəvvürdə suyun ehtiva etdiyi məzmun;
b) dini söyləmələrdə mənsəbə qatı;
c) inam və etiqadlarda qəlibləşmiş təsəvvür modeli;
ç) fəlsəfi dərk kontekstində müəyyənləşmiş konseptual yanaşma;
d) orta əsrlərin təriqət məfkurəsində Zəmzəm suyunun simvolik məzmunu və s.

Bütün kontekstlərdə bədii düşüncədə təbiətin canlandırılması çoxçeşidli və çoxqatlı olmaqla ibtidai düşüncədən gələnlərə sədaqət nümayiş etdirməklə diqqət önünə gəlir. "Aləmə ruh verən bu tək quyudur, cana qüvvət verən onun suyudur" (X.Şirvani) təsəvvürü dini-mistik, mifik-fəlsəfi və tarixi-mədəni tərəfləri öz içinə ala bilmək gücü ilə diqqət önünə gəlir. N.Gəncəvinin "Xəmsə"sində də eyni ruhun davamlı təqdimi "həyat suyu içmiş Xızırtək azad" deyimilə mahiyyətində olanları açıqlayır.

Klassik ədəbiyyat Qara daş haqqında dolaşan əhvalat və hadisələri əks etdirmək baxımından ayrıca bir elmi-nəzəri təhlilləri zəruriləşdirir. Epik ənənədə qəlibləşən təqdim üsulları müxtəlif forma və səviyyələrdə onu canlandırmağa, arxaik qatdan üzü bəri gələnlər timsalında təqdimə həssaslıq nümayiş etdirir. "Bilaltək dayanan qara daşa bax, zahiri qaraca, batini parlaq, Kəbənin üzündə o, qara xaldır" (X.Şirvani) düşüncəsi Şərq bədii düşüncəsini yüz illər boyunca məşğul etmişdir.

**"Bahariyyə" şeir silsiləsi və onun ehtiva etdiyi məzmun**. Baharın tərifi, onun füsunkarlığının təqdim və tərənnümü klassik bədii düşüncəni əvvəldən günümüzə qədər müxtəlif forma və üsullarda təqdimə köklənmişdir. "Bahariyyə" adı ilə yazılan silsilə poetik nümunələr bunun örnəyidir. N.Gəncəvinin "Baharın tərifi" adı ilə təqdim etdiyi poetik nümunə özünəqədərki təsəvvürü orijinallıqla dilə gətirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Sərdi xalısını səhraya min gül,
Bəzədi torpağı süsənlə sünbül.
Ağacda qönçələr baxdı göz-gözə,
Bənzədi qayğısız güllər bir üzə.
Qırmızı lalədən, sarı çiçəkdən,
Təbiət bir bayraq qaldırdı birdən.

Epik təhkiyənin təbiətin mükəmməllik harmoniyası kontekstində müəyyənləşdirdiyi təsəvvür çəmənlik, güllərin əsrarəngizliyi, ağacların puçurlaması və qayğısızlığı baxımından formalaşdırdığı mükəmməllik baharın gəlişi ilə bir ecazkarlığı diqqət önünə gətirir. Xalq şairi S.Vurğun məhz bu səbəbdən "bahar, istəklimsən başdan, binadan" deyirdi. Sözün məna yaddaşı,

misranın fikir yükü, mətn fenomenliyi bütün hallarda "həyatda olduğundan gözəl" istəyi ilə təbiət simpatiyasını funksionallıq səviyyəsinə qaldırır. "Bahariyyə" adı ilə diqqət önünə gələn şeirlər silsiləsi buna nümunədir. Ş.İ.Xətainin "Dəhnamə"sindəki baharın təsvir və tərənnümünə həsr olunmuş poetik örnək ayrıca bir düşüncə mükəmməlliyi ilə faktlaşır.

Qış getdi, yenə bahar gəldi,
Gül bitdi və laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.

Bədii düşüncənin səs simvolizmi, mətn harmoniyası bütün paradiqması ilə baharın gəlişi timsalında olanları qeyri-adi vurğunluq (həm də simpatiya) ilə təqdimə həssaslıq nümayiş etdirir. Daha doğrusu, baharın özü qədər bir mükəmməlliyi sərgiləyir. Yaradıcı istedadı təbiətin obrazlaşması, sintaktik fiqurların sıralanması və təbiətin flora-faunasının canlı olaraq təqdimi baxımından nümunə ola bilməni faktlaşdırır və sonrakı dövrdə bu özünəməxsusluğun müxtəlif formalarda təkrarlanmasına əsas olur.

M.Füzulinin "Bahariyyə"si bu baxımdan bütün mahiyyətilə baharın sevincini təqdim etməklə onun simvolik məzmununda olanların ifadəsi baxımından bir orijinallığı diqqət önünə gətirir. "Gətir, saqi, qədəh ki, eyş xoşdur gül zamanında" deyimi məhz bunun ifadəsi olaraq mühitində və sonrakı dönəmin ədəbi prosesində örnəyə çevrilir. "Açıldı lalə, güldü qönçə, gəldi işrət əyyamı" təbiətin oyanışı, baharın gəlişi baxımından baharın özü qədər bir ucalığı, əlçatmazlığı ortaya qoyur.

Klassik ədəbiyyatın zənginliyində özünü göstərən təbiət, onun müxtəlif formalarda obrazlaşması, tipoloji aspektdə bədii mətnə gətirilməsi öz qaynağını ibtidai təsəvvürdən gələn dərkə və onun bir potensiya olaraq ötürülməsinə bağlanır. Mifoloji düşüncədə olan ecazkarlıqların dərki və öyrənilməsi eyni axarda klassik ədəbiyyatın ayrı-ayrı dövrlərində ədəbi prosesi izləməklə əsaslı bir mükəmməlliyi, həm də ənənənin məzmununda olanları diqqət önünə gətirir. Bütün bunlar klassik ədəbiyyatın zənginliyində ayrıca bir istiqamət olub sistemli araşdırmaları zəruriləşdirir.

**Tofiq İsgəndərov**
tofiqisgenderov92@gmail.com
ADPU-nun Cəlilabad filialı, baş müəllim

## AZƏRBAYCAN POEZİYASINDA TƏBİƏT VƏ İNSAN HARMONİYASI

Təbiət mövzusu Azərbaycan türklərinin mədəniyyətində, ədəbiyyatında daim mühüm yer tutmuşdur. Təbiət həmişə insanlar üçün maraq mənbəyi olub.Təbiətdə gedən proseslər fəlsəfi münasibətləri ortaya qoyduğu kimi, ədəbiyyatın da daimi mövzusuna çevrilmişdir. Bizi əhatə edən mühitdə canlı aləmin normal təbii inkişafı üçün şəraitin qorunub saxlanılmasında bütün cəmiyyət üzvləri ilə birlikdə gənc nəslin də üzərinə mühüm vəzifələr düşür. Odur ki, gənc nəslin ekoloji tərbiyəsi cəmiyyət qarşısında duran vacib məsələdir. Uşaqlarda və gənclərdə təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmaq, yetişməkdə olan nəsli onun mühafizəsində durmağa hazırlamaq ümdə vəzifə olaraq qalmaqdadır. Göstərilən vəzifələrin həyata keçirilməsində şair və yazıçılarımızın əsərlərinə müraciət etməklə poeziyanın ekoloji tərbiyədə vacib rol oynadığını aydın görmək olar.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Səməd Vurğun xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir. O, əlli illik ömrünün otuz ilini ədəbi yaradıcılığa həsr etmiş, Azərbaycan klassik poeziyasında öz dəst-xətti ilə seçilmiş, dilinin sadəliyi, şirinliyi, axıcılığı ilə qəlbləri fəth etmişdir. O, dillər əzbəri olan poeziya nümunələri ilə doğma ana dilinin - Azərbaycan dilinin nə qədər gözəl, zəngin, axıcı, rəvan olduğunu göstərməklə yanaşı, bundan ilhamlanaraq Azərbaycan ədəbiyyatını, mədəniyyətini zirvələrə ucaldan əsərlər yaratmışdır. Bu baxımdan keçən əsrin 30-cu illərində qələmə alınmış "Azərbaycan" şeiri çox diqqətəlayiqdir. "Azərbaycan" şeiri həmin dövrdə Səməd Vurğun yaradıcılığının, həm də müasir Azərbaycan poeziyasının şah əsərinə - manifestinə çevrildi. Şairin vətən haqqında olan ən qiymətli, dərin düşüncələri bu əsərdə bütünlüklə öz bədii əksini tapmışdır. Azərbaycana olan sevgisindən doğan səmimi duyğularla şair elindən-obasından, vətəninin dağından-düzündən, kəndindən-şəhərindən söz açaraq vətənpərvərlik duyğularını tərənnüm etmiş, təbii gözəllikləri lirik boyalarla qələmə almışdır. Şeirdə Azərbaycan təbiəti əbədiləşərək rəngarəng bir rəsm tablosuna çevrilir. Göz önündə: "sıra dağlar", "gen dərələr", "ürək açan mənzərələr", "sakit axan Arazlar", "durna gözlü bulaqlar", "başı qarlı dağlar", "yaşılbaş sonalar", "ala gözlü gündüzlər", "ağ örpəkli buludlar", "göy yaylaqlar", "sarı sünbül"- canlanır. Şeirin hər bir misrasında Azərbaycanın özü var, ruhu var:

Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü qoy uzaqdan,
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi (1, s.141).

Misralardan göründüyü kimi, Səməd Vurğun Azərbaycanın dilbər guşəsi qədim Qarabağın füsunkar gözəlliklərini vurğunluqla tərənnüm edirdi. "Azərbaycan" şeiri təbiətlə insanın harmoniyasını, Vətən və xalq məfhumunun bağlılığını əks etdirən misilsiz sənət incilərindən hesab olunur. Bu şeirə şair özü yüksək qiymət verərək deyirdi ki, "Azərbaycan" şeiri mənim həyatıma, bütün həyat proqramıma uyğundur. Mən nə qədər yaşayıb-yaratsam da, 1935-ci ildə yazdığım bu şeirdə aşıladığım motivləri bütün əsərlərimdə oxuyacaq, duyacaqsınız" (2, s.258). Onun bir xüsusi təbiəti duyma qabiliyyəti var idi və bu duyğunu, təbiətin gözəlliyini konkret obrazlarla bədiiləşdirərək canlandırır, oxucuya sevdirir, onları qorumağa səsləyir.

"Çiçək", "Göy göl", "Dilcan dərəsi", "Dağlar" və b. şeirlərində "Fələklər yaratmış bu yeri cənnət", "Gözəlliyi bəlli, məşhuri-cahan" deyib Dilcan dərəsini, Göygölü, dağları vəsf etmişdir.

"Göyərçin" şeirində isə daha qlobal məsələlərə toxunur, sülh rəmzi olan simvolik göyərçinin təsvirində qanlı-qadalı müharibə illərinin ağrı-acılarını, insan əli ilə təbiətə dəyən ziyanları, xarabalıqların yaranmasını, canlı aləmin məhv olmasının poetik mənzərəsini canlandırır:

Danışmayır, susur şəhər...
Nələr deyir xərabələr!?
Talan olmuş gözəl Vətən,
Nə bir dövlət, nə var qalmış.
Oda yanmış hər bir evdən
Quruca dörd divar qalmış...
Qapıdakı bir ağac da
Yarpaq töküb qurumuşdur...
Qərib qalmış o ağacda

Bir göyərçin oturmuşdur... (5, s.105)

"Çinarın şikayəti" şeirində isə şair tarixə şahidlik etmiş, qoca çinarın şikayətlərini səbirlə, aramla qələmə alır, ona bədii don geyindirir. Çinar deyir ki, gəlib gedənlər kölgəmdə dincəlir, hər yarpağımda quşların adı var, dünyanın sirri kötüyümdə doludur, budaqlarım hava səngəridir. Səməd Vurğun poeziyasında "təbiət sevgisi", "təbiət vurğunluğu", "təbiət həsrəti", başqa sözlə, doğma Azərbaycana məhəbbət yüksələn xətlə inkişaf etmiş, müxtəlif şeir və poemalarında öz əksini tapmışdır. Doğma yerləri böyük məftunluqla tərənnüm etməklə, zəngin maddi və mənəvi sərvətlərimizi poetik dillə "Durnalar", "Göy göl", "Çiçək", "Dağlar", "Dilican dərəsi" və başqa şeirlərində təsvir etməklə ənənəvi mövzulara müasirlərindən fərqli yanaşmış, müasir məzmunla yanaşı, yeni ictimai - siyasi məna kəsb etməsinə xüsusi diqqət ayırmışdır.

Səməd Vurğun təbiət aşiqi idi. Torpaq üzərində bütün gözəlliklərin yaranmasında insanın rolunu, əməyini, zəhmətini yüksək qiymətləndirir, təbliğ edirdi. Səadəti, xoşbəxtliyi təbiətlə insanın vəhdətində görürdü. Şairin poeziyasının əsasını insan təşkil edir. "Qabarlı əl... açıq alın, o sağlam ürək, Saymaq ilə bitən deyil ömrün aləmi", - deyən şair zəhmətkeş insanlara yüksək qiymət verir, müsbət qəhrəmanlarının timsalında onların əməyə, təbiətə xidmətini işıqlandırırdı.

Beləliklə, Səməd Vurğunun Azərbaycan təbiətinin gözəlliyinə həsr etdiyi əsərləri ideya-bədii xüsusiyyətlərinə görə kifayət qədər zəngindir, rəngarəngdir. Onun yaradıcılığına nəzər saldıqca görürük ki, Azərbaycan təbiətinə vurğunluğu şeir yazmağa başladığı ilk illərdən ömrünün sonuna qədər ülvi hisslərlə davam etmiş, insanla təbiətin bağlılığından, birgə vəhdətindən ilhamlanmışdır. Əsərlərinin bütöv məzmununu insanla təbiətin harmoniyası təşkil edir və sosial-mənəvi motivi inkişafda, rasional axtarışda, cəmiyyətə xidmətdə, ətraf mühiti qorumaqda, Vətənə, torpağa sevgidə görür və gənc nəsilləri də buna biganə qalmamağa səsləyir.

İlk şeirlərində təbiət gözəlliklərini xüsusi bir ilhamla tərənnüm etmişdir. Fitrətən istedadlı gənc şair doğma vətəninin möhtəşəm gözəlliklərini ifadə etməyə çalışmışdır. "Dilican dərəsi", "Dağlar", "Dağlara xitab", "Çiçək", "Kür çayı" və s. bu tipli qoşmalar şairin ilk şeirləri içərisində özünə məxsus yerə malikdir.

Ağır qəflə vurum, səndə gizləyim,
Heç kimsə bilməsin, sirdaşım dağlar! (5, s.85)

Xalq arasında geniş yayılmış inancların bir qismi türklərin tapındığı ilkin təbiət varlıqlarından biri olan dağa pərəstişlə bağlıdır. Böyük şairlərimizin bir çoxu el yaradıcılığının, aşıq poeziyasının bu ənənəsinə sadiq qalaraq dağlara qoşmalar həsr etmişdir. Məşhur "Dağlar" şeirində Səməd Vurğun "Qüdrətini sizdən aldı, mənim sazım, sözüm, dağlar", "Vurğunu da salar yada, Düz ilqarlı bizim dağlar."- misralarında dağların qüdrətini, sədaqət və ilqarını böyük şövqlə vəsf etmişdir.

Xalq şairi Məmməd Arazın əsərlərinə müraciət etsək, onun bir vətəndaş kimi bu məsələyə münasibətinin şahidi oluruq. Şeirlərində Vətənimizin dağ yamaclarında müxtəlif səbəblərdən yaranmış qayaların hər birini vətən keşiyini çəkən qəhrəman əsgərə, qayaları bütövlükdə vətəni qoruyan güclü orduya bənzədir. O, müdrik və görkəmli bir mütəfəkkir kimi, "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" ( 5, 13) – fikrini yaddaşlara ötürür. Onu bu fikrə gətirən elə təbiətin özüdür. Başqalarına adi görünən, Məmməd Araz poeziyasında hər biri tariximizin bir səhifəsini xatırladan daşları, qayaları, kürəyini söykədiyi qayanı şair obrazlaşdırır, onunla dərdləşir.

Bir qayaya söykənmişəm
deyirəm kaş,

Bax beləcə daşa dönəm
Yavaş-yavaş.(5,11)

Məmməd Araz çox böyük şair ustalığı ilə təbiəti ürəyə bənzədir və bununla ürəyin böyüklüyünü, davamlılığını və tutumluluq dərəcəsini poetik dillə tərənnüm edir. Bir ürəyin sevgi, məhəbbət dolu nəğməsini ney səsindən duyunca bulağa qaçan qızın, yanağı qızara-qızara çöhrəsində əmələ gələn gülüşün əsl səbəbi son misralarda daha poetik və obrazlı bir dillə ifadə olunmuşdur:

Nə çoban yorulur, nə tütək susur,
Nə də qız yorulur su daşımaqdan. (5, 277)

Şair 1970- ci ildə yazdığı "Azərbaycan dünyam mənim" (5, 11) şeirində yeni poetik yol axtarıb tapmaqla Azərbaycanı Azərbaycan səviyyəsinə layiqincə yüksəldə bildi.

Məmməd Arazın şeirlərini oxuduqca belə qənaətə gəlirsən ki, təbiətdə mövcud olan bütün nə varsa hamısı insanların rifahı üçündür. Onun fikrincə, təbiətdə hər şey canlıdır. Hər şey yaşayır, inkişaf edir. Bu mənada təbiət həmişə gözəldir, cavandır, təzədir. "İnsan qayalar" adlı şeirini təlaşsız oxumaq olmur. Cansız qayaları o qədər yüksək poetik dillə təsvir edir, xalqımızın igidlik və qəhrəmanlıqlarını elə qələmə alır ki, həmin fikirlərin fəlsəfi ümumiləşməsi adamı ruhlandırır. Əsərdəki tərbiyənin gücünü, sözün hikmətini sakitcə oxumaq olmur. Onun qəlbindəki arzu və diləklər bütün gənclər üçün bir örnəkdir.

Məmməd Araz hər bir təbiət hadisəsinə çox həssas yanaşan şairdir. Onun hər bir şeiri oxucuda kiçik görünən təbii hadisələrə belə qayğı ilə yanaşmağı öyrədir. "Uçqun" şeirindən bir nümunəyə diqqət edək:

Qartal yuvasını dağıdan uçqun,
Bir düzü sonalı gölə döndərir.(4, 71)

Ekoloji tərbiyədə bədii söz sənətinin rolu müstəsnadır. Xalqın mənəviyyatı keçmişinə, kökünə bağlılığı ilə ölçülür. Qədim zamanlar odu Allah, torpağı müqəddəs saymış babalarımız bulaq gözü açmağı, bağ salmağı, təbiəti qorumağı xeyirxah iş sayıblar. Azərbaycan diyarının füsunkar təbiəti-onun ceyranlı-cüyürlü düzləri, başı ərşə dirənən dağları, sonalı gölləri, zümzüməli çayları ta qədimdən söz ustalarının ilham mənbəyi olmuşdur. Şair və yazıçılarımız öz əsərlərində təbiətin bu gözəlliklərini böyük məhəbbətlə qələmə almış və əsərlərində dönə-dönə vəsf etmişlər.

## Ədəbiyyat

1. S.Vurğun. Seçilmiş əsərləri: 5 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2013
2. B.Əhmədov.XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Dərslik: 3 cilddə, II cild.Bakı, 2010
3. M.Araz. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: Lider, 2004
4. M.Araz. Seçilmiş əsərləri: 2 cilddə, II cild. Bakı: Lider, 2004
5. S.Vurğun. Seçilmiş əsərləri. II cild, Bakı, 2005

**Mirzəhra Hüseynzadə**
mirzehra2001@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
Elmi rəhbər: dos. Yədulla Dadaşlı

# İMADƏDDİN NƏSİMİ POEZİYASINDA TƏBİƏT MOTİVLƏRİ

Azərbaycan ədəbi-fəlsəfi düşüncəsinin görkəmli nümayəndəsi İmadəddin Nəsimi öz yaradıcılığı ilə yalnız orta əsrlər Azərbaycan ədəbiyyatının deyil, bütövlükdə Şərq humanist poeziyasının inkişafına dərin təsir göstərmişdir. Poeziyası həm bədii, həm də fəlsəfi dərinliyi ilə seçilir; onun təbiət obrazları çoxqatlı mənalar kəsb edir və insan, kainat, ilahi varlıq münasibətlərini simvolik şəkildə əks etdirir.

Filosof-şair təbiəti canlı və mənəvi bir varlıq olaraq təsəvvür etməklə, kainatla insan arasında vəhdət ideyasını önə çəkir. Təbiət şair üçün ilahi hikmətin aynasıdır. Kainatın sirrini misralara çevirən mütəfəkkirin fikrincə, təbiət obrazlarının əsas vəzifəsi insanda ilahi mahiyyətin aşkarlanmasıdır. Bu da İmadəddin Nəsiminin "Məndə sığar iki cahan" fəlsəfəsində öz əksini tapır. Həmin məşhur beytdə təbiətin sərhədlərini aşan bir insan obrazı yaradılmışdır. Burada "iki cahan" ifadəsi maddi və mənəvi aləmi bildirir. Şair özünü kainatla eyniləşdirərək təbiət və insan vəhdətini bədii-fəlsəfi müstəviyə gətirir.

Azərbaycan ədəbiyyatının bu böyük nümayəndəsinin poetik sistemində hər bir təbiət elementi müəyyən fəlsəfi məna daşıyır. Günəş – ilahi nurun simvoludur. Ay – mənəvi gözəlliyin rəmzidir. Su – paklıq göstəricisidir. Torpaq – yaradılışın başlanğıcını bildirir. Külək – Tanrının nəfəsi, ruhun hərəkət və dəyişmə gücüdür. Od – eşqin, sevginin, ilahi məhəbbətin simvoludur. Bu simvolların hamısı şairin poeziyasında bir sistem yaradır və birlikdə kainatın ilahi nizamını ifadə edir. Onun poetik baxışına görə, təbiət hadisələrinin arxasında gizlənən mənəvi qatlar Tanrının varlığını göstərir. İnsana ali varlıq kimi yanaşan şair ruhun cəmadat, nəbatat və heyvanatdan keçməklə insana doğru inkişaf etdiyini göstərir. O, təbiətə hürufilik təlimi prizmasından yanaşır.

Çün xakdan edər səfər, mədən, nəbat olur şəcər,
Rövşən görər əhli-nəzər kol tömeyi-heyvan gəlir.
Çün tömeyi-heyvan olur, o da ki, insü can olur,
İnsana vasil olmağa bidəstü pa pərran gəlir.

Qeyd olunan nümunə İmadəddin Nəsiminin "insanın varlıq zənciri" anlayışını ən gözəl ifadə edən beytlərindəndir. Bu misralar həm yaradılışın fiziki mərhələlərini, həm də ruhun mənəvi təkamülünü birləşdirir. Burada yaradılışın başlanğıcı torpaq kimi təqdim olunur. Varlıq torpaqdan doğur, oradan mədənlər, sonra bitkilər, ardınca ağaclar yaranır. Bu, həm bioloji təkamülü, həm də ilahi yaradılışın mərtəbələrini simvollaşdırır. Allah Quranda insanın torpaqdan yaradıldığını dəfələrlə bildirmişdir:

"Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə bəyan edək." (əl-Həcc, 5).

"Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni insan qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən?" (əl- Kəhf, 37).

Mədən – daxilində gizli dəyər daşıyan maddədir. Həyatın növbəti pilləsində artıq qiymətli mahiyyət ortaya çıxır. Mədən mərhələsindən sonra canlılıq doğur, yəni nəbatat aləmi. Bu, insanın

ruhani təkamülündə də əhəmiyyətli simvoldur. Həcc surəsinin 5-ci ayəsində buyurulur: "Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarar və cürbəcür gözəl bitkilər bitirər." Bu o deməkdir ki, torpağın dəyəri onun içində gizlidir, Allah yağış vasitəsilə onları üzə çıxarır. İnsan da torpaq kimidir, onun da içində çoxlu xəzinələr vardır.

Misrada işlədilən "əhli-nəzər" ifadəsi də dərin mənəvi məna daşıyır. Şair bu ifadə ilə "varlıq zənciri"ni yalnız həqiqəti dərk etmə gücünə malik arif insanların anlaya biləcəyini vurğulayır. "Kol tömeyi-heyvan gəlir" ifadəsi isə nəbatatdan heyvanata keçidi göstərir. Yəni bitkilər heyvanın qidasına çevrilir. Bu, varlığın bir-birinə bağlılığını bildirir. Torpaq bitkini, bitki heyvanı bəsləyir, heyvan insana xidmət edir. Heyvanat mərhələsi isə hərəkət, duyğu və instinkt mərhələsidir. Heyvan da "varlıq zəncirində" bir halqadır və onun mahiyyəti insana yol açmaq üçündür. Qurani-Kərimdə buyurulur: "Mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə onların qarınlarındakı ifrazat və qanın arasından təmiz və dadlı süd içirdirik." (ən-Nəhl, 66). Deməli, onların da yaradılışı insanın təkamül planına daxildir.

Heyvanatdan sonra gələn mərhələ artıq insan mərhələsidir. Nümunədə keçən "insü can" ifadəsində məqsəd odur ki, insan həm cismani, həm ruhani varlıqdır. Sad surəsinin 72-ci ayəsində belə buyurulur: "Mən ona surət verib, ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" Bu ayə mütəfəkkir şairin fikir dünyasının əsas sütunudur.

"Bidəstü pa pərran" (əlsiz-ayaqsız, amma uçan) ifadəsi isə ruhun səyahətini bildirir. Bu, insanın maddi aləmdən mənəvi aləmə ucalmasını göstərir. Quranda bu hal "məaric" (yüksəliş) anlayışı ilə ifadə olunur. "Mələklər və Ruh (Cəbrail) Allaha doğru müddəti əlli min ilə bərabər bir gündə yüksələrlər." (əl-Məaric,4). Şair də insanın bu ucalığa qadir olduğunu bildirir. Qeyd olunan beytlərdə elm, fəlsəfə, ilahi hikmət birləşir.

Fəlsəfi poeziyada insan və Tanrı münasibətini dərinləşdirən mütəfəkkirin fikrincə, təbiət, yer, səma öz xidmətlərini və dəyərini insandan alır. Hələ təbiətşünaslığın inkişaf etmədiyi dövrlərdə İmadəddin Nəsimi insanı düşündürən suallar ortaya qoyurdu:

"Odü su, torpağü yel adı nədəndir adəm?"

Burada insanın yaradılışındakı dörd ünsür (od, su, torpaq, yel) üzərində düşünülür. Bu misralar insanın həm maddi torpaqdan, həm də ilahi ruhdan yaranmasına işarədir. Şair soruşur: "Bu dörd ünsür niyə Adəmin tərkibində birləşdi? Bu zahirən sual, amma əslində təfəkkür dəvətidir – "Ey insan, öz varlığının qaynağını anla!"

"Günəşin qürsü nədən yer üzünə şölə verir,
Ya bu bir məşələdə nur nədir, nar nədir?"

Qeyd olunan beytdə "günəş" Allahın nurunun, həqiqətin və idrakın rəmzidir. O, sual verir ki, niyə bu nur yer üzünə, yəni bəşər aləminə işıq saçır? Günəş ilahi həqiqəti, yer isə insanın maddi dünyasını təmsil edir. İnsanın qəlbinə enən ilahi işıq (maarif, eşq, idrak) onu kamilliyə aparır. Nar (od) – zahiri yanma, əzab və ya ehtirasın rəmzidir. Nur (işıq) – batini nur, ilahi maarif, idrak və həqiqətin simvoludur. Misradan aydın olur ki, eyni məşəldə həm "nur", həm də "nar" mövcuddur. Maraqlıdır, bu iki anlayış bir-birindən hansı cəhətlərə görə fərqlənir? Bu, insanın mənəvi vəziyyətinə bağlıdır. Kimi üçün ilahi həqiqət yanar od kimidir , kimi üçün isə işıq və mərifət qaynağıdır. Bu ikili məna Quranda da əks olunur. Musa peyğəmbər Tur dağında bir "od" gördü, amma oradan ilahi nida (nur) gəldi. (Taha surəsi, 10–12).

Bu ayə sufi baxışında belə yozulur: "Odu görənlər narı, həqiqəti görənlər nuru tapar." Mələklər bu nuru gördülər, səcdə etdilər, iblis torpağı gördü, inkar etdi. Məşəldə (insanda) həm nur (haqq idrakı), həm də nar (nəfs alovu) mövcuddur. Kimin qəlbi təmizdirsə, o, "nar"ı "nur"a çevirə

bilir. Bu beytlər insanı öz mahiyyətini dərk etməyə çağırır: “Ey insan, sənin içində ilahi nur var. Onu tanı, onu gör, o zaman nə iblis qalacaq, nə qaranlıq.” Şairin fikrincə, təbiəti dərk etmək Tanrını dərk etməyin bir yoludur. İmadəddin Nəsimi kainatı bütöv bir canlı orqanizm kimi görür, hər zərrənin bir məqsədlə var olduğuna inanır.

Bahar obrazı böyük sənətkarın poeziyasında xüsusi yer tutur. Bahar həm təbiətin oyanışı, həm də insan ruhunun yenilənməsi kimi təqdim olunur. Bu baxımdan, bahar ilahi eşqin və mənəvi diriliyin rəmzidir.

Bahar oldu, gəl, ey dilbər, tamaşa qıl bu gülzarə,
Buraxdı qönçələr pərdə bəşarət bülbüli-zarə.
Cahan cənnati-ədn olmuş, çəmən səhnində hurilər,
Bəzənmiş hüllədən bustan, açılmış gözü əşcarın.

İmadəddin Nəsiminin bu beytləri onun poetik dünyasının həm estetik, həm də fəlsəfi dərinliyini açan parlaq nümunələrdəndir. Bu misralarda şairin təbiətə baxışı sırf təsviri məqsəd daşımır. O, təbiət mənzərəsini ilahi varlığın təcəssümü kimi təqdim edir. Baharın gəlişi fəsillərin dəyişməsi ilə məhdudlaşmır; o, varlığın yenilənməsi, ruhun oyanışı və eşqin təzələnməsi anlamını daşıyır. Qönçələrin pərdələrini açması, bülbülün nəğmə oxuması yalnız baharın gəlişini deyil, ilahi həqiqətin pərdələrdən çıxaraq özünü göstərməsini də simvolizə edir. “Bəşarət” sözü burada müjdə mənasında işlənərək, ilahi mərhəmətin, həyatın və eşqin bərpasının müjdəsini verir. Ruhun oyanışı bülbülün səsi vasitəsilə kainata ilahi ahəng gətirir.

Ümumiyyətlə, İmadəddin Nəsiminin yaradıcılığında təbiət təsvirləri ilahi mənanın açarı, fəlsəfi düşüncənin təməl anlayışı və insanın kamillik səviyyəsinə ucalma yolunun poetik simvolu kontekstində çıxış edir. Poeziyasında təbiət və insan arasında formalaşan bu metafizik bağlılıq onu ədəbiyyatda nadir və dərin məzmunlu bədii-fəlsəfi təfəkkür nümunəsi kimi fərqləndirir.

**Nadir Babayev**
ADPU Cəlilabad filialının Elmi katibi
nadirbabayev1952@gmail.com

## ƏDƏBİYYAT VƏ EKOLOJİ MƏDƏNİYYƏT: MÜASIR YANAŞMALAR

Yaşadığımız zaman, iştirakçısı olduğumuz hadisələr, tərəfmüqabil olduğumuz cəmiyyət və bütövlükdə insan həyatının güzgüsü hesab edilən ədəbiyyat bizlərdən hər an, bütün məqamlarda ekovətəndaş olmağa-təbiəti, suyu, havanı, ətraf mühiti qorumaqla müasir yanaşmaların imkanlarından istifadə edərək ekoloji mədəniyyətimizi yüksəltməyə, onun tətbiqi imkanlarından maksimum dəyərlənməyə sövq edir.

Azərbaycan ədəbi mühitində imzaları ilə əbədiyaşarlıq qazanan klassiklərimizlə yanaşı, müasir yazarlarımız da öz bənzərsiz nəsr və poeziya nümunələri ilə təbiəti, ətraf mühiti, insanları elə vəsf etmişlər ki, biz bu əsərləri oxuduqca sevir və ilhamlanırıq.
Belə yazarların əsərlərində təbiətin ecazkar mənzərələri öz rəngarəngliyi və təbii boyaları ilə elə göstərilir ki, sanki onlar gözlərimiz önündə canlanır və biz oxucuları ram edərək ekoloji dünyaya sevgimizi daha da artırır.

Təbiətin tərənnümü, ekoloji mühitin qorunması, təbiətə qayğı belə mövzularda yazılmış əsərlərdə öz aktuallığını qoruyub saxlayır.

Ümumiyyətlə, ekoloji mədəniyyət dedikdə, birinci növbədə, insanların təbiətə qayğısı, ətraf mühitlə əlaqələrinin nə dərəcədə dürüst və təmiz olması bu sahədə maarifləndirmə işlərinin aparılmasıdan çox asılıdır.

Birmənalı şəkildə qeyd etmək lazımdır ki, həm ekoloji, ətraf mühitin qorunması, təmizlik, flora və fauna məsələləri, həm də təbiət-insan münasibətləri özünü şifahi xalq və yazılı ədəbiyyat nümunələrində müntəzəm olaraq göstərmişdir.

Ədəbiyyat tariximizə müraciət etsək, əsasən XII əsrdə klassiklərimizin yaradıcılığında ətraf mühitə münasibətin geniş yer almağa başladığını müşahidə edərək..

Ümumiyyətlə, klassiklərimizin yaradıcılığında ətraf mühitə münasibət geniş yer tutmuşdur. O dövr Yaxın Şərqdə və xüsusilə Azərbaycanda elm və mədəniyyətin oyanma dövrü olmuşdur. Azərbaycan klassiklərinin əsərlərində elmin müxtəlif sahələrinə dair qiymətli fikirlərlə yanaşı, həmçinin təbiət-insan münasibətləri, flora-fauna məsələləri, canlı təbiət mövzularına da geniş yer verilmişdir.

Zəngin zəkaları və qüdrətli qələmləri ilə seçilən, dünya ədəbiyyat xəzinəsinə qiymətli əsərlər bəxş edən Xaqani, Nizami, Nəsimi kimi böyük şairlər o dövrün Şərq ədəbiyyatı tarixində kəskin dərəcədə fərqlənmiş və əbədiyaşarlıq simvolu qazanmışlar.

Məlumdur ki, orta əsrlər Azərbaycan ədəbiyyatı tarixində böyük ədəbi simalar yetirmişdir. Şərq ölkələrində fitri istedadı, geniş dünyagörüşü, ensiklopedik bilikləri və ideya zənginlikləri ilə seçilən Xaqani, Nizami və Nəsimi kimi şairlər digərlərindən xeyli dərəcədə fərqlənirdi.

Bu şairlər təksə bədii yaradıcılıqla deyil, eyni zamanda dövrün bir çox elmləri ilə də maraqlanırdılar. Bütün bunlar onlara topladıqları zəngin bilik xəzinəsindən öz əsərlərində yetərincə istifadə etmək imkanları yaradırdı.

Onlar öz zəngin bilik xəzinəsindən istifadə edərək dərin düşüncə və çoxtərəfli məna kəsb edən elmi-fəlsəfi və təbiətdə gedən hadisələri özündə əks etdirən əsərlər yaratmış və qələmə aldıqları əsərlərdə fəlsəfi, lirik boyalarla yanaşı olaraq, təbiətə, ətraf mühitə qayğıkeş münasibət aşılamışlar.

Xaqani, Nizami və Nəsiminin yaradıcılığı birmənalı olaraq dövrün bir sıra problemləri, həyatın müxtəlif sferaları ilə yanaşı, fəlsəfi yöndə çoxsahəli düşüncəyə söykənən maraqlarla zəngin idi. Onların əsərlərində insan fəlsəfəsi, təbiətdə gedən proseslər, üzvi aləmin təkamülü, ciddi və əhatəli şəkildə öz əksini tapan, ətraf mühitə qayğıkeş münasibət, onu qorumaq və sevmək hər şeydən qədərincə istifadə etmək vərdişləri ön plana çəkilir və səciyyəvi hal kimi dəyərləndirilir.

Xaqani Şirvani (XII əsr) ətraf mühitə təsir göstərən abiotik faktorların faydasını yüksək qiymətləndirirdi. Xüsusilə günəş enerjisinin təbiətdə baş verən dəyişikliklərdə rolunu qeyd edirdi.

Səninlə bəzənir dünya camalı,
Sayəndə dəyişir aləmin halı.

Ekoloji amillərdən su və torpağın insanın təsərrüfat fəaliyyətində rolu Xaqaninin yaradıcılığında ciddi problem olaraq qoyulmuş və əhəmiyyəti qabarıq şəkildə qeyd edilmişdir.

Sən qara torpağa su versən əgər,
Bir ildə gül açar qarşında bostan.

Xaqani bu misraları ilə suyun cansız və canlı təbiətə əhəmiyyətini nəzərə çatdırırdı.

Xaqaninin insan ekologiyasına aid fikirləri də maraqlı və bir o qədər də düşündürücü xarakter daşıyır.

Daxilən əfi ilan tavus rəngin zahirən,
Müxtəsər, bil, yolkəsən divə mənəm yolgöstərən.

Ədəbiyyat və ekoloji mədəniyyətin müasir yanaşmaları ədəbiyyatın ekologiyaya inteqrasiyası, ekoloji problemlərin ədəbi əsərlərdə təsviri və müasir ekoloji mədəniyyətin formalaşmasında rolu danılmazdır. Müasir yanaşmalar nəticə etibarı ilə ədəbiyyat vasitəsilə ekoloji problemlərə diqqəti artırmaq, oxucularda ətraf mühitə qarşı həssaslıq hissləri aşılamaq, gələcək nəsillərdə ekoloji mədəniyyəti yaymaq və təbliğ etmək funksiyalarını yerinə yetirir.

Ailələrdə, məktəbdə və ictimai həyatda uşaqlara və gənclərə ekoloji mədəniyyəti aşılamaq, təbiəti qorumaq və mühafizə etmək vərdişlərini təbliğ etmək üçün ekoloji mövzularda yazılmış əsərlərdən istifadəyə daha çox üstünlük verilməlidir. Belə ki, bu mövzularda yazılmış əsərlər oxucularda, gənc nəsildə ekoloji mədəniyyətin formalaşmasında mühüm rol oynayır.

Müasir dövrdə ekologiyanın ən böyük problemlərindən başlıcası əhali arasında ekoloji dünyagörüşünün formalaşması, ekoloji bilik, mədəniyyət və etika vərdişlərinin inkişaf etdirilməsindən ibarətdir.

Müasir dövrün tələblərinə uyğun olaraq eloloji mədəniyyətimizi yüksəltməlı, əlçatan etmək üçün birinci növbədə müasir informasiya texnologiyalarına yiyələnməli, onlardan istifadəyə daha çox önəm verməli və bu işlərdə fəallıq, təşəbbüskarlıq göstərərək əhali arasında təbliğ etməliyik.

Gənc nəslin ekoloji biliklərə yiyələndirmək, məktəblilərdə ekoloji mədəniyyət yüksəltmək və əhali arasında ekoloji düşüncə tərzini inkişaf etdirmək hər bir azərbaycanlını ekovətəndaşa çevirmək biz təhsilverənlərin müqəddəs vəzifələrindən hesab edilməlidir.

Məktəblilər, eləcə də əhalinin geniş təbəqəsi ekoloji mədəniyyətin ən yüksək sahələrini, o cümlədən təbiəti qorumalı, qurudan, havadan, dənizdən, meşədən, təbii resurslardan-bütövlükdə planetimizin sərvətlərindən ehtiyatla, qənaətlə istifadə etməli və qoruyaraq gənc nəsillərə ötürməlidir. Çünki təbiət hamınındır, eləcə də bütün canlıların və gələcək nəsillərin əbədi olaraq yaşayış məkanıdır.

Ümumiyyətlə, ekoloji mədəniyyət anlayışlık barədə gəldiyim qənaət ondan ibarətdir ki, evimiz, vətənimiz olan təbiətə elə yanaşmalı, elə davranmalıyıq ki, sonda hər kəsin vücuduna hakim kəsilən daxili vicdanı ondan razı qalmış olsun. Belə olan halda təbiət, cəmiyyət və idrakın ümumi inkişaf qanunlarını təşkil edən həyat fəlsəfəmiz öz mənəvi və mədəni dəyərlərini bizdən əsirgəməyərək yaşam kredomuza rahatlıq, təmizlik, əminamanlıq, parlaq günəş və açıq səma bəxş etmiş olar.

**Nəzrin Bəşirova**
nezrinbesirova03@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
Elmi rəhbər: Saçlı Ağayeva

## POEZİYAMIZDA QARABAĞ TƏBİƏTİNİN TƏSVİRİ

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Qarabağ Azərbaycanın tarixində və mədəniyyətində mühüm yer tutan, zəngin təbiəti və mənəvi dəyərləri ilə seçilən bir diyardır. Bu bölgə əsrlər boyu şairlərin, aşıqların və sənətkarların

ilham mənbəyi olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: “Qarabağ Azərbaycanın ürəyidir.” Azərbaycan Respublikasının cənub-qərb bölgəsində yerləşən Qarabağ öz füsunkar təbiəti ilə yanaşı, Azərbaycan lirik poeziyasında vətən, azadlıq, gözəllik və sevgi simvolu kimi də əks olunur. Dağlar, meşələr, çaylar, isti bulaqlar, zəngin flora və fauna aləmi və münbit düzənliklərlə yanaşı, Xarıbülbül gülü də poeziyamızda poetik obraz kimi formalaşmışdır. Qarabağın təbiəti demək olar ki, bütün şairlərimizin yaradıcılığında öz əksini tapmışdır. Şairlər bu təbiəti tərənnüm etməklə xalqın duyğularını, yaddaşını və ümidlərini gələcək nəsillərə ötürürlər. Belə sənətkarlarımızdan biri də xalqımızın mübariz şairi  Xəlil Rza Ulutürkdür. O, Qarabağın təbiəti qarşısında valeh olmuş və “Çıxdım Şuşa yaylağına” misrası ilə başlayan şeiri ilə onu tərənnüm etmişdir:

Çıxdım Şuşa yaylağına,
Çeşmələrdə gözüm qaldı.
Endim İsa bulağına,
Cığırlarda izim qaldı.

Şair bu bənddə Qarabağın incisi olan Şuşa təbiətinin  gözəlliyini və oraya olan dərin sevgisini ifadə edir. O, Şuşa yaylaqlarına çıxaraq oranın saf havasını, gözəl mənzərələrini, təmiz bulaqlarını görür və bu gözəlliklərdən vəcdə gəlir. Xüsusilə məşhur İsa bulağının suyu və ətrafı ona böyük təəssürat bağışlayır. Şair deyir ki, mən bu torpaqlarda gəzdim, dolaşdım və öz izimi qoydum, yəni mən bu yerlərə bağlıyam, bu torpaqda keçirdiyim anlar mənim üçün müqəddəsdir. Bu şeir həm də Vətən xiffəti ,doğma torpağa sevgi, qürur və mənəvi bağlılıq hisslərini ifadə edir. Qarabağın incisi, Azərbaycanın ən gözəl guşələrindən biri olan Şuşaya təbiət təkrarsız gözəlliyə malik mənzərələr, bulaqlar bəxş etmişdir. Əbəs yerə belə hesab edilmir ki, Şuşaya bu ad şüşə kimi təmiz, şəffaf və möhtəşəm havasına görə verilmişdir.

2023-cü ildə Şuşa “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Çünki bu şəhər uzun əsrlər boyunca Azərbaycan mədəniyyətinin, musiqisinin, ədəbiyyatının mərkəzi olub. Bu şəhər dünyaya Üzeyir Hacıbəyov, Molla Pənah Vaqif kimi məşhur bəstəkar və şairləri bəxş edib. Azərbaycan poeziyasının XIX əsr görkəmli nümayəndəsi Xurşidbanu Natəvan da Şuşanın mədəni həyatında mühüm rol oynamışdır. 1873-cü ildə şəhərə çəkilən ilk su kəmərinin “Xan qızı” adlandırılması da məhz şairənin adı ilə bağlıdır.

Bundan əlavə, Şuşa Qarabağ xanlığının banisi olan Pənahəli xanın vaxtilə yetişdirməyə başladığı Qarabağ atları ilə də tanınır. Məşhur rus rəssamı Vasili Vereşşaqin hətta xatirələrində belə yazırdı: “Həyatım boyu gördüyüm ən gözəl atlar Şuşadadır”. Yeri gəlmişkən, bu gün bu cins atlar dünyanın ən qiymətli cinslərindən biri hesab olunur.

Daha bir diqqətəlayiq fakt isə ondan ibarətdir ki, Şuşa Xarıbülbülün vətəni hesab olunur. Bu endemik gülün valehedici gözəlliyi və mənəvi dəyəri haqqında çoxlu əfsanə və hekayələr var. Orxideya ailəsindən olan bu unikal gül öz formasına görə bülbülə bənzəyir və onun adı da buradan gəlir: Azərbaycan dilinə tərcümədə “xar” sözü tikan mənasını verir, yəni “tikan üstündə oturub oxuyan bülbül” deməkdir.

Beləliklə, Şuşa zəngin tarixi, mədəni irsi və nadir təbiət abidələrini özündə birləşdirir. Məhz Azərbaycan xalq şairi Səməd Vurğun da Şuşanın gözəlliyini vəsf edərək “Şuşa “ şeirini qələmə almışdır:

Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz ,
Ölməyib görəydim seyrini hər yaz,

Səndə vardır, başqa lətafət, Şuşa!

Şeirdə ümumi şəkildə Şuşaya duyulan böyük sevgi və həsrət ifadə olunur. Müəllif Şuşanın hər yaz təkrar-təkrar seyr edilməyə layiq, füsunkar bir gözəlliyə sahib olduğunu vurğulayır. Bəndin son misrasında isə müəllif Şuşanın başqa heç bir yerə bənzəməyən, özünəməxsus lətafətə, incəliyə və ucalığa malik olduğunu bildirir. Doğrudur, ölkəmizin bütün bölgələri öz təbiəti ilə seçilir, göz oxşayır. Amma düşünürəm ki, Qarabağ və onun təbiəti hər bir Azərbaycan Respublikası vətəndaşının qəlbində xüsusi yerə sahibdir." Qarabağ təbiəti Azərbaycan mənəviyyatının güzgüsüdür-sanki insanın ruhu ilə danışan torpaqdır". Xalq yazıçısı Anarın bu sözləri Qarabağın təbiətinin bizim üçün nə dərəcə əhəmiyyət kəsb etdiyini göstərir. Qarabağın təbiəti haqqında yazılmış əsərlərdən biri də Hikmət Ziyanın məşhur "Qarabağda" şeiridir:

Qarabağ təbiətin sərvətidir, varıdır,
Azərbaycan yurdunun solmayan gülzarıdır.
Hüsnü yaşıl bağları, vüqarı dağlarıdır...
Başqa ətirlə açır qönçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

Şair Qarabağın təbii gözəlliyini, zənginliyini və əvəzolunmazlığını tərif edir. O, Qarabağı Azərbaycanın heç vaxt solmayan, daim gözəl qalan bir gül bağına bənzədir. Burada yaşıl meşələr, uca dağlar, gözəl çiçəklər, təravətli bağlar təsvir olunur.

Şair deyir ki, Qarabağın təbiəti o qədər gözəldir ki, burada olan gözəllik başqa heç bir yerdə yoxdur Qarabağda çiçəklər belə fərqli, daha təmiz və daha gözəldir. İnsan bu torpağa gəldikdə ruhu dincəlir, yorğunluğu azalır, rahatlıq tapır. Qarabağın təbiətinə həsr edilmiş əsərlər saysız-hesabsızdır və hər biri ədəbiyyatımızda özünəməxsus yer tutur. Lakin keçən əsrin sonlarından etibarən Qarabağın erməni vandalları tərəfindən zəbt edilməsindən sonra, ədəbiyyatımızda Qarabağ daha çox kədər, qəm, ayrılıq, həsrət ifadə edən əsərlərin əsas mövzusu oldu. Torpaqlarımıza edilən təcavüzdən sonra, işğalçılar maddi və mənəvi dəyərlərimizi talamaqla yanaşı, bölgənin ekoloji sistemini alt-üst edib, təbiətə hədsiz ziyan vurmuşlar. Otuz ildən çox bu vəziyyət belə davam etdi, ta ki təqvim 27.09.2020-ci ili göstərənə qədər. Bu vaxtdan etibarən Azərbaycanın mərd, igid oğulları XXI əsrin ən böyük qəhrəmanlıq salnaməsini yazmağa başladı. 44 günlük Vətən müharibəsi adı ilə tarixə keçən həmin döyüşlərdə Azərbaycan ordusu, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatına başladı. Aslan ürəkli hərbçilərimizin cəsarəti və şəhadətə ucalan şəhidlərimizin qanı hesabına torpaqlarımız düşməndən azad edildi. Otuz ildən çox çəkən ayrılıqdan sonra Qarabağa qovuşduq və işğaldan dərhal sonra bölgədə bərpa işlərinə start verildi. Artıq gündən-günə öz gözəlliyini yenidən qazanan Azərbaycanın dilbər guşəsi indi ədəbiyyatımızda qələbə, azadlıq, qəhrəmanlıq, birlik, rəmzi kimi formalaşmışdır. Öz cazibədar təbiəti ilə söz sənətinə saysız peyzaj səhnələri verməklə yenidən ən aktual mövzulardan birinə çevrilmişdir. "Qarabağ" bizim keçmişimiz, bu günümüz gələcəyimiz, kədərimiz, sevincimiz, birliyimiz, qüdrətimizdir. Nə qədər birliyimiz və xalqımız var "Qarabağ Azərbaycandır" (İlham Əliyev). Bu həqiqət xalqımız mövcud olduqca dəyişməyəcək:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

**Mədinə Nəsirli**
*Nsirlimdin29@gmail.com*
Elmi rəhbər: Saçlı Ağayeva
ADPU-nun Cəlilabad filialı

## ŞAH İSMAYIL XƏTAİNİN "DƏHNAMƏ" ƏSƏRİNİN "BAHARİYYƏ" HİSSƏSİNDƏ TƏBİƏTİN TƏRƏNNÜMÜ

Təbiət motivləri lap qədim dövrlərdən bu günə qədər şifahi və yazılı ədəbiyyatımızın aparıcı mövzularından biridir. Poeziya, nəsr nümunələrində həmişə müəyyən məqsədlərlə bundan istifadə olunub. Yazarlarımız da həmişə təbiətlə insan arasındakı harmoniyanı belə nümunələrdən istifadə edərək daha mükəmməl əks etdiriblər. Bu yazıda biz klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Şah İsmayıl Xətainin "Dəhnamə" poemasının "Bahariyyə" hissəsində təbiət və cəmiyyət münasibətlərinin necə mükəmməl əlaqələndirildiyini göstərməyə çalışmışıq.

Şah İsmayıl Xətai Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Şah İsmayıl Xətainin "Bahariyyə"si klassik şərq ədəbiyyatında geniş yayılmış mövsüm şeirlərinin – xüsusilə bahariyyə ənənəsinin parlaq nümunələrindən biridir. Əsərdə baharın gəlişi həm təbiətin dirçəlişi, həm də insanın mənəvi oyanışı kimi təqdim olunur. Xətai təbiəti yalnız təsvir etmir, ona poetik və rəmzi məna verir. Şair baharın gəlişi ilə torpağın dirildiyini, çiçəklərin açdığını, quşların nəğmə söylədiyini, dünya üzərinə yenidən işığın, istiliyin və həyatın gəldiyini təsvir edir. Təbiətdəki bu oyanış ilahi gözəlliyin, Tanrının yaratma qüdrətinin təcəssümü kimi göstərilir. Təbiətin gözəlliyi aşiqin duyğuları ilə bağlı verilir. "Bahariyyə" əsəri poetik quruluşuna və bədii təsvir gücünə görə klassik Azərbaycan poeziyasının ən gözəl nümunələrindən sayılır. Əsərdə baharın gəlişi yalnız bir fəsil dəyişikliyi deyil, eyni zamanda kainatın yenidən doğuluşu kimi təqdim olunur. Şair təbiətdə baş verən hər bir dəyişikliyi canlı bir varlığın oyanışı kimi qələmə alır. Təbiətin canlanması ilə insan ruhunun dirçəlişi arasında əlaqə yaradılır. Xətai üçün bahar həm gözəlliyin, həm də mənəvi təmizliyin simvoludur. "Bahariyyə" əsəri baharın gəlişi ilə başlanır. Əsərin ilk sətirlərində şair təbiətdəki oyanışı böyük sevinc və həyəcanla qarşılayır:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.

Bu misralarda böyük sənətkar zamanın ölüm və dirilik fəlsəfəsini simvolizə edir. Qışın getməsini qəm və qüssənin sonu, baharın gəlişi isə sevinc, həyat və ümidin başlanğıcı kimi göstərir. Təbiəti tərənnüm edərək, həyatın dövri təzələnməsi ideyası ilə əlaqələndirir. Xətai üçün bahar həm fiziki, həm də mənəvi yenilənmənin rəmzidir. "Gül bitdi" misrası təkcə təbiətdə gülün açması yox, həm də insan ruhunda ümidin, sevincin cücərməsidir.

Baharın gəlişi təbiətdə yeni bir ab-hava yaratmış, böyük dəyişikliklərə səbəb olmuşdur. Torpaq, ağaclar qış yuxusundan oyanaraq sanki baharın pişvazına çıxmışdır. Quşlar şən mahnılar oxuyur, gül-çiçək sevinir. Şair baharın gəlişi ilə təbiətdə yaranan canlanmanı daha qabarıq nəzərə çatdırmaq üçün orijinal bədii təsvir vasitələrindən istifadə etmişdir. Məsələn, aşağıdakı beytə diqqət yetirək:

Yer geydi qəbayi-xizrpuşan
Cümlə dilə gəldi ləbxamuşan.

Əlbəttə, yer paltar geyinə bilməz. Ancaq şair burada məqsədli şəkildə bədii təsvir vasitələrinin bir növü olan məcaza üz tutmuş və bununla da otların göyərməsini, yazda bütün təbiətin yaşıl rəngə bürünməsini oxucuya daha təsirli şəkildə çatdırmağa müvəffəq olmuşdur. Ikinci misrada da şairin yüksək sənətkarlığı göz önündədir. Müəllifin qənaətinə görə, bahar o qədər təravətli, o qədər cazibədardır ki, bu gözəllik qarşısında, hətta lal-dinməzlər belə duruş gətirə bilmir, həvəsə gələrək danışırlar. Göründüyü kimi, yığcam bir beyt geniş məzmuna, dərin məna yükünə malikdir.

Qönçə dəhəni çəməndə xəndan,
Gülməkdən ənar açıldı dəndan.
Bülbül oxudu süfati-hicran,
Dəryada dür oldu əbri-neysan.

Bülbül və gül motivləri klassik Şərq poeziyasında məhəbbətin və həsrətin simvoludur. Burada bülbül "hicran" nəğməsi oxuyur, gül isə "xəndan" (gülən) təsvir olunur. Bu ziddiyyətli obrazlar — sevinc və kədərin, həyat və ayrılığın harmoniyasını yaradır. Aprel yağışı yağdıqca sanki suyun üzərində mirvarilərə bənzər bir forma alınır.
Əsərdə bu qəbildən olan nümunələr çoxdur. Başqa bir beytə nəzər salaq:

Çinar əlini çü rəqsə açdı,
Gül xırda zərin şabaşa saçdı.

Birinci misrada şair orijinal bənzətməyə üz tutmuşdur. Müəllif baharın gəlişi ilə təzə-tər yaşıl yarpaqlar açan çinar ağacını sevincdən qol götürüb rəqs edən insana oxşadır. İkinci misra bu səhnənin təsirini daha da artırır: Qızılgül də rəqs edən çinarın sevincinə şərik çıxır və ona şabaş verirmiş kimi öz ləçəklərini ətrafa səpir. Bu kiçik səhnədə xalq yaradıcılığının motivləri aydın bir şəkildə görünür. El şənliklərində rəqs edənə tamaşaçılar tərəfindən şabaş verilməsi xalqımızın qədim adət-ənənələrindəndir. Ş.İ.Xətainin «Bahariyyə»də belə bir bənzətmədən bəhrələnməsi onun həm xalqın adət-ənənələrini yaxşı bildiyini, həm də bir şair kimi yüksək sənətkarlığa, geniş manevr imkanlarına malik olduğunu təsdiqləyir.

Müəllif bağların al və yaşıl rəngə bürünməsi, təbiətin rəngarəngliyi və həm də onun təzələnməsi fikrini verir. Dağların ağ ləçək misalı ilə örtülməsini obrazlı olaraq təbii bir gözəllik kimi təqdim edir. Burada dağları başdan ayağa qədər örtən qar ərimiş, təbiət canlanmışdır. Bu bədii üsullarla şair oxucunun gözündə canlanan mənzərə yaradır və təbiətin tərənnümünü sadəcə təsvir yox, hiss etmə səviyyəsinə qaldırır:

Al ilə yaşıl geyindi bağlar,
Ağ ləçəgi sərpa saldı dağlar.

Ümumilikdə, əsərdə baharın obrazlı təsvirini verən " Məst oldu bənövşə..", "Nərgis oturur gözündə xabi..", "Lalə oturur başında taci..", " Durmuş çəmən üzrə sərv ayağə..", "Qövsi-qüzeh açdı tər qumaşin.." tipli ifadələr həddən artıqdır.

Şah İsmayıl Xətainin "Bahariyyə" əsəri Azərbaycan poeziyasında təbiət tərənnümünün zirvələrindən biridir. Əsərdə təbiət yalnız fəsil dəyişməsi kimi deyil, həyatın, ruhun, mənəviyyatın yenilənməsi kimi təqdim olunur, insanın daxili aləmi təbiət təsvirlərinin köməyi ilə təcəssüm etdirilir. Şairin təbiətə olan sevgisi, kainatın gözəlliyinə heyranlığı, insanla təbiət arasındakı harmoniyanı görmək bacarığı "Bahariyyə"yə yüksək bədii dəyər qazandırır.

**Bəxtiyar Məhərrəmov**
meherremovb092@gmail.com
ADPU Cəlilabad filialı

# AZƏRBAYCAN COĞRAFİYASININ TƏDRİSİNDƏ POEZİYA NÜMUNƏLƏRİNDƏKİ TƏBİƏT TƏSVİRLƏRİNDƏN İSTİFADƏ ÜSULLARI

Bu gün təhsil müəssisələrinin qarşısında duran əsas məqsədlərdən biri də savadlı, qabaqcıl dünyagörüşlü, yaradıcı, yüksək mədəniyyət, mənəviyyat və vətənpərvərlik hissinə malik olan gənclər yetişdirməkdir. Bu gün deyə bilərik ki, təhsil nəinki ölkədaxili ziyalı mühitin formalaşmasına xidmət edir, uyğun olaraq beynəlxalq aləmdə də ölkənin rolunu müəyyən edən əsas amillərdən biri kimi öz ağırlığını saxlayır. Azərbaycanda dövlət müstəqilliyi qazanıldıqdan sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ardıcıl və məqsədyönümlü islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının təhsil sistemində islahatların aparıldığı müasir zaman kəsiyində Azərbaycan coğrafiyasına olan münasibət xeyli dəyişmişdir. Beləliklə, Azərbaycan coğrafiyası ümumtəhsil məktəblərinin təkcə VII-VIII siniflərində deyil, ayrı-ayrı mövzuların tərkibində VI sinifdən XI sinfə qədər tədris olunur. Bununla da ölkəmizin coğrafiyası şagirdlərə coğrafiyanın müxtəlif bölmələri ilə paralel şəkildə tədris olunur. Bu yeniliyin əhəmiyyəti ondan ibarətdir ki, ölkəmizin təbiəti, təbii ehtiyatları, əhalisi və iqtisadi inkişaf meyilləri vəhdət şəklində varislik prinsipinə uyğun olaraq tədris olunur.

Günümüzdə hər bir sahədə coğrafiyanın payı və əhəmiyyəti vardır. Hər sahədə əhəmiyyət daşıyan coğrafiyanın şagirdlərə müasir dövrün tələblərinə uyğun olaraq öyrədilməsi lazımdır. Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, şagirdlərdə vətənpərvərlik hisslərini inkişaf etdirmək, onları yaradıcılığa həvəsləndirmək, coğrafiya fənninin öyrənilməsi əhəmiyyətini dərk etdirmək, biliklərin mənimsənilməsinə və onların praktik olaraq tətbiq edilməsinə maraq yaratmaq hər bir coğrafiya müəlliminin əsas məqsədidir. Bu məqsədlə də müəllim dərs prosesində sərbəst olaraq müstəqil şəkildə coğrafi bilikləri Azərbaycan Respublikasının nümunəsində öyrədə bilər. Belə ki, dərs zamanı ölkəmizin coğrafiyasına aid şəkillərin, Azərbaycan Respublikasının müxtəlif növ xəritələrinin müəllim tərəfindən nümayiş etdirilməsi tədrisdə əyaniliyi artırar, şagirdlərin vətəninin, xalqının tarixi, dövlətçilik ənənələri, iqtisadi potensialı, təbii zənginlikləri, milli mənəvi dəyərləri, coğrafiya elminin inkişafında rolu olan alimlər, ümumbəşəri dəyərləri haqqında məlumatlar əldə etməsinə kömək edir. Coğrafiyanın tədrisində fəndaxili əlaqələrlə yanaşı, fənlərarası əlaqələrdən də istifadə olunur. Belə qaynaqlardan biri də şifahi xalq ədəbiyyatıdır.

Dahi Nizamidən əvvəl də, sonra da füsunkar təbiətli Azərbaycanın qüdrətli qələm ustaları təbiətə sevgi yaradan, onun gözəlliklərini vəsf edən qiymətli ədəbi nümunələr yazıblar, Nizami Gəncəvidən əvvəl yaranmış "Dədə Qorqud"dan başlamış günümüzə qədər ədəbi mətnlərin əksəriyyətində doğma diyarımızın təbii gözəllikləri çeşidli çeşməyə çevrilmişdir. Nizaminin "Xəmsə"sində, Şah İsmayıl Xətainin "Dəhnamə"sində, Füzulinin "Leyli və Məcnun"unda, M.F.Axundovun "Şərq poeması"nda və Azərbaycanın başqa klassik əsərlərində qəhrəmanların ağır dəqiqələri, iztirabları, hətta ölümü belə insana inam gətirən rəngarəng təbiət mənzərələri ilə qarşılaşdırılaraq təsvir olunmuşdur. Təbiətə belə doğma münasibət və müraciət, Azərbaycanın təbii gözəlliklərinin ədəbiyyatımızın bütün mərhələlərində vəsf edilməsi klassik bədii əsərlərə təbiətin saf əl rayihəsini gətirmişdir.

Əlbəttə, bir məqalədə Azərbaycan ədəbiyyatında yer alan bütün qələm ustalarının əsərlərini ayrıntıları ilə şərh etmək mümkün olmadığı üçün bir neçə şair və yazıçının əsərlərindən gətirdiyimiz nümunələrlə kifayətlənməyi uyğun bildik və bu gün dünyanı problemlərlə üz-üzə qoyan iqlim dəyişikliklərinin ədəbiyyatımızda yerini izah etməyə çalışdıq.

Yüksək sənətkarlıqla yazılmış belə şeirlər Əhməd Cavadın, Abbas Səhhətin, Almaz İldırımın, Nəbi Xəzrinin və b. əsərlərində tez-tez görünən poeziya nümunələridir.

Şuşanın tər təmiz havası, sanki gülab çilənmiş yolları, möcüzə Cıdır düzü, Zarıslı, Xələfli çayı qələm ustalarına ilham vermiş, böyük vətəndaş şairimiz Xəlil Rza Ulutürkün hələ 1972-ci ildə qələmə aldığı "Şuşa səfəri" adlı lirik poemasında bu torpağın bulaqları, çayları, gədik və yay alaqları, təbiətin möcüzəsi olan dağ keçidləri vəsf edilmişdir.

Şair gözəl Şuşada onlarla bulaq adını tarixləşdirmişdir. "İsa bulağı", "Qoşabulaq", "Aydın bulağı", "Südlü bulaq", "Nağıllar bulağı", "Bəylər bulağı", "İsmayıl bulağı", "Kor bulaq", "Buz bulaq", "Səkili bulaq", "Çömçə bulağı", "Damcı bulağı", "Bədəl bulağı", "Daş bulağı", "Lilpar bulağı", "Novlu bulaq", "Şırşır bulağı", "Öküz uçan bulaq", "Xınalı bulaq", "Sarı bulaq", "Həsən bulağı", "Armud bulağı", "Hacı bulağı" kimi saymaqla bitməyən bulaqların adlarını poetikləşdirmişdir.

Azərbaycan ədəbiyyatında təbiət həm nəsrdə, həm də şeirdə bir çox sənətkarlar üçün ilham mənbəyi olmuşdur. Xüsusilə XX əsrdə iz qoymuş şairlərin əsərlərində ədəbi-bədii fikrin qeyri-adi təbiət təsvirləri ilə metaforasını görürük.

Xalq şairi Məmməd Arazın şeirlərində Azərbaycan təbiəti ilə Azərbaycan cəmiyyətinin bənzərsiz paralelliyi təsvir olunur. Şeirlərlə yaxından tanış olduqca bir həqiqəti dərk edirsən ki, insanlar hələ də təbiəti tam öyrənə bilməyib və hətta özləri də təbiətin bir hissəsi ola bilməyiblər. Qeyd edək ki, əslində heç bir sivilizasiya təbiəti ötməyib və insanla təbiətin inteqrasiyası üçün hələ çox yol var. Amma deyəsən M.Araz çoxluqdan fərqli olaraq, az da olsa təbiətlə birləşmişdi, ya da, ən azından buna can atmışdı.

Bir qayaya söykənmişəm, deyirəm kaş,
Bax beləcə daşa dönəm yavaş-yavaş.
Taleyimi qayaların taleyinə bağlayam mən,
Bircə insan düşüncəmi saxlayam mən.

Hər bir böyük sənətkarda olduğu kimi, M.Arazın da əsərlərində əsas mövzu insandır. Onu həqiqətən maraqlandıran insan, insan taleyi və insanın əbədi dəyəridir. O, təbiəti də onun ayrılmaz hissəsi olan insan problematikası çərçivəsində təqdim edir. Vətənə, onun təbiətinə olan sevgisini təbiətin real və konkret obrazları ilə ifadə edir, vətənə bağlılığını, ondan uzaqda olmağı həyatın qeyri-adi solğunluğu - sonu kimi qəbul edir.

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim –
Xəzanımdır, xəzanımdır, xəzanım.

“Vətən mənə oğul desə, nə dərdim” misrası hələ şairin sağlığında dillər əzbəri olmuş, xalqın dilində bir deyimə çevrilmişdi. Ancaq M.Araz vətən sevgisini sakit siması altında bu cür qaynarlıqla - təbiətin belə coşqun təsviri ilə ifadə edə bilərdi. Bu şeiri oxuduqca bir daha yəqin edirsən ki, Vətən Sevgidir, Sevgi isə Təbiətdir. Məhz bu məqamda Yəhya Kamal Bayatlının aşağıdakı misraları yada düşür:

Baktım ki deniz insanı durgun suyu yardı,

Bir dev gibi mûnis ve yosun saçları vardı.

Bəli, M.Araz Vətənin durğun sularına keşik çəkən qayalarda bitən mamır- yosun olmağı arzuladı, amma Vətən onun durğun – lal, sakit görüntüsünün altında dərin dərya olduğunu gördü. Əhməd Cavad, Mikayıl Müşfiq kimi şairlərin yaradıcılıqlarında rəmziliyin başlıca vasitələri Azərbaycan təbiətinin mənzərələridir:

Aya, hankı cəlladın pəncəsinə keçdiniz?
Neçin böylə qəddiniz sındı, büküldü, dağlar? **(M.Müşfiq)**

Əyil, Kürüm, əyil, keç,
Dövran sənin deyil, keç. **(Ə.Cavad)**

Molla Pənah Vaqifin, Molla Vəli Vidadinin, Qasim bəy Zakirin "Durnalar" rədifli şeirlərində də təbiət tərənnümü öz əksini tapmışdır.

Oxuduqca şirin-şirin diliniz
Bağrım olur şana-şana, durnalar. **(M.V.Vidadi)**

Yaxud:

Vaqifin də könlü çox edər pərvaz
Hərdən sizin ilə gəzə, durnalar. **(M.P.Vaqif)**

Yaxud da:

Yoxsa, danışırsız dilbər sözünü,
Veribsiniz nə baş-başa, durnalar**. (Q.Zakir)**

Nəsiminin qəzəllərində təbiət gözəldir, füsunkardır, sevən və sevilənin qəlbini oxşayır. Aşiq öz sevgilisini "təbibim", "loğmanım", "denim", "imanım" adlandırmaqla yanaşı:

Bənövşəm, sünbülüm, vərdim, rəyahim, zanbağım, laləm,
Əbirim, ənbərim, udum, gülüm, qönçəm, gülüstanım,-

deyə insanı şərəfləndirir. Böyük söz ustasının təsvirində kamil insan təbiətin içindədir, təbiət də onun qəlbinə hopmuşdur.

Dahi söz ustadı Səməd Vurğun yaradıcılığı başdan-başa Azərbaycana, onun təbiətinə tərənnüm və sevgiylə doludur:

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan;
Eşitmişəm uzaqlardan
Sakit axan Arazları;
Sınamışam dostu, yarı...

Ulu Öndərin vəsiyyətini gerçəkləşdirən, Öndər yolunun layiqli davamçısı cənab Ali Baş Komanda İlham Əliyevin sayəsində bu gün şeirlərdəki baharı, çiçəkli, təravətli günləri biz Qarabağda və yurdumuzun bütün guşələrində görürük. Qoy Vətən daim gül açan yaşıl çəmənlər kimi şad və xürrəm olsun. Və ümid edirəm ki, cənab Prezidentin də dediyi kimi biz tezliklə Aşıq Ələsgər şeirindəki süsənli, sünbüllü, lalalı dağları olan Zəngəzur, Göyçə kimi tarixi torpaqlarımızda da Qarabağda olduğu təki yaşıllaşan, çiçəklənən sübhləri görəcəyik.

**Aytən Səmədova**
ADPU-nun Şamaxı filialı
aytensmd22@gmail.com

# TƏBİƏT TƏSVİRLƏRİNDƏ TƏSVİRİ VASİTƏLƏRİN FUNKSİYASI

Təbiət təsvirləri ədəbiyyatda obrazların yaranmasında, hadisələrin inkişafında və ümumi əsərin estetik quruluşunda mühüm rol oynayır. Dil vasitələrinin təsvir vasitəsi olaraq funksionallığı, xüsusən stilistik nöqteyi-nəzərdən, bədii dilin təsirini və müsbət əhval-ruhiyyə yaratmaq qabiliyyətini nümayiş etdirir. Azərbaycan ədəbiyyatında və ümumiyyətlə, dünya ədəbiyyatında təbiət təsvirləri çox zaman bir obrazın daxili aləminin, xarakterinin və psixoloji durumunun təqdimində əsas rol oynayır. Bu yazıda təbiət təsvirlərində dil və ifadə vasitələrinin funksiyasına, xüsusilə təsviri vasitələrin dilçilik və stilistik baxımdan necə istifadə olunduğuna dair araşdırma təqdim edilir.

1. Təbiət təsvirlərinin dilçilik funksiyaları

Təbiət təsvirləri, birincili olaraq, müəyyən bir coğrafi və təbii mühitin təsvirindən ibarət olsa da, onların dil vasitələri ilə təqdim olunması əsərin strukturunun, obrazların xarakterinin və ümumi məzmununun formalaşmasında mühüm rol oynayır. Təsvir edilən təbiət elementləri yalnız bir mənzərə deyil, həm də dərin psixoloji və emosional yüklü obrazlar meydana gətirir. Dil, burada yalnız təsvir vasitəsi olmaqla yanaşı, həm də simvolik, poetik və emosional qatlar yaradır.
Təbiət təsvirlərinin dilçilik funksiyaları aşağıdakı kimi qruplaşdırıla bilər:

1. Sosiolinqvistik və mədəni funksiyalar – təbiət təsvirləri yerli dil və coğrafi məkana xas üslub və obrazları təqdim edərək oxucunun yerli mədəniyyət və təbiətə olan əlaqəsini gücləndirir.
2. Semantik funksiyalar – təbiət hadisələri və obyektləri vasitəsilə konkret mənalar çatdırılmaqla yanaşı, məzmunun dərinləşdirilməsi məqsədinə xidmət edir.
3. Stilistika funksiyası – təsviri dil vasitələrinin seçimi ədəbiyyatda məzmunu müəyyən edən və estetik cəhətdən zənginləşdirən bir stilistik alətə çevrilir.

Dilçi və stilistlər təbiət təsvirlərinin dilin müxtəlif səviyyələrində necə qurulduğunu və oxucuya necə təsir etdiyini dərindən araşdırırlar. Bu təsvirlər, həmçinin ədəbi dilin zənginliyini və təsviri vasitələrin ustalıqla istifadəsini nümayiş etdirir.

2. Təsviri vasitələrin dilçilik və stilistika baxımından rolu

Təsviri vasitələr — epitetlər, metaforalar, təşbehlər, personifikasiya, hiperbola, litota və s. — bədii əsərlərdə təbiətin təqdimində dilin ən mürəkkəb və təsirli ünsürləridir. Bu vasitələrin hər biri əsərin məzmununu, təsirini, oxucu ilə əlaqəni gücləndirir və xüsusən estetik funksiyalarını reallaşdırır.

2.1. Epitet: Təsviri zənginləşdirmək

Epitet, dilin ən çox istifadə olunan təsviri vasitələrindən biridir. Epitetlər, təbiət mənzərələrinə emosional və estetik çalarlar əlavə edərək, oxucunun təsəvvür gücünü və obrazların özünəməxsusluğunu artırır. Epitetlər dilin stilematik xüsusiyyətlərini zənginləşdirir, çünki onlar həm də bir təbiət hadisəsinin xüsusiyyətini konkretləşdirir, həm də həmin hadisənin əlamətlərini vurğulayır.
Misal: “Gözəl dağlar”, “qızmar günəş”, “parlaq göy üzü”.

Bu epitetlər yalnız mənzərəni təsvir etmir, həm də onun emosional dəyərini, vizual zənginliyini artırır. Epitetlər dilin estetik funksiyasını təmin etməklə yanaşı, obrazların psixoloji xarakterini də nümayiş etdirir.

2.2. Metafora: İkinci mənaların formalaşması

Metafora — əşyaların və hadisələrin başqa bir şeyə bənzədilməsi, onları müəyyən mənalarla simvollaşdırmaqdır. Təbiət təsvirində metafora, təbiətin özündən kənara çıxaraq, oxucuya başqa bir anlam dünyası açır. Bu, bədii dilin semiotik funksiyasını yerinə yetirir və əsərin semantik yükünü artırır.

Misal: "Günəş səmada qızıl bir disk kimi parlayır."

Metafora, təbiət hadisələrini simvolik şəkildə təqdim edərək, əsərə həm estetik, həm də fəlsəfi mənalar qazandırır. Bu, oxucuya müxtəlif anlam qatlarını təqdim etməyə imkan verir.

2.3. Təşbeh: Görmə qabiliyyətinin gücləndirilməsi

Təşbeh, bir obyektin başqa bir obyektə bənzədilməsi əsasında qurulan bir dil vasitəsidir. Təbii ki, təşbeh təbiət təsvirlərində də ən çox istifadə olunan vasitələrdən biridir. Bu vasitə sayəsində, təbiət hadisələri daha aydın, anlaşılır və daha canlı təsvir edilir.

Misal: "Buludlar, dənizin üzərindəki pambıq parçaları kimi yayılmışdı."

Təşbehin funksiyası, təbiət elementlərini vizual şəkildə konkretləşdirmək və oxucunun görüntü təfəkkürünü stimullaşdırmaqdır. Bu vasitə həm də təbiətə qarşı daha incə və poetik yanaşma yaratmağa kömək edir.

2.4. Personifikasiya: Təbiəti insanlaşdırmaq

Personifikasiya, təbiət obyektlərini insan xüsusiyyətləri ilə təchiz edir. Bu, xüsusən təbiət təsvirlərinin psixoloji yükünü artırmaq üçün vacibdir, çünki təbiət bir növ "canlanır" və insan duyğularını daha yaxşı əks etdirir. Personifikasiya dilin psixoloji funksiyalarını gücləndirir.

Misal: "Dağlar sakitcə ağrıyırdı."

Burada dağlar insan kimi ağrıyır. Bu, təbiətin psixoloji halları simvollaşdırma üsuludur. Personifikasiya vasitəsi ilə təbiət, psixoloji simvollar şəklində oxucuya təqdim edilir.

2.5. Hiperbola və litota: Təbiətin şişirdilməsi və yumuşaldılması

Hiperbola — obyektin ölçüsünün və ya xüsusiyyətinin şişirdilməsi, litota isə kiçildilməsi məqsədini güdür. Hiperbolanın vasitəsilə təbiət hadisələrinin əhəmiyyəti artırılır, litota ilə isə təbiətin kiçik və sadə tərəfləri daha nisbətində verilir.

Hiperbola misalı: "Günəş səmanı yandırır."

Litota misalı: "Çox sakit bir külək əsir."

Hiperbola təbiət hadisələrinə təsir gücü qatır, litota isə daha təvazökar və gözlənilməz təsvir yaradır. Bu vasitələr, dilin ifadəvi gücünü artırır və oxucunun əhval-ruhiyyəsini nizamlamağa kömək edir.

3. Nəticə: Dilçilik və stilistik baxımdan təbiət təsvirlərinin əhəmiyyəti

Təbiət təsvirlərində dil və təsviri vasitələrin funksiyaları ədəbiyyatda həm estetik, həm də semantik baxımından çox mühümdür. Bu vasitələr bədii dilin gücünü artırır, oxucu ilə əlaqə yaradır və əsərin psixoloji dərinliyini formalaşdırır. Epitetlər, metaforalar, personifikasiyalar və digər təsviri vasitələr bədii dilin zənginliyini nümayiş etdirərək əsərə həm mənəvi, həm də estetik təəssüratlar qazandırır. Hər bir təsviri vasitə, dilin sosial və mədəni bağlarını formalaşdırır və müasir ədəbiyyatda təbiət təsvirlərini daha çox simvolik, emosional və psixoloji məna ilə zənginləşdirir.

**Şəmsi Hüseynov**
semsi.97.huseynov.97@gmail.com
ADPU Cəlilabad filialı

**MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA AZƏRBAYCAN TƏBİƏTİNİN TƏSVİRİ**

Qeyd edək ki, təbiət anlayışı böyük bir aləmi əks etdirir. Təbiət maddi dünya, elmin öyrəndiyi əsas obyekt, insan ətrafında olan reallıqdır. Təbiətin rəngarəngliyi Azərbaycan ədəbiyyatının ahəngli ritmi ilə daim diqqəti cəlb etmişdir. Klassik divan ədəbiyyatı, şifahi xalq yaradıcılığı nümunələri, müasir dövr yaradıcılığı, şair və yazıçılarımızın əsərlərinin müəyyən bir qismində təbiət tərənnümü nümunələrinə rast gəlirik. Bu şairlərimizdən biri də Molla Pənah Vaqifdir. Vaqifin şeirlərində təbiətin müxtəlif mənzərələri - çaylar, dağlar, meşələr, çiçəklər, heyvanlar və quşlar təsvir edilir. Təbiətə olan sevgisi və onunla əlaqəsi onun şeirlərində təbiəti insan-ruhani varlıq kimi təsvir etməsinə səbəb olur. Vaqifin təbiət təsəvvürləri onun ictimai fəaliyyətləri ilə də əlaqəlidir. O, təbiətlə insan arasındakı əlaqəni gücləndirmək üçün şeirlər yazır. Vaqif təbiətə olan sevgisi ilə şeirlərində gözəllik, harmoniya və həyatı ifadə edirdi.

Vaqif sənətinə xas olan real təsvir, təbii və canlı dil **"Hayıf ki yoxdur"** qoşmasında daha çox diqqəti cəlb edir. Şair bu əsərdə Kür qırağının bənzərsiz təbiətinə, onun qız-gəlinlərinin təbii gözəlliyinə olan vurğunluğunu və heyranlığını da, belə əsrarəngiz bir diyarda yoxsul həyat tərzi keçirən insanların acınacaqlı yaşayışından doğan kədər və təəssüfünü də eyni dərəcədə şirin və səmimi bir dillə ifadə etmiş, gözəl sənət nümunəsi yaratmışdır.

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

**«Hayıf ki, yoxdur»** qoşmasında Vaqif əsrarəngiz təbii gözəlliklərə malik olan Kür qırağında abad bir kənd görmədiyinə təəssüflənir, belə gözəl yerdə yaşayan insanların kasıb və fərəhsiz həyat keçirməsi şairi kədərləndirir. Vaqif buradakı el gözəllərinin misilsiz təbii gözəlliyə malik olduğunu, lakin bu el gözəllərinin yoxsul geyindiyini təəssüf hissi ilə qeyd edir.

Elə gözəl var bunların içində,
Ələ düşməz hərgiz Çinü Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə.
Bəzəyi, libası, hayıf ki, yoxdur!

Öz kəndini, onun "gülüstan" təbiətini sonsuz məhəbbətlə sevən Molla Pənah Vaqif müharibələr nəticəsində gözəl təbiətə malik el-obasının viran olmasına acıyır. Çünki gerilik və səfalət hörümçək toru kimi xalqı bürüyüb. Ana yurdunun bu vəziyyətini görən şair sıxıntılar keçirir, həyəcanlanır. O, öz hiss və həyəcanlarını vətənpərvərlik hissləri aşılayan bu misralarda daha aydın ifadə edir:

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın

Bir gözəl obası hayif ki, yoxdur

Vaqif sənətinə xas olan real təsvir, təbii və canlı dil bu qoşmada daha çox diqqəti cəlb edir. Şair bu əsərdə Kür qırağının bənzərsız təbiətinə, onun qız-gəlinlərinin təbii gözəlliyinə olan vurğunluğunu və heyranlığını da, belə əsrarəngiz bir diyarda yoxsul həyat tərzi keçirən insanların acınacaqlı yaşayışından doğan kədər və təəssüfünü də eyni dərəcədə şirin və səmimi bir dillə ifadə etmiş, gözəl sənət nümunəsi yaratmışdır. Məhz bu məziyyətlərinə görədir ki, «Hayıf ki, yoxdur» qoşması bu gün də oxucular tərəfindən sevilə-sevilə oxunur.

Şair öz seirlərində Azərbaycanın, yaşadığı vətən torpağının toponimikasını, həyati-coğrafi strukturunu bədii dillə, elə rəngarəng lövhələrlə cızır ki, ana yurdun əsrarəngiz gözəlliyi oxucunun gözü qarşısında canlanır. Oxucu vətən torpağının gözəlliklərinə məftun olur. Vətənə bağlılığını, məhəbbətini **"Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim"** misrası ilə başlanan şeirində aydın ifadə edir. Ana yurdu Qazağı gülüstana bənzədir:

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən, gəldim.
Qızılgül açılan günlərdə gülzari – Qarabağa
Sənin olsun, əzizim, böylə məlumun ki, mən gəldim.
Mən idim abi-yari bu gülüstanın əzəl gündən,
Yetirdim tazəcə güllər, gənə mən tazədən gəldim.
Xəyalın mühlik azari məni az qaldı öldürsün.
Qayıtdım rəhəküzari-qəbrdən, yırtdım kəfən, gəldim.

Azərbaycan xalqının təbiəti Molla Pənah Vaqifin şeirlərində real şəkildə təsvir edilmişdir. Vaqif təbiətin nümunəvi çalarlarının bütün gözəlliyini müşahidə etmiş və şeirlərində canlandırmışdır. Şair Azərbaycan xalqının təbiətini insani keyfiyyətlər ilə vəhdətdə tərənnüm etmişdir. Ona görə də Vaqifin yaradıcılığında təbiət səhnələri insanların mənəvi keyfiyyətləri ilə birlikdə təqdim olunmuş və ən sadə çalarından tutmuş səciyyəvi xüsusiyyətlərinə qədər bütün reallıqlarını poeziya mövzusuna çevirmişdir.

**Zaur Ağazadə**
LDU, fəlsəfə doktoru proqramı üzrə doktorant,
z.agazade@mail.ru

## M.FÜZULİNİN "FƏZLİYƏ NƏSİHƏT" QƏSİDƏSİNDƏ TƏBİƏT HADİSƏLƏRİNİN İNSAN TƏRBİYƏSİNDƏ ROLU

Dahi Azərbaycan şairi M.Füzulinin zəngin bədii irsində əsrlər, qərinələr bir-birini ötdükcə daha böyük maraqla tədqiqi və təbliğilə yanaşı, insanın mənəvi tərbiyəsi əsas yeri tutur. M.Füzulinin bir çox şeir və poemalarında, o cümlədən oğlu Fəzliyə həsr etdiyi "Fəzliyə nəsihət" qəsidəsində insan tərbiyəsi məsələsi qabarıq şəkildə qoyulmuşdur. Hesab edirəm ki, dahi şairin zamanında qaldırdığı ictimai-tərbiyəvi fikir və düşüncələr bu gün də aktuallığını saxlayır, tədqiq və təbliğ zərurətini əsaslandırır.

Füzuli yaradıcılığı təbiət hadisələrinin şairanə təsviri ilə zəngindir. Dahi şair sözün qüdrəti ilə poetik lövhələr yaradır, sözün qüdrətilə heyrətamiz mənzərələr yaradır. M.Füzuli təbiətdən danışarkən insana, xüsusən gənc nəslə ibrətamiz fikirlər aşılamağa çalışır. Bu cəhətdən Füzulinin oğluna həsr etdiyi "Fəzliyə nəsihət" qəsidəsi maraqlı məzmunu, bədii həlli ilə tərbiyəvi əhəmiyyətə malikdir.

Əsərin qısa məzmunu ondan ibarətdir ki, şair yeniyetmə övladını meyvə ağacı ilə, meyvənin gətirdiyi barla müqayisə edir, ibraətamiz nəticələr çıxarır. Əsər maraqlı süjet xəttinə malikdir. Bağa təşrif buyuran şair qəribə işlərlə tanış olur. Təzə əkilən fidanın, meyvə tinginin böyüdüyünə diqqət yetirir:

Əvvəlcə düşdü bir bağa nagah yolum mənim,
Oldu qəribə işlər o bağda mənə əyan.
Gördüm o cümlədən qoca bağban bəhər üçün,
Ümmidlə, qayğı ilə əkib bir cavan fidan.
Səy eyləmiş o vəqtə qədər ki, budaq verib,
Yarpaq açıb, şükufə yetirmiş ağac haman.

Şair bu istiqamətdə söhbətini poetik ustalıqla davam etdirir, ağacın böyüməsindən ötrü bağbanın əziyyətlərini bir-bir sadalayır. Nə qədər ki meyvə ağacdan qidalanırdı, böyüyürdü, özünü ağacın başında çox rahat, asudə, xoşbəxt hiss edir:

Həddi-kəmalə çatmadan o, meyvə daima
Üstündə idi ol ağacın şad, kamiran.

Alleqorik şəkildə fars dilində qələmə alınan bu əsərdə hadisələrin təbii axarı bizi çox mətləblərdən agah edir. Nə qədər ki meyvə yetişməmişdi, başqa sözlə həddi-buluğa çatmamışdı, ağac ilə meyvə arasında münaqişə gözə çarpmır, elə ki meyvə yetişdi, qanaqlandı, ağacla meyvə arasında ziddiyyət yaranır. Şair həmin hadisəni aşağıdakı şəkildə təqdim edir:

Dəydi, ağacla bir-birinin ziddi oldular,
Rəng ilə ətri verdi bu ziddiyyəti nişan.

Şair bunu ağacın və meyvənin xislətindən çıxış edərək belə izah edir:

Meyvə ağacdan incədir,ətri ziyadədir,
Olmaz ağacda meyvədəki ətr bigüman.
Ayrılmalıydı meyvə ağacdan dəyən kimi,
Verməz təbiət heç kəsə bu hökmlə aman.
Meyvə dərilməz isə ağacdan, bu qaydadır,
Dövran əlilə hər ikisinə yeter ziyan

Şair həyatı təcrübəyə əsaslanıb bildirir ki, ağacdan ayırmasalar, hər ikisi ziyan görər, meyvə ağacda çürüyər ağac da nadanlar əlindən daşa tutular.

Bəs nə olmalıdır, hansı tədbir həyata keçirilməlidir? Bu yerdə şair üzünü oğluna tutaraq deyir ki, deyilən, söylənilən fikirlərə, sözlərə yaxşı bax, ağac mənəmsə, meyvə sənsən. Dünya bağında o ağacı əkən, becərən qocaman həmişə cavan fələkdir. Bu sözlərdən sonra oğluna ana

bətnindən ayrıldığı gündən yetkinlik çağına qədərki yollara diqqət çəkir. Şair övladını böyütmək üçün nə qədər əzab-əziyyət çəkdiyini dilə gətirir, nə qədər çətin olsa da ondan ayrılmağı zəruri sayır:

Ey feyzinin kəmali edən qədrimi füzun,
Ey izzəti mənə sayılan sövkət ilə şanı
Səndən səvay yoxsa da candan mənə əziz,
Dırnağı ətdən üzməyə qalmış bu gün güman
Meyvə ilə ağac bizə də bir nümunədir,
İbrət götür, gözəl deyilibdir bu dastan.

Şair ağacın, meyvənin nümunəsində oğlunu inandırır ki, müstəqil yaşamaq, öz həyatını qurmaq sənin vəzifəndir. Bu məqamda, bu yerdə gəncin qarşısında yeni vəzifələr müəyyənləşir, öhdəliklər yetişir. Fikirlərini canlı təbiətdən gətirdiyi aşağıdakı misralarla yekunlaşdırmağa çalışan şair özünü şahinlə, oğlunu onun balasıyla müqayisə edir, müstəqilliyin zərurətini ortaya qoyur:

Şahin balasının var əgər seydə düdzəti,
Əlbəttə, məsləhətdir edə tərki-aşiyan.

Tərki-aşiyan olmaq, yeni həyat qurmaq, müstəqil yaşamaq, öyrənmək deməkdir.

Gördüyümüz kimi, dahi şair "Fəzliyə nəsihət" qəsidəsində oğluna təbiət hadisələri nümunəsində yol göstərir, həyatını qurmaq üçün məsləhətlər verir. Bunları ibrətamiz faktlarla, sübutlarla həyata keçirir. Odur ki, bu istiqamətdə yazılan əsərlər müasir dövr gəncləri üçün də, onların əxlaq tərbiəsində olduqca gərəkli, faydadır. Əsərin təbiətin tərənnümü fonunda təqdimatı qəsidənin tərbiyəvi effektini artırır, oxucuların maraq dairəsini genişləndirir.

**Ruqiyyə Babaşova**
ADPU-nun Şamaxı filialı
Tədris şöbəsinin müdiri, baş müəllim.
ruqiyye.babashov@gmail.com

## KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏT TƏRƏNNÜMÜ

Azərbaycan klassik ədəbiyyatı çoxəsrlik inkişaf yolu boyunca zəngin mövzu dairəsi, dərin fəlsəfi fikirləri və poetik yenilikləri ilə seçilmişdir. Bu ənənənin mühüm xüsusiyyətlərindən biri təbiətin bədii tərənnümüdür. Klassik şairlər təbiəti yalnız gözəllik obyekti kimi deyil, həm də insanın daxili dünyasını əks etdirən, onun duyğu və düşüncələrini ifadə edən fəlsəfi bir müstəvi kimi qəbul ediblər. Təbiət motivləri şeirin emosional yükünü artırmaqla yanaşı, bədii mətnin simvolik qatlarını zənginləşdirir və dünyagörüşün əsas elementinə çevrilir.

Klassik şairlərin poetik dilində təbiət özünün çoxmənalı bədii mahiyyəti ilə diqqət çəkir. Gül, bülbül, səhər yeli, çəmənlik, bahar kimi obrazlar yalnız təsviri gözəlliyi tamamlamır, həm də daha geniş məna yükü daşıyır. Gül adətən sevgilinin gözəlliyini, bülbül aşiqin fəryadını, bahar yenilənmə və dirçəlişi simvolizə edir. Bu simvollar bütövlükdə Şərq poetik ənənəsinə məxsus olan məcazlar

sisteminin əsas strukturlarından birini yaradır. Beləliklə, təbiət obrazları həm poetik ladı bəzəyir, həm də əsərin fəlsəfi enerjisini genişləndirir.

Nizami Gəncəvinin “Xəmsə”si klassik Azərbaycan poeziyasının ən parlaq nümunələrindəndir. Şair əsərlərində təbiətin harmoniyasını insan taleyi və universal nizamla əlaqələndirir. Onun bahar təsvirləri yalnız dekorativ təsvir deyil, qəhrəmanların psixoloji vəziyyətinin simvolik əksidir. Nizami üçün təbiət kainatdakı ahəngin bədii modeli kimi çıxış edir; bu model vasitəsilə insanın mənəvi kamilliyi və harmoniyası poetik şəkildə təqdim olunur.

Xaqani Şirvani öz qəsidə və qəzəllərində təbiət təsvirlərini çox vaxt ictimai, mənəvi və dini ideyalarını açmaq üçün fon kimi istifadə edir. Onun poeziyasında təbiət həm nizamın, həm də ziddiyyətlərin bədii ifadə vasitəsinə çevrilir.

Nəsimi yaradıcılığında təbiət daha çox təsəvvüfi dünyagörüşü ilə bağlıdır. Şair üçün təbiət ilahi həqiqətlərin, aləmin və insanın birliyinin simvoludur. Bu mənada Nəsimi poeziyasında təbiət təsvirləri metafizik mənaların daşıyıcısına çevrilir və oxucunu dərin fəlsəfi qatlarla üz-üzə qoyur.

Füzuli şeirlərində təbiət ifadə vasitəsi kimi mühüm yer tutur. Onun qəzəllərində gül-bülbül motivi eşqin həm ilahi, həm də insani mahiyyətini açan bədii simvol kimi işlənir. Füzulinin təbiət təsvirləri poeziyanın emosional intensivliyini artırır, aşiqin iztirabını və sevdanın dərinliyini daha təsirli edir. Burada təbiət insan duyğularının dinamikasını gücləndirən poetik fon rolunu oynayır.

Aşıq ədəbiyyatı Azərbaycan klassik ənənəsinin mühüm qollarından biridir. Bu poeziyada təbiət həmişə canlı, rəngli və folklor ruhu ilə yoğrulmuş şəkildə təqdim olunur. Dağlar, çaylar, yaylaqlar, çəmənliklər yalnız təbiət mənzərəsi deyil, həm də sevgi, ayrılıq, həsrət və yol motivlərinin daşıyıcısıdır.

Klassik Azərbaycan ədəbiyyatının əsas poetik cizgilərindən biri xarici aləmin obrazları ilə insanın daxili dünyası arasında qurulan paralellərdir. Təbiət mənzərələri şairin və ya lirik qəhrəmanın hisslərinin, arzularının və düşüncələrinin bədii ifadəsinə çevrilir. Məhz bu münasibət təbiət təsvirlərini bəsit dekorativ vasitə olmaqdan çıxarıb mətnin mənəvi yükünü daşıyan estetik struktura çevirir.

Klassik Azərbaycan ədəbiyyatında təbiət tərənnümü dərin, çoxmənalı və poetik baxımdan zəngin bir ənənədir. Təbiət obrazları həm mədəni-estetik dəyərlərin, həm də fəlsəfi düşüncələrin ifadə vasitəsi kimi çıxış edir. Bu motivlər şairlərin dünyagörüşünü formalaşdırmış, eyni zamanda Azərbaycan poeziyasının özünəməxsus bədii üslubunun təşəkkülünə mühüm təsir göstərmişdir. Beləliklə, təbiət tərənnümü klassik ədəbiyyatın ayrılmaz hissəsi olaraq əsrlər boyu öz aktuallığını və estetik dəyərini qoruyub saxlamışdır.

## II BÖLMƏ: ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ

**Mahmud Allahmanov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyat
kafedrası, filologiya elmləri doktoru, professor
E-mail ünvanı: m.allahmanli@mail.ru

# HÜSEYN ARİF POEZİYASINDA TƏBİƏT SİMVOLİKASININ BƏDİİ-ESTETİK FUNKSİYASI

İyirminci yüzillik Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən olan Hüseyn Arif yaradıcılığının zənginliyində mühüm bir hissəni təbiət mövzusunda yazdığı şeirləri təşkil edir. Xalqın yaddaşında təbii və yüksək sənət intelleksiyası, fitri istedadı ilə diqqət önünə gələn sənətkar ruhu, düşüncəsi ilə milli kimliyin tipik nümunəsi olaraq yaddaşlarda öz izini qoymuşdur. Haqqında danışılan söhbət və əhvalatlar, lətifələr, müxtəlif poetik nümunələrin verdiyi informasiya bütün tərəflərilə bağlandığı idealların önəmini faktlaşdırır.

Ədəbiyyatın yazılı qolu bütünlükdə olanları bir qaynaq olaraq diqqət önünə gətirməklə müxtəlif səviyyələrdə təbiətin əsrarəngizliklərini təqdim və tərənnümə həssaslıq göstərmişdir. Q.Təbrizinin, X.Şirvaninin, N.Gəncəvinin, Ş.İ.Xətainin, M.Füzulinin, Məsihinin, S.Təbrizinin, M.V.Vidadinin, M.P.Vaqifin, Q.Zakirin, S.Vurğunun, M.Şəhriyarın, O.Sarıvəllinin, M.Müşfiqin və s. onlarla sənətkarın yaradıcılığı çeşidli forma və üsullarla təbiəti tərənnümə həssaslıq nümayiş etdirir. H.Arif də öz zəngin poeziyası ilə bu axara töhfələrini verməklə, adını xalqın yaddaşına təbiət şairi kimi yazdırmışdır.

**H.Arif şeirlərində obrazlaşmanın ümumi məzmunu**. Şeirlərində yer alan obrazlaşmanın ümumi məzmunu və canlandırma mexanizmləri sənətkar ruhunun, vurğunluğunun ifadəsi olaraq qeyri-adi, həm də ağlagəlməz (inanılmaz) orijinallıqla bir əlçatmazlıq sərgiləyir. “Təbiət düşünür”, “Torpaq eşqi”, “Ana təbiət”, “Buludlar”, “Meşələr”, “Bir ovuc torpaq”, “Damcılar”, “Bulaq”, “Bənövşələr”, “Kəpəz”, “Gəncə çinarları”, “Yadıma bahar düşür”, “Palıdlar”, “Qoz ağacı”, “Kök və budaq”, “Zirvədə buz üstə ölür dağ kəli”, “Köklər xəbərsizdi”, “Qaranquş”, “Ay dağlar”, “Dərələr çəkir”, “Amandır, durnaya güllə atmayın”, “Görən dağlar mənsiz qəribsəyibmi”, “Kəhər at”, “Durugöl əfsanəsi”, “Təbiət gətirir” və s. poetik örnəklər şairin birbaşa təbiət, onun zəngin flora-faunası haqqında təsəvvürlərini əhatələyir.

Yaradıcı özünəməxsusluğu üslub və canlandırmanın modelləri, düşüncə tipləri səviyyəsində əsaslı bir orijinallığı diqqət önünə gətirir. Bu bütün spesifikası ilə H.Arif poeziyasının və şəxsiyyət təsəvvürünün ümumi məzmunu səviyyəsində aydınlaşır. Mifik yaddaşdan süzülüb gələn qavram və canlı təbiətin çoxçeşidli, həm də funksioner rolu bütün zamanlarda onu dərkə, müxtəlif səviyyələrdə mənalandırmaya əsas olmuşdur. Dağlar, qayalar, quşlar, heyvanlar, ağaclar, otlar və s. timsalında olan təsəvvürlər yaradıcı özünəməxsusluğunda, xalq inam və etiqadlarından gələnlər müstəvisində şeirə gətirilir.

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım.
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım. **(2, s. 159)**.

Canlandırmanın üsul və mexanizmləri, yaradıcı düşüncəsinin zənginliyi bütün hallarda H.Arif poeziyasında təbiiliyə, xalq təsəvvüründən gələnlərə bağlanır. Tipoloji yanaşmalar kontekstində müqayisələrin ümumi mənzərəsi təbiət və insan timsalında bir orijinallığı diqqət önünə gətirir. Çəmən və xalça, lilpar və dolça timsalında olan təsəvvür sırf reallığa, xalq yaddaşında və əski təsəvvürdə olanların ümumi mahiyyətində daşınanlara əsas olur. Xalq şairi N.Xəzri "Sən su içdiyin bulağa hörmət edən sənətkarlardansan. Bulaqdan su içəndə diz çökərlər. Torpağa səcdə üçün. Verdiyi nemətə görə" **(8, s. 7)**. H.Arif haqqında yazılan məqalələrdə mühüm bir hissəni təbiətin simvollaşması istiqamətində aparılan təhlillər təşkil edir. Güllərin, rənglərin, çiçəklərin, dağların və s. timsalında canlandırılması bu baxımdan mühüm əhəmiyyət təşkil edir. Ümumiyyətlə, mifik təsəvvürdən gələnləri əhatələyən inamlar, etiqadlar, kutsallaşmanın çeşidli tərəfləri müxtəlif səviyyələrdə özünü ehtiva etməklə maraqlı təsəvvürlərin yaranışına əsas olmuşdur.

Dolu ara verib, yağış kəssə də,
Dumanlar, çiskinlər verməyir ara.
Dağın sinəsi boz, kəlləsi dümağ,
Vələs qıpqırmızı, palıd qapqara.
Əzəldən həmdəmi təklik, çən, çisək,
Bir də səhər yeli, axşam küləyi.
Acı taleyini düşünüb, ona
Çobanlar ad verib xəzan çiçəyi. **(2, s. 156)**.

Təbiətlə təmas qurmaq, hər daşın, kəsəyin, gülün, çiçəyin dilini bilmək, onunla öz düşüncəsində olanlar baxımından ünsiyyətə girmək H.Arif poeziyası üçün ən xarakterik cəhətlərdəndir. "Sənətkarın yaradıcılığında təbiət düşüncələri sadəcə maraq kimi yox, yanar bir qəlbin ilham xəzinəsinə mənəvi qida verən həyat gözəllikləri kimi canlandırılmışdır." **(5, s. 20)**. Xəzan çiçəyi, bənövşə, nərgiz, Novruz gülü, Qar çiçəyi və s. haqqında xalq arasında saysız-hesabsız söyləmələr, əhvalat və hadisələr dolaşmaqdadır. Simvollaşmanın xarakteri və təhtəlşüur səviyyəsində ortaya qoyduğu təsəvvür inanışlara və onun şəfaverici mahiyyətində olanlara diqqəti yönəldir.

Üç çiçəyə vuruldum,
Kəndimizdə əzəldən-
Qərənfil, lalə, nərgiz.
Qoxladım dönə-dönə,
Üçü də gözəl, təmiz. **(7, s. 15)**.

**Təbiət simvolikası və onun bədii-estetik dərki**. Bədii düşüncə bütün hallarda obrazlılığa, həyatı dərk və təsəvvürün çeşidli üsullarına köklənməklə onun təsiredicilik funksiyasını ön xəttə çıxarır. Məsələn, "Xəbərin varmı" şeirindəki bədii-estetik dərk və qavramın ümumi mənzərəsi ciddi bir üslubun təsiredicilik səviyyəsində müəyyənləşdirdiyi intelleksiya ilə bir orijinallıq sərgiləyir.

Dedim: -çəmən, nə solmusan,
Sorulmusan, somrulmusan,
Bu nə sifət, bu nə yanaq?
Dedi: şair, üzünə bax,
Xəzan dönüb nə müddətdir.
Üzündən xəbərin varmı? **(3, s. 84).**

Xalq ədəbiyyatında, dastanlarda, mərasim folklorunda saysız-hesabsız poetik örnəklər vardır. Onlar qışla baharın, qızla oğlanın, dağla dərənin, kötüklə el sənətkarının qarşılaşması

timsalında teatrallaşmanı, dialoq aspektində diqqətçəkici təsəvvürü sərgiləyir. H.Arif də bu şeirin çəmən şair dialoqunda orijinal bir düşüncə ilə diqqət önünə gəlir. Gülün-çiçəyin, təbiətin yazda oyanışı, payızda saralıb-solması və qışda ağ örtüyə bürünməsi özünəməxsusluq aspektində şair tərəfindən müqayisələrə gətirilir və özü ilə canlı aləmin əsrarəngizliklərini yaranış və sonluq baxımından yüksək sənətkarlıqla ifadəyə yüklənir.

Hüseyn Arif poeziyası öz qaynağını yurd, torpaq, vətən sevgisindən alır və canlı təbiətin bir hissəsi olaraq bütün parametrlərdə ona sonsuz vurğunluğunu nümayiş etdirir. “Zirvədə buz üstə ölür dağ kəli” poetik örnəyi məhz bu bilgi və təsəvvürün nəticəsi olaraq mükəmməllik sərgiləyir.

Elə ki, yorulur qulağı səsdən,
Gözündə daralıb, kiçilir yol, iz.
Elə ki, qocalıb düşür həvəsdən,
Zirvəyə çəkilir səssiz, səmirsiz.
Yavaşca söykəyib buza üzünü,
Yatır, nə inilti, nə ah, nə aman.
Beləcə dağ kəli yumur gözünü,
Beləcə dağ kəli köçür dünyadan. **(2, s. 165)**.

Misranın fikir yükü, sözün məna tutumu, yaradıcı istedadının canlandırma texnologiyası H.Arif obrazının həm də sənətkar taleyini, təsəvvüründə olanların nələrlə əhatələdiyini diqqət önünə gətirir. “Dağlar da düşünür, dağlar da duyur”, “Köklər xəbərsizdi”, “Günahım nədir”, “Dağlara çən düşəndə”, “Meşədə xoruz banı”, “Görən dağlar mənsiz qəribsəyibmi”, “Palıd yanır, tək yanır”, “Dərələr çəkir”, “Turac”, “Hər dağ”, “Buluddan yuxarı”, “Yemişan ağacı”, “Tənəklər” və s. nümunələr ehtiva etdiyi məzmunla şairin təbiətə olan sayğısını diqqət önünə gətirir. “Dağlar şairinin kiçik evinə bir təpə sığışmaz, min dağ yerləşər” deyən şairin bədii düşüncəsi dağlar qədər əzəmətli və çiçəklər qədər təravətlidir.

Təbiətə həssaslıq və onu özünəməxsusluqla təqdim H.Arif poeziyasının ana axarını müəyyənləşdirir. Nədən yazmasından, hansı mövzuya köklənməsindən asılı olmayaraq bütün hallarda təbiət bir tərəf olaraq onun şeirlərində özünü nümayiş etdirir. Tipoloji müqayisələr, canlandırma üsullarının bədii-estetik funksiyası yaradıcı istedadının özünəməxsusluğunu bir tərəf olaraq diqqət önünə gətirir. H.Arifin təbiət şairi kimi obrazını gözlərimiz önündə canlandırır. Bütün bunlar Azərbaycan ədəbiyyatının zənginliyində təbiətin obrazlaşmasının xarakterini və məzmununu ortaya qoymaq və qoya bilmək baxımından əvəzsizlik sərgiləyir.

## ƏDƏBİYYAT


1. Ağayev Ə. Əsrin tərənnümü. Bakı: Gənclik, 1980, 231 s.
2. Arif H. Ömür gözləsə. Bakı: Gənclik, 1978, 350 s.
3. Arif H. Dünya fikir dünyasıdır. Bakı: Yazıçı, 1992, 176 s.
4. Arif H. Seçilmiş əsərləri. Bakı: Xalq bank, 2011, 618 s.
5. Əliyeva S. Müasir Azərbaycan ədəbiyyatının aktual problemləri və folklor (H.Arifin yaradıcılığı üzrə). Bakı:, ADPU, 2006, 146 s.
6. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
7. Hüseynzadə H. Sən mənimlə get. Bakı: Mütərcim, 1996, 186 s.
8. Xəzri N. Səndən söhbət düşəndə Arif H. Ömür gözləsə. Bakı: Gənclik, 1978, s. 5-10.
9. Şıxlı İ. Elə bağlı sənətkar Hüseyn Arif. Seçilmiş əsərləri. Bakı: Xalq bank, 2011, s. 7-12.

**Eyvaz Eminalıyev**
ADPU Şamaxı filialı, Dil, ədəbiyyat və onların tədrisi texnologiyası
kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru
**edebiyyatd.@bk.ru**
**Türkan Hüseynova**
ADPU Şamaxı filialı, Dil, ədəbiyyat və onların tədrisi texnologiyası
kafedrasının müəllimi, BDU-nun doktorantı
**turkan.huseynova.8989@mail.ru**

# MƏMMƏD ARAZ YARADICILIĞINDA VƏTƏN PEYZAJ TƏSVİRLƏRİNDƏ

Milli poeziyamızda vətənin tərənnümü, onun qayğıları ilə bağlı xeyli sayda əsər, bu sahədə önəmli poetik nümunələr yaradan müəlliflər vardır. Bu sahədə mövcud güclü ənənələri inkişaf etdirmək, onu yeni məzmunla zənginləşdirməkdə M.Arazın xüsusi xidməti vardır. "İnsan qayalar", "İstisu lövhələri", "Azərbaycan-dünyam mənim", "Əlvida, dağlar", "Salamat qal" kimi neçə-neçə şeiri nümunə göstərmək olar ki, bunlar vətənpərvərlik ruhunda yazılmış bənzərsiz sənət inciləridir. Bütöv Azərbaycan şairi olan M.Araz vətəni bölgələrə bölənlərə qəzəblənir:

Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Səndən, məndən ötən zərbə
Vətən, vətən, sənə dəydi.[1]

Araz məhdud yerliçilik təəssübkeşliyini pisləyərək vətənpərvərlik ideyasını ona qarşı qoymuşdur. O, ağrılı tarixi keçmişi xatırlayaraq göstərirdi ki, bu zərərli münasibətin nəticəsidir ki, "Azərbaycan torpağında Araz boyda şırım" açıldı, yüz illərdir ki, şimal, cənub həsrəti qəlbimizi göynətməkdədir. Məhz bu bəlanın nəticəsidir ki, Qarabağ torpaqlarında yadlar meydan sulayır. Şair hər kəsi vətən övladı olmağa, vətəndaş olmağa hazırlayır.

Qayaların keçmişini,
Qayalara yazdım deyə,
Onda Vətən sanar məni
Bir balaca Vətən daşı,
Vətən daşı olmayandan
Olmaz ölkə vətəndaşı. [1]

Burada yalnız qüvvətli deyilmiş tək-tək ifadə, misra deyil, bir tam kimi şeirin özünü, müqəddəs ideyasını oxucu dərhal bəyənir, özününküləşdirir, nəticədə şeir Vətən haqqında himn kimi yadda qalır. M.Araz ilk gündən bu ədəbi və şərəfli mövzuda maraqlı əsərlər qələmə almışdır. "Əgər hər hansı bir şeir, yaxud şeirin tək bircə misrası oxucunu təlatümə gətirirsə, onu adi təsəvvürlərinin məngənəsindən çıxarıb qəlbinin tellərini böyük arzular məqamında kökləyə bilirsə, yaxud...insanı öz "mən"inin dərinliklərinə nüfuz edib mahiyyəti və taleyini ona göstərməyə qadirdirsə, belə bir əsərdə poeziyanın nəinki varlığı, hətta müvəffəqiyyəti göz qabağındadır". Bu fikir tanınmış fransız ədəbiyyatşünası Jorj Pompiduya məxsusdur və onun tərtib etdiyi "Fransız poeziyası antologiyası"na yazdığı müqəddimədəndir. Həyat faktlarına xüsusi poetik yanaşma, onlar üçün xüsusi poetik mühit yaratmaq üsulu M.Araz lirikasının xüsusi göstəricisidir. Onun şeir rübabı vətən haqqında nəğmə ötəndə çox cəlbedici olur. O, belə məqamlarda insanı öz "məninin dərinliklərinə nüfuz edib mahiyyətini və taleyini ona göstərməyə qadirdir".

Məmməd Araz vətən mövzulu şeirlərində yalnız tərənnüm, yaxud sadəcə təsvirlə kifayətlənmir, mahiyyətə varır, oxucusunu inandırmağa çalışmır, həqiqəti ona göstərir.

Hər qarış torpağı min bir nemət yetirən bu torpağın özü boyda dərdi var: Araz dərdi, Qarabağ dərdi. Qarabağ faciəsi isə özü ilə məcburi köçkünlük, qaçqınlıq, vətəndə vətənsizlik dərdi doğurub. Bütün bunlara həssas şair qəlbi dözmür, "ürəyim, öz dərdim özümdən ağır" deyir. O, "Dilənçi qaçqın", "Əsrin yalanları, əsrin vədləri", "Düşmən qabağından qaçan kişilər" və bu kimi şeirlərində acı gerçəkliyi - düşdüyümüz bəlaları üərk ağrısıyla qələmə alırdı:

İlahi, varımdan yox oldum bu gün,
Mən öz yumruğumdan yıxıldım bu gün.
Elə bil dağ uçdu başıma birdən,
Bir uşaq dayandı qarşımda birdən.
Əl açdı, "rəhm edin, qaçqınıq" - dedi.[1]

Şair insanın fiziki hərəkəti ilə taleyi arasındakı əlaqəni elə bir bədii detalla təqdim edir ki, az qala bu situasiya ilə hər gün hər birimiz qarşılaşırıq, lakin bu faciəni, bəlkə də, bu səviyyədə dərk etmək, yaşamaq hər kəsə müyəssər olmur. Az qala adiləşən və adaptasiya olduğumuz bu hadisə əslində millətin faciəsidir. "Bu da azadlıqdır, bəlkə, İlahi, dilənçi yetirir ölkə, İlahi!" hayqıran şair yatmış vicdanları oyatmağa çalışır. İntiqam, qisas almaq üçün kinayə qarışıq qəzəblə "bir mərmi yükləyərək hər quşa, bəlkə, göndərək bizimçün vuruşa, bəlkə", deyir. Belə məqamlarda şair dünyaya, bəşəriyyətə xitab edir: "İlahi, kardımı, kordumu dünya! Bu ağ həqiqəti görmürmü dünya?!". Şair "Ya Rəbbim, bu dünya sən quran deyil", "Dünya düzəlmir", "Mən belə dünyanın nəyindən küsüm" kimi şeirlərində xalqının torpaq, yurd faciəsinin artıq bəşəri bir problemə çevrildiyini qeyd edir.

Tanrım, məni tuş eləmə satqına, tuş;
O, milləti şöhrətinə girov qoymuş,
Heç görmədim qantökəni qandan doymuş,
Bu millətin dərdi-səri min şaxəli. [1]

-deyən şair sonucda bədbinləşmir, "Ayağa dur, Azərbaycan", "Ata millət, ana millət, ağlama", "Bizi Vətən çağırır" deyib, "Millət yolu-haqqın yolu" qənaətilə ölümü öldürməyə, haqsızlığı məhv etməyə çağırır:

Haqdır könül, bundan betər çay hanı?
İnsan yanır, torpaq yanır, dağ yanır.
Bacım, indi ağlamağa vaxt hanı?
Qardaş deyib, yurddaş deyib ağlama!
Ağlamağın yeri deyil, ağlama.[1]

M.Araz üçün mövzu məhdudluğu yoxdur. Mövzu əlvanlığı, həm də seçilmiş mövzunu orijinal işləmə tərzi onun yaradıcılığını səciyyələndirən cəhətlərdəndir. Həyatının tipik və səciyyəvi hadisələrini qələmə alan şair, bu həyat faktlarını yaradıcılıq təxəyyülündən keçirir, onu qəlbə və şüura, duyğuya, dünyagörüşünə təsir göstərən bədii-estetik məzmuna çevirir. Onun poeziyasında ənənəvi mövzular çox işlənir, lakin mövzuların bir qismi yalnız onun özünə məxsusdur, yəni onları məhz M.Araz görüb, M.Araz mənalandırıb. Belə məqamlarda mövzu orijinallığı, poetik forma yenilikləri ilə uyğun gəlir.

M.Arazın "Köçəri", "Qorxu günü, insaf günü", "Bu insan adlanan insan", "Yoxdu sözüm, yoxdu daha" kimi şeirlərində də kəsər güclüdür. Məhz M.Arazın bəşəri idealı lirikasında "indi insanın taleyi yalnız bir xalqın, bir məmləkətin yox, bəlkə, təbiətin və planetin taleyi ilə

bərabərləşir". Şeirlərində doğulub boya-başa çatdığı kəndin, Laçının, Şuşanın, Kəlbəcərin, Ağdamın dərdini yaşayan şair sonucda dünyanın, bəşəriyyətin sabahı üçün narahat olur. Bu mənada fəlsəfi lirikanın ən yaxşı ənənələrinə yiyələnərək uğurlu nümunələr yaradan M.Arazın sənət nailiyyəti ondadır ki, o, konkret predmet ətrafındakı fikir və hissləri müəyyən ictimai mətləblə əlaqələndirə bilir. Odur ki, onun lirik düşüncələri mühakiməçilikdən uzaq olub güclü ümumiləşdirmə qüdrətinə malikdir. Sirr deyil ki, müasir oxucu ilə lirik ünsiyyətin yadda qalan anları lirik qəhrəmanın daxili yaşantılarının özünə uyar həyati detallarla qovuşmasındadır. Bu zaman gerçəkliyin poetikləşdirilən tərəfi ilə ictimai-fəlsəfi tutumlu fikir elə qaynayıb-qarışır ki, şeirin yaranmasında hansının başlanğıc olduğunu müəyyənləşdirmək çətindir. Məhz həqiqi poetik istedad bu məqamda üzə çıxır.

Mən təbrizli, naxçıvanlı, mən gəncəliyəm,
Çox görmüşəm çəpər üstə ölənləri də.
Mən torpağı bölünməyə öyrəncəliyəm,
Heç qazanan görməmişəm bölənləri də.[1]

Şeirdən doğan fikir xatırladılan coğrafi sərhədlərlə məhdudlaşıb qalmır. Burada fərdi başlanğıc geniş, ümumi ictimai məzmundan doğur. Başqa sözlə, şeirdəki toponimlər bu gün narahat dünyamızın ayrı-ayrı nöqtələrində antibəşəri siyasətə poetik etiraz kimi səslənir. Şeirin ictimai-sosial tutumunu məhz belə geniş ümumiləşmə tamamlayır. Müasir ictimai həyatdakı belə mürəkkəb proses bədii fikrin inkişafına, onun siyasi, fəlsəfi, estetik tutumuna da təsirsiz qalmır. M.Arazın yaradıcılığında lirika önəmlidir, lakin ictimai-siyasi mövzunun yeni poetik ifadə tərzinə meyl də güclüdür.

Dağ ömrümü qış əritdi, yaz yıxdı,
Dərdim keçən yollar yazıq-yazıqdı,
Desəm, dilim yanar, dilim yazıqdı,
Deməsəm duymazlar üzümdən mənim.[1]

**Ədəbiyyat**

1. Araz Məmməd. Dünya sənin, dünya mənim. Bakı, "Yazıçı", 1983.
2. Axundov Ağamusa. Dilin estetikası. Bakı, "Yazıçı", 1985.
3. Eminalıyev Eyvaz. Məmməd Araz. Bakı, "Səda", 2006.
4. Bualo. Poeziya sənəti. Bakı, "Azərnəşr", 1969.

**Aydın İbişov**
aydin.ibishov59@mail.ru
ADPU Cəlilabad filialı, baş müəllim

## 1900-1940-CI İLLƏR AZƏRBAYCAN UŞAQ ŞAİRLƏRİNİN POEZİYASINDA TƏBİƏT MOTİVLƏRİNİN TƏRƏNNÜMÜ

Məqalədə Azərbaycan şair və yazıçılarının yaradıcılığında təbiət motivləri daha çox diqqəti cəlb edir. Doğma yurdumuzun təbiəti, gözəllikləri, dilbər guşələri şairlərimizin poeziyasında öz əksini tapmışdır. Həmin əsərləri oxuyan hər bir uşağın, hər bir məktəblinin və gəncin gözləri önündə sanki rəssam fırçası ilə çəkilmiş əsrarəngiz təbiət lövhələri canlanır. Bütün bu gözəlliklər

oxucunun qəlbində doğma vətənimizə məftunluq hissi, nikbin əhval-ruhiyyə oyadır, ona bədii zövq verir.

Bizi əhatə edən ətraf, aləm gözəl təbiət mənzərələri ilə zəngindir. Bu ətraf aləm isə təbiət adlanır. Əslində biz özümüz də bu təbiətin bir zərrəsiyik, onun tərkib hissəsiyik. Bizim yaşayışımız da, sağlamlığımız da onunla bağlıdır. Təbiəti sevən insan mənən zəngin olur, Vətənini sonsuz məhəbbətlə sevir.

Təbiətin rəngarəngliyi Azərbaycan ədəbiyyatının ahəngli ritmi ilə daim marağı cəlb etmişdir. Klassik divan ədəbiyyatı, şifahi xalq yaradıcılığı nümunələri, şair və yazıçılarımızın əsərlərinin müəyyən bir qismində təbiət tərənnümü nümunələrinə rast gəlirik. Təbiət mövzusu Azərbaycan ədəbiyyatının, mən deyərdim ki, bütün nümayəndələrinin yaradcılığında öz əksini tapmışdır. Bu mövzuya müraciət ya birbaşa təbiətin tərənnümü, ya da təbiət ünsürləriylə həmahəng olan sevginin təsviri olmuşdur. Təbiət mövzusu uşaqlar üçün yazan şairlərin yaradıcılığından da yan ötməmişdir. Əlbəttə, bir məqalədə Azərbaycan ədəbiyyatında yer alan bütün qələm ustalarının əsərlərini şərh etmək mümkün olmadığı üçün bir neçə şair və yazıçının əsərlərindən gətirdiyimiz nümunələrlə kifayətlənməyi uyğun bildik. A.Səhhət, A.Şaiq, M.Müşfiq, S.Vurğun və b. ədiblərin poeziyasında təbiət motivləri daha çox diqqəti cəlb edir.

Ədəbiyyatımızda doğma yurdun təbiətini, gözəlliklərini tərənnüm edənə, dilbər guşələrinə həsr olunan əsərlər çoxdur. Bu mövzu A.Səhhətin yaradıcılığında aparıcı yer tutur. Şair uşaqlar üçün bu mövzuda “Yaz”, “Yay”, “Payız çağında”, “Qış”, “Yay gecəsi”, “Yay səhəri”, “Bağça”, “İlk bahar” kimi şeirlər yazmışdır.

Həmin əsərləri oxuyan hər bir uşağın gözləri önündə sanki rəssam fırçası ilə çəkilmiş əsrarəngiz təbiət lövhələri canlanır. Bu əsərlərdə konkret həyati lövhələr, səhnələr təbiətin gözəlliyi ilə elə üzvi vəhdətdə təsvir edilmişdir ki, oxucunun qəlbində doğma yurda məftunluq hissi, nikbin əhval-ruhiyyə oyadır, ona bədii zövq verir.

A.Səhhət “Quşlar” şeirində fəsillərin yerdəyişməsi ilə əlaqədar olaraq quşların köçəri həyat keçirdikləri haqqında uşaqlara məlumat verir. “Yaz” şeirində baharın təravəti, insanlara gətirdiyi xoş ovqat, gümrahlıq hiss olunur. Bahar yeni həyat, yeni arzular, həyatda, təbiətdə oyanma, canlanma deməkdir. Əsərdə bahar fəslinin gəlişinin gecə və gündüzün bərabərləşməsi ilə üst-üstə düşməsi qeyd edilir.

O gün ki, fəsli-yaz olur,
Gecə-gündüz taraz olur.
Havanın artar istisi,
Daha soyuqlar az olur. (3, s.191)

Əsərdə təbiətdə baş verən dəyişikliklər diqqətə çatdırılır. Qış fəslində isti ölkələrə köçüb getmiş quşlar yazda geri qayıdırlar:

Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını,
Oxur gözəl havasını. (3, s.191)

Şairin “Yay səhəri” şeiri də məktəblilərin mənəvi-estetik tərbiyəsində mühüm rol oynayır. Əsərdə əsrarəngiz mənzərə-səhərin açılması yüksək sənətkarlıqla təsvir edilmişdir.

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq,
Bir qədər çaydan uzaq, od qalamış dağda çoban,
Oyadıb öz sürüsün otlaya yaylaqda çoban. (3, s.79)

“Əkinçi nəğməsi” şeiri gənc nəslin təbiətə məhəbbət, əməyə, zəhmət adamına hörmət ruhunda tərbiyə olunması baxımından diqqəti cəlb edir.

A.Səhhətin “Güllərin bəhsi” adlı alleqoriyasında müxtəlif güllərin xüsusiyyətlərindən bəhs edilir. Ədəbiyyatımızda bu təsvir üsulu yeni deyil, lakin A.Səhhət bu ənənəvi mövzuda yeni yol seçmiş, güllərin bəhsini təsvir etməklə ilk növbədə uşaqların təbiət, güllər haqqında təsəvvürlərini genişləndirməyə, biliyini artırmağa çalışmışdır. Uşaqlara əsərdə qızılgülün, ağ zanbağın və başqa güllərin gözəlliyini, qoxusunu bir-birindən fərqləndirməyi tövsiyə edir.

A.Şaiqin uşaq dünyasına dərindən bələd olması, uşaq təbiətinin incəliklərini duyması öz əksini onun əsərlərində tapmışdır. Sənətkarın uşaq şeirlərinin böyük bir qismi təbiət mövzusundadır. “Səhər”, “Payız gecəsi”, “Payızın son ayı”, “Payız”, “Bahar”, “Bənövşə”, “Qərənfil”, “Qızılgül”, “Zanbaq”, “Bülbül”, “Kəpənək”, “Arı” şeirlərində şair uşaqlara yurdumuzun təbiətindən, ilin ayrı-ayrı fəsillərindən, heyvanlar, quşlar aləmindən söz açır.

“Bahar” şeirində yazın gəlişi ilə təbiətin canlanması, çöllərə, meşələrə yeni həyat, yeni ab-hava gəlməsi səmimi bir dillə təsvir edilir:

Sevin, ey çöl, ey orman,
Artıq dəyişdi zaman;
Yox oldu qış, boran, qar,
Qonaq gəldi şən bahar. (4, s. 245)

“Payız” şeirində payızın gəlişi ilə təbiətdə baş verən dəyişikliklər, soyuq küləklərin əsməsi, dağda, çöldə əlvan çiçəklərin solması, yağışlı günlərin başlanmasından söz açılır. Payızın gəlişi ilə ağaclar yaşıl libasını soyunur, quşlar isti ölkələrə uçur:

Payız olur, əsir soyuq küləklər,
Solur dağda, çöldə əlvan çiçəklər.
Gecələr uzanır, günlər qısalır,
Göy üzünü qara buludlar alır. (4, s. 245)

“Payız gecəsi” şeirində təbiətin əsrarəngiz bir mənzərəsi təsvir edilir:

Günəş saraldı, söndü,
Yavaş-yavaş büründü.
Dumanlara çayırlar,
Dərə, dağlar, bayırlar.
Qurd-quş daha əkildi,
Yuvasına çəkildi... (4, s. 246)

“Payızın son ayı” şeirində oxucularda payızın axırı haqqında dolğun təəssürat yaradılır:

Ağ bağça, barlı bağım,
Ay üzümlü çardağım!
Nə oldu tez soldunuz?
Belə çılpaq oldunuz?

Qəmgin-qəmgin baxırsız,
Gizlin pıçıldaşırsız.
Halınız olmuş yaman,
Qırıb dağıdır xəzan. (4, s. 246)

“Qışın nəğməsi” şeirində qışın gəlişinin uşaqlarda yaratdığı sevincdən, balacaların sevimli qış əyləncələrindən söz açılır.

Saqqalı ağ, saçı ağ,
Əlində zorpa çomaq.
Gəldi qocalmış baba,
Şaxta baba, qış baba. (4, s. 246)

Şair təbiətin qış fəslinə uşaq nəzərlərilə baxır. Axı, qışda onlar qardan adam düzəldir, qartopu oynayır, soyuq qış gecələrində isti ocaq başında nənələrin söylədiyi nağıllara qulaq asırlar. Şairin “Xoruz”, “Keçi”, “Uşaq və dovşan”, “Dovşan” və s. şeirləri gənc nəsildə təbiətə, heyvanlara, quşlara məhəbbət oyadır, bədii zövqü inkişaf etdirir.

Uşaq ədəbiyyatı ilə ardıcıl məşğul olan sənətkarlardan biri də M.Müşfiqdir. Onun yaradıcılığında doğma Vətənə, onun bənzərsiz təbiətinə vurğunluq motivləri aparıcı yer tutur. “Gözəl Qarabağ” şeirində şair yurdumuzun təbiətindən heyranlıqla söz açır:

Yenə könlüm uzaqlarda,
Quş qonmayan ayaqlarda,
Oyan dərə, bu yan dərə,
Hər yamacda bir mənzərə,
Axıb gedən Tərtərə bax,
Nə gözəldir bu Qarabağ. (1, s. 275)

Göy gölün gözəlliyini tərənnüm edən “Göy göl” şeiri də şairin təbiətin əsrarəngiz gözəlliyinə vurğunluğunun bədii etirafı kimi səslənir:

Mən bu gün Göy gölü durğun gördüm.
Göy gölün şəklinə vurğun gördüm. (1. s. 275)

Şairin “Dağlar” şeirində rəmziliyin başlıca vasitələri Azərbaycan təbiətinin mənzərələridir.

Aya, hankı cəlladın pəncəsinə keçdiniz?
Neçin böylə qəddiniz sındı, büküldü, dağlar?

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, dramaturq, şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın körpüsü sayılan S.Vurğun xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir. Şairin məşhur “Azərbaycan” şeiri, “Yadıma düşdü”, “Ceyran”, “Dağlar” qoşmaları ədəbiyyatımızın kamil nümunələridir.

Şair “Azərbaycan” şeirində xalqın keçmişini, bu gününü və gələcəyini, əbədi yaşamaq hüququnu bütün varlığı ilə əks etdirir və Azərbaycanın bədii xəritəsini göz önündə canlandırırdı:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan! (5. s. 141)

“Azərbaycan” şeiri həm Vurğun yaradıclığının, həm də müasir Azərbaycan poeziyasının şah-əsərinə-manifestə çevrildi.

Şeirdə Azərbaycan təbiəti əbədiləşir, rəngarəng rəsm tablosuna çevrilir, göz önündə canlanır: “sıra dağlar”, “gen dərələr”, “ürək açan mənzərələr”, “sakit axan Arazlar”, “durna gözlü bulaqlar”, “başı qarlı dağlar”, “yaşılbaş sonalar”, “ala gözlü gündüzlər”, “ağ örpəkli buludlar”, “sarı sünbül” ... şairin hər bir misrasında Azərbaycanın öz ruhu var.

Könlüm keçir Qarabağdan
Gah o dağdan, gah bu dağdan
Axşam üstü qoy uzaqdan
Havalansın xanın səsi
Qarabağın şikəstəsi (5 səh.143)

Misralardan göründüyü kimi, şair Azərbaycanın dilbər guşəsi qədim Qarabağın füsünkar gözəlliklərini böyük ustalıqla qələmə almış, eyni zamanda görkəmli şəxsiyyətini - Xan Şuşiskini də

unutmamışdı. “Muğan” poemasında təbiətin gözəl qızı ceyranı rəssam həssaslığı ilə duyaraq təsvir edir, ülvi məhəbbətlə tərənnüm edir, bu gözəlliyin qarşısında heyrətini gizlətmir:

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana ceyran?..
Bir məsəl qalmışdır ata -babadan:
Uçarda turacdır, qaçarda ceyran.
Bir mən deyiləm ki hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran! (1. s. 298)

Şair misralarında “uçarda turacdır, qaçarda ceyran” deyimini xüsusi vurğulayaraq insanları bu təbiət incilərini qorumağa, yaşatmağa çağırır:

Ovçu, insaf eylə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran! (1. s. 299)

“Çinarın şikayəti” şeirində isə şair tarixə şahidlik etmiş, qoca bir çinarın dilindən şikayətlərini səbirlə, aramla qələmə alır, bədii don geyindirir. Qoca çinar dünyada çox hadisənin şahidi olub. Onun kölgəsində yorğun,əldən düşmüş yolçular, biçinçilər dincəlmiş, budaqlarında quşlar yuva salmışdır. Qoca çinarın başına karvanlar dolanmış, cahangirlər onun bağrını doğramışlar. İnsanların yaşayışı üçün bu qədər dəyərli olan bu çinarın vətən torpağı üzərində əzəmətini, vüqarını təsvir edərək şair onu kötüyündən ayıranları tənqid edir, təbiətə “zülm edənləri, mühəndisi” isə pisləyir:

Ancaq mühəndisə bir sualım var:
Ömründə bir şitil, bir budaq belə,
"Mühəndis əkmişmi barı əlilə,
Ki, məni- bu boyda çinarı birdən
Qoparmaq istəyir durduğu yerdən?! (1. s. 301)

Şair təbiətin nadir neməti sayılan çinarın təbiətdəki rolunu vurğulayaraq həm torpağın,suyun, havanın təmizlik və münbitlik mənbəyi kimi göstərir, həm də ulu tariximizin, keçmişimizin şahidi kimi qoruyaraq gələcək nəsillərin görməsini arzulayır və sonda çinarın haqlı şikayətini poetikləşdirir və ona haqq verir:

Mən bu şikayəti duyduqca dərin,
Dedim ki, haqlısan, qocaman çinar!
Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, nə də haqqı var! (1. s. 301)

Göründüyü kimi, şairin təsvirində qoca çinar yurdun, el- obanın rəmzidir,onu ana torpaqdan ayırmağa,zülm etməyə insan övladının haqqı yoxdur.

S.Vurğun yaradıcılığında dağlar mövzusu real təbiətin bir parçası kimi konkretləşdirilir, insanın yaxın dostu, sirdaşı, arxa-dayağı kimi təsvir olunur:

Binələri çadır-çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım,sözüm, dağlar! (1. s. 299)

Dağlar insana həyatdır,arxadır ona öz sərvətlərini səxavətlə bəxş edir. Dözüm, güc- qüvvət, qüdrət, gözəllik hisslərini aşılamaqla, inamla bildirir ki, öz sazının və sözünün gücünü ana torpaqdan, xalqdan alan nəğməkar ölməzdir, həmişə yaşardır:

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada,
Düz ilqarlı bizim dağlar. (1.s. 300)

S.Vurğun qələmində təbiət insan ruhunun tərcümanı kimi verilir.

Beləliklə, qeyd etdiyim şairlərin yaradıcılığında Azərbaycan təbiətinin gözəlliyinə həsr etdikləri əsərlər ideya-bədii xüsusiyyətlərinə görə kifayət qədər zəngindir, rəngarəngdir. Onların əsərlərinin bütöv məzmununu insanla təbiətin harmoniyası təşkil edir və sosial mədəni motivi inkişafda, cəmiyyətdə, xidmətdə, ətraf mühiti qorumaqda, vətənə, torpağa sevgidə görür və gənc nəsilləri də buna biganə qalmamağa səsləyir.

**Ədəbiyyat**


1. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. "Müəllim" nəş. Bakı, 2013, s. 508
2. Səhhət A. Seçilmiş əsərləri. I cild. Bakı, 1975, s. 453
3. Şaiq A. Seçilmiş əsərlər. I cild. Bakı, 2005, s. 494
4. Vurğun S. Seçilmiş əsərləri. I cild. Bakı, 2013, s. 219
5. Vurğun S. Seçilmiş əsərləri. II cild. Bakı, 2005
6. Xanəliyeva N. "Ədəbiyyat və incəsənət" qəzeti, 20.06.2024.



**Mahmudağa Qasımov**
E-mail:mahmudağa @mail.ru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Cəlilabad filialının baş müəllimi


## ABDULLA ŞAİQİN YARADICILIĞINDA TƏBİƏT MOTİVLƏRİ

Azərbaycan ədəbiyyatı öz bədii, tarixi və tərbiyəvi cəhətlərinə görə dünya ədəbiyyatında müstəsna rola malikdir. O, elmi spesifik potensialına, tarixi qəhrəmanlıq səhifələrini açıb göstərməsinə, milli koloritliyi real və təbii əks etdirməsinə, vətənpərvərlik hissini yüksək səviyyədə işıqlandırıb təqdim etməsinə, təbiət təsvirlərini canlı şəkildə vəsf etməsinə görə diqqətəlayiqdir. Bu mənada XX əsr Azərbaycan mədəniyyəti tarixində görkəmli yer tutan **Abdulla Şaiq** şair, nasir, dramaturq, tərcüməçi, mahir uşaq yazıçısı, müəllim və maarif xadimi kimi şöhrətlənmişdir. O, müqtədir bir ədib, müəllim, ictimai xadim olaraq yaxşı dərs kitablarının yaranmasına da çox çalışmışdır. **"Gülzar"** , **"Uşaq gözlüyü"** , **"Qiraət"** və s. adlarla bir sıra dərs kitabları nəşr etdirmişdir. Ədibin yaradıcılığına diqqət yetirsək, onun poeziyasında təbiət təsvirlərini və vətənin real tərənnümünü görə bilərik.

**"Dağlar"** şeirində yazda gül-çiçəkli, çeşməli dağların xoş havasından, otunun, çiçəyinin ətrindən, kəpənəklərin budaqdan-budağa uçuşundan, arıların güllərdən, çiçəklərdən şirə çəkib bal hazırlamasından ilhamla danışır.

Çeşməli yaşıl dağlar,
Yazdır, gül, açıl, dağlar,
Başın otdur, çiçəkdir,
Ətrin ətək-ətəkdir.
Havan xoş, suyun sərin-
Arın, kəpənəklərin
Budaq-budaq uçur şən,
Bal, mum tutur güllərdən. (3. s.16)

**"İki qaranquş"** şeirində Kür kənarı təbiət mənzərəsini rəssam kimi təsvir edib, bu gözəlliyə oxucusunu heyran edir. Onun göz oxşayan səhərlərindən, xoş sərin havasından, yamyaşıl örpəyə bürünən səhra və çəmənindən söz açır.

Kür kənarı, səhər, gözəlcə hava,
Bürünüb yamyaşıl çəmən, səhra.
Oyanır çöl, çayır, bayır, dağlar,
Dərələrdən gümüş sular çağlar. (3. s. 19)

Şair **"Dağlar sultanı"** şeirində ana vətənin gül-çiçəkli yaylaqlarından, cənnətə bənzər hər bucağından, durnagözlü bulaqlarından ilhamla söz açıb, oxucuda doğma yurdumuza, onun füsunkar təbiətinə yüksək məhəbbət yaradır.

Gözəl olur bizim elin yaylağı,
Gül-çiçəkdir bu yerlərin otlağı,
Bir cənnətə bənzəyir hər bucağı,
Durna gözü kimi vardır bulağı. (3, s. 31)

**"Bahar"** şeirində ətirli dan yelinin əsməsini, könül açan baharın gəlməsini, bənövşənin öz telini yana darayan, sevimli yar kimi bağa təşrif buyurmasını çox yüksək tərzdə ilhamla vəsf edib, oxucunu bu gözəl mənzərəyə heyran edir.

Əs, ey ətirli dan yeli,
Könül açan bahar gəlir.
Bənövşə, yan dara teli,
Bağa sevimli yar gəlir. (3, s. 104)

Şair **"Səndən də xoşdur"** şeirində bahar vaxtı ağacların bəzəkli gəlinə bənzəməsini, hər yanın yaşıl dona bürünüb min rəngə boyanmasını, hər gülün həyata yaraşıq, zinət verib könül açmasını, insana mənəvi ruh verən gözəl təbiəti tərənnüm edir.

Bəzəkli gəlindir yenə hər ağac,
Dərələr, çəmənlər geymiş al-əlvan.
Yaşıla bürünmüş çöl, çayır, yamac.
Bir şənlik məclisi qurmuş hər orman.

• • •

Min rəngə bayanmış hər budaq, hər gül,
Həyata vermədə yaraşıq zinət,
Hər yana baxdıqca açılır könül,
İnsana can verir gözəl təbiət. (3. s.110)

**"Yaz"** şeirində yaşıllaşan dağ-dərədən, elimizə qonaq gələn, yuva quran quşlardan, kollarda qaqqıldaşan qırqovuldan, turacdan, kənddə qaynaşan adamlardan, yazda açılan rəngbərəng güllərdən, fərəhlənən könüllərdən söz açılması insanı heyran edir.

Yaşıl geymiş dağ, dərə,
Yenə bizim ellərə
Quşlar da gəldi qonaq,
Yuva oldu hər budaq.
Bəzəndi boz yamaclar,
Qırqovullar, turaclar
Kollarda qaqqıldaşır,
Kənddə adam qaynaşır.
Açdıqca əlvan güllər,
Fərəhlənir könüllər. (3. s.111)

Şair **"Bənövşə"** şeirində yazın gəlişini müjdə verən bənövşənin baharda ətirli gül açmasını, qar-borandan qaçmasını, başqa güllər açanda onun quş olub uçmasını, bu təbii gözəlliyin incə təravətini çox səmimi duyğularla vəsf edir:

Bahar oldu açaram,
Qar, borandan qaçaram,
Başqa güllər açanda,
Mən quş olub uçaram. (4. s. 27)

Şair **"Ana yurdum"** şeirində Vətənin gündən-günə gözəlləşməsindən, gül-çiçəkli çöllərindən ilhamla söz açıb, onu ana kimi ürəkdən sevdiyini yüksək məhəbbətlə göstərir.

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən! (4. s. 40; 5. s. 243)

**"Sən güləndə"** şeirində müəllif bağların ətir, qoxu saçmasından, ağacların çiçək açmasından, bülbüllərin şən avazlı oxusundan yüksək sevinc və məhəbbətlə danışır. O, oxucuda təbiətə sonsuz dərəcədə həssas iradi keyfiyyətlər və qayğı dolu səmimi hisslər yaradır.

Sən güləndə yamaclar,
Bağlar ətir qoxuyur,
Çiçəklənir ağaclar,
Şən bülbüllər oxuyur. (4. s. 47)

Şairin yaradıcılığından seçilən bu nümunələr ədibin poetik düşüncələrinin təbiətlə bağlı olduğunu, onu ürəkdən sevib ilhamla tərənnüm etdiyini göstərən vətənpərvərlik hissi ilə bağlıdır. Bu nadir incilər oxucu kütləsini özünə məftun etməklə sənətkarın vətənə, onun dirçəlişinə ürəkdən bağlılığını göstərir və sadə, canlı danışıq dilində oxucusu ilə ünsiyyət qurur, təbiət motivlərini sanki bir rəssam kimi açıb göstərir. Odur ki, şairin dəyərli, əlçatmaz, ünyetməz əsərləri əbədiyaşar tərbiyəvi naliyyətə, estetik gücə və qüdrətə malikdir.

## ƏDƏBİYYAT


1.Azərbaycan sovet ədəbiyyatı. "Maarif" nəşriyyatı, Bakı, 1988, 544 səh.

2.Mir Cəlal, F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı, "Maarif" nəşriyyatı, Bakı, 1974, 392 səh.

3.Abdulla Şaiq. Seçilmiş əsərləri. Üç cilddə, ll cild, "Avrasiya press", Bakı, 2005, 568 səh.

4.Abdulla Şaiq. Seçilmiş əsərləri. Üç cilddə, lll cild, "Avrasiya press" , Bakı, 2005, 536 səh.

5.Bilal Həsənli. Azərbaycan uşaq ədəbiyyatı, "Müəllim" nəşriyyatı, Bakı, 2013, 511 səh.

**Miryusif Məmmədov**
memedovyusif94@gmail.com
ADPU Cəlilabad filialının baş müəllimi

# FİKRƏT QOCANIN "ŞUŞA" ŞEİRİNDƏ TƏBİƏT LÖVHƏLƏRİ VƏ İNSAN DÜŞÜNCƏLƏRİ

Çağdaş Azərbaycan poeziyasının görkəmli nünayəndələrindən olan Fikrət Qocanın ədəbi yaradıcılığı öz mövzu və məzmununa, fərqli üslubuna görə seçilir. Onun bədii yaradıcılığında tarixiliklə müasirlik, vətənin taleyi ilə xalqın müqəddəratı və təbiətlə insan düşüncələri elə çulğalaşır ki, birini digərsiz təsəvvür etmək çətindir. Fikrət Qocanın şeirlərində tarixi səhifələyən lirik qəhrəman həm də gələcək haqqında düşünən dövrünün övladı, Vətəninin gələcək taleyini xalqının müqəddəratında görən müdrik şəxsiyyət və təbiətlə insanı vəhdətdə görən bir təbiət vurğunudur..

Fikrət Qoca yaradıcılığında Qarabağ, Şuşa mövzusunun seçilib işlənməsi heç də təsadüf deyil. Vətənpərvər şairin Şuşa mövzusuna müraciət etməsi onun vətənpərvərlik duyğularını ön plana çıxarır. Şairin yaradıcılığında Şuşa təkcə bir coğrafi məkan deyil, həm də vətənpərvərlik duyğularının mənbəyidir. "Şuşa" şeiri bütün cəhətləri ilə lirik qəhrəmanın xoş duyğularının,qürur mənbəyinin təcəssümüdür:

a) Burda cəm olubdur əzəmət,vüqar.
b) Nağıl dünyasıdır bura elə bil.
c) Vallah öz sevinir baxırsan hara.
ç) Vətən torpağının heykəlisən sən.

Şeirdə təbiət təsviri ilə insan düşüncələri vəhdət təşkil edir.Misra-misra yaradılan təbiət təsvirləri lirik qəhrəmanın hiss və düşüncələrinin köçürüldüyü canlı lövhələrdir. Burada dağların ucalığı qürur hissinin, "əsrlərin dibindən axan" çay xalqın mənəvi yaddaşı olması haqqında fikrin ifadəsidir. Təbiət insan fikir və duyğularının bədii boyalarla ifadəsi, "burada yaranan əzəmət,vüqar" qürur hissinin mənbəyidir:

a) Şuşa, ucalmısan boz buludlara.
b) Çay da əsrlərin dibindən axır,
Hər dağ daşa dönmüş zamandır, nədir?!

Şuşanın ecazkar təbiətinin yaratdığı hiss və duyğular şairi bu gözəl mənzərəni tərənnüm etməyə sövq edir. Bu hisslərlə yaşayan lirik qəhrəman təbiətin mənəvi dəyərini dərk edir. O, dərk edir ki,insan təbiətin bir hissəsidir.Bu ecazkarlığı bütün mənəviyyatı ilə hiss edən şair yazır:

Sanki duman üstə dayanmışam mən,
Nağıl dünyasıdır bura elə bil.
Günəş Simurq kimi qalxır dərədən,
Qulaq as, daşlar da dil açıbdır,dil.

Təbiətin təsviri fonunda ruh və xatirə kimi təqdimatlar diqqəti çəkir. Şeirdə ruh və xatirə anlayışının canlandırılmasında istifadə edilmiş təbii mənzərələr bir canlı varlıq kimi təqdim olunur. Danışan tarix bu torpaqların əzəli-əbədi sakinlərinin izlərini,keçmişin səadətini və ağrı-acısını özündə saxlayır. Bu səbəbdən canlı təbiət lövhələri həm ruh daşıyıcısı, həm də xatirələrin qoruyucusu kimi çıxış edir. Bu da şeirin mənəvi dəyərini və təbii təsir gücünü artırır:

Dağ düyüb alnın dərdi var kimi,

Deyirsən nədənsə söz salacaqdır.
Qayalar sehirli qapılar kimi,
Deyirsən,üzünə açılacaqdır.

F.Qocanın "Şuşa" şeirində təsvir olunan təbiət lövhələri sadəcə xarici mənzərə yaratmaq üçün deyil, lirik qəhrəmanın daxili aləmini açmaq,onun hiss və düşüncələrini ifadə etmək üçün bir bədii vasitədir. Təbiətin hər bir detalında öz hisslərini, düşüncələrini və xatirələrini görən lirik qəhrəman təbii ki, duyğulanır, qürur hissi keçirir:

a) Burda cəm olubdur əzəmət,vüqar,
Duman çəkiləndə hər səhər-səhər.
b) Vallah, göz sevinir baxırsan hara,
Öz yaşıl səsiylə çağırır çəmən.

Təbiətin təsvirindəki dəyişikliklər – gah narahatlıq, gah da məmnunluqdan doğan hallar – lirik qəhrəmanın daxili sükunətini və narahatlığını göstərir. Bu da şeirin emosional məzmununda dərinliyə səbəb olur:

a) Dağ düyüb alnın dərdi var kimi,
Deyirsən nədənsə söz salacaqdır.
b) Vallah, göz sevinir baxırsan hara,
Öz yaşıl səsiylə çağırır çəmən.

Şeirdə Şuşa obrazı insan düşüncəsinin mərkəzində durur. Şuşa coğrafi məkan olmaqla yanaşı, mənəvi dəyərlərin təcəssümüdür. Əlçatmazlığın simvolu olan Şuşa xalqımızın mənəvi yaddaşı və milli kimliyinin dağ, çay, qaya, çiçək formasında təzahürüdür. Odur ki, şeirdə bütün hisslər Şuşa obrazı ətrafında cəmləşir; şairin fikirləri, yaddaşında canlanan mənzərələr, təbiətin təsviri, səs və nəfəs, bir şözlə - bunların hamısı Şuşa ilə bağlı olur. Demək, şair bütün düşüncəsini Şuşa ilə başlayır, Şuşa ilə tamamlayır.

Şeirin dili sadə, lakin mənaca dərindir. Fikrət Qoca xalq dilinə, xalq deyimlərinə əsaslanmaqla poetik ifadə gücü yaratmağa müəssər olmuşdur. Poetik dil şairin təbiət obrazı yaratmaq üçün bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə estetik dəyərinin dərk olunduğu ədəbi-bədii materialdır. Təşbeh, metafora kimi məcazlar vasitəsi ilə şeirin dili insani hisslərin və mənəvi dərinliyin dilinə çevrilir. Şeirdə təbiət obrazı poetik dilin vasitəsilə canlandırılır; bu iki anlayış bir-birini tamamlayır, bədii gözəllik və mənəvi təsir gücü yaradır.

**Tahir Kərimli**
Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
*Tahir.kerimli52@mail.ru*
**Aygün Əlizadə**
Doktorant, baş müəllim
*happy.neuro.aa@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filiali
Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası kafedrası

## "MUSA YAQUB POEZİYASINDA TƏBİƏT VƏ İNSAN HARMONİYASI"

Xalq şeirindən başlayaraq müasir dövrədək təbiət obrazları həm bədii, həm də mənəvi, milli dəyərlərin ifadəsi kimi çıxış edib. Təbiət şairin ruhunun əks olunduğu güzgü, insan və vətən arasında mənəvi bağların simvolu rolunu oynayır.

Musa Yaqub şeirlərində təbiət və insan münasibətlərinin harmoniyasını ustalıqla göstərmişdir. Şairin lirikasında dağlar, çaylar, meşələr yalnız mənzərə yaratmır, onlar insanın ruh halını əks etdirir, daxili dünyası ilə təbiətin ritmini birləşdirir.

Təbiət Musa Yaqub üçün "həyatın dili", yəni insanın daxili ritmini, zamanın axını və varlığın mənasını ifadə edən bir vasitədir. Şairin lirikasında dağların möhkəmliyi, çayların axıcılığı, meşələrin səssizliyi insanın ruhi və mənəvi durumunu əks etdirir. Bu baxımdan təbiət onun poeziyasında həm simvolik, həm də ekzistensial bir funksiyaya malikdir. Əsərlərinin şərhi həm fəlsəfi, ekoloji, həm də milli konktekstdə dəyərləndirilə bilər.

Fəlsəfi aspektdən yanaşdıqda, Musa Yaqub təbiəti insanın mənəvi sükunətinin, daxili harmoniyasının və əxlaqi təmizliyinin ölçüsü kimi təqdim edir. Onun şeirlərində təbiət obrazları insanın özünü kəşf etməsi, ruhun saflaşması və həyatın mənasını anlamaq üçün bir yol rolunu oynayır. Məsələn, yağışın sakitcə yağması, dağların sükutla durması, meşələrin genişliyi insanın daxili dünyasında əks-səda doğurur, onu düşünməyə, yenilənməyə və mənəvi harmoniya tapmağa sövq edir.

Milli kontekstdə isə onun təbiətə yanaşması Azərbaycanın coğrafiyası, kənd həyatı və folklor ənənələri ilə sıx bağlıdır. Təbiət onun şeirlərində həm vətən sevgisi, həm də xalqın mənəvi dəyərlərinin daşıyıcısıdır. Bu baxımdan təbiət obrazları sadəcə bədii simvollar deyil, milli kimlik və mədəni yaddaşın poetik ifadəsi kimi çıxış edir.

Ekoloji baxımdan isə Musa Yaqub təbiəti qorunması vacib olan bir varlıq kimi görür. O, insanın təbiətlə harmoniyada yaşaması fikrini poeziyasında mənəvi zərurət olaraq təqdim edir. Təbiətdən uzaqlaşma insanın daxili dünyasında boşluq və disharmoniya yaradır. Bu səbəbdən şairin təbiət motivləri həm estetik, həm də etik və ekoloji mesaj daşıyır.

Beləliklə, Musa Yaqubun poeziyasında təbiət mövzusu bədii-fəlsəfi əsaslarla zənginləşir. O, həm insanın daxili aləminin güzgüsü, həm milli kimliyin daşıyıcısı, həm də həyat və mənəviyyatın simvoludur. Bu xüsusiyyətlər şairin lirikasını çağdaş Azərbaycan ədəbiyyatında unikal və dərin mənalı bir sahəyə çevirir.

Musa Yaqubun poeziyasında insan duyğuları və təbiət hadisələri arasında dərin paralellik müşahidə olunur. Şair təbiət obrazlarını yalnız vizual element kimi təqdim etmir, onlar insanın daxili dünyasının simvolik ifadəsi kimi çıxış edir. Belə ki, yağış insanın ruhunu təmizləyir, dağ

sabitliyi və dözümü ifadə edir, külək isə narahatlıq, zamanın keçiciliyi və həyatın dəyişkənliyini simvollaşdırır.

Təbiət obrazları vasitəsilə Musa Yaqub insanın daxili harmoniyasını və disharmoniyasını poetik olaraq göstərir. O, şeirlərində təbiəti insanın sirdaşı və dostu kimi təqdim edir; təbiət insanın kədərini paylaşır, onun ruhunu sakitləşdirir və daxili sükunətə gətirir.

Musa Yaqubun şeirlərindən aşağıda verilən nümunələr təbiət və insan harmoniyasının obrazlı təqdimatıdır. Şair **"Yağış yağır"** şeirində deyir:

Yağış yağır, yuyur torpağın dərdini,
Mən də yuyuram içimin kədərini.

Burada yağış həm torpağın, həm də insanın daxili dünyasının təmizlənməsi kimi göstərilir. Şair təbiət hadisəsini insanın emosional prosesləri ilə paralel apararaq ruhun yenilənməsi və sakitləşməsi mesajını verir.

**"Dağlar"** şeirində qeyd edilir ki, **"Dağlar dimdik dayanır, susur, amma mənimlə danışır."**

Dağlar insanın mənəvi dayanıqlılığının və daxili gücünün simvolu kimi işlənir. Şairin lirikasında dağ insanın sirdaşıdır; sakitliyi və möhkəmliyi ilə oxucuya daxili harmoniya hissi verir.

**"Meşələr meyit kimi uzanır"** şerində oxuyuruq: **"Sükut meşələrdə uzanır, hər budaq, hər yarpaq dərdimə şahid."** Meşələr burada yalnız təbiət fonu deyil, insanın dərdlərinə müqəddəs bir səssizlik və sirdaşlıq təklif edən bir obrazdır. Şair bu yolla təbiəti insanın daxili dünyasına mənəvi dəstək verən bir simvola çevirir.

Şair **"Külək" şeirində deyir: "Külək əsir, mənim qəlbimlə yarışır."** Göründüyü kimi **k**ülək insanın narahatlıq, iç gərginliyi və həyatın dəyişkənliyini simvollaşdırır. Təbiət insanın emosional vəziyyətinə paralel hərəkət edir və poetik ritm yaradır.

Beləliklə, Musa Yaqubun poeziyasında təbiət və insan münasibəti yalnız metaforik əlaqə deyil**,** həm də dərin psixoloji və fəlsəfi mesaj daşıyır. Təbiət insanın duyğularının əks olunduğu güzgü kimi çıxış edir, onun sirdaşı olur və oxucuya daxili harmoniyanın bədii təcəssümünü təqdim edir.

Musa Yaqubun şeirlərində təbiət obrazları yalnız vizual təsvir deyil, insanın daxili aləmi və mənəvi vəziyyəti ilə bağlı simvolik anlamlar daşıyan poetik işarələrdir**.** Bu simvollar vasitəsilə şair təbiət və insan arasındakı mənəvi bağları açır**,** oxucuya ruhani və fəlsəfi mesajlar çatdırır.

Beləliklə, şairin yaradıcılığı təbiət və insan münasibətinə dair fəlsəfi, mənəvi və ekoloji mesajların poetik ifadəsi kimi çağdaş Azərbaycan ədəbiyyatında xüsusi yer tutur.

## Ədəbiyyat:


1. Azərbaycan poeziyasında təbiət və insan münasibətləri. "Ədəbiyyat və incəsənət" 2021. №4
2. Əhmədli, N. Çağdaş Azərbaycan poeziyasında təbiət motivləri. Bakı: Elm və təhsil, 2010
3. Ekokritika və çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, 2022.

**Rüqəyya Muradlı**
muradliruqeyya319@gmail.com
ADPU Cəlilabad filialının müəllimi

## ZƏLİMXAN YAQUB POEZİYASINDA TƏBİƏT TƏSVİRİ

Zəlimxan Yaqub Azərbaycan ədəbiyyatının tanınmış şairlərindən biridir. Onun poeziyasında təbiət təsviri mühüm yer tutur. Zəlimxan Yaqubun lirikasında təbiət yalnız bir mənzərə və fon kimi deyil, həm də insanın mənəvi dünyasını, yaşantılarını və milli kimliyini ifadə edən əsas vasitə kimi çıxış edir. Zəlimxan Yaqub üçün təbiət həm yaddaşdır, həm doğmalıq, həm də ilahi gözəllikdir. Onun şeirlərində Azərbaycan təbiətinin əsas xüsusiyyətlərinə toxunduğunun şahidi oluruq.

Şairin şeirlərində təbiət daim insanla vəhdətdə götürülür. Təbiət şairin qəlbinin səsi, duyğularının daşıyıcısı kimi göstərilir. O, dağlara, çaylara, torpağa təkcə təbiət obyektləri kimi deyil, milli varlıq kimi yanaşır.

"Ölləm" şeirində şair təbii duyğularını bu misralarda ifadə edir:

Qəlbimi dağlara verməsəm ölləm,
Payızda moruğu dərməsəm ölləm.

Burada dağ, moruq təkcə gözəllik yox, həm də insan kimliyinin bir hissəsidir. Onlardan ayrılmağı şair yaşamağın mənasızlaşması kimi dəyərləndirir.

Zəlimxan Yaqubun şeirlərində təbiət eyni zamanda ilahi gözəllik və möcüzə olaraq təqdim olunur. Onun "Təbiət Allahın şah əsəridir" adlı şeirində bu aydın şəkildə görünür. Burada təbiət Yaradanın bənzərsiz sənət əsəri kimi tərənnüm olunur:

Bilinmir tarixi, bilinmir yaşı,
Buluddan nəm çəkir dağların başı,
Günəş qızılıdı, şəfəq zəridi.
Günəş də dilləndi, şəfəq də dedi:
-"Təbiət Allahın şah əsəridir".

Zəlimxan Yaqub bu misralarda bulud, günəş və şəfəq kimi obrazlardan istifadə edərək təbiətin qüdrətini göstərməyə çalışmışdır. Təbiət onun üçün ilahi bir qüvvədir, insan da həmin qüvvədən ilham alaraq ucalır, saflaşır.

Zəlimxan Yaqub poeziyasında təbiət yalnız passiv mənzərə deyil, eyni zamanda, insanla dialoqda olan bir varlıq kimi mənalandırılır. Şair tez- tez təbiət hadisələrinə insani xüsusiyyətlər verir:

Şimşəklər döyüşür heykəllər kimi,
Qayalar dayanıb heykəllər kimi,
Coşdu tufan kimi, zəlzələ kimi.

Bu misralarda qayalar təkcə təbiət elementi deyil, səbir, möhkəmlik simvolu kimi diqqəti çəkir. Beləliklə, təbiətlə insan arasında mənəvi yaxınlıq qurulur.

Zəlimxan Yaqub üçün təbiət eyni zamanda duyğuların səsləndiyi məkandır. O, sevincini baharla, kədərini payızla, sükutunu qışla ifadə edir. Təbiət onun ruh halının aynasıdır.

Dağa çıxsam inadım ol,
Quşa dönsəm qanadım ol,
Sən ünvanım, sən adım ol,
Eşqim mənim, ruhum mənim.

Gözdə işıq, canda heysən,
Sehirli yer, sirli göysən,
Dodaqlarda yanan neysən,
Eşqim mənim, ruhum mənim.

Həmçinin Zəlimxan Yaqub bulağı eşq, çayı həsrət, gözü məzə ilə müqayisə edir.

Təbiətin min nəğməli səsiyəm,
Bulaq eşqim, çay həsrətim, göl məzəm.
Demək hələ yer üzündə tufan var
Nə zaman ki danışmazam, dinməzəm.

Şair şeirlərində dağı ucalıq, əzəmət rəmzi kimi təsvir edir. Dağlara olan sevgisi bir çox şeirlərində öz əksini tapmışdır.

"Qalardım" şeirində sanki dağların onu çağırmasını istəyir və dağa ürəkdən bağlılığını şeirin bütün bəndlərində ifadə edir.

Dağlar mənə gəl- gəl desə ürəkdən,
Gəlib, elə bu yerlərdə qalardım.
Təbiətlə sevincimi, dərdimi
Bölüb, elə bu yerlərdə qalardım.

Nə gözəldir bu dağların talası,
Mən getsəm də, könlüm burda qalası,
Sevsə məni bu zalımın balası,
Ölüb, elə bu yerlərdə qalardım.

Zəlimxan Yaqub "Dözmürəm bu dağın yıxılmağına" şeirində dağın yıxılmasından doğan dərin kədərini bildirir.

Bu dağ özülündən aşmamalıydı,
Bu dağ öz fikrində çaşmamalıydı.
Başını başlara qoşmamalıydı,
Dözmürəm bu dağın yıxılmağına.

ZəlimxanYaqub el-obadan ayrı düşməsindən yaranan kədərini aşağıdakı misralarda belə ifadə edir:

Səndən ayrılanda bir ah çəkmişəm,
Kərəmtək yandırıb ah məni, dağlar!
Daramır saçımı sənsiz küləklər,
Sənsiz heç oxşamır meh məni, dağlar!

Zəlimxan Yaqub baharın gəlişini böyük sevinclə qarşılayır və bu qarşılama onun şeirlərində öz poetik ifadəsini tapır.

"Baharın gəlişi" şeirində arı, bülbül, dağ, gül kimi obyektlərin təbiəti qarşılamasını səmimi hisslərlə göstərir.

Yenə təbiətin gəlhagəlidir,
Torpağın tükənməz sərvətinə bax!
Arının çiçəklə öpüşməsinə,
Bülbülün budaqda söhbətinə bax.

Açılıb dağların çatılan qaşı,
Sevincdən süzülür gözümün yaşı,
Toxum dimdiyində qaldırır daşı,
Darının dağ boyda qüvvətinə bax

Zəlimxan Yaqub bu şeirində qocalığı solmuş bir çiçəyə bənzədir və mənalı bir poetik yaradır. "Düşüb" şeirinə diqqət etsək, orada qocalığı təbiətlə- çiçəklə əlaqələndirərək təşbeh işlədir.

Ölüm yatağında bir qarı gördüm,
Solmuş bir çiçəkdi, budaqdan düşüb.
Boylanmaq istəyir, göz aça bilmir,
Ağrılar canına sazaqdan düşüb.

Göründüyü kimi, Azərbaycanın təbii gözəlliklərinin Zəlimxan Yaqubun yaradıcılığında öz poetik ifadəsini tapması şairin vətən sevgisini təsdiqləyən amil kimi diqqət çəkir.

**Saçlı Ağayeva**
ADPU-nun Cəlilabad filialı müəllimi
ibisovisi@gmail.com

## AZƏRBAYCAN NƏSRİNDƏ TƏBİƏT TƏSVİRİ

Azərbaycan ədəbiyyatı zəngin milli-mənəvi dəyərləri, tarixi və mədəni irsi özündə birləşdirən bir sahədir. O, zaman-zaman xalqın mənəvi dünyasının, milli kimliyinin və həyat tərzinin bədii ifadəçisi olmuş, Azərbaycan torpağının gözəlliyini poetik dillə əks etdirmişdir. Nəsr əsərləri isə xalqın həyatını, gündəlik təcrübəsini poetik və estetik təsvirlərlə oxucuya çatdıran mühüm vasitədir. Azərbaycan təbiəti həm milli kimliyin formalaşmasında, həm də obrazlı təsvirlərin yaranmasında əsas rol oynamışdır. Ekoloji problemlər, doğma yurdumuzun təbiəti, insanın təbiətə münasibəti, kənd həyatının dəyişməsi kimi mövzular söz sənətkarlarımızın daim diqqət mərkəzində olmuş, Azərbaycan nəsrində təbiət təsvirlərini aktual etmişdir. Azərbaycanın dağları, çayları, meşələri yalnız dekorativ məqsədlə deyil, həm də bədii ideyanın daşıyıçısı kimi təsvir olunmuş,qəhrəmanların xarakterini açmaq üçün vasitəyə çevrilmişdir. Bu məqalədə Azərbaycan nəsrində təbiət təsvirlərinin rolu, funksiyası və ədəbi dəyəri elmi prizmadan araşdırılır.

Azərbaycan təbiətinin nəsrdə rolunu araşdırdıqda təbiət yalnız fon kimi çıxış etmir o, əsərin emosional, ideya-məzmun və simvolik strukturuna təsir edən vacib elementdir. Təbiət təsvirləri müəllifin estetik dünyagörüşünü əks etdirmək, insan və ətraf mühit arasındakı harmoniyanı göstərmək üçün istifadə olunmuş, Azərbaycan nəsrində dağlar, çaylar, meşələr, düzənliklər və fəsillərin dəyişməsi təsvirlərdə metaforik mənalar daşıyaraq xalqın tarixi yaddaşı və milli mədəniyyətinin bir hissəsi kimi çıxış etmişdir. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək: "**Təbiət xalqın varlığının və milli kimliyinin ayrılmaz hissəsi,həyatın və gözəlliyin mənbəyi ‚gələcəyimizdir".** Nəsr müəllifləri tarix boyu Azərbaycan təbiətini obrazlı şəkildə təsvir etməklə, eyni zamanda tarixi dövrün mənəvi və sosial problemlərini oxucuya çatdırıblar. Azərbaycan klassik və müasir nəsr müəllifləri torpağın, dağların və çayların obrazı vasitəsilə xalqın azadlıq uğrunda mübarizəsini simvolizə ediblər. Azərbaycan nəsrində təbiət təsvirləri milli-mədəni dəyərlərin

qorunmasında, insan və ətraf mühit arasındakı harmoniyanın göstərilməsində mühüm rol oynamışdır. Təbiət yalnız əsərin fonu və dekorativ elementi deyil, eyni zamanda yazıçının ideya və mesajlarını çatdırmaq üçün mühüm vasitədir. Azərbaycan nəsrində təbiət təsviri milli yaddaşın, tarixi biliklərin, bəşəri və mənəvi dəyərlərin qorunmasına yardım edən bir fenomen kimi çıxış etmişdir. Bu səbəbdən Azərbaycan təbiətinin nəsrdə rolu təkcə estetik deyil, həm də simvolik, fəlsəfi və emosional funksiyaları ilə diqqəti cəlb edir..

Bildiyimiz kimi, təbiət-insanın var olduğu,yaşadığı və qarşılıqlı əlaqədə olduğu canlı və cansız aləmin məcmusudur. Təbiət dedikdə yer, su, hava, bitkilər, heyvanlar, dağlar, dənizlər, külək və s. nəzərdə tutulur. Elmi mənada təbiət dünyanın,kainatın əsasını,ədəbiyyatda isə insanın mənəvi aləmini təşkil edir. Ədəbiyyatda təbiət təsviri əsərin emosional, ideya-məzmun və simvolik strukturuna təsir edən vacib elementdir, daha çox insan və ətraf mühit arasındakı harmoniyanı göstərmək üçün gözəlliyin tərənnümü, simvolik məna, vətən sevgisi və torpağa bağlılıq, psixoloji və fəlsəfi məqsədləri vermək üçün yazıçılar təbiət təsvirlərindən istifadə etmişlər. Təbiət təsvirləri həm şifahi,həm də yazılı ədəbiyyatda hər zaman öz əksini tapmış, poeziyada olduğu kimi, nəsr əsərlərində də obrazlı təsvirlərin yaranmasında və milli kimliyin formalaşmasında aparıcı rol oynamışdır. Azərbaycan nəsrində XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq təbiətin canlı təsvirinə geniş yer verilmiş, milli kolorit və hadisələrin emosional fonunu yaratmış, qəhrəmanın əhval-ruhiyyəsini əks etdirmişdir. Yuxarıda sadaladığımız məsələləri yazıçı və dramaturqlarımızın əsərləri əsasında süzgəcdən keçirəndə görürük ki, Mirzə Fətəli Axundzadənin yaradıcılığında təbiət təsviri ictimai mühitin aynası kimi öz əksini tapmışdır. "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasında Qarabağın yaşıl düzləri,bulaqları milli kolorit yaratmış, xalqın sadəliyini simvolizə etmişdir. Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Abdulla Şaiq kimi sənətkarların yaradıcılığında təbiət təsviri insan taleyi ilə birləşərək sosial ədalətsizliklərin fonu kimi çıxış etmişdir. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları əsərində kənd mənzərələrinin təbii sadəliyi qəhrəmanların psixoloji vəziyyətini tamamlayır." Keçmiş günlərin bir günü,qış fəsli idi. Gecədən üç-dörd saat keçmişdi. Hər iki rəfiq, yəni mərhum Kərbəlayi Heydər və Xudayar bəy və bunlardan savayı Kərbəlayi Heydərin qonşularından bir neçə kəndli Kərbəlayi Heydərgilin tövlə otağında oturub məşğul idilər söhbətə. Məlumdur, qışın uzun gecələrini yatmaqnan qurtarmaq olmaz.Odur ki, Danabaş kəndində atadan-babadan qalma bu bir adətdi, hər məhəllənin adamları, -çünki indi dəxi bir iş-güc yox, -bir tövlə otağına yığışıb, ta gecədən altı saat gedənə kimi, danışmaqnan, deməknən, gülməknən keçirirlər".

Azərbaycan nəsrində təbiət təsviri sovet dövrü ədəbiyyatında da əsas rol oynamış, daha çox ideoloji çalarlara malik olmuşdur. Mehdi Hüseyn, Süleyman Rəhimov, Mirzə İbrahimov, Ə.Əbülhəsən, İsmayıl Şıxlı, Əlibala Hacızadə, Fərman Kərimzadə və başqa nasirlər təbiəti həm vətən sevgisi, həm sosialist ideallarını, həm də insanla torpaq arasındakı mənəvi bağlılığı göstərmək üçün təsvir etmiş, təbiət və insanın harmoniyasını, əmək romantikası ideyasını aşılamışdılar. Təbiəti artıq insanın qarşısında duran sirli qüvvə kimi deyil, əməyin dəyişdirdiyi mühit kimi göstərmişdilər. "Mayın axırları olmasına baxmayaraq, meşə ağaclarından bəziləri çiçəyini tökməmişdi. Meşədə hələ baharın nəfəsi duyulurdu. Yaxın dağların zirvəsində qar görünürdü. Qayalardan göz yaşı kimi şəffaf sular sızırdı. Mən tez-tez yanımda oturmuş gənc ərimə baxır, ona nə isə xoş bir söz demək istəyirdim. Meşə arası ilə dağlara qalxan yolda hər şey fərəhli idi. Hər şey mənə səadət, sevinc təlqin edirdi. Bax, ağ buludların altında gümüş kimi parıldayan o dağları aşıb, tanımadığım adamların mənzilinə gedəcək yolun komandanı mənim ərimdir". İlyas Əfəndiyevin "Körpüsalanlar" romanından gətirdiyimiz bu nümunədə təbiət təsviri qəhrəmanın daxili dünyası ilə harmoniya

yaradır, insan əməyinin gücünü və quruculuq ideyasını təcəssüm etdirir. Mehdi Hüseynin "Abşeron" romanında Abşeron yarımadasının təbiəti və neft mədənləri təsvir olunur. Təbiətin sərtliyi burada insan gücü və əzmi ilə birləşir,həm bədii fon,həm də fikir daşıyıcısı olur. Əbülhəsənin "Dünya qopur" romanında müharibə illərinin ağır ab-havası təsvir edilir. Təbiət, yəni küləkli hava, boz səma, sükut insanların qorxusunu və qeyri-müəyyənliyi ifadə edir. Sovet dövrü Azərbaycan nəsrində təbiət artıq estetik dəyərdən siyasi simvola çevrilir, xalqın zəhmətinin bəhrəsi sosialist quruculuğunun aynası kimi təqdim olunur. Dağlar, çaylar və kənd mənzərələri vasitəsilə milli-mənəvi dəyərlər çatdırılır. İ.Əfəndiyevin "Dağlar arxasında üç dost" romanında dağlar coğrafi məkan, dostluq, gənclik, əzmkarlıq ideallarının rəmzi kimi çıxış edərək milli-mənəvi dəyərlər aşılayır. Təbiət təsviri insanın daxili aləmini əks etdirən vasitə kimi də əhəmiyyətə malikdir. Bu İ.Şıxlının "Dəli Kür" romanında daha qabarıq əks olunmuş, təbiətin dəyişkənliyi, fəsillərin gəlişi,çiçəklərin açması,çayın coşması obrazların insani duyğularının poetik simvolu kimi təqdim olunmuşdur: "Göytəpə kəndinin yastı qazma daxmaları Kürün sahilinə qədər səpələnmişdi. Bu il yağarlıq olduğundan, otlar vaxtından əvvəl göyərmiş, yazın ılıq nəfəsini duyandan sonra isə püskürüb qalxmışdı." Azərbaycan nəsrində təbiət həm də Vətən sevgisinin ifadəsidir. Dağlar, bulaqlar, Xarı bülbül, Qarabağ çölləri yazıçılar üçün sadəcə məkan deyil, milli kimliyin və mənəvi dirçəlişin rəmzidir. Xüsusilə Qarabağ mövzusunda yazılan əsərlərdə təbiət təsviri xalqın torpağa bağlılığını, azadlıq arzusunu və ümidini simvolizə edir. Müstəqillik dövründə Azərbaycan nəsrində təbiətə baxış postromantik və ekofəlsəfi xarakter alır, varlıq və məna mənbəyinə çevrilir. Dağlar-mübarizlik və dözümün simvolu kimi, dəniz-azadlıq və sonsuzluq ideyasının bədii ifadəsi kimi, çaylar həyatın davamlılığı və zamanın axışı kimi, torpaq-milli varlığın və şəhid yaddaşının simvolu kimi,külək dəyişmənin və milli ruhun rəmzi kimi çıxış etmişdir. Elçin, Anar, Kamal Abdullanın əsərlərində təbiətin simvolik anlamları öz əksini tapmışdır. Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərində Bakı şəhərinin tozlu havası, dəniz qoxusu və külək insanın tənha mənəvi durumunu əks etdirmişdir. Elçinin "Baş" romanında Qarabağ təbiəti milli kimliyin bərpasının simvoluna çevrilmişdir.

Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, Azərbaycan təbiətinin zənginliyi söz sənətkarlarımızın ilham mənbəyinə çevrilmiş, nasirlərimiz təbiət təsviri ilə milli kimliyin qorunmasını təbliğ etmiş, həyatın mürəkkəbliyi və bəşəri dəyərlərin qorunmasını vurğulamışlar. Müasir Azərbaycan nəşrində təbiət təsvirinin davamlı işlənməsi onun tükənməz mövzu olmasının və Azərbaycan təbii zənginliyinin göstəricisidir.

**Şahin Cəbrayılov**
ADPU Cəlilabad filialının baş müəllimi
jabrayilov62@mail.ru
ORCID: 0009-0006-3373-247X

## TƏBİƏTİN VURĞUNUYAM ƏZƏLDƏN

İqlim şəraitinə görə Azərbaycanın həddən artıq zəngin təbiəti, flora və faunası vardır. Dünyada olan on bir iqlim qurşağının məhz doqquzunun Azərbaycan Respublikasında olması Allahın Azərbaycan torpağına bəxş etdiyi əvəzolunmaz nemətdir. Məhz bu nemətlərdən bəhrələnərək ədiblərimizin,şair və yazıçılarımızın, rəssamlarımızın, bir sözlə, bütün sənət adamlarımızın əsərlərində bu ecazkar gözəllilkərin, təbiət mənzərələrinin təsvirini aydın şəkildə

görmək mümkündür. Bu gün də yazarlarımız, bütün sənət adamlarımız bu təbiət gözəlliklərini əsərlərində əks etdirir, Azərbaycanın təbiətinin zənginliyini duyaraq, görərək işıqlı bir gələcəyə doğru addımlayırlar.

Azərbaycan ədəbiyyatı və incəsənətində elə bir şair, yazıçı, rəssam tapmaq çətindir ki, yaradıcılıqlarında Azərbaycanın füsunkar gözəlliklərindən, ecazkar mənzərələrindən, qeyri-adi təbiətindən yazmamış olsun. Çünki bu gözəllikləri bizlərə, Azərbaycan məmləkətinə bəxş edən Allahımız bəxş edib. Bizlər də bu gözəllikləri , təbiətin min naz-nemətini seyr edərək, duyaraq, sevə-sevə yaşayırıq və Allahımıza min şükür edirik. Təbiətin bu gözəlliklərini yaradıcılığında sevə-sevə qeyd edən və bizləri də gözəllik aləminə aparan şairlərimizdən biri də Səməd Vurğundur. Şair yazır:

"Bahar və mən " şeirim də
Bahar nə xoş gəlir, ruha dad verir.
Xəyala, duyğuya qol-qanad verir,
Var olsun şerimiz, şairlərimiz!-
Hər gülə ,çiçəyə təzə ad verir.

Yaşıl köynəyini geyinir meşə ,
Yaxama quş kimi qonur bənövşə ;
Qoy məndən dərs alsın qoca təbiət,
O da könlüm kimi gülsün həmişə. (1, s. 201)

Səməd Vurğunun təbiəti belə mənalı və obrazlı tərənnüm etməsindən, baharın xoş gəlişindən, insanlara ruh verməsindən, güllərə ,çiçəklərə yeni nəfəs-ad verməsindən, meşələrin yaşıl dona bürünməsindən, bənövşə gülünün insanların yaxasına taxılmasından, bir sözlə qoca təbiətin üzünün gülməsindən və insanlara da yeni nəfəs, həyat verməsindən zövq almamaq mümkün deyil.

Səməd Vurğunun **"Yazla qışın deyişməsi"** poemasında təbiətin gözəlliklərini əks etdirən xeyli səhnələrə rast gəlirik. Belə ki;

Adım yazdır, gələndə mən axar çaylar daşa –daşa
Haray salır dağa, daşa...
Seyrə çıxar oylağımı,
Hər bağçamı, hər bağımı
Sevgililər qoşa-qoşa.
Mən açmışam bu dünyada qızıl gülün yanağını-
Evimin ilk qonağını.
Anasıyam bu güllərin.
Süsənlərin, sünbüllərin.
Mən açmışam bülbüllərin
Nəğməli ney dodağını... ( 2, s.138 )

Bu misralardan da aydın görünür ki, şair nə qədər həssaslıqla öz fikir və düşüncələrini yazla qışın deyişməsində ustalıqla ifadə edə bilmişdir. Yazda çayların daşaraq dağa, daşa haray salmasını, sevgililərin təbiətin qoynunda sevərək qol-qola gəzməsini, qızılgülün ecazkar çiçəklər açmasını və bu gülün evinin ilk qonağı olmasını, bülbüllərin cəh-cəh vuraraq dil açmasını-bütün bunların hamısını doğru olaraq yazın gəlişinə bağlayır.

**Şair Qışın təbiətə gəlişini belə təsvir edir:**

Qış nə deyir?-Mən faşistəm, yaranmışdır üzüm qara.

Zülm edərəm insanlar
Qan içirəm, həzz alıram.
Bu dünyanı mən salıram
Boranlara, tufanlara.
Mən tökərəm, çəmənlərə, gülşənlərə soyuq qarı,
Talan olur elin varı;
Diş ağardıb güləndə mən,
Kəfən geyib gələndə mən
Bağlayıram qapıları.

Bu misralarda nə gözəl mənzərələr yaradılıb. Təbiət-Qış sanki insan kimi dil açıb danışır. Doğrudan da, qış gələndə insanlar çox əziyyət çəkir, zülmə düşürlər, soyuqdan hər yer donur, evləri isitmək insanlar üçün çox çətin olur. Qış, özü demişkən, aləmi zəhərə döndərir. Bütün çöl-çəmənə qar tökülərək elin varı sanki talan olur, Hər tərəfin ağappaq qara bürünməsini "dişini ağardıb gülüşə bənzədir və soyuq qarlı havada yolların bağlanması sanki evlərin qapılarının bağlanması kimi tərənnüm edilir. Bununla da Qış özünü faşist, yırtıcı, zülmkar hesab edir.

Səməd Vurğunun demək olar ki, yaradıcılığının böyük bir hissəsində təbiət tərənnümü olunur, Azərbaycan torpaqlarının ətri duyulur.

"Bülbül və Bağban" şeirində bir daha bu sevgi və gözəlliyin şahidi oluruq.

Gözəl bir bağçada bir bülbül vardı,
Budaqdan budağa uçub qonardı.
Onun yuvasıydı gülün yarpağı,
Dilindən düşməzdi vətən torpağı.
Güllər boy atardı onun səsiylə,
Çiçəklər yaratdı xoş nəfəsiylə .
Bülbül bu gülşəndən ilham alardı,
Gündə şadlığından qanad çalardı.
Baxıb hər çiçəyə , hər qərənfilə,
Şərqilər deyərdi o gülə-gülə.( 1, s.208)

Şeirdən aydın olur ki, təbiətin bütün varlıqları kimi bülbül də bu vətən torpağında azad, firavan yaşayır və azad yaşamağı ilə də fəxr edir. Və bildirir ki, hər gün səhər tezdən rahat şəkildə durub ağacların budaqlarını sərbəst gəzərək cəh-cəhlə nəğmələr oxuyuram, güllər mənim yuvamdı, oylağımdı. Oxuduğum nəğmələrdə vətən torpağının müqəddəsliyini, gözəlliyini, toxunulmazlığını vəsf edirəm. Mənim ahəngdar səsimlə çiçəklər boy atır, inkişaf edir və yuxuya gedir. Mən də təbiətin- bağın bu gözəlliyindən zövq alaraq qanad çalıb dünyanı gəzirəm, gülə, çiçəyə qona –qona şərqilər oxuyaraq bu vətən torpaqlarının nə qədər əziz, müqəddəs olduğunu bütün dünyaya çatdıra.

Bu kimi maraqlı nümunələr Səməd Vurğunun yaradıcılığında tükənməzdir. Şairin əsərləri həmişə oxucular tərəfindən sevilə-sevilə oxunub və bu gün də oxunmaqdadır. Onun şeirlərində Vətənimizə sevgi aşılanır.

**Ədəbiyyat**

1.S.Virğun. Seçilmiş əsərləri: 5 cilddə, I cild, Şərq-Qərb 2013, 219 s.
2.S.Virğun. Seçilmiş əsərləri: 5 cilddə, III cild, Şərq-Qərb 2013, 387 s.
3.S.Virğun. Seçilmiş əsərləri: 5 cilddə, IV cild, Şərq-Qərb 2013, 359 s.
4.S.Virğun. Seçilmiş əsərləri: 5 cilddə, V cild, Şərq-Qərb 2013, 323 s.

**Səbinə İsmayılova**
sebineismayilova7799@gmail.com
ADPU Cəlilabad filialının baş müəllimli

# MƏMMƏD ARAZ POEZİYASINDA TƏBİƏT – MİLLİ RUHUN POETİK İFADƏSİ KİMİ

Azərbaycan poeziyasında təbiət motivləri qədim folklor nümunələrindən başlayaraq klassik şerdə, daha sonra isə XX əsr lirikasında yeni bədii ifadə formaları qazanmışdır. Xalq ruhuna bağlılıq, torpağa və təbiətə sevgi hər dövrdə şairlərimizin yaradıcılığında aparıcı xətt olmuşdur. Müasir mərhələdə bu istiqamət daha çox milli düşüncə və vətənpərvərlik duyğuları ilə qovuşmuş, təbiət obrazı yalnız estetik təsvir vasitəsi deyil, həm də ideya-məzmun yükü daşıyan bədii simvola çevrilmişdir. Bu baxımdan, Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasında təbiət mövzusuna gətirdiyi yeni baxış və dərin mənalandırma ilə fərqlənir.

Məmməd Araz poeziyasına nəzər salsaq, onun yaradıcılığında təbiət yalnız təbii mənzərə kimi deyil, vətən, xalq və insan ruhunun ayrılmaz bir hissəsi kimi təqdim olunur. Onun şeirlərində dağ, çay, ulduz, külək və torpaq Azərbaycanın simvoluna çevrilir. Şair təbiətin gözəlliklərini təsvir etməklə bərabər, xalqın xarakterini, mübarizliyini və mənəvi saflığını da bu obrazlar vasitəsilə ifadə edir. Təbiət Məmməd Araz poeziyasında həm ilham mənbəyi**,** həm də daxili hisslərin bədii dili rolunu oynayır. Beləliklə, onun yaradıcılığında təbiət təsvirləri vətənə sevginin, milli ruhun və insanın daxili aləminin güclü poetik ifadəsinə çevrilir.

Məmməd Araz "Azərbaycan dünyam mənim" şeirində Azərbaycan qayalarında bitən bir çiçəyə, çiçəklərin içində qayaya bənzətməklə güclü bir poetik obraz yaradır.

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan –
çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından
baxar dünyaya.

Bu parçada Məmməd Araz Azərbaycanı həm zərif bir çiçək**,** həm də möhkəm bir qaya kimi təqdim edir. Bu obrazlar xalqımızın mənəvi gözəlliyini, dözümünü, mərdliyini və vətənə bağlılığını göstərir. Şair deyir ki, mənim dünyamın mərkəzi – Azərbaycanın özüdür. Burada çiçəklərin içində qaya deyiləndə  Azərbaycanın dünyada sabit, möhkəm və öz sözünü deyən bir ölkə olduğu başa düşülür. Ətrafında müxtəlif xalqlar, mədəniyyətlər olsa da, Azərbaycan öz kimliyini itirməyib, həmişə dayanıqlı və möhkəm qalıb.

Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözələridir.
Azərbaycan səhərinin
bəbəklərində
Qütb ulduzu,
dan ulduzu gözəlləridir.

Bu bənddə şair Azərbaycan xalqının gücünü, qüdrətini, mənəvi saflığını və ruhunu tərənnüm edir. Məmməd Araz burada həm oğulların igidliyini, həm də qızların zərifliyini və saflığını poetik

şəkildə təsvir edir. Oğulları “Kür gəzdirən biləklər” kimi təqdim etməklə şair Azərbaycan kişilərinin gücünü, əzmini və cəsarətini vurğulayır. Kür çayı — ölkənin rəmzi olan coşqun və dayanıqlı bir təbiət qüvvəsidir. Bu obrazla şair demək istəyir ki, Azərbaycan oğulları da Kür çayı kimi güclü və həyat doludur. Digər tərəfdən, **“**Qütb ulduzu, dan ulduzu gözəlləridir**”** misrasında Azərbaycan qadınlarının saflığı, gözəlliyi və mənəvi işığı təsvir olunur. Bu qadınlar xalqın nur qaynağı, həyatın bəzəyi və istiqamətidir. Qütb ulduzu — yol göstəricidir, dan ulduzu — yeni günün xəbərçisidir. Bu da o deməkdir ki, Azərbaycan qadınları həm xalqın yoluna nur salır, həm də onun gələcəyini işıqlandırır.

Məmməd Arazın “Professor Gülə məktub” şeiri həcmcə iri olmasına baxmayaraq, şair qələminin qüdrəti sayəsində onun poetik vüsəti bir an belə zəifləmir, misralara çevrilmiş fikirlər arasındakı məntiqi ardıcıllıq pozulmur, əksinə, misradan-misraya güclənir. Bu şeir şairin bütün bəşəriyyətə ünvanlanmış mənəvi çağırışıdır**.**

Mən qəsdən belə yazdım, professor,
Mən şeri qırmazdım, professor,
Qırılan sətirləri
Qırılan balıqların
sürüsünə bənzədirəm.
Seyrələn nöqtələri
Xəzərin seyrələn
Kürüsünə bənzədirəm.
Xəzərin taleyinə baxanda
Bax belə sərbəstlik var, professor.
Sərbəstlikdən betər
Sərməstlik var, professor.

Bu bənddə şair sanki bir poetik etiraf və mübahisə aparır. Bu bənd Məmməd Arazın həm yaradıcılıq fəlsəfəsini, həm də təbiət qarşısındakı ağrısını birləşdirir. Şair burada elə bil ki, həm öz şeirini, həm də Xəzərin halını izah edir. O, professorla danışır, amma əslində Xəzərin dilindən danışır. Şeirin qırıq-qırıq forması, seyrək nöqtələri, sərbəst axını — bunlar hamısı təsadüfi poetik forma deyil, Xəzərin halının ədəbi təcəssümüdür. Bənd sanki deyir: “Mən şeiri elə yazdım ki, sətirlər Xəzərin dalğaları kimi dağılır, balıqlar kimi qırılır, su kimi çəkilir.” Məmməd Araz bu bənddə formanı məzmunla birləşdirir: Xəzərin dağılması şeirin qırılması ilə eyniləşir. Bu, onun poeziyasında çox nadir bir hadisədir — şeir sadəcə “danışmır”, öz formasında ağlayır. Şair Xəzərin taleyinə baxarkən orada azadlıq deyil, başsızlıq görür. “Sərbəstlik” sözünü ironiya ilə işlədərək, göstərir ki, Xəzərin bu “azadlığı” — əslində nəzarətsizlik, təbiətin başına buraxılmasıdır. Elm və texnikanın inkişafı insanı elə “sərməst” edib ki, artıq dənizin ölümü onu silkələmir. Bu bəndin fonunda ekoloji böhranla mənəvi böhran eyni xətdə gedir. Xəzərin çirklənməsi — həm təbiətin, həm də insan ruhunun çirklənməsidir. Ona görə də şair professorla danışsa da, əslində elmə, cəmiyyətə və insanlığa xitab edir: “Siz təbiəti ölçürsünüz, amma onun ağrısını hiss etmirsiniz.” Bənd həm təbiət fəlsəfəsi, həm də insanlıq fəlsəfəsi daşıyır. Burada Məmməd Araz öz yaradıcılığının mahiyyətini də açır: onun üçün şeir sadəcə söz oyunu deyil yaşanan ağrının, vicdanın ifadəsidir.

Məmməd Araz yaradıcılığında təbiət yalnız mənzərə deyil, həm də insanın, xalqın və vətənin ruhunu əks etdirən poetik güzgüdür. Onun şeirlərində dağlar, çaylar, ulduzlar və küləklər həm estetik gözəllik, həm də milli və mənəvi dəyərlərin ifadə vasitəsi kimi çıxış edir. Təbiət şairin

poetik dünyasında həm ilham mənbəyi, həm də insanın daxili aləminin dili olaraq Azərbaycan poeziyasında milli kimliyin və həyat fəlsəfəsinin poetik təcəssümünə çevrilir.

**Şöhrət Namazova**
namazova.0111@gmail.com
ADPU Cəlilabad filialı, baş müəllim

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN İŞĞALI DÖVRÜNDƏ VƏTƏNİN POETİK TƏRƏNNÜMÜNDƏ FƏLSƏFİ DƏRKİN İŞIĞI

İnsan möhtəşəm və heyrətamiz bir varlıqdır. Əslində yaranış özü başdan-başa sirlərlə doludur. Hər halda, həyatımız boyu hisslərimizin bizə duyğularla çatdırdığı hər şeyi anlamağa çalışaraq gördüklərimizin həqiqətini doğrudan da gördüyümüzə inanmaq istəyirik. Biz görüntülər dünyasının insanlarıyıq. Bu gözəlliklərlə dolu olan dünyanın əsl sakinləri biz və bizi əhatə edən ətraf aləmdəki hər şeylərdir. Məşhur hindu məsəlində deyildiyi kimi, biz hamımız (heyvanlar, insanlar və bitkilər) qardaşıq. Əlbəttə, bu hikmətin mənasını anlayacaq qədər insanlar düşüncəli ola bilsəydilər heç bu qədər müharibələr və fəlakətlər olmazdı. Təəssüf ki, zamanımızın bugünkü üzü qara halı tarix boyu daima təkrarlanmışdır. Qardaş olmalı ikən düşmənlik yolunu seçənlər bütün zamanlarda bəşəriyyətə dəhşətlər yaşadan qüvvələr olmuşlar.

Əslində mən çox həzin və kövrək, həsrət təşnəli bir yazı yazmaq üçün qələmi əlimə aldım. Çünki poeziyanın reallıq və gerçəklik əhatəsində necə bir duyğular aləmi olduğunu həmişə hiss etmişəm. Qarşımda Laçın torpağının şair oğlu İlham Qəhrəmanın bir kitabı var. Kitab „Sevgi durna çırağıdır" adlanır. Vərəqlədikcə daha çox düşünürəm. Şeirləri oxuduqca, kitabı vərəqlədikcə poetik təsvirlər məni məndən alıb vətənin hər zaman şennikli eli olan Laçına apardı. Şeirlərdə dağlarımızın məğrurluğunu, çöllərimizin gül-çiçək naxışlı gözəlliklərini, dağ yellərinin çöl-çəməndə əsim-əsim ötməsini, qoyun-quzuların talalara yayılıb mələşməsini gördüm. Şeirlərin poetik qanadları məni götürüb Zəngəzur dağlarının zirvəsinə qoydu. Bacalarından çörək ətirli tüstülər çıxan obalarımızın ötüb keçən zamanlarını və indiki azad günlərini andım. Şairin bu kitabı ağır köçkünlük illərinin qəm-kədər fəlsəfəsinin tərənnümüdür. Bu şeirləri oxuduqca ayrılıq və qəriblik faciəsinin o illərini yenidən yaşadım və nənəmin qəmli bayatılarını xatırladım. Şairin „Nənəmin üzünə baxa bilmirəm" şeirinin doğma təsirindən havalandım, bir zaman işğalda olan torpaqlarımızın niskilli xiffətinin böyük mənasını anladım. Kövşənlərdə sarı-sarı ot tayaları tağlayan, əlinin arxası ilə alın tərini silib buz kimi ağappaq ayrandan içən biçinçiləri andım. Evini, həyətini, toyuq-cücəsini, daşını-torpağını qoyub köçkün düşən nənələrimizin yanından xəyalən ötüb keçdim.

Nənəmdən bir dastan bağlasam azdı-
Oğlunun, qızının toyu yol azdı.
Yay gəlir kövşənə ayran aparmır,
Saymır cücəsini neçə payızdı,-
Nənəmin üzünə baxa bilmirəm...

Yurd sevgisi ,vətən sevgisi, torpaq sevgisi, ilk sevdalı baxışların donub qaldığı o yerlərin əbədi sevgisi şairin könül dünyasının durna çırağıdır. Durnalar da qərib ellərə köç edəndə səs sala-sala dönüb arxaya, doğma yerlərin sevgi çırağı olan qarlı dağlara sarı boylanarlar. Bu durna çırağı ellərimizdən məcburi köç edənlərin bir də geri dönəcəyinin poetik-fəlsəfi simvoludur. Bir də

baxdım ki, kitab məni elə tutub ki, səhifələrindən çıxa bilmirəm. Bir anda yaddaşımdakı doğma gözəlliklər sanki canlandı, vətənim Azərbaycanın hər künc-bucağı gözlərim önündən keçdi. Qulaqlarıma ruhumu parça-parça edən bir səs gəldi. Həm də elə bir doğma səs ki, cazibəsi məni öz dünyamdan alıb yerindən oynatdı. O səsin ardınca getdim. Bir də gördüm ki, Tanrı qüdrətindən yaranan bu səs məni Sarı Aşığın bayatılarının səpələndiyi Həkərinin sahilləri ilə gəzdirib, Zəngəzur dağlarının sinəsindəki zər çiskinli duman kimi sürüm-sürüm süründürür. Böyürtkənli yol kənarlarından üzü dərələrə sarı yenən cığırlarla yüyürürəm. Su yarpızlarının boy-boya verdiyi bulaq başında durub təşnə ürəyimi sərinlətmək istəyirəm.

Bir bulaq var idi - mən ondan hər il
Böyürtkən dəyənə görüş alardım.
Bir daşı dizimin altına qoyub,
Əyilib üzündən öpüş alardım...

Bilirsinizmi, bu səs bir vətən oğlunun itirdiyi böyük bir şennikli elatın qəm sədasıdır. Vətən Tanrının altında insana verilən və ana südü kimi halalı olan müqəddəs məkandır. Bu səsin sahibi Ana vətən Azərbaycanın ayrılmaz və əbədi guşəsi olan Laçın torpağının yetirməsi olan şairin özüdür. Bu şair bəşəriyyətin bütün dərd-sərini, zəngin hisslərini öz qəlbində daşıyan, Tanrının özünün seçib-saydığı şairlər sırasında dayanan və bütün şairlər kimi də çətin həyat yoluna davam edən İlham Qəhrəmandır. Yurdunun işğalına dözə bilməyən, köçkünlüyü mərd xalqının adına yaraşdıra bilməyən şairin dərdi böyükdür. Yurdu azad görmək istəyir, Azərbaycanı qalib görmək istəyir. Vətənin gözəlliklərini şeirlərində tərənnüm etməklə qalibiyyət rəmzi yaradır, and yeri yaradır. Sanki qollarını çöl-çəmənlərə açıb ey atlı oğullar, yetişin deyir. Ulularımızın səsi küləklərin səsinə qarışır. Bölük-bölük sürülərimizin Qaraca çobanı, üç dağ başında üç tonqalı çat və elləri haraya çağır. Yurdun xilas günü yetişsin, yağı düşmən yenilsin.

Qarşıda-talada atlı göründü,
Dedim qayıq üzür çiçək gölündə.
Çoban sürüsünü yayıb sinəyə,
Özü tütək çalır dağın telində.

Şairin dərin hisslər ilə çəkdiyi və sehirli sözlərin rənglər vurduğu bu tablo qarşısında heyrət özü də heyrətdə qalır. Sözlərdəki gözəlliyə, mənadakı fəlsəfiliyə aşiq olmamaq olmur. Dağın telində oturub tütək çalan çobanın yanında olmaq istəyirsən. Bu möhtəşəm tablo bizi duyğulandırıb vətən gözəlliyinin vurğunu edir. Şair qəlbinin ağrısını duyub onun poetik eşqini anlamaq üçün „Vətən oxşaması” şerini dinləmək bəsdir. Bu əsl milli-mənəvi dəyərlərimizin yanğı harayı olan oxşamadır. Bu oxşamanı dinlədikdə gözlərimizin önündə dərdi qədər tarixi də böyük olan Azərbaycan və onun ayrılmaz guşəsi olan böyük Zəngəzur canlanır. Qədimliyi qədər də zəngin dövlətçilik və mədəniyyət tarixi olan Vətənimizin bol düşmənli taleyi qəlbimizi ağrıdır. Azadlıq eşqi ilə zamanın bütün gərdişlərində igidlik və cəsarətlə döyüşən qəhrəman oğullarımızın mücadilələri gözlərimizdə canlanır.

Şair elə yana-yana Vətənə müraciət edir ki, sən də Əslinin Kərəmi kimi Vətən eşqindən od tutub yanırsan. Sən düşündüyünü, sən demək istədiyini, sən etmək istədiyini bu oxşamada şair özü öz yanaşması ilə edir. Həm də İlham Qəhrəman Vətənə sevgisini ilahi eşq səviyyəsində ürəyinin dörd guşəsinə dağıdıb oxşayır, ulularımızın səsi ilə inildəyib oxşayır. Dədələrimiz kimi bayatı çəkir, nənələrimiz kimi gəranaylayır.

O kimdi qeybdən gəlir,
Gecə biznən hesab çəkir.

Vətən, sənə olan sevgim
İçimdə əzab çəkir...

Şair bir yandan azad olub müstəqilliyini qorumağa çalışan Vətənin, o biri yandan böyük niyyətlərə qurban gedən Qarabağın və Şərqi Zəngəzurun itirilməsinə dözmür. Bu dözməyin özünü elə dözənlər üçün ölümdən betər bilir. Milli ruhumuzun baş iqamətgahı olan Qarabağ, mədəniyyətimizin baş şəhəri olan Şuşa, əlçəkilməz istinadgahımız olan Kəlbəcər və qartallar diyarı Laçın bu oxşamanın laylaya yatımlı bəndlərinin arasından məlul-məlul boylanırlar. Vətən oğullarını imdada çağırırlar, igid sərkərdələrimizi qalibiyyətə haraylayırlar. Ana yurdun gözəlliklərini xilas etməyə çağırırlar. Böyük vətəndaş yanğısı şairi yandırıb tökür.

Məyus görkəm, kəm taleynən
Mən sənin tayınam,Vətən.
Qoy dərdlərin mənə gəlsin,
Mən dərdə qayımam Vətən.

Məşhur rus ədəbi-tənqidçisi V.Q.Belinskinin belə bir kəlamı var: “Həqiqət yalandan kömək ummur.” Doğrudan da bu həqiqət elə mahiyyətdir ki, ta düz olanın düzüdür. Bizim xalqın da Vətən həqiqəti dərk edilmiş böyük həqiqətdir. Torpaqdan pay olmaz anlayışının fəlsəfi dərkində Azərbaycan tarixinin görünən və görünməyən həqiqətləri birləşmişdir. Bir daha yurda dönə bilməmək qorxusu şairin şeirlərində qərarlaşmır. Kənddəki ata yurdundan tutmuş təbiətdəki bütün gözəlliklər köçüb gedənləri geriyə çağırır. Həm də bu çağırış həsrətin yanğısı ilə alovlanır və güclü inama çevrilir. “Yurd səsi” bizi göylərin Yeddi qatına qaldırıb Laçın-Şuşa yolundakı Yeddi qata çırpır. Böyük türkün ilahi xilaskarı Qurd səsi Yurdu qələbəyə səsləyir.

And olsun sürünən Seyidin
Dizin-dizin süründüyü torpağa.
And olsun Laçında yıxılan
Keşiksiz bayrağa
Getmir qulağımdan gecələr göyə millənən
Qurd səsi, yurd səsi...

Bu sətirlər əlimizdən yapışıb bizi ayağa qaldırır və yaxın keçmişimizə aparır. Bir də görürük ki, doğma Laçınımızın cökə ağaclarının sıra ilə düzüldüyü mərkəzi küçəsindəyik. Hamının tanıdığı, hörmət etdiyi, nəzir-niyaz verdiyi şil Seyid də şəhərin başında öz diyircək təkərli arabasının üstündə oturub. Şəhər cavanları da başına yığışıb zarafatlaşırlar. Bu zaman çırtım-çırtım al gülləri olan ağ donlu balaca bir qız qaça-qaça Seyid Hüseynə yaxınlaşır və tələsik əlindəki nəzir pulu utancaq halda onun iki ayağı da dizdən aşağı kəsilmiş qucağına qoyub qaçır. O qızcığazın kölgəsi elə böyüyür, elə böyüyür ki, köçkün əllərimin üstünə sərilir. Bu kölgənin altından həqiqətin işığında canlanan görüntülər tariximizin ən yaxın səhifələrini vərəqləyir. Xəyanətkar qonşu olan hayların zaman-zaman biz elatlara qarşı etdikləri haqsızlıqları bizlərə xatirladır. Könüllərdə qalibiyyətə inam nəğməsi səsləndirir.

Şairin “Yurd səsi” şeiri sanki görüntülü film kimi canlanır. Bu görüntülər şairin ilham dünyasının durna çırağının işığından süzülən kölgələrdir. Sətirlər aralanır, duyğuların selində işıqlanan səhifədə bir də görürsən ki, fığara Kəlbalayı başında tüklü motal papağı, əynində o zamankı Zəngəzur geyimi olan çuxa, ayağında çarığı və çiynində xurcunu ulağını dəhliyə-dəhliyə Laçının məşhur tarixi Dağdağan bulağına çatır. Başına toplaşanlara Kərbəlaya necə piyada getdiyindən, o uzaq yollarda nələri gördüyündən danışır. Dizinə düşən sarımtıl və yamaqlı pencəyinin dərin cibindən çıxardığı barmağın ucu boyda olan durbinində görünən Kərbəla şəklinə

baxmağa hamıya icazə verir. Xüsusən də uşaqlar sanki sehirli bir aləmə baxmış kimi elə sevinirdilər ki. Deməsən bu sevinməyin əsil adı elə durna çırağının isti nəfəsi imiş. Sonra da fığara Kəlbalayı yığdığı nəzirlərdən evdəkilərə bazarlıq etmək üçün nənələrimizin həyatında ən şahanə yol olan bazar yoluna çıxır. Bir də görürəm ki, nənəmin tumanının ətəyindən yapışmışam və biz də şəhərimizin ən şennikli bazar yolundayıq. Nənəm əlində həsir zənbil tanış qadınlarla söhbət edir və mən də elə sevgi ilə onlara baxıram ki! Demə elə bu sevgi şairin həsrətində olduğu durna çırağıymış, ta o gur işıqlı çırağın özüymüş. Laçın göylərinin durna çırağı isə hər zaman sönməz olurmuş.

Qulağımdadı arvadların şaxseyi
Məzar üstə,
Şəkil xalanın hay-küyü
Bazar üstə...

Şairin fikri mənim yaxamdan elə tutdu ki, bir də gördüm həmin o zamanın o anında küçəmizdə dayanmışam və balaca uşaq qəlbim şaxsey-vaxsey səsindən yerindən qopub.Yuxarı məhlədən üzü aşağı qəbiristanlığa sarı insan seli axır. Cənazə önündə bir ana qollarını açıb başımızın üstündəki göylərə qaldırır və nənəmin mənə sevgi ilə tanıtdırdığı Tanrıya baxır. Sonra da qurd təki ulayıb iki əlli ürəyinin başına çırpır. Yanındakı arvadlar da "şaxsey-vaxsey" deyib ağlaşırlar. Qorxa-qorxa boylananda yanımda dayananların sızıltılı səsini eşitdim. "Bircə balası vardı ey, adı da Şahsuvar. Elə gözəl və igid cavan avariya eliyib, ölüb..." Nə bileydik ki, belə gözəl igidlərimizin qanlarının qəltan günləri, şəhidlik zirvələri hələ qabaqdadır. Nə bilədik ki, şəhər bazarımızın qara saçlı, qara gözlü satıcısı Şəkil xalanın ürəyimizə yatan və qeyrətli səsini daha eşitməyəcəyik. Nə bilədik xəbis qonşularımız olan ermənilər Laçında yaşadığımız böyük həyatımıza son qoyacaqlar? Kor Temirin dərin mənalı fəlsəfi deyimləri və çəliyinin tıqqıltısı Vətən göylərimizin üstündə ərşə çəkiləcəkmiş?.. Dəli dağın, Qırxqızın, Hoçaz dağının, İşıqlı dağının zirvələrində dayanıb Ana Yurdun gözəl təbiətini seyr edən şair özünün şeir dünyasının durna çırağını qəlbinin atəşi ilə yandırır. Məncə durna çırağı İlham Qəhrəmanın yaradıcılığının fəlsəfi nurudur. Bu nurun şəfəqlərində orta əsrlərdə Şərqdə geniş yayılmış İşraqilik fəlsəfəsinin işıqları sayrışır. İşıq və ona sevgi varsa, o işığın yaratdığı kölgələri də sevə bilirik. Lakin həyat yaşam və mübarizələr meydanıdır. Bu meydanda mübarizə edənlər qalib də ola bilər, məğlub da ola bilər. Mübarizə etməyənlər isə heç vaxt qalib ola bilməz. Əgər iynə ucu boyda işıq varsa, onun uğrunda mübarizə etməyə dəyər. Vətən boyda Nur üçün isə ölüm varsa, ölməyə dəyər, Nur əl-Ənvərə yalvarmağa dəyər.

Başımı götürüb çıxacam evdən,
O əsir dağları deyib gedəcəm.
Yoluma yeməyə çörək qoymayın,
Yol boyu həsrəti yeyib gedəcəm.

Bir oxucu kimi İlham Qəhrəman şeirlərini oxuduqca söz dünyasının gözəlliyindən heyrətə gəlirəm. Mən şairin şeirlərində təbiətimizin füsunkar gözəlliklərini və Laçında xalqın yaratdığı dəyərlərimizin tərənnümünü gördüm. Anladım ki, bütöv Vətən sevgisində bu xalqın milli ruhu birdir. Vətən sevdası isə əbədiyyət qədər sonsuzdur və bu sevda heç zaman bitməz. Laçın Azərbaycan torpağıdır və o torpaq tarixi coğrafiyamızın ən gözəl guşələrindən biridir. Müstəqil dövlətimizin daxili və xarici siyasətindəki güc və qüdrət sübut etdi ki, balaca bir çınqılımız belə işğal altında qala bilməz. Bu dərk edilmiş dərin siyasətin 44 günlük Zəfər savaşı və qalibiyyəti

dünya hərb tarixinə xüsusi sətirlərlə yazıldı. Azərbaycan dövləti öz suverenliyini özü bərpa etdi. Azərbaycan öz varlığının təsdiq imzasının sonuna Dəmir Yumruq ilə nöqtə qoydu.

**Mübariz Süleymanov**
mubariz.suleymanov.74@bk.ru.
Bakı Dövlət Universitetinin Qazax filialı

## ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ

Bütün dövrlərdə şairlərimiz öz əsərlərində daim təbiəti, onun əsrarəngiz gözəlliklərini vəsf etmişlər. Nə qədər yazılsa da, nə qədər deyilsə də təbiətin gözəllikləri bitib-tükənmək bilmir ki, bilmir. Çağdaş ədəbiyyatımızda nəinki təbiətin tərənnümü, eləcə də təbiəti daim insan həyatı ilə eyniləşdirilən əsərlərə də daha çox rast gəlinir. Bunlardan, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Hüseyn Arif, Musa Yaqub və başqa şairlərimizin təbiət və onun gözəlliklərini tərənnüm edən kifayət qədər şeirlər vardır.

Azərbaycan poeziyası əsrlərin sınağından uğurla çıxmış və dünya mədəniyyət tarixində daim öz yeri ilə seçilmişdir. Bütün dövrlərdə poeziyamız rəngarəng olmaqla, həyatımızın bütün sahələrini özündə əks etdirməklə tərənnüm etmişdir. Çoxəsrlik tarixi olan Azərbaycan poeziyasında Allahın yaratdığı bəşəriyyəti və onun ayrılmaz bir hissəsi olan təbiətin tərənnümü həmişə əsas süjet xətlərindən birini təşkil etmişdir. Təbii ki, bunların heç biri səbəbsiz deyil, ona görə ki, insan özü də təbiətin bir hissəsi olmaqla yanaşı, daim onu vəsf etməli və qorumalıdır. Poeziyamızda tərənnüm olunan Vətənin hər dağı, dərəsi, çəməni, çölü, çayı, bulağı, dənizi, gölü bir-birindən gözəl dəyişən fəsillərinin insan həyatı ilə bir növ eyniyyət təşkil etməsi daim şairlərimizin ilham mənbəyi olmaqla onları bu gözəllikləri qorumağa çağırmışdır.

Çağdaş Azərbaycan poeziyasında kifayət qədər şairlərimiz vardır ki, onlar öz əsərlərində təbiətin gözəlliklərini həm təbii, həm də obrazlı şəkildə tərənnüm etmişlər. Bunlardan biri də daim təbiətin gözəlliklərini öz əsərlərinə köçürən, təbiət vurğunu Səməd Vurğundur. Onun "Məhəbbət ilhama çağırır məni" şeiri də məhz bu qəbildəndir:

Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durudur qaynar bulaqlar.
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni [2,s.211]

Azərbaycan poeziyasında mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən və zənginliyindən bəhs etdiyimiz Bəxtiyar Vahabzadənin də təbiət gözəlliklərini əks etdirən kifayət qədər şeirləri vardır:

Min dərdin dərmanı yatır çəməndə,
Burada xeyirədir duman da, çən də,
Arxacın üstündən bulud keçəndə,
Quzular bahardan payıza düşdü. [1, s.78]

Mübaliğəsiz demək olar ki, S.Vurğundan sonra təbiətin əsrarəngiz gözəlliklərini öz əsərlərində vəsf edən, çağdaş Azərbaycan poeziyasının "axar çayı", "oxuyan bülbülü", "püskürən vulkanı", "çağlayan şəlaləsi", "bulanmaz dəryası" Zəlimxan Yaqubun şeirlərində daha çox rast gəlinir:

Payız kövrəldəndi, bahar coşduran,
Məni sərt eləyən qış da gözəldi.
Ürəyin daşdanmı, demə, ay insan
Duymağı bacarsan, daş da gözəldir. [4, S.69]

Yaxud,

Aran anam, yaylaq bacım, dağ atam,
Gərək hər gün şirə çəkəm tağ atam.
Şeirim olub düzə ləzzət, dağa tam,
Bu yerlərə yazılmamış getmərəm. [5, s.69]

Yaxud da,

Qaynar çeşmələri duru saxlamaq,
İşığı qorumaq, nuru saxlamaq,
Yer üstə ocağı, piri saxlamaq,
Torpağın ruhunu diri saxlamaq,
İnsanın ən böyük cavabdehliyi,
Bəşərin ən böyük dərdi, səridi,
Allahı qoruyar şahı qoruyan,
Təbiət Allahın şah əsəridir!!! [6, s.72]

Yaradıcılığının əzəli qaynaqlarından biri təbiət olan Hüseyn Arif onun möhtəşəm gözəlliklərinə vurulan daim poetik bir formada qələmə alaraq tərənnüm etmişdir:

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım,
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım. [7,s.60]

Yaxud,

Çiçəklər incəlik, güllər zəriflik,
Sünbüllər bərəkət gətirir bizə.
Dərələr dərinlik, düzlər genişlik,
Zirvələr əzəmət gətirir bizə. [8]

Azərbaycan poeziyasının nümayəndələrindən elə şair göstərə bilmərik ki, onun yaradıcılığında təbiətlə bağlı əsəri olmasın. Onlardan biri də Musa Yaqubdur. Onun "Səhər-Səhər" şeiri də məhz bu mövzuda yazılmış əsərlərdəndir:

Baharın nə gözəl çağları gəlmiş,
Bülbülü çağırır gül səhər-səhər.
Vətənin eşqiylə dil açıb yenə,
Könlümün sazında tel səhər-səhər. [3.s.54]

Təbiətimizin gözəllikləri qeyd olunan şeir parçalarında o qədər aydın, səlis, rəvan, başa düşülən formada təqdim olunub ki, həmin şeirlər haqqında heç bir əlavə şərh və izaha ehtiyac yoxdur.

## Ədəbiyyat

1.B.Vahabzadə "Axı dünya fırlanır" Bakı
2.S.Vurğun. Bakı. 1956, 211 s.
3.M.Yaqub. Yazıçı, 1981, 54 s.

4.Z.Yaqub, Özün basdırdığın ağaca söykən, 69 s.
5.Z.Yaqub, Özün basdırdığın ağaca söykən, 72 s.
6.H.Arif, Seçilmiş əsərləri, səh 60
7.https://tehsil.com.az

**Pakizə Əliyeva**
*aliyeva.pakize.filolog@mail.ru*
ADPU-nun Şəki filialı

## ARİF ABDULLAZADƏNİN POEZİYASINDA TƏBİƏT TƏSVİRİ

Məqalənin mövzusunu altmışıncıların qabaqcıl nümayəndələrindən olan şair, nasir, ədəbiyyatşünas alim, professor Arif Abdullazadənin poeziyasında təbiət təsvirlərinin işlənmə xüsusiyyətlərinin araşdırılması təşkil edir. Araşdırma Arif Abdullazadənin poeziyası ilə bağlı apardığımız genişplanlı tədqiqat işinin bir hissəsi olaraq həyata keçirilmişdir. Mövzu üzərində işləyərkən ədibin müxtəlif illərdə işıq üzü görən "Arzular", "Könüllərin dünyası", "Sevin Azərbaycanı", "Səninlə sənsiz", "Ana dünyamız", "Bəxtimizin kitabı", "Tövbə duaları", "Qatarla uçmaqdan yorulan durna" və başqa kitablarında, eləcə də müxtəlif mətbu orqanlarında işıq üzü görmüş şeirlərinə müraciət olunmuşdur.

Ədəbi arenaya 60-cı illərdə qədəm basan Arif Abdullazadə (1940-2002) poeziyasının əsasında həm çoxəsrlik Azərbaycan folkloru, həm klassik ədəbiyyat, həm də yeni dövrün sərbəst şeir ənənələri dayanır. Dövrün bir çox müəllifləri kimi onun poeziyası da Vətən və onun taleyi, insan və cəmiyyət, həyat və ölüm, arzular, insan və Yaradan və s. əhatə etməklə mövzu rəngarəngliyi ilə seçilir. Sadalanan mövzular daxilində təbiət təsvirlərinin işlənməsi ilə bağlı gəldiyimiz ilkin qənaət bundan ibarətdir ki, A.Abdullazadənin poeziyasında təbiət təsvirləri birbaşa olaraq, eləcə də insan təbiətinin açılması zamanı bir vasitə olaraq istifadə olunmuşdur. Öz növbəsində təbiətə müraciət fərqli təqdimatlarda və özünəməxsus poetik əda ilə maraqlı poetik örnəklərin ortaya çıxması ilə nəticələnmişdir;

Şairin qələmində təbiət təsvirləri ənənəvi, şablon ifadələrdən yetərincə uzaq olub, müxtəlif yöndə qruplaşdırıla biləcəyimiz onlarla nümunədə oxucularına çatdırılmışdır. Vətən təbiəti ("Şəki", "Suqovuşanda", "Bu Şuşada" və s.), ilin fəsilləri ("Fəsillər boyu", "Payız, al-əlvan payız", "Bu yaz necə gəldi", "Bağlar qışa qaldı", "Fikirlər fəsli", Bağlar qışa qaldı", "Payız günəşi", "Yayın son günləri" və s.), yağış ("Yağışlar altında", "Yenə yağışlar yağacaq", "Yaz yağışları", "Yağışlarda" və s.), dəniz ("Payız...Dəniz", "Dəniz – sahil", "Kəhraba qumluqlar", "Dəniz canlanır" və s.), səma-göyüzü ("Göyüzü-daş dənizi", "Yaralı buludlar", "Okean üzərindən uçarkən" və s.) və s. Arif Abdullazadənin müxtəlif şeirlərində mövzu qaynağı və tərənnüm obyektləri olaraq seçilmişdir;

Vətənpərvər şair olan Abdullazadənin qələmində Vətən təbiətinin tərənnümü hər addımda şablondan uzaq, böyük coşqunluq və sevgi ilə ucsuz-bucaqsız çöllərin, başı göylərə ucalan dağların, dərin dərələrin, coşqun çayların, bütövlükdə Azərbaycan təbiətinin bir-birindən maraqlı təsvirlərində qarşımıza çıxır: Bu Şuşanın yağışı sel, doğuşu gül, / güllər içrə bir gül yaşar – "Xarı bülbül", / gül üstündə donub qalar, /gül üstündə coşub çağlar, səsi fəğan, eşqi tufan, / "köksü üstü sarı bülbül" ("Bu Şuşada"); Ucaldıqca bu nəğmənin sədaları, / Gözlərimdə Mil dolandı, Muğan

keçdi. / Sinəsinə gül-çiçəklər səpələnmiş / Doğma Azərbaycan keçdi. / Xəzər boyu gur dalğalar şahə qalxdı. / Göy gölümün göy gözləri mənə baxdı. / Kür çağladı, / Araz yana-yana axdı. (“Layla”) və s.

Arif Abdullazadənin şeirlərində təbiət təsvirlərində diqqəti çəkən ən önəmli və vurğulanmağa ehtiyac olan məqamlardan biri onun rənglərə olan sevgisi və onlardan istifadə etməsidir. Şairin rəng palitrasında bütün yaradıcılığı boyu boyalar tükənmir, lakin zamanla şux, əlvan rənglərin yerini solğunlaşan boyalar əvəz edir: Eləsini sevək ki, / bu sevgi ömrümüzü / nurlandırsın, isitsin / qışda da, baharda da, / yağışlı gündüzlərdə, / zülmətli gecələrdə, / mavi axşamlarda da, / bəyaz şaxtalarda da... (“Günəş kimi bir ömür”); Bir də görürsən ki, köhnə dünyanın / yeni rənglərinə bürünüb həyat, / gözlərin ocaqdır, qolların qanad, / dağların döşündə əlvan dumanlar sürünüb gedir, / gecələr bəmbəyaz səhərə dönüb, / gündüzlər maviyə bürünüb gedir (“Sevgiyə nə var ki...”); O gün dəniz bəyaz, səma qırmızı, / sahillər qızılı, otaq qaranlıq, / yataq qaranlıqdı, / dünyasa mavi. / Bir gündə bir mavi ömür yaşadıq / mavi dünyada, / və o gün xoşbəxtdik biz də dünyada. (“O gün...”); Dəyişir dünyanın mavilikləri, / Çəhrayı don geyir yaz səhərləri, /Yaşıla bürünür qış gecələri (“Sevgi paltarı”); Günəşə boylanan tənhalıqların / Göydaşı, yoldaşı, sirdaşı oldu, / Göylərdən aldığı göy saflığıyla / Bir yaşıl talada bitib göyərən / Təzəcə doğulan yeri daş oldu. (“Yağışlı dünya”); Kainatın üzündə / Bəyaz yaradı dünya (“Bu torpağın mayası”) və s.;

Heç şübhəsiz, daha əvvəl də qeyd etdiyimiz kimi, ədibin qələmə aldığı poetik nümunələrdə təbiət birbaşa tərənnüm obyekti olmaqla bərabər, insan təbiətinin açılması zamanı simvolik və məcazi anlamlarda da istifadə olunmuşdur. Məsələn, “Durna”, “Kirpilər tikansız doğulur”, “Novruzgülü”, “Ev göyərçinləri”, “İlanı qəfəsə salmışam”, “Taclı ilanlar”, “Boz ilanlar”, “Bülbül kimi”, “Üç zolaqlı qara qarğa” və s. şeirlərin sərlövhəsinə nəzər saldıqda ilk baxışda heyvanlar və bitkilər tərənnüm və təsvir obyekti kimi seçildiyi düşünülə bilər, lakin onlarının hər birinin simvolik olaraq şairin həm özü, həm də həməsrlərinin xarakter insani keyfiyyətlərini əks etdirdiyi şübhəsizdir. Özünü həyatın sınaqlarından müdafiə edən insanın sərtləşməsi “tikansız doğulan kirpilər”in, axına qoşulub yaşamağa məcbur olan və bundan bezən insan “qatarla uçmaqdan yorulan durna”nın, çətinliklərə baxmayaraq öz varlığını təsdiq etməyə çalışan, həyatda ümidlərə tutunub yaşamaq istəyən, lakin sonda “heç zaman bir güllə bahar olmayır” qənaətinə gələn “novruzgülü”nün və s. timsalında təsvir olunur;

Arif Abdullazadə poeziyasında planetin qlobal ekoloji problemləri, təbiətin qorunması, insanın sakini olduğu planetə qayğı göstərməsi məsələsinə də diqqət ayrılmışdır. Təsadüfi deyil ki, onun kitablarından biri məhz “Ana dünyamız” (1975) adlanır. Burada yer alan nümunələrdə təbiətin qorunması ilə bərabər mənəvi ekologiyanın pozulması da şairi narahat edir və o düşünür ki, insan yaxşı insani keyfiyyətlərini qoruyub saxlamağı bacarsa, özü də, cəmiyyəti də, yaşadığı dünyanı da xilas edə bilər;

Ədibin təbiət tematikalı şeirlərinin içərisində xüsusi yeri yağışla bağlı nümunələr (“Yağışlar altında”, “Yenə yağışlar yağacaq”, “Yaz yağışları”, “Yağışlarda” və s.) tutur. Şairin təqdimatında yağış çirkabın yuyulması, dünyanın saflaşması, bəzən yeni başlanğıc, bəzən kədər, ümidsizlik, bəzən həsrət gətirir: İnsanlıq bir günlük yaşına girir, / Yağışda yuyunub, odda qurunub / Qapalı qundaqda sirr bələnirdi. / Yağışlar altında qalmışdı şəhər (“Yağışlar altında”); Yenə yağışlar yağacaq, / Günlərlə, həftələrlə / Yeknəsək ömür sürən, / Torpağa iynə-iynə / Xatirə sancıb gedən, / Torpaqdan qucaq-qucaq / Xatirələr süpürən / Cansıxıcı yağışlar, / Xatirəli, həsrətli, / Şirin, acı yağışlar (“Yenə yağışlar yağacaq”);

Bunlardan əlavə, Arif Abdullazadənin “Küləklər”, “Uca dağ, dərin dərə”, “Qar yağır”, “Torpaq”, “Damcılar”, “Çay çaya qovuşanda”, “Mavi dəniz, göy meşə” və başqa neçə-neçə şeirində təbiət hadisələri və təbiət gözəlliklərinin ənənəvidən uzaq mənalandırılması ilə qarşılaşırıq. Fikir poeziyasının təmsilçisi olan şair işini təsvirlə yekunlaşdırmır, daha dərin qatlara gedərək özünəməxsus yozumlar verir;

Abdullazadənin romanlarında (“Bir ovuc torpaq”, “Duyum”, “İşıq zolağı”, “Sınaq kürəsi”, “Qanlı yaddaş”) müəllifin poeziyası ilə müqayisədə təbiətin təsvir və tərənnümünə çox az yer ayrılmışdır. Bu, həmin romanlarda gündəlik həyat və qayğıların yorduğu insanın daxili dünyasına müraciətlə izah oluna bilər.

Fikrimizi yekunlaşdırmaqla söyləyə bilərik ki, Arif Abdullazadənin poeziyasında təbiətin tərənnümü çoxəsrlik Azərbaycan ədəbiyyatına dayanır. Şair oxucusunu sadəcə seyirçi olmaq, təbiətdən faydalanmaq yox, sakini olduğu planeti qorumaq məsələsində iştirakçı olmağa səsləyir.

**Məmmədov Razim**
E-mail:: r_mamedli@mail.ru,
ADPU-nun Ədəbiyyat kafedrasının müdiri
Filologiya üzrə fəlsəfə doktoru, dosent

## HÜSEYN ARİFİN POEZİYASINDA TƏBİƏT MÖVZUSUNUN TƏRƏNNÜMÜ

XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus önəmli yer tutan Hüseyn Arifin yaradıcılığı bu gün də aktuallığı ilə seçilir. Onun poeziyası təbiiliyi, rəngarəngliyi, səmimiliyi ilə diqqət cəlb edir. Xalq yaradıcılığı üslubunda yazan şairin orijinal ifadə tərzi böyük maraq doğurur. Sənətkarın poeziyası bütövlüyü ilə seçilir. Şair müraciət etdiyi predmetə, hadisəyə, mövzuya şairanə baxışlarının xarakterini, genişliyini konkret və obrazlı ifadə etdiyi üçün onun poetik nümunələri olduqca uğurlu alınır. Şairin təbiət mövzusunda qələmə aldığı şeirləri də olduqca maraqlıdır. Burada Azərbaycan təbiətinin əsrarəngiz gözəllikləri real təbii lövhələrlə bacarıqla tərənnüm olunur.

Müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Hüseyn Arif özünəməxsus yaradıcılıq üslubu, poetik təbiiliyi, rəngarəngliyi, səmimiliyi ilə diqqəti cəlb edir. Əsasən xalq yaradıcılığı üslubunda yazan şair orijinal ifadə tərzi, təbii obrazları, bədii təsvir və ifadə vasitələri aktuallığı ilə seçilir.

H.Arif hansı mövzuda yazmasından asılı olmayaraq təsvir etdiyi hadisəni, predmeti təsəvvüründə canlandıra bilir, bu şeirlər sadələyi və poetikliyi ilə fərqlənir. Şairin poetik nümunələrindən aydın müşahidə olunur ki, o daha çox konkret faktlara, şahidi olduğu canlı hadisələrin birbaşa özünə istinad edir, onları şeirlərində o qədər real və səmimi canlandırır ki, oxucu da bu təbiiliyi qəbul edir, onları sevə-sevə mütaliə edir. Onu da tərəddüd etmədən vurğulamaq lazımdır ki, şairin poeziyasındakı bədii lövhələr, üslub, təsvir-tərənnüm meyarları milli təfəkkürümüzün təzahürləridir. Şairin şeirlərinin əsasını milli zəmin, milli təbiət və milli pafos təşkil edir. Sənətkar öz milli mühitində görə biləcəklərini qələmə alır, onun bütün lirik düşüncələri də məhz milli zəmin üzərində cərəyan edir və bu zəmin üzərində boy atır, sadəlik və təbiilik qazanır, daha da koloritli görünür. Şairin şeirlərində özünüifadənin təbiiliyi, hiss və duyğular

aləminin canlılığı fərdi üslub xüsusiyyəti kimi onun qələminin gücündən xəbər verir. Sənətkarın poeziyası bütövlüyü ilə seçilir, obrazlı ifadə etdiyi üçün onun şeirləri hiss olunacaq dərəcədə uğurludur. Bu poetik nümunələr kamilliyi ilə dövrümüzün lirikasını daha da zənginləşdirir.

Xalq düşüncəsini və təfəkkürünü özünəməxsus şəkildə ifadə edən H.Arifin poeziyasının əsas mövzusu Vətən, onun ayrı-ayrı təbiəti və gözəllikləridir. Professor Camal Mustafayev yazır ki, "Hüseyn Arifin yaradıcılığının əzəli qaynaqlarından biri təbiət idi. Doğma Azərbaycan təbiətinin möhtəşəm gözəlliyinə vurğunluq – onun poeziyasında çeşidli bədii təcəssümünü tapıbdır. Ana torpağın şeriyyət dolu aləmini şair öz poetik taleyinin şərti kimi anladırdı:

Deyirlər: arabir şeirimin səsi
Çəməni, çiçəyi gətirir yada.
Deyirlər: vaxt olur könül nəğməsi
Tufanı, şimşəyi gətirir yada.

Zəriflikdə güləm, sərtlikdə qaya,
Yoluna qar düşüb, şəfəq çilənib.
Deyirlər: gələndə mən bu dünyaya
Bülbül də oxuyub, qartal da dinib (4, s.7).

Şairin poetik irsindən söhbət açan professor Bədirxan Əhmədov yazır ki, "Hüseyn Arifin poeziyasının əsas xüsusiyyətlərindən biri xalq düşüncəsi və təfəkkürünü özünəməxsus şəkildə ifadə etməsindədir. Onun şeirlərindəki lakoniklik, səmimiyyət, təbiilik də bundan irəli gəlir, ifadələri, fikirləri sanki xalq ədəbiyyatından, yaxud xalqın içindən süzülüb gəlir" (3, s.133). Alim sənətkarın mövzu dairəsindən, poeziyasının lirik qəhrəmanından bəhs edərkən haqlı olaraq vurğulayır ki, şair yaradıcılığında Vətən obrazını ön plana çıxarır, onun ayrı-ayrı təbiətini və gözəlliklərini tərənnüm etməyə geniş yer ayırır. Ədəbiyyatşünas alimin qənaətinə görə, "O, (H.Arif-R.M.) şeirlərində Azərbaycanı vəsf edir, onun insanlarını, dağlarını, dərələrini, meşəsini , çölünü, çəmənini təsvir edir. Təkcə təsvir etməklə qalmır, onu dərk etməyə çalışır və bizim görmədiyimiz, hiss etmədiyimiz duyğuları göz önünə gətirir. Şair Azərbaycan təbiətinin vurğunudur, onun poeziyasında Azərbaycan təbiətinin çeşidli obrazlarını görmək olar" (3, s.135).

Təbiət gözəlliklərinin portretini çəkən Hüseyn Arif bu işə "sadəcə bir zövq mənbəyi olaraq baxmaqla məhdudlaşmırdı. O, uca dağların seyrinə çıxır, buz-bulaqların gözündən su içir, buludları yarıb dinən qartalı seyr edir, yağışa, küləyə tuş gəlsə də, çən, duman yolunu kəssə də təbiəti özünün həmdəmi hesab edir, poetik dillə ifadə edir ki, onu ilhama gətirən təbiətin özü də onu bütün çətinliklərdən də hifz edəcəkdir. Ona görə də şair insanları Azərbaycan təbiətinin möhtəşəm gözəlliyinə biganə qalmamağa, onu qorumağa səsləyir:

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım,
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım.
Nə kaman götürək, nə tar, nə qaval,
Orda nəğmə də var, nəğməkar da var.
Yarıb buludları dinəndə qartal
O səsə bərabər bir səs harda var.
Zülmət gecələrdə parlayan şimşək,
Yol üstdə göz qırpan mayak deyilmi?

Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi (1, s.49)

Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi, "təbiət və təbiətin insanlara bəxş etdiyi duyğular, saflıqlar onun qəlbini qürurla doldurur, onu riqqətə gətirir, daim özünə çəkir - şeirlərindən belə görünür ki, daim şair xəyalı vətənin ucsuz-bucaqsız yerlərində - düzlərində, dağlarında, meşələrində, buz bulaqlı çöllərində keçir. Uca dağların seyrində hər şey təbiidir, hər şey təbiətin özündədir. Təbiət özü sanki bir cəmiyyətdir və burada hər şey yaradılıb, sadəcə təbiəti duymaq və dərk etmək lazımdır" (3, s.137).

"Ən böyük anadır təbiət bizə", - söyləyən şair vətəni, onun əsrarəngiz təbiətini qorumağı, onun qayğısını çəkməyi insanların borcu hesab edir. O, "Sevin, duyun təbiəti" şeirində gənc nəslə müraciətlə yazır:

İnsan gəlir, insan gedir
Dəyişirik nəsil-nəsil.
Ana torpaq əbədidir,
Ana torpaq köçən deyil.
Dəyişsə də görkəmini
Dəyişməyən xilqəti var.
Sinəsi gen, qoynu dərin
Min sirri, min hikməti var.
Ay balalar, əbəs yerə
Başlamadım bu söhbəti-
Sevin, duyun təbiəti! (2, s.51)

Qayaları canlı tarix hesab edən şair vətənimizin min bir gözəlliklərindən söhbət açır, öz lirik qəhrəmanı ilə doğma diyarın seyrinə çıxır, ağbaşlı dağları, ətirli meşələri, buz buzlaqları, yamyaşıl düzənlikləri, bir sözlə, vətənin flora və faunasını mahir rəssam bacarığı ilə təsvir edir, oxucuya son tövsiyəsi belə olur:

Təbiətin övladıyıq,
Təbiət ən böyük ana.
Öz döşündən süd verir o,
Milyon-milyon yaranana.
Mənalıdır əzəl başdan
İşığı da, küləyi də.
Dumanı da, tüstüsü də,
Dolusu da, şimşəyi də.
Ay balalar, unutmayın,
Dərk edin bu həqiqəti –
Sevin, duyun, təbiəti! (2, s.53)

Hüseyn Arifin poeziyasında təbiətin qorunması məsələsinə xüsusi önəm verildiyi ilk baxışdan aydın sezilir. R.Göyüş yazır ki, "Onun şeirlərində təbiətlə insanın vəhdəti o qədər təbii verilir ki, sanki təbiətin qoynundasan, onunla canlı ünsiyyətdəsən. Ən maraqlısı odur ki, Hüseyn Arif təbiətdə olan gözəllikləri insanda axtarır. O gözəlliyi də, ülviliyi, zərifliyi də, sərtliyi, qürur və vüqarı da təbiətdə görür və insanda axtarır" (5). Şair insanların eləcə də cəmiyyətin özünün də təbiətə məxsusi diqqət yetirməsini təbii hisslərlə təsvir edir. Şair "təbiətə "Ana təbiət", - deyə

müraciət edir, "Ən böyük anadır təbiət bizə", - deyə onu ən qədim həyat işığı hesab edir. O, günləri, ayları bağrına basıb, qollarını fəsillər üçün açıb. Ötən nəsillər təbiətin döşündən süd əmib, gələcək nəsilləri düşünüb. Lakin ana təbiətin özünə qayğı lazımdır, çünki qayğısız varlıq qanadlanmaz" (3, s.137). Bu mənada şairin təbiət vurğunu akademik Həsən Əliyevə ithaf etdiyi "Ana təbiət" şeirindəki

Məsəl var: - Anadır evin dirəyi
Bir dirək yıxılsa bir divar yatar.
Ana təbiəti itirsək, əgər
Bir ev yox, bir kənd yox, bir dünya batar (1, s. 53) .

və yaxud təbiət aşiqi, məşhur rəssam Səttar Bəhlulzadəyə ithaf etdiyi:

Vaxtlımı doğulduq, vaxtsızmı olduq?
Bir də qəm gətirən bu söhbət nədir?
Ana təbiətin əkiz oğluyuq
Bizim qüdrətimiz təbiətdədir –

bəndlərində insan və cəmiyyətin təbiətlə vəhdətdə tərənnüm edə bilməsinin bariz nümunəsidir.

Hüseyn Arifin "Təbiət düşünür", "Sevin, duyun təbiəti", "Ana təbiət", "Demir", "Meşələr", "Bir ovuc torpaq", "Bulaq", "Bahar nəğməsi", "Bənövşələr", "Görən dağlar mənsiz qəribsəyirmi?", "Təbiət gətirir", "Buludlar", "Damcılar", "Ağaclar", "Palıdlar", "Kök və budaq", Kötük" və sairə kimi şeirlərində ana təbiətin müxtəlif sahələrini sanki peşəkar bir rəssam kimi təsvir edir. Onun şeirlərində təsvir olunan hadisə və mənzərəni asanlıqla kətana köçürmək mümkündür.

Hüseyn Arifdə olan "nadir mənzərə yaddaşı" onun təbiət lirikasında estetik gözəlliklə yanaşı, mənəvi dəyərlərin təsviri də ictimai məzmun qazanır. Şairin bu poetik nümunələri yalnız təbiətin bir parçasının mənzərəsini deyil, eyni zamanda sənətkarın bu ruhda düşüncələri müasir dövrdə olduqca zəruri olan ekoloji problemlərin həllində də mühüm əhəmiyyət kəsb etdiyini söyləmək mümkündür.

**Ədəbiyyat**

1.H.Arif. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 224 s.
2.H.Arif. Xatırla məni. Bakı: Yazıçı, 1999, 276 s.
3.Əhmədli B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, Qanun, 2025, 662 s.
4.Mustafayev C. Hüseyn Arif şeirinin cazibəsi, ön söz, H.Arif. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 2004
5.Göyüş R. Hüseyn Arif – Dastan ömrü yaşayan şair // "Ədəbiyyat qəzeti", 26 dekabr 2024-cü il.

**Nübar İbrahimova**
*nubar666777@gmail.com*
ADPU-nun Şəki filialının baş müəllimi

## UŞAQ QƏLBİNƏ SIĞAN DÜNYA: TƏBİƏT MİRVARİD DİLBAZİNİN POEZİYASINDA

Azərbaycan uşaq ədəbiyyatının inkişafında misilsiz xidmət göstərən, ən gözəl uşaq əsərlərini yaradan şairələrimizdən biri də Mirvarid Dilbazi olmuşdur. O, yetmiş ildən artıq yaradıcılıq yolu

keçmiş, lirikamızın rəngarəng və zəngin nümunələrini yaratmışdır. Yeni nəslə tərbiyə hissləri aşılamaq, kiçik yaşlarından onlarda halal zəhmətə məhəbbət, elmi biliklərə həvəs, həyat hadisələrinə ayıq münasibət və digər keyfiyyətlərin poetik şərhi M.Dilbazinin uşaq şeirlərində öz parlaq əksini tapmışdır.

Sənətkarın uşaq şeirlərinin böyük bir qismi təbiət mövzusundadır. "Günəş mahnısı", "Yaz yağışı", "Yaz buludu", "Göy gurlayır", "Yayda" "Meyvələr", "Şəlalə", "Badamlı" və s. şeirlərində şairə uşaqlara yurdumuzun təbiətindən, ilin ayrı-ayrı fəsillərindən, heyvanlar və quşlar aləmindən söz açır. M.Dilbazinin "Günəş", "Yaz yağışı", "Yaz buludu", "Göy gurlayır" və s. şeirləri kiçikyaşlı uşaqlarda təbiətə məhəbbət aşılayan dəyərli əsərlərdir:

Oyan, sevimli al Günəş,
Sən ey bu varlığın canı!
İsit bizim yaşıllanan,
Çiçəkli-güllü tarlanı!

Şairə uşaqlara izah edir ki, əgər günəş olmazsa, təbiət gülməz, heç bir əmək bəhrə verməz, ətirli, dadlı çörək süfrələri bəzəməz. Heç şübhəsiz ki, "Günəş" şeirini oxuyan körpə balalar M.Dilbazinin "varlığın canı" adlandırdığı günəşin həyat üçün nə qədər zəruri olduğunu duyur, onun böyüklüyünü, əzəmətini təsəvvür edir.

M.Dilbazi təbiətin nemətləri-meyvələri və bitkiləri haqqında şeirlərində kiçikyaşlı uşaqlara ilk ensiklopedik məlumat verir. O, "Meyvələr", "Əzgil" şeirlərində öz poetik üslubuna sadiq qalaraq konkret təsviretmə və mükalimə yolu ilə yadda qalan şeirlər yaratmışdır. "Meyvələr" şeirində gavalı, şaftalı, alma, üzüm, çiyələyin əsas xüsusiyyətləri, uşaqlara məxsus şəkildə çox gözəl poetik boyalarla təsvir edilmişdir.

Çiyələyəm, özüm yumşaq,
Bir rəngimə, dadıma bax!
Əkilərəm bağda lək-lək,
Meyvə varmı heç mənimtək?

"Düşərgə mahnısı", "Biçin mahnısı", "Göy gurlayır", "Hələ də istidir payız torpağı" şeirlərində təsvir olunan təbiət hadisələri, ildırımlı, şimşəkli anlarda, günəşli sakit günlər də uşaq təxəyyülünə məxsus cizgilərlə verilir.

Kiçik yaşlı uşaqları təbiət sirlərindən xəbərdar etmək, onların dünyagörüşünü genişləndirmək, hazırcavab öyrətmək üçün Mirvarid Dilbazi tapmaca-şeir formasından məharətlə istifadə edir. Onun balacalar üçün yazdığı "Tapın görüm hansı quşam" şeiri bu qəbildəndir. Bu şəkilli tapmaca-şeir balaları düşünməyə vadar edir. Lakin şairənin adını gizlətdiyi bu quşcuğaz haqqında balalara sadaladığı nişanələr o qədər aydındır ki, onlara çox da fikirləşmək lazım gəlməyəcək:

Nə üçtelli durna, nə də
Haçaquyruq qaranquşam.
Bütün qışı cikkildəyib,
Yem gəzirəm. Hansı quşam?

M.Dilbazi yaradıcılığa başladığı ilk illərdən bədii sənətin qayğısına qalmış, yeni nəslin bir şəxsiyyət kimi formalaşmasına xidmət edən şeirləri ilə diqqəti cəlb etmişdir. İlk baxışdan uşaqlara təbiət obrazını təqdim etmək, ecazkar qüvvəyə malik olan bu sehrkar varlığın yaratdığı füsunkar gözəlliyin estetik dəyərlərinə sahib olmaq, insandan əvvəl kainatın bütün guşələrinə təravət vermiş

flora və faunanın bütün sirləri ilə uşaqları tanış etmək, bütün bunlar M.Dilbazinin uşaq şeirlərində öz əksini tapmışdır.

Sənətkar ilin bütün fəsillərinin bədii təsvirini çox gözəl poetik boyalarla nəzmə çəkmişdir. “Yaz gəlir” şeirində şairə baharın mənzərəsini canlandırır. Bu kiçik həcmli şeirdə baharın gəlişi öz poetik ifadəsini tapmışdır:

Günəş doğur, işıqlanır,
Dərə, təpə, o çöl, bayır,
Şırıl-şırıl axan sular,
“Bahar!”-deyə pıçıldayır.

Şairənin bahar fəslinə həsr etdiyi “Ürəkdə qanların coşan fəslidir”, “Xoş gəlirsən”, “Çiçək fəsil”, “Bülbüllər haçan gələr”, “Yaz gəldi”, “Göyərin otlar, göyərin” adlı şeirləri öz təsvir gücü ilə poetikliyin ən uca zirəsinə yüksəlir. M.Dilbazinin yaz fəslini vəsf etdiyi silsilə ilə tanış olarkən görürük ki, onun balaca qəhrəmanı sanki təbiətin sehrkar qoynunda səyahətə çıxmışdır. “Yaz yağışı” şeirində onun gözləri qarşısında geniş üfüqlər canlanır:

Şimşək çaxdı uzaqlarda,
Quşlar susdu budaqlarda.
Yağış gəldi dağı aşdı,
Çiçək-çiçəyə dolaşdı.

M.Dilbazinin təbiət şeirləri çoxcəhətli, rəngarəngdir. Onun “Payız şeirləri”nə daxil etdiyi “Yarpağa büküb saxlar”, “Söyüdlər saralanda”, “Yarpaqlar düşdü”, “Durnalar lələk salır” və sair şeirlərində yığcamlıq özünü göstərsə də, poetik təsvir olduqca qüvvətli nəzərə çarpır. “Yarpağa büküb saxlar” şeirində payız fəslinə məxsus olan ardıcıl təbii mərhələlər, bu dəyişkənlikdən sonra bağların düşdüyü təbii durum istedadlı bir rəssamın palitrasından çıxmış bir tablonun mənzərəsini xatırladır.

Şairənin təbiət şeirləri çoxcəhətli və rəngarəngdir. Qışın ecazkar gözəlliyi obrazlı dillə, çox yüksək dərəcədə təsvir edilmişdir.“Qış”, “İsti yuvada” şeirlərində həmçinin, təbiətin ayrı-ayrı detallarını əks etdirir. “İlin fəsilləri” şeirində təbiət yalnız təsvir obyekti olaraq qalmır, həm də insanın daxili aləminin, xarakterinin üzə çıxmasına səbəb olur. Bu əsərlərdə ən sadə təbiət lövhələri belə dərin hisslər yaradır, insanı düşünməyə sövq edir.

M.Dilbazi uşaqlar üçün yazdığı şeirlərində canlılar aləmini də yaddan çıxarmamışdır. Onun “Qaranquş”, “Torağay”, “Sığırçın”, “Hop-hop”, “Cik-cik”, “Sarı qulan”, “Boz oğlağım” və s. şeirləri uşaqların heyvan və quşlara məhəbbətini bir daha artırır. Təbiətin qanadlı dostlarını balacalara sevdirən “Torağay” şeirində şairin soyuğa düşmüş bala quşcuğaza məhəbbəti duyulur. “Qaranquş” şeirində isə sanki balaca nəğməkarın-bu xoşbəxt quşun intizarını çəkdiklərini söyləyir. Şairə yaz çağı yuvasından çıxıb qış üçün azuqə toplayan həşəratları “Çiçək yelləncək” şeirində təsvir edir. “Durnalar” şeirində yarpaqların yavaş-yavaş saraldığı bir vaxtda qızıl telli durnaların qatarlaşıb Xəzəri aşmasını dərin bir hüznlə təsvir etmişdir.

Müasir Azərbaycan uşaq şeirinin poetik inkişafında, bir sahə kimi formalaşmasında M.Dilbazinin ədəbi fəaliyyəti inkaredilməzdir. Onun yaradıcılığının bütün ideyası yeni nəslin tərbiyələnməsi, gələcəkdə bir şəxsiyyət kimi formalaşması notu üzərində köklənmişdir.

**Məlahət Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteri,
https://orcid.org/0000-0002-3600-8499
milababayeva@mail.ru

# ZƏLİMXAN YAQUBUN YARADICILIĞINDA TƏBİƏT MOTİVLƏRİ

Azərbaycan poeziyasında təbiət motivlərinin işlənməsi qədim lirika ənənələrinə əsaslansa da, bu mövzu XIX–XX əsr poeziyasında yeni semantik çalarlar qazanmışdır. Zəlimxan Yaqub bu inkişaf xəttinin müasir mərhələsini formalaşdıran, təbiət təsvirlərini milli yaddaş, ruhani özünüdərk və poetik fəlsəfə ilə sintez edən şairlərdən biridir. Onun yaradıcılığında təbiət təkcə təsvir elementi deyil; o, insanın daxili aləmini bəyan edən canlı güzgü, zamanla dialoqa girən mənəvi məkan və ilahi harmoniyanın rəmzidir.

Şairin poeziyasını oxuduqca, təbiətin səsi ilə insan səsinin eyni ritmdə vurduğunu hiss edirik. Dağların ucalığı, çayların axıcılığı, torpağın ağırlığı, küləyin dəyişkənliyi və yaylaq mənzərələrinin saflığı şairin poetik dünyasında bir bütöv obrazlar sistemi yaradır.

Zəlimxan Yaqub təbiəti Vətənin görünən siması, xalq yaddaşının ən etibarlı daşıyıcısı kimi dərk edir. Onun poeziyasında dağlar, çaylar, çinarlar, torpaq və duman yalnız fiziki reallıq deyil; bunlar Azərbaycan varlığının ruhani qatlarını saxlayan işarələrdir.

Dağlara baxanda sözüm ucalır,
O zirvələr mənə yol göstərir.

Şair dağ obrazında həm Vətənin sərhədini, həm də insanın mənəvi yüksəliş istəyini görür. Dağlar onun poeziyasında dayaq, güc, qürur və bütövlük metaforasına çevrilir. Dağla insan arasındakı əlaqə bir mənəvi vəhdətdədir — dağ insanı yüksəldir, insan da dağların əzəmətindən ruh alır.

Zəlimxan Yaqub poeziyasında təbiət hadisələri insan duyğularının görünən forması kimi çıxış edir. Onun misralarında külək yalnız təbiət hadisəsi deyil, köhnə duyğuların qapısını açan gizli bir səmaya çevrilir; yağış insanın kədəri, günəş ümididir.

Külək əsəndə içimdə nəsə
Bir unudulmuş söz yenə oyandı.

Şair bu kimi obrazlarla insanın qəlbində baş verənləri təbiət hadisələrinə paralel şəkildə verir. Təbiət və insan arasında sərhəd yox olur; insanın hər duyğusu təbiətin bir ahəngində əks-səda tapır.

Zəlimxan Yaqub poeziyasında torpaq yalnız coğrafi element deyil, həm də kimlik duyğusunun əsas mərkəzidir. Torpaq onun üçün həm başlanğıc, həm yol, həm də dönüş nöqtəsidir. Şairin poeziyasında torpağa bağlılıq taleyə bağlılıq ilə eyniləşir.

Torpaqdan gəlmişəm, torpağa gedim,
Bu yol alın yazım, qismətim mənim.

Burada torpaq insan ömrünün başlanğıcı, davamı və sonudur. Zəlimxan Yaqub torpağı sadəcə sevmir; torpaq onun üçün insanın şəkilləndiyi böyük bir kitabdır. O kitabı oxumaq insanın özünü tanıması qədər dəyərlidir.

Zəlimxan Yaqubun çay obrazları poetik məkanın ən geniş semantik qatlarından biridir. Onun poeziyasında çayların səsi zamanın səsi kimidir: axır, danışır, dəyişir, amma heç vaxt dayanmaz. Çay həm zamanın ritmi, həm də yaddaşın axınıdır.

Çayın səsində min il danışır,
Keçmiş də axır, gələcək də axır.

Şair çayın axarında insan ömrünün keçiciliyini görür. Lakin bu keçicilik faciəvi deyil; çay axdıqca həyat da davam edir, zaman da öz yolunu tapır.

Zəlimxan Yaqubun yaylaq təsvirləri pastoral lirikanın ən gözəl nümunələrindəndir. Lakin bu yaylaqlar yalnız mənzərə deyil; onlar xalqın nəfəs aldığı, sadəliyin və səmimiyyətin hələ də yaşadığı yerlərdir.

Yaylaq yollarında çiçək ətəyi,
Könlümə bir kəndin səsi gəlirdi.

Yaylaq təsvirləri birlik hissini gücləndirir. Şair üçün yaylaq — həm azadlıq, həm təbiət, həm də xalq yaddaşının açıq səhnəsidir.

Zəlimxan Yaqub üçün təbiətin hər elementi ilahi nizamın bir hissəsidir. Göyün açılması, yağışın yağması, günəşin doğması təsadüfi hadisə deyil; bunlar həm də Tanrının insanla danışma üsuludur.

Göy açılınca nur yağdı yerə,
O nurdan könlümdə işıq göyərdi.

Bu misra şairin təbiəti ilahi nizamın açılışı kimi qəbul etdiyini göstərir. Onun poeziyasında təbiət – əqidə qədər ciddi, dua qədər safdır.

Təbiət motivləri şairin yaradıcılığında sosial və mənəvi dəyərlərin daşıyıcısına çevrilir. Çinar – ata və kök, dağ – milli bütövlük, çay – zaman, torpaq – varlıq, külək – yenilənmədir.

Çinar kölgəsi ömrüm boyadır,
O kölgədə bir ata nəfəsi var.

Bu bənd təbiət elementinin sadəcə təsvir olmadığını, onun mənəvi anlam daşıdığını göstərir.

Zəlimxan Yaqubun yaradıcılığında təbiət motivləri bütöv bir poetik sistem yaradır. Şair təbiəti təsvir etmir; o, təbiəti yaşayır, hiss edir, danışdırır. Dağlar onun poeziyasında insanın ruh gücünə çevrilir, çaylar zamanın içində axan xatirələri səsləndirir, torpaq taleyin özü olur, külək duyğuların xəbərçisi, yaylaqlar isə xalqın nəfəsi kimi təqdim olunur.

Zəlimxan Yaqubun poeziyası təbiət lirikasında yeni mərhələdir: bu poeziya insanla təbiəti ayırmayan, əksinə, birləşdirən poetik dünyabaxışı yaradır. Təbiət onun şeirlərində həm emosional, həm fəlsəfi, həm də sosial məna daşıyan sistemli bir obrazlar kompleksidir. Bu baxımdan şairin təbiət mövzusundakı yaradıcılığı Azərbaycan ədəbiyyatında müstəsna mövqeyə malikdir.

## Ədəbiyyat


1.Yaqub, Z. (2005). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005.

2.Yaqub, Z. Şeirlər. Bakı: Elm və təhsil, 2011

3.Bayramov, M. Müasir Azərbaycan lirikasında təbiət motivləri. Bakı: Elm, 2018

4.Qasımzadə, H. Azərbaycan poeziyasında lirizm ənənələri. Bakı: Yazıçı, 2004

5.Əliyev, A. Zəlimxan Yaqub poeziyasında obrazlar sistemi. Filologiya məsələləri, 2020, 12(3), 45–57.

**Sitarə Vüsal**
Sitara.vusal@baau.edu.az
Bakı Avrasiya Universiteti

# ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ

Klassik poeziyada daha çox estetik harmoniya və lirik ovqatın rəmzi kimi çıxış edən təbiət, çağdaş mərhələdə funksional baxımdan genişlənmişdir. XXI əsr Azərbaycan ədəbiyyatında təbiət təkcə mənzərə təsviri deyil, həm də insanın daxili dünyasını, cəmiyyətin psixoloji durumunu və zamanın yaratdığı dəyişiklikləri ifadə edən çoxqatlı poetik komponentdir.

Müasir şair və yazıçılar təbiəti həm psixoloji, həm sosial, həm də ekoloji mənalarla yükləyərək onu insan ruhunun, urbanizasiya proseslərinin və ekoloji problemlərin bədii güzgüsünə çevirirlər. Eyni zamanda təbiət milli yaddaşın mühüm daşıyıcısı kimi təqdim olunur; Qarabağ, Şuşa, Kəlbəcər kimi məkanlar yalnız coğrafi təsvir deyil, həm də tarixi yaddaş və qayıdış arzusunun poetik simvoluna çevrilir.

Beləliklə, müasir Azərbaycan ədəbiyyatında təbiətin tərənnümü estetik, psixopoetik, ekoloji və milli-identik anlamlarda genişlənərək çoxplanlı bir struktur qazanmışdır. Bu tədqiqatın məqsədi də məhz bu funksiyaların təhlili və təbiət motivinin semantik dinamizminin müəyyənləşdirilməsidir.

## 1. Çağdaş poeziyada təbiətin estetik və semantik yükü

Müasir Azərbaycan poeziyasında təbiət obrazları lirizmi gücləndirməklə yanaşı, poetik dilin metaforik qatlarını genişləndirir. Klassik lirikanın harmonik və ilahi rəmz kimi təqdim etdiyi təbiət bu gün daha çox psixoloji, modernist və simvolik məna daşıyır. Bu dəyişiklik həm poetik təfəkkürün modernləşməsi, həm də çağdaş insanın təbiətlə münasibətlərində yaranan uzaqlaşma ilə bağlıdır.

Ramiz Rövşənin poeziyasında yağış, külək, boş yollar və gecə təsvirləri sadə mənzərə funksiyasını aşaraq insanın daxili ziddiyyətlərini açan poetik kodlara çevrilir. Yağış — arınma və nostalgiya, külək — narahatlıq, gecə isə qorxu və özünə dönüş metaforası kimi çıxış edir [1]. Bu obrazlar qəhrəmanın psixoloji ritmi ilə paralel işləyir.

Vaqif Səmədoğlu yarpağın saralmasını keçmişin və zamanın dağıdıcı gücünün simvolu kimi təqdim edir. Onun payız və qış təsvirlərində lirizm və ironiya birləşərək insan ömrünün dəyişkənliyini ifadə edir [2].

Gənc nəslin yaradıcılığında təbiət daha çox urbanist və postmodern çalarlarla üzə çıxır. Aqşin Yeniseydə beton və şüşə mühit təbiətdən uzaqlaşmanın poetikasına çevrilir; Səlim Babullaoğlunda külək və dəniz ekzistensial gərginliyi ifadə edir; Leyla Əliyevada isə ağac və ulduz kosmik harmoniya və daxili işığın metaforaları kimi səslənir.

Bu gün poetik mətndə təbiət həm də ekoloji narahatlıqların bədii göstəricisinə çevrilir: “çirkli dəniz”, “kəsilmiş ağac”, “dumanda itən şəhər” kimi obrazlar urbanizasiya və ekoloji tənəzzülün metaforik əksidir. Beləliklə, çağdaş poeziyada təbiət obrazları fon funksiyasını aşaraq psixopoetik, simvolik və sosial-etik yük daşıyan fəal poetik element rolunu oynayır.

## 2. Çağdaş nəsrdə təbiətin psixoloji və fəlsəfi funksiyaları

Müstəqillik dövrü Azərbaycan nəsrində təbiət motivi faktoloji təsvir funksiyasını aşaraq psixoloji və fəlsəfi mahiyyət qazanmışdır. Bu mərhələdə təbiət hadisələrin fonu deyil, qəhrəmanın daxili aləmini açan, mətnin ideya yükünü formalaşdıran əsas semantik komponentə çevrilmişdir.

Elçin Hüseynbəylinin nəsrində kənd mənzərələri, çayların səsləri, dağların sükutu insan taleyi ilə üzvi bağlı şəkildə verilir. Təbiət burada milli yaddaş və torpaq bağlılığının daşıyıcısı kimi çıxış edir. Müharibə öncəsi və sonrası təbiət təsvirləri arasındakı fərqlər, dağların "susması" və çayların "darıxması" kimi obrazlar təbiətin insan ağrısını paylaşan metaforaya çevrilməsini göstərir [3].

Afaq Məsudun psixoloji nəsrində təbiət obrazları qəhrəmanın şüuraltına enmək üçün simvolik açar rolunu oynayır. Duman – qeyri-müəyyənlik, yağış – arınma, külək – taleyin sərt müdaxiləsi, səhra – boşluq və özünü axtarma metaforası kimi işlədilir [5]. Təbiət burada xarici mühitdən çox qəhrəmanın ruh xəritəsi funksiyasını daşıyır.

Qan Turalının romanlarında isə urban mənzərələr – küləkli küçələr, qarlı səhnələr, çirkli dəniz – insanın varoluş böhranını, sosial xaosu və tənhalığını ifadə edir. Təbiət konfliktin həm fonu, həm də mahiyyətini açan poetik mexanizmə çevrilir [4].

**3. Təbiət və ekoloji problematika: çağdaş ədəbiyyatın ictimai mövqeyi**

XXI əsrdə ekoloji problemlər – iqlim dəyişikliyi, meşələrin azalması, su ehtiyatlarının tükənməsi və sürətli urbanizasiya – çağdaş Azərbaycan ədəbiyyatının semantik sisteminə daxil olaraq yeni bədii istiqamət formalaşdırmışdır. Müasir yazıçılar təbiətin məhvinə yalnız ekoloji narahatlıq kimi deyil, həm də insan–təbiət münasibətlərinin pozulması kimi yanaşır və bunu həm poetik, həm də ictimai tənqid müstəvisində ifadə edirlər.

Müstəqillik dövründən sonra urbanizasiyanın güclənməsi, "yaşıl məkanların" itirilməsi, Xəzərin çirklənməsi və regionlarda ekoloji balansın pozulması ədəbiyyatda həm nostalji, həm də xəbərdaredici tonla səslənir. Bu mənada müasir mətnlər ekoloji şüurun formalaşmasına xidmət edən mədəni platformaya çevrilir.

Poeziyada qocaman ağacların kəsilməsi yalnız təbiət hadisəsi deyil, həm də kollektiv yaddaşın itirilməsi kimi metaforik təqdim olunur. Xəzərin geri çəkilməsi və sahillərin çirklənməsi həm ekoloji tənəzzülün, həm də insanın emosional boşalmasının simvolu kimi işlənir [6].

Nəsrdə kəndlərin boşalması, tərk edilmiş evlər, sıradan çıxan əkin sahələri sosial-ekoloji faciə kimi təsvir edilir. Yazıçılar təbiətin zədələnməsini millətin ruhunun zədələnməsi ilə eyniləşdirərək ekoloji motivi ictimai mövqenin bədii ifadəsinə çevirirlər. Qan Turalı, Pərviz Cəbrayıl, Günel Mövlud və Şərif Ağayar kimi müasir müəlliflərdə urban xaos – beton divarlar, tozlu küçələr, ağacsız prospektlər – insanın psixoloji tənhalığı ilə paralel işlədilir; "çirkli hava" qəhrəmanın nəfəsini, "boz səma" onun düşüncələrini sıxır.

**4. Təbiətin fəlsəfi yozumu: zaman, varoluş və yaddaş**

Çağdaş ədəbiyyatda təbiət obrazları varoluşun və zamanın dərkində mühüm poetik vasitə kimi ortaya çıxır. Təbiət – dəyişən, yenilənən, lakin fasiləsiz davam edən struktur olaraq insan ömrünün keçiciliyini simvolizə edir.

Təbiətin fəsilləri – gənclik, yetkinlik, qocalıq kimi antropoloji mərhələlərin bədii rəmzidir. Dəniz – sonsuzluq və qeyri-müəyyənlik, torpaq – başlanğıc və sonluq, ağac – yaddaş və həyat xəttidir. Bu rəmzlər xüsusilə aşağıdakı müəlliflərdə güclüdür:

Ramiz Rövşən – həyatın keçiciliyi və insanın daxili boşluğu

Afaq Məsud – fərdin psixoloji labirinti

Nəriman Əbdülrəhmanlı – tarixi yaddaş və milli kimlik

Səlim Babullaoğlu – modern insanın tənhalığı və məkanla qarşıdurması

Beləliklə, təbiət çağdaş ədəbiyyatda həm də metafizik məna daşıyan universal poetik məkan kimi çıxış edir.

**Ədəbiyyat**

1.Rövşən, R. Seçilmiş əsərləri. Bakı, Qanun, 2015.
2.Səmədoğlu, V. Şeirlər. Bakı, Azərbaycan, 2006.
3.Hüseynbəyli, E. Əsərlər. Bakı, TEAS Press, 2018.
4.Qan Turalı. Fələk qırmancı. Bakı, Qanun, 2019.
5.Məsud, A. Azadlıq. Bakı, Qanun, 2016.
6.Mövlud, G. Hisslər və insanlar. Bakı, İkarus., 2020.

**Məhrux Dövlətzadə**
filologiya üzrə fəlsəfə doktoru
ADPU-nun müəllimi
mahdovlat@gmail.com

## MUSA YAQUB POEZİYASINDA TƏBİƏT BƏŞƏRİN ƏXLAQİ-ESTETİK AMİLİ KİMİ

**Təbiət – Vətən- İnsan** Musa Yaqub poeziyasında bütöv varlıq kimi bir-birinə qarışmış, çulğaşmış formada təzahür edir. Onun təbiət lirikası təkcə estetik baxımdan qəlb oxşayan sətirləri düzüb-qoşmaq deyil, füsunkar təbiətin gözəllikləri qarşısında düşüncələrin fəlsəfi dərinliyinin ezackar bir dillə təzahürüdür . Bəzən də bu poeziya təbiətin əsrarəngizliyini aşaraq xalqın təəssübkeşi olan bir şairin qəlbini narahat edən duyğularını dilə gətirməyin ifadə üsullarından biri kimi ortaya çıxır. Ana torpağa bütün varlığı ilə bağlı olan Musa Yaqub şeirlərini ilahi zövqün təntənəsi kimi yaradır:

Bəlkə də borcundan çıxmadım, Vətən!
Ömür bahar deyil bir də qayıtsın.
Ölsəm də qoynunda qoy ölüm ki, mən,
Çürüyüm, bir ovuc torpağın artsın…

Təbiətlə insan hissləri arasında harmoniya Musa Yaqub şeriyyətinin məzmununu təyin edir. Şair oxucusunu inandırır ki, sənətin məqsədi varlıqların zahiri görünüşünü deyil, daxili əhəmiyyətini təmsil etməkdir. Bu baxımdan mənəvi borcu bilib ömrün mənasına çevirdiyi vətəndaşlıq amalı onun qələminin daxili qatını təşkil edən maddə kimi əhəmiyyət daşıyır.

Musa Yaqub hələ gəncliyindən öz dəst-xəttini yaratmış, aydın yolu, dəyişməz mövqeyi olan şairdir. O, xalqın danışan dili, düşünən beyni olmuş ,daxili bütövlüyünü qoruyub saxlayaraq zaman keçdikcə onun milli sərvətinə çevrilən şəxsiyyət kimi qiymətlidir.

Məmləkətin Palıd adamı, poeziyamızın ulu Xan Çinarı Musa Yaqub qəlbinin ağrısını, sızıltısını şeirə tökür. Bəzən bir durna qatarı, bəzən xəzan yellərinin sovurduğu bir yarpaq, bəzən də ulduz- ulduz yağan qar bu qəlbi ağrıdan, onu ağırlaşdıran nə varsa alıb özü ilə aparır. İnsanla təbiətin vəhdəti, insanın ağac, yarpaq, quş, çöl, yağış görkəmində metaforikləşməsi, ya da təbiətin insaniləşməsi o şeirlərin bədii təsir qüvvəsini artırır. Bəlkə buna görə Musa Yaqub təbiətlə üz-üzə qalmaq istəyib, rahatlığını təbiətdə tapıb.

Ruhu ilə, canı ilə təbiətə bağlı olan , doğma Buynuz kəndindən kainata boylanan Musa Yaqub poeziyamızın həmişəyaşıl sözünü yaradaraq oxucusunu sevgiyə, gözəlliyə, ədalətə səsləyir. Onun şeirlərini oxuyub laqeyd qalmaq olmur. Bu poeziya dost əli kimi insanın qəlbinə toxunur:

Payızın hökmüylə əsdi bir külək,
Bir yaşıl səltənət çovğuna düşdü.
Ağaclar bir yaş da qocaldı demək,
Bir yarpaq nəsli də qırğına düşdü.
…...................................................
Bir yarpaq boy atdı körpə bir uşaq,
Ömründən bir yarpaq düşdü qocanın...

Fəsillər dəyişdikcə Musa Yaqub da özünü zamana kökləyir. Yaz onun qəlbinə gənclik hərarəti bəxş edirsə, payızı köç edən durna qatarında seyr edə bilir. Qışın ulduz-ulduz səpələnən qarının soyuğu iliklərinə işləyir. Şairin yayı isə sadəcə keçir...

Bir az bahara yaxın,
Bir az qışdan uzağam.
Payızdan söz salmayaq,
Yarpaqlarım tökülər,
Yaman kövrək budağam...
Bu yay da belə keçdi...

Təbiət vurğunu Musa Yaqubun şeirlərində ilin dörd fəslinə aid misralar da çoxdur, bəndlər də, amma şair payızla insan ömrü arasında fərqli əlaqə qurur. Onun şeirlərində insan təbiətləşir, təbiət insanlaşır. Bu poeziyada tükənən insan ömrü payızın xəzanı ilə tez-tez müqaisəyə çəkilir:

Atımı xəzana sürdüm bu payız.
Ömrümün saralmış yarpaqlarını
Gözümlə çox aydın gördüm bu payız.
Ovcuma da baxdım,
bir xəzələ də,
Damarlar, cizgilər nə qədər oxşar.
Bizdən ayrı deyil bircə gilə də,
Ovcumun içində bir payız yaşar.
Sandım ən duyğulu çağım da budur,
İstədim ən zərif sözə toxunam.
Gördüm ki, payızla söhbətim tutur,
Bildim ki, payıza mən də yaxınam.

Solmağı payızın xəzanından, dolub boşalmağı buluddan, tənhalığı quşları köç etmiş boş yuvadan öyrənir şair. Bu yolla ağrılarına alışmağı öyrənmək niyyətindədir. Onun poetik stixiyası insanlığın poeziya mərhələsi ilə daxili-ruhi əlaqəsindən xəbər verən impulsiv enerjidən yaranıb. Fərdi-psixoloji qatlarda şairin zəngin xəyalları ilə real həyatın mürəkkəbliyi iç-içədir:

...Bu sonlara baxan vaxtı
Könlüm olur para-para
Ot saraldıb, gül solduran
Üzü soyuq bu torpağa,
Üzü üstə düşüb qalan
Son yarpağa öyrət məni.
Baxım görüm torpaq üstə
Huşa getmək necə olur.

Son durnayla qoşa getmək,
Üryan qalmış ağac kimi
Qışa getmək necə olur…
Bəlkə qalaq, bəlkə gedək…
Amma payız, bir az dayan
Gözlə məni birgə gedək.

Şairin yaradıcılığı üçün səciyyəvi olan nikbin ruh onun sağlam milli ruhunun duyğular, düşüncələr, aydın, anlaşıqlı poetik rəmzlərlə ifadəsinin ideya-estetik şərtidir. Musa Yaqubun təbiət lirikası təbiətin təbii təravətinin, ətrinin sözlərə çevrilməsi, təbiətin sözlü ahəngi, sözlərlə ifadəsi, şairin duyğularının, hisslərinin təbiətlə həmahəngliyidir.

Payızda köç edən durnalardan çox yazılıb, çox deyilib. Lakin Musa Yaqub şeirindən qalxıb köç edən durnalar insana payız həsrətini, yaz nisgilini yaşatmaqdan çox onu dönüb arxada qoyduğu illərinə baxmağa sövq edir. “Qızıl yollarda gümüş bir xəyal” kimi uçan durnalara tamaşa edən insan qəlbində keçmişin hesabatını dinləyir və düşünür ki, “Şəfəqlərə ümid olmasa idi” necə yaşamaq olardı?...

...Uçurdu, uçurdu, yenə uçurdu.
Od kimi alışan, gün kimi yanan
Taya buludları alıb qucurdu.
O uzun yolların əzablarını
Sonra gilə-gilə əridirdilər.
Yorğun haylarını-haraylarını
Elə bu şəfəqlə kiridirdilər
Səhər şəfəqinə düşən durnalar...

Bu misraların poetik tutumu onu da deməyə əsas verir ki, şair təbiətin yaratdığı qeyri-adi nizamın, estetik möcüzələrin ovsunlayıcı panoramını-qatarlaşıb köç edən durnaları seyr edəndə duyğularının lirası təbiətin gözəlliyini poetik reallığı çevirərək mənzərənin təlqin etdiyi kədər motivini sıradan çıxarır. Kədər, qəm dünya şairlərinin romantizminin əbədi motivləri olsa da, qeyd etmək lazımdır ki, kədərdən “qaçmaq”, nikbinlik motivi Musa Yaqub poeziyasında ardıcıl və davamlı bir xarakter alır.

Bəzən əllərinin qabarmış damarlarında payızı axtaran, bəzən saralmış payızda öz ömrünü görən şair bütün təbiət şeirlərində misraların poetik tutumu, onların emosional bədii təsviri, hiss və həyəcanların, duyğu və düşüncələrin assosiativ təsəvvür gücü şeirlərinin ideya mövqeyini möhkəmlədərək oxucunu həyatdan, təbiətdən zövq almağa səsləyir, təbiətdən ilhamlanaraq fəlsəfəyə qapılan müdrik şair oxucusuna da həyatı olduğu kimi qəbul etməyi təlqin edir :

Bu gün duyğum oyaq, düşüncəm oyaq,
Bu gün çox arxayın, çox soyuqqanlı,
Bir az dərdi-sərdən, qayğıdan uzaq
Dayanıb beləcə payıza baxdım.
......................
Düzdür, hələ min-min payız gələcək,
Amma heç bu payız qayıtmayacaq.

**Nigar Aslanova**
filologiya üzrə fəlsəfə doktoru
nigar.q.aslanova@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

## AZƏRBAYCAN SƏRBƏST ŞEİRİNDƏ TƏBİƏTİN MÜASİR POETİK İNTERPRETASİYASI

Təbiət motivləri Azərbaycan ədəbiyyatında ənənəvi poetik estetikanın əsas bədii kodlarından biri kimi diqqəti cəlb etmiş və qədim dastanlardan klassik poeziyaya qədər həm poetik inikasın estetik komponenti, həm də insanın daxili aləminin ifadə vasitəsi olmuşdur. XX əsrin ortalarından etibarən sərbəst şeirin təşəkkülü ilə poetik sistemdə baş verən müasir proseslər təbiətin təqdimatına da təsir göstərmiş, təbiət obrazlarının funksiyası, semantik dəyəri və poetik müstəvidəki yeri dəyişməyə başlamışdır.

Verlibrin (sərbəst şeirin – N.A.) poeziyaya gətirdiyi ritm sərbəstliyi, məna strukturlarının sərbəstliyi şairlərə təbiət motivlərini yalnız təsviri element kimi deyil, həm də simvolik, fəlsəfi, psixoloji və sosial məna daşıyıcıları kimi təqdim etməyə imkan yaratmışdır. Bu baxımdan təbiət artıq sadəcə müşahidə olunan mühit deyil, həm də insan təfəkkürünün, milli yaddaşın, kollektiv emosiyanın və müasir insanın psixoloji vəziyyətinin poetik güzgüsünə çevrilmişdir.

Tədqiqatda qarşıya qoyulan əsas məqsəd Azərbaycan sərbəst şeirində təbiət obrazlarının müasir interpretasiyasını təhlil etmək, onların funksional-semantik xüsusiyyətlərini göstərmək və müasir poetik düşüncədə təbiət motivlərinin rolunu üzə çıxarmaqdır.

Məlum olduğu kimi, Azərbaycanda sərbəst şeir XX əsrin ikinci yarısında müasir meyillərin təsiri ilə daha sistemli şəkildə formalaşmışdır. Verlibr ölçü və qafiyədən kənara çıxmaqla düşüncə axınının daha sərbəst və çevik təqdim olunmasına şərait yaratmışdır. Sərbəst şeirin bu spesifikliyi təbiət motivlərinin də yeni formada təqdim edilməsinə gətirib çıxardı.

Klassik poeziyada təbiət daha çox bədii fon funksiyası daşıyırdısa, sərbəst şeir ənənəsində təbiət mənəvi keşməkeşlərin işarəsinə, fəlsəfi qənaətlərin təsvirinə, ictimai narahatlıqların poetik əksinə, metaforik simvolların daşıyıcısına çevrildi.

Rəsul Rza yaradıcılığında yağış, duman, dəniz, sükut kimi elementlər təkcə vizual obrazlar deyil, həm də müasir insanın daxili gərginliyinin simvollarıdır. Onun poeziyasında təbiət motivləri düşüncə ilə paralel addımlayır, şeirin ritmini müəyyən edir və mətnin semantik çəkisini artırır. Bu, təbiətin müasir poetik interpretasiyasının ilk nümunələrindən hesab olunur.

Sərbəst şeir poetikasında təbiət motivləri daha çox fəlsəfi məzmunla yüklənmişdir. Şairlər təbiəti yalnız təsvir etmirlər, eyni zamanda onun semantik çalarlarını üzə çıxarır, insan-təbiət münasibətlərinin müxtəlif səviyyələrini araşdırırlar.

Məmməd Arazın poeziyasında dağ, torpaq, külək, çinar kimi obrazlar yalnız təbiət obyektləri deyil, həm də milli kimliyin, tarixi yaddaşın, mübarizə ruhunun simvoludur. Dağın ucalığı, torpağın məhsuldarlığı, küləyin sərtliyi və çinarın kökləri həm poetik, həm də ideoloji funksiya daşıyır.

Ramiz Rövşən yaradıcılığında təbiət motivləri insanın daxili aləminin, xüsusilə də tənhalığın, mənəvi narahatlığının bədii ifadəsinə çevrilir. Məsələn, onun şeirlərində külək bəzən

keçmişin səsini gətirir, bəzən isə insanın daxili boşluğunu xarakterizə edir. Bu motivlər sərbəst şeirin eksistensial qatını gücləndirir.

Bu mənada təbiət həm milli kimlik, həm fərdi psixologiya, həm də fəlsəfi düşüncə müstəvisində funksionallıq qazanır.

Sərbəst şeirdə təbiət obrazları müasir semiotik yanaşma ilə daha çox “simvol–məna” əlaqəsi əsasında təqdim olunur. Onların hər biri klassik semantik yükünü qorusa da, müasir poetik kontekstdə yeni məna çalarları qazanır:

Su – zamanın axıcılığı, həyatın dəyişkənliyi, daxili təmizlənmə.

Külək – yenilənmə, narahatlıq, sürətli dəyişikliklər, qeyri-müəyyənlik.

Torpaq və daş – milli yaddaş, köklü varlıq, dayanıqlıq.

Dəniz – sonsuzluq, təlatüm, insanın daxili qeyri-sabitliyi.

Ağac – həyatın dövriyyəsi, kök–başlanğıc əlaqəsi, davamlılıq.

Günəş və işıq – maariflənmə, ümid, mənəvi yenidən doğuluş.

Bu simvollar yalnız təsvir səviyyəsində qalmır, onlar sərbəst şeirin ideya məzmununu strukturlaşdırır və mətnə müasir poetik məzmun verir.

XXI əsr Azərbaycan poeziyasında təbiət motivlərinin yeni bir qatı – ekologiya problemi ortaya çıxır. Müasir şairlər təbiətin tərənnümünü ekoloji məsuliyyət, təbiətə münasibətin dəyişməsi, mühitin çirklənməsi kimi narahatlıqlarla birləşdirirlər.

Bu, həm dünyada baş verən qlobal ekoloji dəyişikliklərin təsiri, həm də insan-təbiət münasibətlərinin yenidən dərk olunması ilə əlaqədardır. Beləliklə, təbiət motivləri həm estetika, həm də sosial məsuliyyət daşıyan poetik elementə çevrilir.

Azərbaycan sərbəst şeirində təbiətin müasir poetik interpretasiyası poeziyanın ideya-məzmun strukturunda xüsusi yer tutur. Sərbəst şeir forması şairlərə təbiəti yalnız təsviri element kimi deyil, həm də dərin simvolik, fəlsəfi və psixoloji məna daşıyıcısı kimi təqdim etməyə imkan yaratmışdır. Bu mənada təbiət motivləri poetik məkanda yenidən aktuallaşmış, milli və fərdi kimliyin ifadə vasitəsinə çevrilmiş, müasir insanın psixoloji dünyasının əksinə dönmüş, ekoloji narahatlıq kimi yeni məna qatları qazanmışdır.

Beləliklə, müasir Azərbaycan sərbəst şeiri təbiət motivlərinə həm ənənəvi, həm də müasir yanaşma sərgiləməklə yeni poetik diskurs yaratmışdır.

**Elnarə Axundova**
*axndvaelnare1612@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı

## QƏDİR PAŞA ELSEVƏR YARADICILIĞINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ

Doğma vətənimiz Azərbaycan gözəl təbiəti, füsunkar coğrafiyası ilə bütün dünyada məşhurdur. Qədim zamanlardan şairlərin şerlərində, yazıçıların əsərlərində təbiətimizin gözəlliyindən bəhs edilib. Bu ənənə bu gün də davam etdirilir. Klassik ədəbiyyat kimi çağdaş ədəbiyyatda da təbiətin təsviri, tərənnümü xüsusi yer tutur.

Azərbaycanın Quba rayonundan olan həvəskar şair Qədir Paşa Elsevərin şerlərində təbiətin tərənnümü əsrarəngizdir. Təbiətə vurğun olan şairin yaradıcılığında Qubaya, onun təbiətinə aid şeirlər xüsusi yer tutur. Şairin əsərləri arasında təbiətin təsvirinə aid çoxlu şeirlər var. Buna nümunə olaraq "Azərbaycan", "Quba", "Qarabağ gözəldir", "Təngə dərəsi", "Şahdağ", "Babadağ", "Minarə", "Dağlar", " Bənövşə", "Qudyal", Quba bağları" və s. göstərmək olar.

Şair "Qudyal" şeirində Qubada olan Qudyal çayını elə təsvir edir ki, insan uzaqdan-uzağa bu çaya, onun gözəlliyinə heyran olur. Şeirdə Quba ilə Qudyalın əkiz olduğu, həmçinin bizə əziz olduğu vurğulanır. Doğrudan da Qubanın mərkəzindən axan Qudyal çayı öz gözəlliyi ilə həmişə zövq oxşamışdı. Çox təəssüf ki, son illər bu çayın suyunda da nəzərə çarpacaq qədər azalma var.

Əzəl gündən Quba, Qudyal əzizdir,
Hər ikisi mənə candan əzizdir
Azərbaycan, qurban olum adına,
Məhəbbətin , sədaqətin təmizdir.

Q.P.Elsevər "Dağlar" şeirində dağlara, xüsusilə Şahdağa olan sevgisini göstərmişdir. Şairin "Dağlar" şeiri ilə yanaşı, dağlarımıza aid " Şahdağ", " Babadağ" şeirləri də var.

Babamız zirvədə tutmuşdur qərar,
Ayna sularında şəfa sehri var,
Xəstələr burada murazın tapar,
Babalar adına şöhrət Babadağ.

Turist şəhəri olan Qubada gəzməli, görməli yerlər çoxdur. Xüsusilə yayda istirahətə gələn qonaqlar Qəçrəş meşələrinə, Təngə dərəsinə, Minarəyə xüsusi maraq göstərir.Şair Qəçrəş kəndinə sevgisini belə göstərir.

Qəçrəş bulağının üstü soyumaz,
İçənlər buz kimi suyundan doymaz.
Qaratoyuq dinər, bülbüllər ötər,
Gələnlər qəlbini qoyaraq gedər.

Ədibin "Təngə dərəsi", "Minarə" şeirləri də təbiətin tərənnümü baxımından çox rəngarəngdir. Meyvə, xüsusilə alma bağları ilə məşhur olan Quba şairin gözündə sanki cənnətdir.

Nə gözəl vaxtındır, Quba bağları,
Qoynuna köçübdür cənnət çağları.

Q.Paşa "Quba almaları" şeirində sadə dillə almaları elə təsvir edir ki, insan valeh olur.

Yanaqları al incidir,
Necə zərif, həm incədir!
Bu diyarın sevincidir
Bizim Quba almaları.

Xeyriyyəçiliklə də məşğul olan şair təbiətə vurğunluğunu demək olar ki, hər şeirində, hər sətrində göstərir.Onun "Kəpənək", "Sərv ağacı" , "Payız", "Qızılgülüm", "Gülüstan" və s. şeirləri insanın diqqətini cəlb edir. Şair əsərlərində yalnız ata yurdu Qubadan söz açmır, gözəl Qarabağımızı, digər dilbər bölgələrimizi də təsvir edir.

Belə şadman mahal hanı,
Heyran edər tanıyanı,
Tapın məni qınayanı,
Desəm, Qarabağ gözəldir.

Quba rayonunun Xınalıq kəndindən olan Qədir Paşa Elsevər (Qədir Paşayev) uzun illər Quba Aqrofirmasının baş direktoru olmuşdur. Təbiət, torpaq vurğunu olan şairin yaradıcılığında bu motivlər daha güclüdür.Burada onun yaradıcılığında təbiətin tərənümünün təbliğinə toxunduq.

**Elnarə İsmayılova**
ismayilova.elnare.777@gmail.com
ADPU Cəlilabad filialı

## TƏBİƏT VƏ İNSAN HÜSEYN ARİFİN POETİKASINDA

Azərbaycan poeziyasında təbiət obrazlarından insan həyatının dərin qatlarını göstərmək üçün tez-tez istifadə olunmuşdur. Çağdaş şairlər bu ənənəni davam etdirərək, təbiəti daha çox simvolik və fəlsəfi düşüncələrlə zənginləşdirirlər. Təbiət artıq yalnız gözəl mənzərə deyil, insanın qorxu, sevgi və arzularının yaşadığı bir məkana çevrilmişdir. Şairlər bu məkanı həm vizual, həm də emosional elementlərlə canlandırır, oxucuda həm mənəvi, həm də estetik təəssürat yaradır. Onların əsərlərində təbiətin rəngarəngliyi və harmoniyası insanın daxili aləminin poetik əksidir. Bu baxımdan Hüseyn Arifin "Qoz ağacı" şeiri xüsusi məna daşıyır. Müəllif bu əsərində qoz ağacını yalnız bir bitki kimi deyil, həyatın çətinliklərinə, sınaqlarına dözən, müdriklik və səbir rəmzi olan bir varlıq kimi təsvir edir. Şeirin əsas ideyası insanların nankorluğu, qədirbilməzliyi və təbiətə (eləcə də yaxşılığa) qarşı biganəliyidir.

Şeirdə qoz ağacının timsalında insan ömrünün, zamanın keçici olduğu və insani dəyərlərin itirilməsi fəlsəfi və emosional dildə mükəmməl şəkildə təqdim edilmişdir. Qoz ağacı dayanıqlıq, müdriklik və səbrin rəmzi kimi çıxış edir.

Çıxırıq meşədən başlayır külək,
Qədim qoz ağacı çay qırağında.
Fikirlər içində dayanıbdır tək
Neçə daş yarası qol budağında.

Bu bənddə qoz ağacı — bir vaxtlar canlı, lakin indi zədələnmiş, kimsəsiz və düşüncəyə qərq olmuş bir "canlı" kimi təsvir edilmiş, zülm, istismar, etinasızlıq və insan əliylə edilmiş zərbələri simvollaşdırılmışdır. Şair ağacla dialoqa girir, ona suallar verir; bu suallar sanki insanın özü ilə danışması, öz keçmişini, yaşadıqlarını sorğulaması kimi təsvir edilmişdir.

Dağların selimi girib qəsdinə,
Yayın istisimi yaxıb sinəni?
Tufanmı hücuma keçib üstünə,
Bu qədər fikirli görürəm səni?!

Şeirdə qoz ağacı - həyatın sınaqlarından keçmiş və zamanla necə dəyişilən müdrik insan ömrünü ifadə edir. Son misra isə təklik, unudulmaq və mənəvi dəyərlərin itməsi ilə bağlıdır. Yəni, əvvəllər yaşanan mənəvi zənginliklər artıq yox olmuş və o bu torpaqda, yurdda tək qalmışdır. Bu şeirdə təbiətin yalnız seyr ediləcək gözəllik deyil, həm də öyrəniləcək hikmət olduğu qeyd edilir. Sanki qoz ağacı səbrin, müdrikliyin və sükutun içindəki danışan səsin obrazıdır.

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım,
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım.

Nə kaman götürək, nə tar, nə qaval,
Orda nəğmə də var, nəğməkar da var.
Yarıb buludları dinəndə qartal
O səsə bərabər bir səs harda var.

Bu təhlildə Hüseyn Arifin "Təbiət düşünür" şeiri poetik baxımdan araşdırılır; şair təbiətə olan baxışını yalnız onun gözəlliyini təsvir etməklə kifayətlənmir, eyni zamanda insan ruhu ilə təbiət arasındakı səmimi və dərin münasibəti əks etdirir. Şeirdə şair uca dağlar, geniş çəmənlər və buz bulaqları kimi təbiət elementlərini insanın daxili aləmi ilə birləşdirir. Təbiət onun üçün yalnız gözəl mənzərə deyil, həm də insan duyğularının, arzularının və mənəvi sükunətinin ifadə olunduğu bir məkandır. Şair oxucunu təbiətin sadəliyinə və harmoniyasına diqqət yetirməyə dəvət edir, vurğulayır ki, insan müdaxiləsi olmadan təbiət özü artıq tam və estetik dəyər daşıyır. Eyni zamanda, şeirdə musiqi metaforaları istifadə olunaraq təbiətin səsi və ritmi insanın daxili hissləri ilə vəhdət təşkil edir.

Torpağın ətrini fikirləşəndə
İpək tellərinə çiçək taxarsan
Səhərlər yadına güzgü düşəndə
Maral baxan gölə sən də baxarsan
Gəlin təbiəti biz də düşünək
O özü hər şeyi düşünən kimi

Bu bəndlərdə Hüseyn Arif təbiətin sadəliyi və ətrini insan duyğuları ilə birləşdirir. Torpaq, çiçək və göl kimi obrazlar insanın gündəlik həyatındakı kiçik, amma dərin gözəllikləri ilə bağlı hisslərini əks etdirir. Şair oxucunu həm təbiətin incəliklərinə diqqət yetirməyə, həm də onun vasitəsilə insanın daxili aləmini düşünməyə çağırır. Son bənddə isə təbiətin özü "hər şeyi düşünən kimi" təqdim olunur, yəni təbiət şair üçün həm müşahidə olunan, həm də dərindən anlamı olan bir canlı məkan kimi işləyir. Burada insan və təbiət arasında səmimi, harmonik bir vəhdət mövcuddur; təbiət insanın ruhunu əks etdirən və ona ilham verən bir vasitədir.

Bu şeirlər göstərir ki, çağdaş Azərbaycan poeziyasında təbiət obrazları insanın daxili aləmi ilə sıx bağlıdır və şairlər üçün həm estetik, həm də fəlsəfi bir vasitədir. Hüseyn Arifin poetikası oxucunu təbiətin sadəliyinə, harmoniyasına və hikmətinə diqqət yetirməyə, insan-təbiət əlaqəsini dərin şəkildə düşünməyə dəvət edir. Beləcə, şairin əsərlərində təbiət həm ilham mənbəyi, həm də mənəvi zənginliyin ifadəsi kimi çıxış edir.

Son olaraq demək olar ki, Hüseyn Arifin çağdaş poeziyadakı təbiət obrazları Azərbaycan ədəbiyyatında insan və təbiət arasındakı harmoniyanın poetik təcəssümü kimi mühüm rol oynayır.

**Mehparə Əliyeva**
ADPU-nun Şamaxı filialının Dil-ədəbiyyat və onların
tədrisi texnologiyası kafedrasının müəllimi
mila.aliyeva.61@mail.ru
**Rəna Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının Dil-ədəbiyyat və onların tədrisi
texnologiyası kafedrasının müəllimi
rena.huseynova@gmail.com

# BAYRAM BAYRAMOVUN ƏSƏRLƏRİNDƏ TƏBİƏTİN TƏSVİRİ

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Bayram Bayramovun yaradıcılığında təbiət xüsusi bir yer tutur. Onun hekayə və povestlərində təbiət sadəcə fon, dekorasiya deyil, hadisələrin inkişafına təsir edən, insan xarakterini açan, müəllifin ideyasını tamamlayan canlı bir qüvvədir. Yazıçı təbiəti həm poetik duyğularla, həm də realist təsvirlərlə təqdim edərək oxucunu hadisələrin içinə çəkir. Bu məqalədə yazıçının əsərlərində təbiətin nə dərəcədə önəmli rol oynadığı və hansı bədii vasitələrlə təsvir edildiyi araşdırılır.

B.Bayramovun əsərlərinin ən mühüm cəhətlərindən biri odur ki, təbiət bir çox hallarda insanın daxili aləminin ifadəsinə çevrilir. Məsələn, “Kollu çay” povestində çayın coşqun və bəzən təhlükəli axını kəndlilərin həyatdakı mübarizəsini, alın yazısına qarşı dirənişini simvolizə edir. Təbiətin bu şəkildə psixoloji funksiyada təqdim olunması onun yaradıcılığına dərinlik gətirir.

Həmçinin yazıçı personajların keçirdiyi hissləri təbiət mənzərələri ilə əlaqələndirir. Təbii ətrafda baş verən dəyişikliklər — buludların toplanması, küləyin əsməsi, günəşin çıxması — qəhrəmanın emosional vəziyyətinə işarə edir. Bu yanaşma klassik realizmlə romantizmin harmonik birləşməsidir.

Bayram Bayramov təbiəti idealizə etmir, onu bütün reallığı ilə — sərtliyi, gözəlliyi, çətinlikləri ilə birgə göstərir. “Dəniz qırağında ev” əsərində Xəzərin dalğalarının gah sakit, gah da coşqun təsviri bölgənin iqlimini və balıqçıların həyat şəraitini oxucuya əyani şəkildə göstərir. Burada təbiət həm məkanın təsviri, həm də həyat şəraitini anlamaq üçün vacib vasitədir.

Yazıçının əsərlərində Azərbaycan mənzərələri — çaylar, dərələr, dağlar, sahillər, otlaqlar — milli koloritlə təqdim olunur. Bu təsvirlər oxucuda həm nostalji hisslər yaradır, həm də Azərbaycan kəndinin sosial-mədəni mühitini canlandırır.

B.Bayramov bir çox əsərlər təbiət hadisələrin gedişinə birbaşa təsir edir. Çay daşanda kəndlilərin həyatı çətinləşir və bu, süjetin gərginliyini artırır. Quraqlıq zamanı insanla təbiətin mübarizəsi əsas konfliktə çevrilir. Dənizdə tufan balıqçı obrazlarının qəhrəmanlığını üzə çıxarır.

Bu yanaşma yazıçının təbiətdən yalnız təsvir yox, həm də dramaturji element kimi istifadə etdiyini göstərir.

Yazıçının təbiət təsvirləri çox vaxt sadəcə müşahidəyə əsaslanmır: O, poetik detallardan geniş istifadə edir:

Günəşin çıxmasını “yenidən doğulan ümid” kimi təsvir edir.
Dənizin səthini “güzgü kimi parlayan nəhəng bir qəlb”ə bənzədir.
Küləyin səsini danışan bir varlığın pıçıltısı kimi verir.

Yazıçı təbiəti sadəcə gözəllik kimi deyil, həm də bir hikmət və həyat dərsi mənbəyi kimi təqdim edir. Onun qəhrəmanları çox vaxt təbiətlə ünsiyyətdə olarkən özlərini tanıyır, problemlərinə cavab tapır, həyati qərarlar verir.

Təbiətin dövri dəyişməsi — yazın gəlişi, payızın hüznü, qışın sərtliyi — insan ömrünün etaplarına bənzədilir. Bu yanaşma əsərlərə fəlsəfi çalar qatır və oxucunu düşünməyə sövq edir.

Bayramovun əsərlərində təbiət təsviri sadə dekorativ funksiya daşımır. O, həm süjetin dinamikasını müəyyənləşdirir, həm qəhrəmanların daxili aləmini açır, həm də Azərbaycan gerçəkliyini əks etdirir. Yazıçının poetik dili, simvolik yanaşması və realist təsvirləri onun yaradıcılığını zənginləşdirir və oxucuya həm estetik, həm də mədəni dəyər təqdim edir.

Bayram Bayramovun təbiətə yanaşması göstərir ki, təbiət yalnız məkan deyil — insanın mübarizəsi, arzusu, sevinci və taleyi ilə sıx bağlı olan bir həyat güzgüsüdür.

Ədəbiyyat:

1.Bayramov, Bayram. Kollu çay. Bakı: Azərnəşr, 1962.
2. Bayramov, Bayram. Dəniz qırağında ev. Bakı:Yazıçı, 1974.
3. Bayramov, Bayram. Gün var, əsrə bərabər. Bakı: Yazıçı, 1980.
4. Bayramov, Bayram. Qızılı dağ. Bakı: Gənclik, 1970.
5. Bayramov, Bayram. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı: Azərnəşr, 1987.

**Vəsilə Razimi**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının Kitabxana və elektron resurslar şöbəsinin müdiri,
Dil, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının baş müəllimi
vesilerazimi99@gmail.com,
ORCİD kod 0000-0002-2613-1071

## ABBAZ SƏHHƏTİN UŞAQ ŞEİRLƏRİNDƏ TƏBİƏT GÖZƏLLİKLƏRİNİN BƏDİİ TƏSVİRİ

Abbas Səhhətin uşaqlar və gənclər üçün yazdığı mənalı, şirin şeirlər, tərbiyəvi məzmuna malik mənzum hekayələr, təmsillər Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrindəndir. Millilik, ümumbəşərilik, yüksək ideyalılıq, müasirlik və bunların uşaq zövqünə, ruhuna uyğun şəkildə, bədii boyalarla verilməsi həmin nümunələrin çoxunu Azərbaycan şeirinin klassik xəzinəsinə daxil etmiş, şairin özünə isə balalarımızın qəlbində əbədi bir məhəbbət oyatmışdır.

Abbas Səhhətin Azərbaycan ədəbiyyatında doğma yurdun təbiətinə, gözəlliklərinə, dilbər guşələrinə həsr olunan əsərləri çoxdur. Bu mövzu A.Səhhətin yaradıcılığında aparıcı yer tutur.
O, çox mükəmməl təbiət mənzərələrini yaradan şairlərdən biridir. Təbiəti tərənnüm Səhhət yaradıcılığının əsas xüsusiyyətlərindəndir. Hələ ilk yaradıcılıq dövründə şair göstərirdi ki, hər bir sənət əsərində inandırıcı təbii hisslər, və müəyyən əxlaqi məsələlər, yaxud şairanə təbiət mənzərələri verilməlidir. O zaman Səhhət fransız şairlərindən olan Sülli Prüdom, Jan Ramonun təbiət lövhələrini təsvir edən əsərlərini tərcümə etmiş və özü də bu ruhda şeirlər yazmışdır. Yaradıçılığının həmin illərində şair təbiəti təsvir edən əsərlərində hissə, xəyalə geniş yer vermiş, 1907-ci ildən sonra isə Səhhət rus ədəbiyyatının Puşkin, Lermantov, Nikitin kimi nümayəndələrinin təbiəti təsvir edən əsərlərini tərcümə etmiş və özü də bu ruhda şeirlər yazmışdır. «Yaz», "Yay",

"Payız çağında", "Qış", "Yay gecəsi", "Yay səhəri", "Əkinçi nəğməsi", "Köç",«Bağça», «İlk bahar» kimi şeirlər bu qəbildəndir. Həmin əsərləri oxuyan hər bir uşağın gözləri önündə sanki rəssam fırçası ilə çəkilmiş əsrarəngiz təbiət lövhələri canlanır. Bu əsərlərdə konkret həyati lövhələr, səhnələr təbiətin gözəlliyi ilə elə üzvi vəhdətdə təsvir edilmişdir ki, oxucunun qəlbində doğma yurda məftunluq hissi, nikbin əhval-ruhiyyə oyadır, ona bədii zövq verir. Akademik Kamal Talıbzadə haqlı olaraq göstərir ki, "təbiət təsvirlərində Səhhət realistdir". Şairin diqqəti-nəzərini məhz təbiətin özü, onun zənginliyi cəlb edir. Utopiyaya varmadan görüb müşahidə etdiyi, içində olduğu, gəzdiyi, qoxladığı, tərini-təravətini təşnəliklə nuş etdiyi təbiəti necə görürsə elə olduğu kimi, göründüyü kimi təsvir etmişdir. A.Səhhət yaradıcılığının tədqiqi ilə məşğul olan tədqiqatçıların bir fikri ilə razılaşmaq lazımdır ki, böyük şəxsiyyət, istedadlı şair sözün həqiqi mənasında XX əsr Azərbaycan ədəbiyyatında təbiət təsvirlərini yaratmaq sahəsində bəlkə də yeganə incilərdəndir. Həm də bu şeirdə Səhhətin istedadı güclü bir poetik deyimdə üzə çıxmışdır. Əsərdə heç bir sünilik, qondarmaçılıq, utopik fikir və duyğu yoxdur. Şeir yüz faizli təbiətin özüdür:

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq .
Bir qədər çaydan uzaq od qalamış dağda çoban,
Oyadır öz sürüsün otlaya yaylaqda çoban.
Yumuşaq göy çəmənin üstə düşüb şeh gecədən,
Isti yoxdur, hələ var bir balaca meh gecədən.
Ağ dumanlar ucalır göy üzünə dağlardan,
Çox sərindir havası, keçmə bu yaylaqlardan.

Peyzaj lirikasının gözəl nümunələrindən olan bu parçada heç bir süni, xəyali, qondarma fikir və duyğu yoxdur. Şair yay səhərini gördüyü və duyduğu kimi, bütün təbii xüsusiyyətləri və əlamətlərilə təsvir edir. Burada oxucu sanki yay səhərinin qoxusunu, şehin rütubətini, səhər nəsiminin ətrini və nəfəsini duyur. Sair təbiəti insanlarla, ictimai həyatla qovuşmuş bir şəkildə canlandırır, bu iki aləmin vahid bir ahəngini tərənnüm edir. Səhhətin peyzajları ilə dünyagörüşü, həyata və cəmiyyətə münasibəti arasında sıx əlaqə vardır. O, təbiəti donmuş,cansız şəkildə deyil, insanlarla birlikdə təsvir edir, insan onun peyzajlarına bir canlılıq, həyatilik, ictimailik gətirir.

Sənətkar məşhur «Quşlar» şeirində fəsillərin yerdəyişməsi ilə əlaqədar olaraq quşların köçəri həyat keçirdikləri haqqında uşaqlara məlumat verir. Bununla da, oxucu quşlar aləminin özünəməxsus cəhətləri ilə yaxından tanış olur.

Quşlar, quşlar, a quşlar,
Qaranquşlar, a quşlar!
Cəh-cəh vurun burada,
Gah yerdə, gah yuvada,
Qonun bu tək budağa.
Çox getməyin uzağa.

Əsərdən aydın görünür ki, şair kiçik yaşlı oxucuların quşlara münasibətlə bağlı əhval-ruhiyyəsini, ovqatını, hiss-həyəcanını əks etdirməyi qarşıya məqsəd qoymuşdur. Eyni zamanda bu şeirdə bədiilik, melodiya, musiqililik elə zəngin, dil elə axıcı və səmimidir ki, yazıldığı gündən uşaqların dilinin əzbəri olmuşdur.

Şeirdəki misraların bir-biri ilə çox təbii, üzvi şəkildə bağlılığı aydın görünməkdədir. Nəticədə uşaqlar şeiri həvəslə dinləyir, oxuyur və tez bir zamanda əzbərləyir. Şeirin ürəyəyatan musiqi ahəngdarlığı, ritmi onun hafizədə uzun zaman həkk olunmasına səbəb olur.

Sənətkarın şeirlərinin kiçik oxucular üçün maraqlı cəhətlərindən biri onların məzmunundakı reallıq və konkretliklə bağlıdır. **«Yaz»** şeirində baharın təravəti, insanlara gətirdiyi xoş ovqat, gümrahlıq hiss olunur. Bahar yeni həyat, yeni arzular, həyatda, təbiətdə oyanma, canlanma deməkdir. Əsərdə bahar fəslinin gəlişinin gecə və gündüzün bərabərləşməsi ilə üst-üstə düşməsi qeyd edilir:

O gün ki fəsli-yaz olur,
Gecə, günüz taraz olur.
Havanın artar istisi,
Daha soyuqlar az olur.

Əsərdə təbiətdə baş verən dəyişikliklər diqqətə çatdırılır. Qış fəslində isti ölkələrə köçüb getmiş quşlar yazda geri qayıdırlar:

Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını,
Qonar yaşıl ağaclara,
Oxur gözəl havasını.

Şeirdə təbiətə məhəbbət hissi sadə əmək adamlarına səmimi münasibətlə vəhdətdə əks etdirilmişdir. Torpağın oyanması ilə otların göyərməsi, ağacların çiçək açması, bir sözlə, təbiətin qış yuxusundan oyanması bədii bir dillə təsvir edilir. Şeirdəki əyanilik, konkretlik onun bədii təsir gücünü artırmışdır.

"Yay" şeiri də orijinal bədii təsvirləri, obrazlı ifadələri ilə diqqəti cəlb edir. Şair yay fəslində təbiətdə baş verən dəyişiklikləri bədii dillə təsvir edir, onların səbəbini qızmar günəşin öz evində qərar tutması ilə izah edir:

Günəş öz evində tutunca qərar,
İstidən kababa döndü aslanlar.
Yerdən isti buxar qalxdığı zaman
Çirki, rütubəti sildi havadan.

Abbas Səhhətin yazdığı şeirlərin dili sadə və bədiidir. Aydınlıq, sadəlik, təbiilik, oynaqlıq tam hakimdir. Onun uşaq əsərlərini kiçik oxucular bütün dövrlərdə başa düşüb anlayıb sevə-sevə oxuyublar.

**Mobil Məcidov**
mobil.mecidov@mail.ru
**Seymur Süleymanov**
*suleymanovseymur190@mail.ru*
ADPU-nun Ağcabədi filialı

## ŞUŞA TƏBİƏTİNİN ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA BƏDİİ İNİKASI

Çağdaş Azərbaycan ədəbiyyatı milli-mənəvi dəyərlərin, təbii mühitin, coğrafi məkanların və tarixi yaddaşın bədii inikasında mühüm rol oynayır. Bu ənənənin mərkəzində Azərbaycan təbiətinin poetik obrazı, xüsusilə Qarabağ və Şuşanın bədii-estetik semantikası dayanır. Şuşa təbiəti uzun illərdir şair və yazıçılar üçün ilham mənbəyi olmuş, həm romantik duyğuların, həm də vətənpərvərlik ovqatının formalaşmasına təsir göstərmişdir. XIX əsrdən başlayaraq müasir dövrə qədər şairlər Şuşanı yalnız təbiət gözəlliklərinin məkanı kimi deyil, həm də milli kimliyin daşıyıcısı

və mədəniyyət beşiyi kimi təsvir etmişlər. Bu məqalə çağdaş dövr ədəbiyyatında Şuşa təbiətinin bədii modelləşdirilməsini təhlil edir, şairlərin mətnlərində dağların, çiçəklərin, meşələrin, bulaqların, sıldırım qayaların, sükut və əzəmət hisslərinin müasir interpretasiyasını göstərir.

Məqalədə Şuşa təbiətinin təsviri üç əsas istiqamətdə araşdırılır: estetik və poetik obrazlar sistemi, simvolik və metaforik strukturlar, müasir dövrdə Qarabağ Zəfərindən sonra Şuşa motivinin yeni semantik çalarlar qazanması. Müasir şairlərin əsərlərində Şuşa təbiəti işğaldan azad edilmiş torpaqların yenidən dirçəlişinin rəmzi kimi təqdim olunur və ədəbiyyat vasitəsilə kollektif yaddaşın bərpasında mühüm rol oynayır. Eyni zamanda, təbiət obrazları postmüharibə dövrü ədəbiyyatında milli qürur, ruh yüksəkliyi və tarixi ədalətin bədii ifadəsi kimi çıxış edir.

Çağdaş Azərbaycan ədəbiyyatında Şuşa təbiəti həm lirik duyğu aləminin, həm də milli-mədəni identikliyin rekonstruksiyasının aparıcı elementlərindən birinə çevrilmişdir.

Şuşa Azərbaycan ədəbiyyatında əsrlər boyunca təkcə mədəniyyət mərkəzi kimi deyil, həm də təbiət möcüzəsi, mənəvi arxetip və poetik ilham mənbəyi kimi təsvir edilmişdir. Müasir dövrdə, xüsusilə Vətən müharibəsindən sonra Şuşanın azadlığı ədəbiyyatda yeni təbiət poetikasının yaranmasına səbəb olmuşdur. Şuşanın dağları, sıldırım qayaları, çiçəkli yamacları, dumanlı səhərləri, səfalı bulaqları və Qarabağ yaylaqlarının ətri bir daha şairlərin poetik təxəyyülündə canlanmışdır.

Azərbaycan ədəbiyyatında təbiət motivləri əsrlər boyunca poetik düşüncənin ayrılmaz tərkib hissəsi olmuşdur. Təbiətin bədii inikası həm insanın daxili aləmi ilə harmoniyada təqdim olunmuş, həm də milli mənsubiyyətin və mədəni yaddaşın formalaşmasında mühüm rol oynamışdır. Ənənənin əsas köklərini klassik şairlərin irsində görmək mümkündür. Məsələn, Nizami Gəncəvinin "Xəmsə"sində təbiət yalnız fon funksiyası daşımır, həm də insan xarakterlərini açan mühüm poetik element kimi çıxış edir [Abdullayeva, 2012]. Nizami təbiət rəmzlərini insanın mənəvi axtarışları və ideallarının ifadəsinə yönəltmişdir.

Xətai poeziyasında təbiət həm sufi fəlsəfəsinin, həm də ilahi eşq poetikasının ayrılmaz hissəsidir. Bənövşə, lalə, gül, bülbül, çinar kimi obrazlar təkcə təbiət elementləri deyil, həm də mənəvi kamilliyin rəmzləridir. Molla Pənah Vaqifdə isə təbiət təsviri daha realist və duyğusal xarakter daşıyır. Onun Qarabağ mənzərələrini ehtiva edən şeirlərində yaylaqlar, bulaqlar, meşələr və çəmənliklər canlı təsvirlərlə təqdim olunur və poetik dilə özünəməxsus rəng qatır. Xüsusilə Vaqifin poeziyasında təbiət sanki doğma torpağın nəfəsi kimi verilir [Quliyev, 2021].

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa ədəbi mühiti formalaşdıqca təbiət təsvirləri yeni estetik çalarlar kəsb etdi. Xurşidbanu Natəvanın şeirlərində Şuşa təbiəti həm qadın lirikası, həm də vətən mövzusu ilə birləşir. Natəvan təbiəti incə emosiyalar, sükut, həzinlik və duyğu təlatümləri ilə təsvir edir.

XX əsr poeziyasında Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Məmməd Araz kimi şairlər təbiət motivlərini vətənpərvərlik duyğuları ilə birləşdirmiş, təbiət obrazlarını milli azadlıq ideyalarının təbliği ilə tamamlamışlar. Bu xətt XXI əsr şairlərinin yaradıcılığında daha da güclənmişdir. Qarabağ müharibəsi nəticəsində torpaqların işğalı və azad edilməsi mövzuları ədəbiyyatda təbiət təsvirləri ilə daha dərindən qovuşmuşdur.

Şuşa təbiəti Azərbaycan ədəbiyyatında özünəməxsus bədii-estetik sistem yaradan zəngin obrazlar xəttinə malikdir. Qarabağın incisi adlanan bu şəhər təkcə tarixi-mədəni irsi ilə deyil, həm də qaya silsilələri, dumanlı səhərləri, sərin bulaqları, taləzarlı yamacları ilə şairlərin dilində canlı poetik tabloya çevrilmişdir. Müasir ədəbiyyatda Şuşa təbiətinin təsviri yalnız gözəllik estetikasına əsaslanmır, həm də simvolik məna daşıyır.

Şuşanın relyef quruluşu ədəbiyyatda tez-tez əzəmət, yenilməzlik, müqavimət rəmzi kimi təqdim olunur. Sıldırım qayalar insanın maneələr qarşısındakı mətin duruşunu, qalaları isə tarixi irs və davamlılıq ideyasını simvolizə edir. Müasir şairlərin əsərlərində Şuşanın dağ silsiləsi "milli qürurun daşıyıcısı" kimi poetikləşdirilir [Şükürov, 2022].

Flora və fauna da bədii təsvirlərin mühüm elementini təşkil edir. Bənövşənin yazılması Şuşanın bahar nəfəsini, xarıbülbülün xatırlanması isə həm təbiət gözəlliyinin, həm də Şuşaya aid köklü mənəvi simvolun canlanmasıdır. Xarıbülbül müasir poeziyada həm itkin yurd nisgilinin, həm də Zəfər sonrası sevincin bədii zirvəsinə çevrilmişdir.

Şuşa bulaqları, meşələri və çəmənlikləri əsərlərdə ruhun təmizlənməsi, yenilənməsi, insanın iç dünyasına təbiətin təsiri kimi təqdim olunur. Müasir müəlliflər tez-tez Şuşa səmasının açıq rənglərini, sükutunu, mehini, dağ çiçəklərinin qoxusunu poetik duyumla ifadə edirlər.

Beləliklə, Şuşa təbiətinin bədii-estetik semantikası sadəcə təbiət təsviri deyil, həm də milli kimliyin təbii məkanla harmoniyasını əks etdirən çoxqatlı poetik strukturdur.

Şuşa Azərbaycan xalqının tarixi-mədəni yaddaşında xüsusi yer tutur. Bu məkan təkcə təbiət gözəllikləri ilə deyil, həm də milli irsin, musiqi və ədəbiyyatın beşiyi olması ilə yaddaşda möhkəmlənmişdir. Buna görə də müasir ədəbiyyatda Şuşa təbiəti yalnız coğrafi məkan kimi deyil, həm də milli yaddaş kodu kimi poetikləşdirilir.

Mətnlərdə Şuşa təbiəti xalqın keçmişindən gələn dəyərləri daşıyır. Dağların əzəməti mətanəti, meşələrin sükutu, müdrikliyi, bulaqların şəffaflığı isə milli ruhun təmizliyini simvolizə edir. Müasir şairlər Şuşa təbiətini təsvir edərkən onu həm də "yaddaşın bərpası", "qayıdış", "dirçəliş" rəmzi kimi təqdim edirlər [Əliyeva, 2023].

Şuşa işğal illərində milli yaddaşda həsrət və nisgil mərkəzi kimi yaşayırdı. Təbiətin tərənnümü bu dövrdə daha çox "itirilmiş cənnət" poetikası üzərində qurulurdu. Zəfərdən sonra isə həmin poetika dəyişərək "qovuşma", "qalibiyyət", "yenilənmə" estetikasına çevrilmişdir. Şairlər Şuşa təbiətini yenidən dirçələn torpaqların nəfəsi kimi təsvir edir, onun çiçəklərini sevincin, yağışını arınmanın, meşələrini azad nəfəsin simvoluna çevirirlər.

Bu baxımdan Şuşa müasir ədəbiyyatda həm də kollektiv kimliyin poetik mərkəzi kimi çıxış edir. Təbiət obrazları vasitəsilə xalqın yaddaşında köklənmiş dəyərlər yenidən bədii dillə canlandırılır və poetik məkanda milli birlik ideyası gücləndirilir. [Kərimov, 2020].

Zəfər dövrü poeziyasında azad edilmiş torpaqların təsviri, dirçəliş, ümid, milli qürur, vətənpərvərlik və ruh yüksəkliyi motivlərinin bu təbiət fonunda formalaşması geniş şəkildə izah olunur.

Şuşa təbiəti "qayıdış", "yenidən dirçəliş", "bərpa", "müqəddəslik" simvolu kimi təqdim olunmuşdur. Müasir Azərbaycan ədəbiyyatında Şuşa təbiəti həm estetik dəyər, həm də milli-mənəvi identikliyin rəmzi kimi xüsusi yer tutur. Şairlər Şuşanı həm öz təbii gözəlliyi, həm də tarixi-mədəni mahiyyəti ilə tərənnüm edir və beləliklə, təbiət obrazlarını milli yaddaşın bərpasına xidmət edən poetik element kimi istifadə edirlər.

**Ədəbiyyat**

1.Abdullayeva F. Azərbaycan poeziyasında təbiət motivləri. Bakı, 2012.
2.Quliyev M. Qarabağ ədəbi mühiti və müasir poeziya. Bakı, 2021.
3.Şükürov A. Poetik məkan və yaddaş: Şuşa nümunəsi. Bakı, 2022.
4.Əliyeva S. Müasir Azərbaycan ədəbiyyatında Qarabağ obrazı. Bakı, 2023.
5.Kərimov N. Şuşa ədəbi mühitinin tarixi və bu günü. Bakı, 2020.

**Talıbova Xalidə**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
ADPU-nun Cəlilabad filialı

# M.MÜŞFİQİN ƏSƏRLƏRİNDƏ TƏBİƏT TƏSVİRLƏRİ

Azərbaycan ədəbiyyatının parlaq simalarından biri olan Mikayıl Müşfiqin yaradıcılığı poetik düşüncənin təbiətlə harmoniyasını özündə əks etdirən nadir nümunələrdən hesab olunur. Onun poetik dünyası həssas duyğulara, lirik-romantik ovqata və milli mənəvi dəyərlərə söykənir. XX əsr Azərbaycan poeziyasının inkişaf mərhələsində Müşfiqin əsərləri poeziyada yeni bədii nəfəs yaratmış, xüsusilə təbiət motivlərinin işlənməsi ilə seçilmişdir. Şair təbiəti yalnız təsvir edilən bir mühit kimi deyil, həm də insanın daxili aləminin aynası, emosional təlatümlərinin həssas ifadə məkanı kimi təqdim edir.

Müşfiq poeziyasında təbiət təsvirləri lirizmin, romantizmin və estetik duyumun sintezini təşkil edir. Onun əsərlərində dağlar, çaylar, küləklər, axşam şəfəqləri, yaz yağışları və çiçəkli çəmənlər bədii obraz kimi canlandırılır, şairin şəxsi duyğuları ilə bütövləşərək mənalandırılır. Təbiət yalnız fon deyil, şairin fikirlərinə ritm və ovqat verən canlı varlıq kimi təqdim olunur. Bu cəhət Müşfiqin poetik dilinin musiqililiyini və milli poetika ilə bağlılığını daha da gücləndirir.

Müşfiqin təbiət lirikasının dəyəri təkcə poetik gözəlliyində deyil, həm də milli kimliyi, azadlıq arzularını, həyat eşqini və insanın təbiətlə ünsiyyətindəki harmoniyanı bədii şəkildə ifadə etməsindədir. Onun "Yenə o bağ olaydı...", "Oxu tar", "Göygöl", "Azərbaycan", "Küləklər" kimi şeirlərində təbiət motivləri emosional təsir gücü ilə seçilir və oxucuya həm ruhani bir sakitlik, həm də içdən gələn romantik ovqat bəxş edir [1].

M. Müşfiqin əsərlərində təbiət təsvirləri poeziyanın əsas bədii-ideya xəttini təşkil edən mühüm elementlərdən biridir. Şair təbiəti yalnız ətraf mühitin gözəlliyi kimi deyil, həm də insanın emosional aləminin ifadə vasitəsi kimi təqdim edir. Təbiət təsvirləri Müşfiqin lirikasında həm lirik ovqatı formalaşdırır, həm romantik ruhu gücləndirir, həm də milli kimlik duyğusunu artırır. Onun şeirlərində külək, günəş, yağış, dağlar, çaylar kimi obrazlar bəzən simvolik məna daşıyır, bəzən insanın daxili dünyasının güzgüsünə çevrilir. Yazın gəlişi həyatsevərlik və yenilənmə duyğusunu ifadə edirsə, payız mənzərələri nisgil və düşüncəyə yol açır. Bu, təbiətin insan psixologiyası ilə paralel şəkildə təqdim edilməsinin bariz nümunəsidir.

Müşfiqin təbiət təsvirlərində romantik dünyagörüşü üstünlük təşkil edir. Şair təbiətə canlı varlıq kimi yanaşır, onu sanki danışdırır, hərəkət etdirir və duyğularla doldurur. Dənizin dalğaları şairin içindəki coşqunun, küləyin səsi azadlıq arzusunun, günəşin işığı ümid və həyat eşqinin simvoluna çevrilir. Təbiət obrazları həm də milli poetik dəyərlərin ifadə vasitəsidir. Azərbaycan torpağının gözəllikləri — dağlar, çəmənlər, göllər, meşələr — Müşfiq poeziyasında yalnız təsvir edilmir, həm də milli kimliyin və vətən sevgisinin poetik rəmzinə çevrilir. Bu, onun yaradıcılığını milli romantizmin mühüm nümunəsi edir [2].

Şairin bədii dilində təbiət təsvirlərinin estetik yükü də böyükdür. Müşfiq sözləri ritmik şəkildə seçir, fonetik uyumu qoruyur, alliterasiya və assonanslardan ustalıqla istifadə edir. Bu, onun şeirlərinə musiqililik bəxş edir və təbiətin səslərini sanki oxucuya eşitdirir. Təbiət təsvirləri metaforalar, təşbehlər və personifikasiyalar vasitəsilə daha da zənginləşir və poetik mətnin emosional gücünü artırır. Müşfiq poeziyası bir tərəfdən təbiətin gözəlliyini göstərir, digər tərəfdən insanın mənəvi dünyasının dərinliklərini açır və onların harmoniyasını təqdim edir. M. Müşfiqin

əsərlərində təbiət təsvirləri sadə bədii dekorasiya funksiyası daşımır [4]. Onlar şairin dünyagörüşünü, lirik qəhrəmanın duyğularını, milli romantizmin estetik prinsiplərini və insan–təbiət münasibətlərinin poetik mahiyyətini əks etdirən kompleks bir bədii sistem yaradır. Bu xüsusiyyət Müşfiqin poeziyasını Azərbaycan ədəbiyyatında təbiətin ən incə və emosional təsvirlərinin nümunəsinə çevirir.

M. Müşfiqin təbiət təsvirlərinin bədii gücünü daha aydın göstərən əsas məqamlardan biri onun konkret şeirlərindəki obrazların həssaslıqla seçilməsi və lirik duyğularla harmoniya təşkil etməsidir. Şairin “Yenə o bağ olaydı...” şeirində təbiət yalnız təsvir edilmir, həm də unudulmaz uşaqlıq xatirələrinin poetik çərçivəsinə çevrilir. Şair bağ təsviri ilə saf duyğuları, keçmiş günlərin təmizliyini və mənəvi rahatlığını xatırladır [5]:

Yenə o bağ olaydı,
O söyüd kölgəsində,
sevdalar ölkəsində?

Bu misralarda bağ sadəcə coğrafi məkan deyil, şairin daxili aləminin təmizliyini simvolizə edən poetik məkandır. Bağın yaşıllığı, çiçəklərin ətri, günəşin işığı insan ruhunun saflığı ilə yanaşı təqdim olunur. “Küləklər” şeirində isə külək obrazı azadlıq ideyasının daşıyıcısına çevrilir. Şair küləyin sərbəst hərəkətini öz romantik ruhunun təcəssümü kimi görür:

Ey əsən küləklər, əsiniz, coşunuz!
Bizi də özünüz kimi sərbəst qoşunuz!

Burada küləyin hərəkəti sadəcə təbiət hadisəsi deyil, şairin düşüncə və duyğularında var olan azadlıq axtarışının poetik ifadəsidir. Təbiət obrazı lirik qəhrəmanın psixoloji durumunu açır və şairin romantik düşüncəsini tamamlayır. “Göygöl” şeirində Müşfiq təbiətin estetikasını yüksək bədii detallar vasitəsilə canlandırır. Gölün sükutu, suyun şəffaflığı və ətrafın yaşıllığı milli təbiət gözəlliyinin poetik nümunəsinə çevrilir:

Göy-göl kimi göy üzü,
Dalğalanır içimdə.

Göl burada həm də ruhun dərinliklərini əks etdirən güzgü metaforasına çevrilir. Şair suyun duruluğu ilə insanın daxili dünyası arasında bədii paralellər qurur. Müşfiqin “Azərbaycan” şeirində təbiət təsvirləri milli kimlik duyğularının gücləndirilməsi üçün istifadə olunur. Dağlar, çəmənlər, vadilər yalnız coğrafi təsvirlər deyil, həm də vətən sevgisinin poetik simvollarıdır:

Dağlarında qar olar,
Çəmənində bar olar.

Bu misralar təbiətin zənginliyini göstərməklə yanaşı, Azərbaycan torpağının bərəkətini, xalqın həyat tərzində təbiətin yerini əks etdirir. Təbiət burada həm məkan, həm dəyər, həm də milli kimliyin daşıyıcısı kimi təqdim olunur.

Bütün bu nümunələr göstərir ki, M. Müşfiq təbiət təsvirlərini yalnız dekorativ poetik element kimi istifadə etmir. Əksinə, təbiət onun poeziyasında emosional, fəlsəfi və estetik məna kəsb edən çoxşaxəli bir bədii sistemə çevrilir. Təbiət obrazları onun lirikasında lirik qəhrəmanın psixoloji vəziyyətini açıqlayır, romantik ruhu gücləndirir, milli-mənəvi dəyərləri yaşadır və poetik dilin musiqisini formalaşdırır. Müşfiqin yaradıcılığındakı bu xüsusiyyətlər onun Azərbaycan poeziyasındakı unikal mövqeyini təsdiqləyir və təbiət təsvirlərini onun poetik dünyasının əsas dayaqlarından birinə çevirir [3].

Müşfiqin təbiət təsvirlərinin başqa bir mühüm xüsusiyyəti onların hərəkət və dinamika ilə zəngin olmasıdır. Şair təbiəti statik bir mənzərə kimi deyil, canlı, hərəkətdə olan bir varlıq kimi

təqdim edir. Bu xüsusiyyət xüsusilə onun şəhər və kənd mənzərələrinə həsr olunmuş şeirlərində özünü göstərir. Məsələn, “Oxu, tar” şeirində musiqi və təbiət arasında poetik paralellər qurulur. Şair tarın səsini küləyin uğultusu, çayın axarı və quşların nağməsi ilə birləşdirərək təbiəti musiqili bir sistem kimi təsvir edir:

Dərələrdən gələn səs,
Küləklərin nəfəsi...[6]

Bu misralarda təbiətin səsi musiqiyə çevrilir və şairin bədii yaradıcılığında sintez yaradır. Təbiət yalnız gözlə görünən mənzərə deyil, həm də eşidilən, duyulan bir poetik hal alır. Müşfiqin təbiət təsvirlərində diqqət çəkən digər məqam poetik detalın dəqiqliyidir. Şair çiçəklərin rəngini, dağların kölgəsini, günəşin şəfəqini, suyun parıltısını böyük incəliklə işləyir. Onun “Axşam çağı” adlı şeirində axşamın qızılı işığı, günün solğunlaşan rəngləri və sakitlik təsviri bir növ romantik tənhalığın simvoluna çevrilir:

Səhər kimi günəşli,
Axşam kimi sakitdi. [7].

Burada axşam mənzərəsi şairin daxilində yaranan sakitlik, düşüncə və duyğu təmizliyinin poetik ifadəsidir. Bu, Müşfiqin təbiəti psixoloji məkan kimi təqdim etməsinin daha bir nümunəsidir. Şairin təbiət təsvirlərində metaforiklik də xüsusi yer tutur. Müşfiq çox vaxt təbiət hadisələrini insan davranışı ilə eyniləşdirir, küləyi “qaçan”, dənizi “coşan”, günəşi “sevinən”, yağışı “ağlayan” kimi təqdim edir. Bu cür personifikasiyalar təbiəti insana yaxınlaşdırır, onu sanki insan kimi canlı və duyğusal varlığa çevirir. Bu üslub xüsusilə onun lirik-romantik üslubuna xasdır.

M.Müşfiqin yaradıcılığında təbiət təsvirləri poetik sistemin əsas və ayrılmaz komponentlərindən birini təşkil edir. Təhlil göstərir ki, şair təbiəti sadəcə estetikanın bir elementi və ya fon kimi deyil, insanın daxili aləmini, milli duyğuları, romantik düşüncəni və lirik ovqatı ifadə edən dərin məna daşıyıcısı kimi istifadə edir. Onun əsərlərində külək, günəş, yağış, dağlar və çaylar kimi təbiət obrazları həm simvolik, həm emosional, həm də fəlsəfi funksiyalar daşıyır. Bu obrazlar bəzən azadlığın, bəzən ümid və həyatsevərliyin, bəzən də həsrət və duyğusallığın bədii ifadəsinə çevrilir. Müşfiqin lirikasında təbiət təsvirləri romantik dünyagörüşünün və milli poetik düşüncənin sintezini yaradır. Azərbaycan təbiətinin gözəllikləri onun şeirlərində vətən sevgisi ilə birləşərək milli kimlik və mənəvi bağlılıq hissini gücləndirir. Şair təbiəti həm bədii ideyaların, həm emosional çalarların, həm də milli ruhun ifadə vasitəsi kimi təqdim edir. Bu xüsusiyyətlər Müşfiqin yaradıcılığında təbiət təsvirlərini zəruri bədii komponentə çevirir.

Eyni zamanda, şairin təbiətə yanaşmasında musiqililik, metaforik zənginlik və dinamik obrazlılıq xüsusi rol oynayır. Müşfiqin söz seçimi, ritm quruculuğu və fonetik harmoniyası təbiəti yalnız görmə texnikası ilə deyil, həm də eşitmə, hiss etmə və duyma səviyyəsində təqdim edir. Bu isə onun poeziyasına unikallıq və yüksək estetik dəyər bəxş edir.

**Qəmər Alxanova**
filologiya üzrə fəlsəfə doktoru
*yeldaqemer@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# YAVUZ BÜLƏNT BAKİLERİN YARADICILIĞINDA TƏBİƏT VƏ QARABAĞ FAKTORU

Türk ədəbiyyatının ən görkəmli sənətkarlarından biri olan, əslən azərbaycanlı, bütün yaradıcılığı boyunca daim Qarabağı, Azərbaycanı öz yaradıcılığında xatırlayan, xatırladan Yavuz Bülənt Bakiler yaradıcılığında təbiət, şəhər mövzusuna xüsusi yer vermişdir. Onun "Azerbaycan yüreğimde bir şah damardır", "Karabağ hasreti", "Sivas", "Anadolu acısı", "Sivasa şiir", "Turan", "Türkiyem, Anayurdum, Sebebim, Çarem", "Gözlerin İstanbul Oluyor Birden", "Anadolu Gerçeği", "Ben Doğuluyum" və s. kimi şeirlərdə məmləkət və təbiət məsələlərinə toxunmuşdur.

1936-2025-ci illər arasında yaşayan şairin babası Qarabağda doğulmuş və daha sonra Sivasa köçmüşdür. Hüquq fakültəsinin məzunu olan Yavuz Bülənt müxtəlif vəzifələrdə çalışmışdır. Yazdığı şeirlərdə təbit təsvirləri, vətənin gözəlliyinə olan heyranlıq müşahidə edilir. Daim Azərbaycana olan sevgisini dilə gətirən şairin "Karabağ hasreti" şeirində vətənin gözəlliklərinin viranəyə çevrilməsi əks olunmuşdur.

Şimdi uzaklarda kalan bir şehir vardır
Camileri yıkılmış, minareleri yarım
Bu şehrin çilesini ben çekerim yıllardır
Hasretimi ben duyarım.
Şimdi uzaklarda kalan bir şehir vardır
Ki sızlatır yüreğimi yıllardan beri
Vatan olmasına vatan Anadolucasına
....Bir gün bir selâm gitse Anadolumdan
O şehirden sımsıcak bin selam gelir.
…Balam balam diyerek, okşardı beni ana
Anam'ın dizlerinde ben Hazar'ı yaşadım
Hazar'ın diliyle benim dilim bir
Hazar, şimdi yere inmiş bulutlar mahşeridir.
Ve Karabağ çekik gözlü bir Türkmen kızı gibi
Hazar'ın yakınında mahzun güzelliğiyle
Dedem Hacı Murat'ın destan şehridir.
Çağrılsam yollarına düşebilirim.
Toprağına bayraklarla girebilirim
Karasevdalılar gibi hasretim Karabağ'a
Uğruna ölebilirim.
Bir gün biterse her şey Karabağ'ı görmeden
İstemem bandolar, büyük çelenkler…
Allah'ım ruhuma biraz sükun ver!
Üstüme okunmuş birkaç avuç mübârek
Karabağ toprağından serpilse yeter.

Şeirdə öləndə çələng yerinə məzarına Qarabağ torpağının tökülməsini istəyən şairin ölməzdən əvvəl Qarabağına qovuşması müsbət hallardan biridir.

Çoxsaylı şeirlərin müəllifi olan Bakilər Azərbaycana olan sevgisini əks etdirdiyi yazı və şeirləri “Harman”, “Azərbaycan ürəyimdə bir şahdamardır” kimi kitablardan toplanmışdır. Onun ailəsinin Bakilər soyadını alması da sırf Azərbaycan sevgisindən qaynaqlanır. Soyadında belə ölkəsinin təbiətini əks etdirən sənətkarın vətənə olan sevgisini əks etdirmişdir.

Yavuz Bülənt Bakilərin şeirlərində təbiət əsasən Anadolunun və Azərbaycanın təsviri ilə əks olunmuşdur. Onun şeirlərində Anadolu insanlarının yurda olan bağlığı vasitəsi ilə əks olunmuşdur. Onun yaradıcılığı vasitəsi ilə biz, şəhərin və təbiətin şeirin mərkəzini təşkil edə biləcəyini görürük. Azərbaycanla yanaşı doğulub böyüdüyü Sivasa olan sevgisini və həsrətini yaradıcılığında əks etdirən şair başqa 21 şairin Sivasın təbiəti, gözəlliyi, həsrəti haqqında yazdığı 45 şeiri bir yerə toplayaraq “Sivasa şeir” adlı kitabda toplamışdır.

Hükümet Konağı'nın yanında biri
Bir avuç kemik, bir parça deri
“Boya-cila yimbeş, boya-cila yimbeş!” diye ağlıyor
Ve daha fırça bile tutamıyor elleri…

“Sivasda yoxsul uşaqlar” adlı bu şeirdə Hökümət evinin ətrafında, Yetimlər bazarı adlı yerdə yaşayan kasıb uşaqların həyatı əks olunmuşdur.

Şairin “Sivasa həsrət” adlı şeirində Sivasın təbiəti əks edilmiş;

Tozunla, toprağınla yoksul kağnılarınla
Yılın altı ayında yağıp duran karınla
Ve soğuk sularınla, serin rüzgarlarınla
Gözümde tütüyorsun can şehir… deyərək həsrətini əks etdirmişdir.

Gəldiyimiz nəticə kimi qeyd etməliyik ki, həmyerlimiz Yavuz Bülənt Bakilər həm türk siyasi həyatında, həm də ədəbi mühitdə yer alaraq təbiətə olan həsrətini əks etdirmiş, Anadoludakı insanların həyat tərzini poetik üslubla əks etdirərkən təbiət təsvirlərindən istifadə etməkdən qaçınmamışdır.

### Ədəbiyyat siyahısı

1.Akyol, Gizem (2010) Cahit Külebi Ve Yavuz Bülent Bâkiler’in Siirlerinde Anadolu Ve Anadolu İnsanı, Yüksek Lisans Tezi ,Balıkesir Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Ana Bilim Dalı, Balıkesir.
2.Bakiler, Yavuz Bülent, (1971) Duvak, Hisar Yayınları, Ankara.
3.Bakiler , Yavuz Bülent, (2008)Azerbaycan Yüreğimde Bir Şahdamardır, Türk Edebiyatı Vakfı Yay., 1. Baskı,İstanbul.
4.Bakiler, Yavuz Bülent, (2008)Türkistan Türkistan, Türk Edebiyatı Vakfı Yay., 11. Baskı, İstanbul.
5.Bakiler, Yavuz Bülent, (1989) Seninle, Polat Ofset, 2. Baskı, Ankara.
6.Bakiler Yavuz Bülent, (2001) Harman, Türk Edebiyatı Vakfı Yayınları, 1. Baskı, İstanbul.
7.Çetin Nurullah (2010), Şiir Tahlilleri 1, Öncü Kitap Yay., Ankara.

**Dürdanə Əliyeva**
durdanaaliyeva23@gmail.com
ADPU Cəlilabad filialı, baş müəllim

# İNKLÜZİV SİNİFLƏRDƏ TƏBİƏT MƏZMUNLU ƏDƏBİ MATERİALLARIN SOSİAL-EMOSİONAL ÖYRƏNMƏYƏ TƏSİRİ

İnklüziv təhsil – bütün uşaqların eyni sinif mühitində bərabər öyrənməsini təmin edən təhsil modelidir. Bu pedaqoji yanaşmada əsas məqsəd yalnız akademik bilikləri çatdırmaq və inkişaf etdirmək deyil, həm də şagirdlərin sosial-emosional bacarıqlarınının inkişafını təmin etməkdir. Sosial-emosional öyrənmə (SEÖ) şagirdlərin özünüdərketmə, özünüidarəetmə, empatiya, sosial qarşılıqlı əlaqə və məsuliyyətli qərarvermə kimi həyati bacarıqlarını inkişaf etdirən əsas təlim komponentidir. Buna görə də inklüziv siniflərdə SEÖ-nün rolu xüsusilə artır, çünki müxtəlif öyrənmə ehtiyaclarına malik şagirdlər davranış, ünsiyyət və emosional reaksiya baxımından fərqli dəstək modellərinə ehtiyac duyurlar. Azərbaycan uşaq ədəbiyyatında geniş yer alan təbiət mövzulu mətnlər – təbiət təsvirləri, canlıların ekologiyası, fəsil dəyişikliyi və təbiət hadisələrinin bədii təqdimatı – bu ehtiyacları qarşılayan mühüm pedaqoji resursa çevrilir. Çünki bu resurslar vasitəsilə uşaqlar duyğularını tanıyır, özünüifadə edir, empatiya göstərir və sosial qarşılıqlı əlaqə bacarıqlarını gücləndirirlər.

Tədqiqatın məqsədi təbiət məzmunlu ədəbi materialların inklüziv siniflərdə sosial-emosional öyrənməni dəstəkləmə imkanlarını müəyyənləşdirmək və onların tətbiqinə dair metodik əsaslar hazırlamaqdır. Araşdırmanın elmi yeniliyi inklüziv siniflərdə təbiət məzmunlu uşaq ədəbiyyatının sosial-emosional öyrənməyə təsirinin sistemli təhlil edilməsidir.

Araşdırma çərçivəsində Azərbaycan uşaq ədəbiyyatında təbiət lirikasına və nəsrinə aid nümunələr (Abdulla Şaiq, Səməd Vurğun, Mir Cəlal, Elçin, Mikayıl Müşfiq və b.) sosial-emosional inkişaf meyarları üzrə təhlil edilmişdir. Bunlara nümunə olaraq, qeyd edə bilərik ki, Abdulla Şaiqin "Çoban" şeirində təbiət mənzərələri, heyvanlara qayğı, əməksevərlik və təbiətə sevgi aşılanır. Bu da uşaqlara empatiya, məsuliyyət və qayğı kimi dəyərlər aşılayır. Onun "Yaz gəlir" şeirində fəsillərin dəyişməsi, təbiətin oyanması, sevinc və yenilənməni canlandırmışdır. Bu şeir vasitəsilə uşaqlarda duyğuların tanınması, pozitiv emosiyalar formalaşdırılır. Mikayıl Müşfiqin "Yağış yağır" şeiri uşaqlar üçün yazılan sadə ritmli, aydın təsvirli təbiət şeirlərindən biridir. Şeirdə sensor təsvirlərin verilməsi müxtəlif formalarda öyrənən uşaqlar üçün çox əhəmiyyətlidir. Belə ki, ritm, hərəkət və səslərin poetik verilməsi bədən-kinestetik və musiqi-ritmik öyrənən uşaqlar üçün uyğundur. Həmçinin, şeirdə yağışın sakitləşdirici təsvirinin verilməsi də emosional baxımdan dəyişkənlik olan, eləcə də hiperaktiv olan şagirdlər üçün sabit bir fon yaratmış olur. Şeirdə həmçinin yağışın təbiəti yeniləməsi də uşaqların düşüncələrinə yenilənmə, sakitlik kimi emosional tənzimləmələr qazandıra bilir. Həmçinin, nitq gecikməsi olan uşaqlar üçün də bu şeir çox əhəmiyyətlidir. Çünki şeirdə qısa, ritmik və təkrarlanan strukturlar vardır. Bu şeir vasitəsilə təbiətə qayğı, dəyişikliyə adaptasiya, duyğu dəyişimini təbiətdə baş verən dəyişikliklərə uyğunlaşdıraraq qəbul edilməsi kimi SEÖ qazandırılır.

Aparılan təhlil göstərir ki, təbiət obrazlarının istifadəsi inklüziv siniflərdə sosial-emosional öyrənməni bir neçə istiqamətdə gücləndirir:

Özünüdərketmə və duyğuların fərqləndirilməsi: Fəsillərin, hava hadisələrinin və canlıların həyat dövrlərinin metaforik təqdimatı şagirdlərə öz daxili hisslərini tanımaq və ifadə etmək imkanı

yaradır. Bu zaman duyğu kartlarından (fəsillərə, hava hadisələrinə və canlılara aid emosiyaları göstərən şəkillərdən istifadə), refleksiya, bənzətmə üzərindən müzakirə ilə (məsələn, "Sənin hissin hansı fəsilə bənzəyir və niyə?") öz duyğularını ifadə etməsini təmin edə bilərik.
Özünüidarəetmə: Təbiət mənzərələrinin harmonik və sakitləşdirici təsvirləri uşaqlarda emosional sabitliyi artırır, stres və davranış çətinliklərinin azalmasına yardım edir. Sakitləşdirici məşqlər (təbiət təsvirləri ilə istiqamətləndirilmiş nəfəs və meditasiya), ritmik oxuma (şeirlərin ritmik oxunması) bütün uşaqlarda sabitlik və konsentrasiya formalaşdırır.

Empatiya: Heyvanlar, bitkilər və təbiət hadisələri haqqında hekayələr uşaqlarda qayğıkeşlik, rəhm, ekoloji məsuliyyət kimi sosial-emosional keyfiyyətləri gücləndirir. Rollu oyunlar, qrup müzakirələri, ekologiyaya aid layihələrin həyata keçirilməsi empatiyanı gücləndirir.
Sosial qarşılıqlı əlaqə: Təbiət mövzulu mətnlərin canlandırılması, qrup müzakirələri, vizual və sensor fəaliyyətlər inklüziv sinifdə əməkdaşlığı artırır və uşaqlar arasında müsbət münasibətləri təşviq edir. Qrup tapşırıqları, səhnələşdirmə, müxtəlif interaktiv qrup oyunları onlarda sosial qarşılıqlı əlaqəni gücləndirir.

Məsuliyyətli qərarvermə: Ekoloji davranış nümunələri ilə zəngin mətnlər uşaqlarda ətraf mühitə qarşı etik yanaşmaların formalaşmasına və düşünülmüş qərarvermə bacarıqlarının inkişafına kömək edir. Simulyasiyalar, debat və müzakirələrin aparılması, layihə əsaslı öyrənmə uşaqlarda real məsuliyyət hissi yaradır.

Nəticə olaraq qeyd etməliyik ki, təbiət məzmunlu ədəbi materialların inklüziv tədrisə sistemli şəkildə inteqrasiyası şagirdlərdə emosional rahatlıq, sosial qarşılıqlı əlaqə, empatiya və özünüidarəetmə bacarıqlarını gücləndirir. Bu isə inklüziv sinif mühitində həm akademik, həm də sosial rifahı artırır və ədəbiyyat tədrisinin keyfiyyətini yüksəldən mühüm amil kimi çıxış edir.

**Bilal Hüseynov**
ADPU Cəlilabad filialının müəllimi,
filologiya üzrə fəlsəfə doktoru,
bilalalarli58@mail.ru,

## ƏTRAF ALƏMİN ÖYRƏNİLMƏSİNDƏ VƏ QORUNMASINDA FOLKLOR NÜMUNƏLƏRİNİN ROLU

Məktəbəqədər təhsil və tərbiyə müəssisələrində, ibtidai təhsil sistemində uşaqlara şifahi xalq ədəbiyyatı nümunələrinin öyrədilməsi mühüm yer tutur. Tərbiyə və təhsil müəssisələrində folklor nümunələrindən istifadəyə önəm verilməsi təsadüfi hal deyil. Bu, birinci növbədə, təhsilin müasir tələblər səviyyəsində olmadığı qədim və orta yüzilliklərdə folklorun maarifləndirici funksiyanı yerinə yetirməsi ilə bağlıdır. Yazılı ədəbiyyat nümunələrindən də qabaq folklorun uşaqların və yeniyetmələrin ilkin ədəbi dünyagörüşünün formalaşmasında rolu böyük olmuşdur. Folklorun lirik, epik və dramatik janrlarının formalaşması, inkişafı da onların ilkin olaraq uşaqların arasında təbliği ilə bağlıdır. Uşaq folkloru anlayışı bu ədəbi növlərin bütün sahələrini əhatə edir.

Tərbiyənin, o cümlədən ekoloji tərbiyənin də özülündə xalq deyimləri dayanır. Heç bir qadağanedici qayda atalar sözü və məsəlin təsir imkanları səviyyəsində deyil. Ekoloji sağlamlıq insanın özünün sağlamlığı deməkdir. Ekoloji sistemə vurulan ziyan insanın sağlamlığına vurulan ziyandır. Təbiətin, ətraf mühitin qorunması bütün canlıların və bitki örtüyünin mühafizə edilməsi deməkdir. Bu istiqamətdə görülən işlərdə folklor nümunələrinin əhəmiyyəti böyükdür. Folklor örnəkləri uşaqlarda müsbət xarakter formalaşdırır. Əməyə, elmə məhəbbət, insanlığa hörmət, gözəlliyə sevgi aşılayan folklor nümunələri uşaqların dünyagörüşünün formalaşmasına, onların sağlam bir vətəndaş olaraq yetişməsinə xidmət edir. Məktəbəqədər tərbiyə müəssisələrində, məktəbəhazırlıq qruplarında və ibtidai siniflərdə uşaqların yaşına uyğun nümunələr öyrədilməli, onlarda kollektivçilik ovqatı yaradan oyunlara üstünlük verilməlidir. Uşaqlar özləri xalq tamaşalarına cəlb edilməli, ifa etdikləri obrazların mahiyyətini anlamalıdırlar. Tərbiyəvi əhəmiyyətə malik folklor nümunələri dərsliklərə və dərs vəsaitlərinə daha çox salınmalı, uşaqlara təbiətə məhəbbət hissi aşılanmaqla yanaşı, humanizm prinsipləri təlqin edilməlidir. Unutmaq olmaz ki, folklor qədər uşaqların ruhunu oxşayan ikinci bir mənbə yoxdur.

Uşaq üçün folklor layla və oxşama ilə başlayır, oyunlarda, xalq tamaşalarında, mərasim və mövsüm tədbirlərində boy atır, nağıl və dastan kimi iri həcmli nümunələrdə məhsul verir. Tərbiyənin, o cümlədən ekoloji tərbiyənin də özülündə xalq deyimləri dayanır. Heç bir qadağanedici qayda atalar sözü və məsəlin təsir imkanları səviyyəsində deyil.

Ekoloji sağlamlıq insanın özünün sağlamlığı deməkdir. Ekoloji sistemə vurulan ziyan insanın sağlamlığına vurulan ziyandır. Təbiətin, ətraf mühitin qorunması bütün canlıların və bitki örtüyünin mühafizə edilməsi deməkdir. Əslində, ekologiya yaşayış mühiti anlamına gəlir. İnsan özü ekoloji mühitin canlı varlığıdır, sağlam yaşamaq üçün üstündə gəzdiyi torpağı, içdiyi suyu və udduğu havanı qorumalıdır.

Uşaq ədəbiyyatı, o cümlədən uşaq folklor nümunələrinin seçimi onların yaş xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. Pedaqoji təlim prinsiplərinə uyğun olaraq, 17 yaşa qədər olan oxucular uşaq oxucular sayılır. Bu qruplaşma özü də zamana görə dəyişir. Əvvəllər 3-7 yaşlı uşaqlar bağça yaşlı sayılırdılar, indi 6 yaşlı uşaqlar məktəbəhazırlıq qruplarına cəlb edilir və bu onlara təlqin edilən ədəbi nümunlərin tərkibində də fərqlərə gətirib çıxarır. Kiçik, orta və yuxarı yaşlı məktəblilərin öyrənməsi üçün nəzərdə tutulan folklor nümunələri də həcminə və məzmununa görə bir-birindən fərqlənir. Kiçik yaşlı uşaqlar üçün seçilmiş folklor nümunələri sadə, aydın, anlaşılan şəkildə olmalıdır. "Azərbaycan uşaq ədəbiyyatı" dərsliyinin müəllifi Qara Namazov yazır ki, ana laylası kimi uşaqların hisslərini oxşayan musiqili nəğmələr də bədii estetik tərbiyədə xüsusi əhəmiyyət kəsb edir **(Namazov 2007: 5).** Yeniyetmələrə maraqlı gələn nümunələr içərisində isə mərasim nəğmələri, xalq tamaşaları, nağıllar və dastanlar üstünlük təşkil edir.

Ekoloji tərbiyə gündəmin aktual mövzusudur, bu istiqamətdə kütləvi maarifləndirmə işinin aparılmasına ehtiyac var. Bu maarifləndirmə işi uşaqlara körpə yaşlarından təlqin olunmalıdır. O cümlədən, tədris prosesi fənnin məqsəd və mahiyyətindən asılı olmayaraq, yeniyetmələri ətraf aləmi tanımağa, öyrənməyə, tədqiq etməyə və qorumağa həvəsləndirməli, onlarda ekoloji mədəniyyətin formalaşdırılmasına xidmət etməlidir. Bu mənada məktəbəqədər təhsil və tərbiyə müəssisələrinin üzərinə mühüm vəzifələr düşür.

Beynəlxalq təhsil sistemi məktəbə qədəm qoyan uşaqlar üçün təlimin tələblərini təbiətdən elmə doğru prinsipləri üzərində qurur. Azərbaycanda da məktəbəhazırlıq qrupları ilə təhsil və tərbiyə metodları eyni prinsiplərə əsaslanır. Bu "Savad təliminə hazırlıq və nitq inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət" və "Ətraf aləmlə tanışlıq" vəsaitləri ilə aparılır. Bunların içərisində daha çox önəm verilən "Ətraf aləmlə tanışlıq" vəsaitidir **(Cəfərova və başqaları 2016: 1-80)**. Vəsaitin ətraf aləmlə tanışlıq bölmələri daha çox nələri bilməyi nəzərdə tutur? Bu bölmələrə əsasən ilin fəsilləri, meyvələr və tərəvəzlər, ev heyvanları və vəhşi heyvanlar, məişət əşyaları, nəqliyyat növləri, quşlar, ağaclar və digər bitkilər, səma cisimləri, müxtəlif peşə və sənətlər haqqında məlumatlar daxildir. Oxşar funksiyaları kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuş folklor nümunələri də yerinə yetirir. Buna görə də təlim zamanı uşaq üçün anlaşıqlı olan folklor örnəklərinə üz tutmaq daha çox effekt verir. Məsələn, tapmacalarda əlamətləri sadalanan əşyaların adının tapılması uşağın həmin əşyanın funksiyasını daha yaxşı dərk etməsinə imkan verir. Qara Namazov yazır: "Kiçik uşaqlar tapmacalarda gördükləri, müşahidə etdikləri göy cisimlərinin, təbiət hadisələrinin, ev əşyalarının, təsərrüfat alətlərinin, heyvan və quşların əlamətlərini axtarırlar. Hazırcavab, zəkalı, təsəvvür və təxəyyülü güclü olan uşaqlar əlamətlərə görə əşyanı tez xatırlaya bilirlər" **(Namazov 2007: 13).** Nümunələrə diqqət yetirək:

Ev əşyalarından lampa haqqında:
Bir balaca boyu var,
Dam dolusu toyu var.
Ev əşyalarından ələk haqqında:
Alçaq damdan qar yağar.
Ev quşlarından toyuq-cücə haqqında:
Axşam yığılar,
Səhər dağılar **(Namazov 2007: 12-13).**

Tapmacalar əşyalar haqqında məlumatı möhkəmləndirməklə bərabər, mücərrəd təfəkkürü də inkişaf etdirir. Cavabı "Peyk" olan tapmacada əlamətlər belə sadalanır:

O hansı quşdur

Səsi düşüb dünyaya?
O quş məni də
Aparacaqdır Aya... **(Səlimxanova 1985: 12).**

Fəsillər haqqında olan tapmaca uşaqlara təbiətlə bağlı maraqlı məlumatlar verir:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.
Üçü yığıb gətirir,
Üçü vurub dağıdır **(Səlimxanova 1985: 43).**

Əyləncə xarakterli folklor nümunələri əslində öyrədici xarakter daşıyır. Kiçik yaşlı uşaqlar bu mətnlərdə adı çəkilən quşların, heyvanların, bitkilərin əlamətləri haqqında məlumat əldə edirlər. Məsələn, oxşamanın bir növü olan arzulamada deyilir:

Balama qurban inəklər,
Balam nə vaxt iməklər?
Balama qurban dayçalar,
Balam nə vaxt əl çalar?
Balama qurban ilanlar,
Balam nə vaxt dil anlar?
Balama qurban daylaqlar,
Balam nə vaxt oynaqlar? **(Səlimxanova 1985: 23).**

Düzgülərin bir qismi təbiət hadisələrinin təsvirindən ibarətdir. Məsələn, "Gün, çıx, gün, çıx" düzgüsündə qış və yaz fəsillərinin müqayisəli təhlili verilir:

Gün, çıx, gün, çıx,
Kəhər atı min çıx.
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü.
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür çıx.
Gün getdi su içməyə,
Qırmızı don biçməyə.
Gün özünü yetirəcək,
Keçəl qızı aparacaq,
Saçlı qızı gətirəcək **(Səlimxanova 1985: 27).**

"Yel Baba" çağırısı da uşaqları təbiət hadisələri ilə tanış edir. Bu çağrı "Xırman nəğməsi" kimi də tanınır:

A Yel Baba, Yel Baba,
Qurban sənə, gəl, Baba.
Buğdamız yerdə qaldı,
Yaxamız əldə qaldı **(Səlimxanova 1985: 30).**

Oxşar istək gilavar haqqında olan çağrıda da öz əksini tapır:

Əs, ey gilavar, giləvar,
Ay xoş gilavar, gilavar **(Səlimxanova 1985: 30).**

Bu tipli nümunələr uşaqları təbiət hadisələrinin sirrini, mahiyyətini anlamağa kömək edir.

Təmsillərdə və nağıllardakı heyvan və quş obrazları insan xarakterlərini ifadə edir. Belə folklor nümunələrində tülkü hiyləgərlik, qurd yırtıcılıq, dovşan qorxaqlıq, it sədaqət rəmzidir. “Çaqqal və Xoruz” nağılında belə bir mənzərə təsvir olunur: “Bir xoruz ağaca çıxıb banladı. Çaqqal bunu eşidib dedi:

-Ay xoruz qardaş! Aşağı düş banla.
Xoruz dedi:
-Ay çaqqal baba, bir az dayan. Qoy Alabaş it yuxudan oyansın, onda düşüb banlaram..
Çaqqal it adını eşidib qaçdı” **(Səlimxanova 1985: 24).**

Folklor nümunələrindən birində heyvan obrazlarının xarakteri verilir:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə nəlbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız.
Xoruz bizim mollamız,
Çaqqal bizim çavuşumuz.
Ala qarğa carçımız,
Sağsağan xəbərçimiz.
Toyuq bizim çərçimiz,
İlan bizim qəmçimiz... **(Uşaq folkloru 2014: 57).**

Bu uzunnamanın sonu belə bitir:

Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Caqqal çavuş.
İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq **(Uşaq folkloru 2014: 57).**

Əslində, kiçik yaşlı uşaqlar bu cür folklor nümunələrindən insan xarakterlərinin xüsusiyyətlərini öyrənirlər. Bəhlul Abdulla toplayıb nəşr etdirdiyi “Azərbaycan xalq uşaq oyunları” kitabında oyunları həm də tərbiyə vasitəsi kimi təqdim edir: “Uşaqlar cəlb olunduqları oyunun yardımı ilə, bir növ, canlı təbiətin özünü görməli, suyun şırıltısını, quşların civiltisini eşitməli, gülün, çiçəyin gözəlliyindən zövq almalı, neçə-neçə ağacın... adını öyrənməklə söz ehtiyatını artırmalıdır” **(Azərbaycan xalq uşaq oyunları 2014: 4).** Bəhlul Abdullanın təqdim etdiyi “Ənzəli” oyununda belə bir deyişmə var:

-Göydə nə var?
-Göy ulduzu.
-Yerdə nə var?
-Bir az buzu, bir az duzu... **(Azərbaycan xalq uşaq oyunları 2014: 50).**

Kosmik təsəvvürdən sonra uşaqların diqqəti “Köşkibalaban” oyununda Azərbaycanın ayrılıq rəmzi olan Araz çayına yönəldilir:

Köşkibalaban Araza baxar,
Arazın suyu gözlərdən axar.
Ay Araz, quru, axma bir zaman,
Ay bizi odlara yandırıb yaxan **(Azərbaycan xalq uşaq oyunları 2014: 76).**

"Keçi-canavar", "Qurdapardı", "Keçi başı" oyunlarında heyvan xislətləri təsvir olunur (**Azərbaycan xalq uşaq oyunları 2014: 132-159).** Kitabda verilən "Püşkatmalar" bölməsində oyunlarla bağlı sanamalarda uşaqlar üçün maraqlı görünən təbiət hadisələri təsvir olunur **(Azərbaycan xalq uşaq oyunları 2014: 168-173).**

Bəhlul Abdulla "Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası"na "Əmək nəğmələri"nin və "Mövsüm mərasim nəğmələri"nin də bir qismini daxil edir ki, bu nümunələrdə də ətraf aləm, xüsusilə təsərrüfat yaşantıları ilə bağlı məlumatlar öz əksini tapır. Holavar və sayaçı sözlərində, çoban nəğməsində maldar və qoyunçuluq haqqında, "Sarı sünbülüm" və "Əkin, çəltiyi əkin" nəğmələrində əkinçilik haqqında məlumatlar poetik şəkildə təsvir olunur **(Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası 256: 129-132)**. "Novruz gəlir", "Kosa-kosa", "Qodu-qodu", "Xıdır Nəbi" kimi nümunələr isə adət-ənənələrin, milli bayramların nəzm şəklində təsvirindən ibarətdir **(Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası 256: 133-138)**.

Folklor örnəkləri uşaqlarda müsbət xarakter formalaşdırır. Əməyə, elmə məhəbbət, insanlığa hörmət, gözəlliyə sevgi aşılayan folklor nümunələri uşaqların dünyagörüşünün formalaşmasına, onların sağlam bir vətəndaş olaraq yetişməsinə xidmət edir. Məktəbəqədər tərbiyə müəssisələrində, məktəbəhazırlıq qruplarında və ibtidai siniflərdə uşaqların yaşına uyğun nümunlər öyrədilməli, onlarda kollektivçilik ovqatı yaradan oyunlara üstünlük verilməlidir. Uşaqlar özləri xalq tamaşalarına cəlb edilməli, ifa etdikləri obrazların mahiyyətini anlamalıdırlar. Tərbiyəvi əhəmiyyətə malik folklor nümunələri dərsliklərə və dərs vəsaitlərinə daha çox salınmalı, uşaqlara təbiətə məhəbbət hissi aşılanmaqla yanaşı, humanizm prinsipləri təlqin edilməlidir. Unutmaq olmaz ki, folklor qədər uşaqların ruhunu oxşayan ikinci bir mənbə yoxdur.

## ƏDƏBİYYAT


1.Azərbaycan xalq uşaq oyunları. Toplayıb işləyəni Bəhlul Abdulla. –Bakı, Çaşıoğlu, 2014, -176 s.
2.Uşaq folkloru. Nəşrə hazırlayan Rafiq İsmayılov. –Bakı, Altun kitab, 2014, -96 s.
3.Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası. Tərtib edəni Bəhlul Abdulla. –Bakı, XX – Yeni nəşrlər evi, 2001, -256 s.
4.Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Ali məktəblər üçün dərslik. –Bakı, Bakı universiteti nəşriyyatı, 2007, -444 s.
5.Səlimxanova X.İ. Məktəbəqədər tərbiyə müəssisələrində şifahi xalq ədəbiyyatı nümunələrinin öyrədilməsi. Metodik vəsait. –Bakı, Maarif, 1985, -70 s.
6.Cəfərova L., Həmidova X., Mustafayeva S., Soltanqızı R., Məcidova A. Ətraf aləmlə tanışlıq. Məktəbəhazırlıq qrupları üçün təlim vəsaiti. –Bakı, Çaşıoğlu, 2016, -80 s.

**Ələsgər Mirzəzadə**
ADPU Cəlilabad filialı baş müəllim
mirzezade.elesger@mail.ru

# NOVRUZ BAYRAMINDA TƏBİƏT TƏSVİRLƏRİ (FOLKLORUMUZDAN)

Novruz bayramının mövcud olduğu bir dövrdə yaşayan Herodot miladdan 500 il öncə "Tarix" əsərində yazır: "Qafqazda müxtəlif tayfalar yaşayır və onların çoxu cır ağac meyvələrindən istifadə edir. Belə deyirlər ki, bu ölkədə **qəribə yarpaqları olan ağaclar** var. Eyni zamanda onlar bu yarpaqlardan rənglər düzəldərək onu toz halına salır, su ilə qarışdırır, sonra da paltarların üstünə naxışlar çəkirdilər ki, bu naxışları su yuyub aparmırdı". Herodot, eyni zamanda, həmin xalqların otlardan istifadə edərək ətirli maddələr, qətranlar, boyalar hazırladıqlarını, məişətdə geniş istifadə etdiklərini də qeyd edir **(5, s.89).**

Türk dünyasının, həmçinin Azərbaycan xalqının da daxil olduğu bir neçə ölkələrin xalqlarının ortaq mədəni irsi kimi qeydə alınan və miladdan öncəyə gedib çıxan **Novruz bayramı** Azərbaycan ərazisində coşqu ilə qeyd olunan bayramlardan biridir. Baharın gəlişini və təbiətin oyanışını təmsil edən, mənşəyi qədim dövrlərə söykənən bu qədim türk ənənəsi, Orta Asiya, xüsusilə Azərbaycan türkləri tərəfindən mifoloji cəhətlərini qoruyub saxlayaraq bu gün də davam edir. Novruz şənlikləri içərisində mühüm və xüsusi yer tutan çərşənbə mərasimləri Novruzun mifologiyasını özündə yaşadır. **Yeniləşmə və yaradılış** miflərinin əsas dinamikası olan, köhnə türk inanclarında də müqəddəs sayılan **od, su, hava, torpaq** kimi elementlər çərşənbə mərasimlərinin əsasını təşkil edir.

Bildiyimiz kimi, Novruz bayramı və ondan öncə gələn 4 çərşənbə ədəbiyyatımızın folklor və klassik sahələrinə aiddir.

Bəzi qədim inanclara və Zərdüştə görə, **kainat** 4 ünsürdən – **su, od, torpaq və küləkdən (yel)** yaranıb. Hər il 4 çərşənbə Novruzdan - günün bərabərləşməsindən əvvəl qeyd olunur. Ozanlar da özlərini "sudan (ab), oddan (atəş), torpaqdan (xak) və yeldən (bad) yarandım" deyərək dastan söyləmiş və qoşmalar oxumuşlar, yəni insan bu 4 ünsürə bağlıdır.

4 ünsürdən 1-cisi **sudur.** Məhz buna görə də birinci çərşənbə də **Su çərşənbəsi** adlanır. Yəni bahara doğru çayların buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqdan su gıtirər, evin ətrafına səpələyər, əl-üzlərini yuyardılar. Hamı dan yeri söküləndə yuxudan qalxar, axar suya gedər, əl-üzünü yuyardı. Suyun üstündən tullanır, "ağrım-uğrum, azarım-bezarım bu su ilə getsin!" deməklə bayram ayinlərini yerinə yetirərdilər. Bəs niyə su üstünə obaşdan gəlinir? (Ola bilsin, bu adət və deyimlər ağır qiş qaygılarının sonu və yazın gəlişı münasibətilə yaranan adətlərdir).

Yadımdadır: Cəlilabadın bir dağ kəndində yaşayırdıq. Uşaq idik. Ailədə 11 uşaq var idi. Su çərşənbəsi günü nənəmiz bizi hava işıqlanar-işıqlanmaz yuxudan oyadardı, "durun, uşaqlar, su üstündən tullanmağa gedirik" – deyərdi. Biz də yarıyuxulu, yarıoyaq hazırlaşıb, ailəmizlə birlikdə axar suyun üstündən tullanmağa, qədim adətimizi yerinə yetirməyə gedərdik. Tullanarkən ata, anamızın öyrətdiyi kimi "ağrım-uğrum bu su ilə getsin, müqəddəs su bizə kömək olsun" deyərdik. Bir neçə dəfə tullanma əməlini yerinə yetirdikdən sonra, yaxınlıqdakı təpəyə qalxardıq. Atamız deyərdi: "Günəşin çıxmasını kim birinci görsə, Günəş öz nurundan ona pay verər, öz nurlu şəfəqlərin onun üzərinə salar". Biz də gözümüzü Şərqin üfüqlərinə dikərdik, Günəşin çıxmasını

səbirsizliklə gözləyərdik. Günəş çıxar-çıxmaz qışqırardıq: “Mən gördüm, mən gördüm”. Amma dərk etmirdik ki, Günəş çıxarkən onu elə hamımız görüb, çünki hamının gözü işıqlanmaqda olan üfüqə zillənmişdi.

Sonra adəti üzrə qabları dərədən axan su ilə doldurub evə qayıdardıq. Nənəmiz deyərdi: “İndi hərə öz qabından evin dörd bir tərəfinə su çiləsin” Atalar demiş: “Sulu ev abad olar, susuz ev bərbad olar”.

Yadımdadır, 50-60 il bundan öncə, Novruz bayramı adət-ənənəyə uyğun daha real və möhtəşəm keçirilərdi. Bayram adəti üzrə qızlar-gəlinlər su üstünə gedər, ilk öncə, əl-üzlərini yuyar, səhənglərini doldurub şirin və müqəddəs su ilə evə dönərdilər. Bu sudan evin ətrafına çiləyər, samovarı, qazanı doldurardılar. Təbiətin istiləşməsi, canlanması hamını sevindirərdi. **(7).**

2-cisi **Od çərşənbəsi** adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isidir, canlandırır. Od çərşənbəsində tonqallar qalanır, ailə üzvləri tonqal başına toplanır. Tonqallar alovlanır. Ailə üzvləri “ağırlığım-buğurluğum burda (odda) qalsın”, deyərək tullanır. Evdə hər ailə üzvünün adına bir şam yandirılır. Xonçalar bəzənir.

Od çərşənbəsində həmçinin, deyərlər: Özünü ildə bir kərə təmizlə, canını oddan keçir, atıl tonqal üstündən. Mən tarixçiyəm, həmçinin tarixi araşdırmalarla məşğulam. Qədim dövrlərdə dəfn adətlərində belə bir qaydalar da var imiş. Bəzi xalqların adətinə görə ölü qəbrə qoyulmamış qəbrin içi alovla yandırılarmış. Biz bunu bir qəbrin açılması zamanı da müşahidə etmişik. Qəbirdə insan skeletinə də rast gəlmədik. Qəbirdən kömürün tapılması ölünün yandırılaraq qalıqların ora tökülməsi demək idi. (kremasiya).

Od qədim Azərbaycan xalqının təfəkkürüncə, işıqlı sabah, xeyir-bərəkət rəmzi olub. Bu çərşənbədə tonqallar daha möhtəşəm yandırılırmış. Günəşin istisini arzulayan əcdadlarımız Od çərşənbəsində səhər tezdən Günəşə qurban kəsirlər. Qədim dövrlərdə Od çərşənbəsində tonqalı hündür yerdə-dağ, təpə başında qalayar, bütün el həmin tonqalın başına yığışarmışlar. Odunlar yenicə alışmağa başlayanda qız-gəlin odun şərəfinə nəğmələr söylərmişlər. Od Günəşin yer üzündəki rəmzi sayılmış, həyatverici, isidici və qoruyucu gücə malik olduğuna inanılmışdır. Bu düşüncə animizm və tanrıçılıq inancları ilə sıx bağlıdır.

Günəş qüruba endikdən sonra kəndin cavanları odun külünü yığıb kəndin girəcəyinə və ya yola atırlar. Bu ritual xəstəliyin və çətinliklərin yox olmasını simvollaşdırır. Od çərşənbənin əsasını günəşə ehtiram və odu qorumaq təşkil edir. İnsanlar inanırlar ki, tonqalın üzərindən tullanan hər kəs uğursuzluqlardan qurtulur, yeni ilə təmiz ruhla qədəm qoyur. **(3).**

**3-cü çərşənbə** təbiətin möcüzələrindən sayılan **YEL <u>çərşənbəsidir</u>**. Yel çərşənbəsi yaradılışın əsasında duran ilk dörd ünsürdən biri olan **küləyi, havanı** simvolizə edir. Əski görüşlərə görə bahar bayramındakı böyük dirilişə qədər dörd əsas ünsür yaradılır. Su və od yaradıldıqdan sonra yel yaradılıb. Təbiətdə suyun, odun və havanın hər birinin bir yaradılış başlanğıcı olaraq qəbul edilməsi onlara müqəddəslik məzmunu qazandırıb. Havanın həyat üçün zəruri bir ünsür olduğu məlumdur. Dünya, təbiət və insan bu dörd ünsürdən sonra yaradılıb. Bu **yaradılış ünsürlərini** dərk etmiş qədim xalqımız bu günləri müqəddəs sayıb və onu bayram edib.Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yellədir və tozlayır.

Ay yel baba, yel baba,
Qurban sənə gəl baba.
Taxılımız yerdə qalar,
Ay yel baba, yel baba

Qurban sənə gəl baba.

Yel çərşənbəsində təbiəti oyatmaq üçün “Yel baba” mərasimləri keçirilmiş və bu mərasimlər vasitəsilə təbiətə təsir göstərməyə çalışmışlar. Mifoloji çağlardan qalan inanclar bizim ənənəvi mədəniyyətimiz içərisində izlərini qoruyub müasir dövrə qədər gəlib çatmışdır. **(6).**

Türk mifologiyasının müəllifi Bahaeddin Ögelin yazdığına görə, Yakut türkləri küləyi dörd istiqamətə ayırmış və türklərin müqəddəs istiqaməti olduğu üçün **şərqdən** əsən küləyi müqəddəs saymışlar. Şərqdən əsən küləklər insanlara xeyir gətirdiyi üçün baharı da özü ilə gətirir.

Eynilə Azərbaycanda da Külək çərşənbəsində dörd küləyin bir araya gəldiyinə inanırlar. Bu "Ağ yel", "Qırmızı yel", "Qara yel", "Yaşıl yel"dir. Azərbaycan türklərinin inancına görə bu dörd yel qara çayın yatağında yatır. Ağ yel suyu təmizləyir, Qırmızı yel odu alovlandırır, Qara yel yeri oyadır, Yaşıl yel yer üzündə toxumları cücərtdirir. Beləliklə, dörd yelin Novruzdan əvvəlki dörd çərşənbə gecəsi ilə əlaqəsini görə bilərik.**(1).**

4-cüsü **Torpaq çərşənbəsidir**. Bu çərşənbə yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir. “Torpaq çərşənbəsi” hesab olunan sonuncu (ilaxır) çərşənbə bayrama daha yaxın olduğu üçün insanlar tərəfindən xüsusi qeyd edilir.

Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır.

Torpağı ana təbiət su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar. Analar, qız-gəlinlər “Səməni, saxla məni, ildə göyərdərəm səni
Ayaq basdın ölkəmizə, Bol-bol şənlik gətir bizə,
- deyib ulularımız. Bu zaman xırda qablarda buğda isladar, səməni göyərdərdilər. Bu adət bu gün də davam edir.

Çərşənbələrdə yazın nəfəsi növbə ilə havanın, suyun, ağacların, torpağın canına hopub onları oyadır. Yazın nəfəsi buzları əridir, çayların donu açılır, torpaq ağaclarla birlikdə oyanır, hər yer canlanır. Torpaq yavaş-yavaş islanmağa başlayır.

Torpaq çərşənbəsində tonqal qalanması, plov dəmlənməsi, səməni cücərdilməsi, xonça hazırlanması, qapı pusma, şam yandırma, bayramlaşma, fala baxma, məzar ziyarəti və s. kimi xalqımızın qədimdən bu günə kimi yaşatdığı bir çox adət-ənənələr var.

İnama görə bu çərşənbə vaxtı torpaq oyanır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da insanlara baharın gəlişindən müjdə verir. Torpaq insanlar üçün müqəddəsdir, yaradılışın maddi əsası hesab edilir. Torpağın müqəddəsliyi həm də vətən, yurd, el-oba anlayışı ilə də bağlıdır. Bu isə ilk növbədə insanın yaradılış mifindən qaynaqlanır. Yazda torpağın oyanması dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Torpaq çərşənbəsindən sonra torpaq oyanır, əkinə hazır olur. Toxum səpilir, bağ-bağçalarda yeni ağac tingləri əkilir.**(1)**

**Novruz – Yeni Gün, Bahar bayramıdır.** Axır çərşənbə ilə əlaqədar olan adət və ənənələr Novruz bayramı ilə sıx surətdə bağlıdır. Bir sıra müəlliflər, o cümlədən prof. Məhəmməd Müqəddəm bu mərasimlərdən danışarkən yazır ki, çərşənbələr astronomiya elminin əsasında müəyyən edilmiş bayramlardan biri olmaqla Zərdüşt səlnaməsinin yarandığı dövrdə mövcud idi. Əgər belə bir ehtimal qəbul edilərsə, deməli çərşənbə mərasimi və Novruz bayramının tarixi miladdan çox-çox əvvəllərə gedib çıxır.

Novruz xalq bayramıdır. Bu bayramı Hindistan və Çindən tutmuş Balkan yarımadasına qədər bir çox (30-dan çox) **xalqlar indi də** qeyd edir. Novruz qədim dövrlərdə təqvimsiz keçirilib. Xalq

bu bayramı **təbiətin canlanması, qaranquşun ilk gəlişi zamanı** qeyd edərmiş, sonralar bayramın vaxtı təqvimləşdirilərək **matrın 21-22-si** qeyd olunur. Həmin gün gecə ilə gündüz bərabərləşir, qış öz yerini allı-güllü yaza təhvil verir.

Bir çox xalqlar yazın gəlişini – Bahar bayramını təbiətin canlanması ilə əlaqələndirmiş və bu münasibətlə də şənliklər keçirmişlər. Ənənəyə görə Novruzun birinci günü–yaz, ikinci-yay, üçüncü –payız, dördüncü- qış sayılır.

Novruzun gəlişi ilə hamıda ruh yüksəkliyi yaranır, bayramqabağı təmizlik işləri aparılır, həyət-bağça təmizlənir, şumlanır, gör-göyərti əkilir, ağacların qurumuş budaqları təmizlənir.

İlaxır çərşənbədən başlayan oyunlar, Novruz günlərində də davam edir. Oğlanlar "Ay təzədən ənzəli", "Qayış götürdü", "Lopa-lopa" oyunları oynayardılar. Qızlar isə səməni götürüb yallı gedərdilər. Bizim Cəlilabad rayonunun dağ kəndlərində bir çox qızların dəfləri (qavalları) var idi. Hər çərşənbə və Novruzda qızlar qavalda ritm tutar, qalanlar oynayardı. Yadımdadır, ən çox yumurta döyüşdürərdik. Valideyinlərimiz həmişə bizə deyərdi ki, yumurta müqəddəsdir, o həm canlı, həm də cansızdır. Bu bayramı keçirən bütün xalqların süfrəsində yumurta var. Yumurta həyat əlamətidir – deyərdi ata-babalarımız .

Dünyada mövcud olan bütün kosmoqonik əsatirlərin hamısında yumurta varlığın əsasını qoyan, cansız aləmdən canlı aləmə keçid simvolu kimi göstərilmişdir.

İbtidai təsəvvür və etiqada əsasən, yumurta ulu tanrının bəşəriyyətə bəxş etdiyi dörd əsas maddi nemət olan hava, su, torpaq, odla mənalandırılır. Yumurtanın dairəviliyi və qabığı — torpağı, pərdəsi — havanı, ağı — suyu, sarısı — odu-günəşi simvollaşdırır. Məhz bu əlamətlərinə görə, yumurtadan bir çox bayram və mərasimlərdə istifadə etmişlər. **(2).**

Əminik ki, xalqımız yaşadıqca onun ən sevimli milli bayramları da yaşayacaq, o cümlədən Novruz dediyimiz Bahar bayramımız da. O heç vaxt öz gözəlliyini və təravətini itirməyəcəkdir. Çünki Novruz günəşlə torpağın, təbiətlə insanın sədaqət və məhəbbət bayramıdır. Qoca təbiətin yenidən cavanlaşan çağıdır.

## İstifadə olunmuş ədəbiyyat


1. Ayşən Vəli. Yel çərşənbəsi haqqında nə bilirik? – Araşdırma, AzerTelecom.
2. azens.az.
3. "Bu gün Od çərşənbəsidir". azertag.az (az.). İstifadə tarixi: 5 mart 2025
4. Ələsgər Mirzəzadə Novruz bayramının tarixi mənşəyi
5. Heredot "Tarix" əsəri, V kitab, səh. 89.
6. X. Ağaverdi. Yel çərşənbəsi təbiətin canlanmasını, ona verilən nəfəsi və ruhu simvolizə etməkdədir 11.03.2025, Azərtac.
7. Türküstan. az "Azərbaycanda Novruz ənənələri.
8. https://az.baku-art.com/az/ilaxir-chershenb-torpaq-r-nb-si.

**Emin Zeynalov**
eminzeynalov60@gmail.com
Bakı Avrasiya Universiteti

# DİVAN ƏDƏBİYYATINDAN AŞIQ POEZİYASINA: TƏŞBİB POETİK FORMALARININ TRANSFORMASİYASI

Divan ədəbiyyatı ilə aşıq poeziyası arasında mövcud olan əlaqələr Azərbaycan ədəbi düşüncəsinin ən mühüm inkişaf istiqamətlərindən birini təşkil edir. Bu iki poetik sistem zahirən fərqli estetik prinsiplərə əsaslansa da, mahiyyət etibarilə eyni mədəni yaddaşın və bədii təfəkkürün məhsuludur. Bu anlamda divan ədəbiyyatına xas bəzi poetik forma və janrların aşıq şeirində öz əksini tapması təbii ədəbi hadisə kimi dəyərləndirilə bilər.

Ərəb ədəbiyyatının əsas janrlarından biri sayılan qəsidə islamın yayılmasından sonra fars və türkdilli xalqların ədəbiyyatına daxil olaraq yeni xüsusiyyətlər qazanmışdır. Qəsidənin nəsib (təşbib) adlanan giriş hissəsi diqqəti cəlb etmək üçün, əsasən, bahariyyə, təmmuziyyə, xəzaniyyə, şitaiyyə kimi poetik formalarla başlanırdı. Divan ədəbiyyatında olduğu kimi, aşıq poeziyasında da fəsillər təbiətin dövri dəyişməsini, həyatın mərhələlərini və insan duyğularının təbiətlə vəhdətini ifadə edən poetik vasitələrdən birinə çevrilmişdir. Hər fəslin təbiətə və insana bəxş etdiyi fərqli həyəcan və emosiyanı dərk edən aşıqlar bu duyğuları şeirin bədii ruhunda əks etdirməyə çalışmış, təbiət obrazlarını xalq dünyagörüşü ilə vəhdətdə təqdim etmişlər.

Klassik şeirdə hər bir fəsil poetik forma səviyyəsində ayrıca tərənnüm mövzusu kimi işlənmişdirsə, aşıq yaradıcılığında bu sistem tam şəkildə formalaşmamış, yalnız bahariyyə nümunələri poetik forma səviyyəsinə qədər inkişaf etmişdir. Divan ədəbiyyatında bahariyyə fəsil tərənnümləri, əsasən, təbiətin oyanışı və yenilənmə fəlsəfəsi üzərində qurulurdu. Baharın gəlişi yalnız təbiətin canlanması deyil, eyni zamanda ilahi qüdrətin təcəllası, həyatın dövri təzələnməsi kimi qəbul edilirdi. Aşıq poeziyasında bu məzmun xalq dünyagörüşünə uyğun şəkildə sosial-mənəvi və emosional çalarlarla zənginləşmişdir. Aşıqlar baharı həm ümid və sevincin, həm də insan ömrünün gənclik mərhələsinin simvolu kimi dəyərləndirir, fəsil təsvirini insan duyğuları ilə birləşdirirdilər. Miskin Abdalın “A yaz ayları”, Abbas Tufarqanlının “Vaxtıdır”, Aşıq Ələsgərin “Yaylaq” rədifli poetik örnəkləri bu qəbildəndir.

Təmmuziyyə, xəzaniyyə və şitaiyyə tipli fəsil təsvirləri isə aşıq şeirində daha çox fraqmental şəkildə özünü göstərir. Məsələn, Qurbaninin “Qızların” rədifli qoşmasının birinci bəndində axşamdan yağan qarın bulağa gedən yolu kəsməsi, qızların su gətirərkən əllərinin üşüməsindən bəhs edilir ki, bu da şitaiyyə xarakterli bir təsvir nümunəsidir. Lakin sonrakı bəndlərdə diqqət qadın gözəlliyinin tərənnümünə yönəlir. Bununla belə, həmin motivlər xalq dünyagörüşü, təbiətə duyulan sevgi və insan ömrü ilə fəsillər arasında qurulan mənəvi paralellərlə zənginləşmiş, divan ənənəsinin poetik təməlini xalq şeiri müstəvisində yaşatmışdır.

Tədqiqat prosesində müəyyən olunmuşdur ki, təşbib poetik formaları aşıq şeirində heca vəznində yazılmış, daha çox qoşma və gəraylı janrlarında təzahür etmişdir. Bu fakt həmin janrların mövzu baxımından poetik-üslubi imkanlarının genişliyini göstərir.

Aşıq yaradıcılığı Azərbaycan xalqının təbiətlə olan ruhani bağlılığını, onun gözəlliklərinə duyduğu məhəbbəti və bu gözəlliklərin qorunması zərurətini bədii dillə ifadə edən zəngin bir folklor qatı kimi, ekoloji mədəniyyətin daşıyıcısı və təbliğatçısıdır. Beləliklə, bahariyyə və xəzaniyyə kimi poetik formaların aşıq şeirinə keçidi yalnız janr transformasiyası deyil, həm də mədəni-estetik baxımdan bir düşüncə tipinin digəri ilə qovuşması kimi təzahür etmişdir.

**Minayə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
minayajafarova85@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

## EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA EKOLOJİ TƏRBİYƏNİN ROLU

Ekoloji tərbiyə mənəvi tərbiyənin tərkib hissəsi olduğuna görə Vətənin qüdrətlənməsi, inkişafı və çiçəklənməsi, həmin adamın Vətən üçün xidməti onun psixoloji hazırlığından irəli gəlir. Bunlar da həmin adamın psixologiyasına uzun illər boyu, mərhələ-mərhələ aşılanır. Nəhayət, şagird ətraf mühitin müdafiəçisi kimi böyüyür. Təbiətin mühafizəsi, ona qayğı ilə yanaşmaq üzrə fəaliyyətin zəruriliyinə inanmadan mümkün deyildir. Ona görə də ekoloji təhsilin əsas məqsədlərindən biri təbiəti mühafizə etməyin zəruri olması əqidəsinin formalaşdırılmasından ibarət olmalıdır.

Təbiəti qorumaq əqidəsinin quruluşu üç əsas komponentdən ibarətdir:

İntellektual komponenti Əqidənin kökündə duran ekoloji biliklər, dünyagörüşü səciyyəli intellektual bacarıqlar və səbəbiyyət şüurunun üsullarına nail olma.

Şəxsi komponent: Təbiətə münasibət və təbiətdə baş verən hadisələrin qiymətləndirilməsi; təbiəti qorumaq fəaliyyətində məqsədlərin qoyulması və onların səbəblərinin əsaslandırılması; əxlaqi istiqamətlilik; təbiəti mühafizə etmək zəruriliyinə inam.

Şagirdin daxilən hazırlığı: /tələbatları, istəkləri, məramları/. Şagirdin mövcud olan biliklərə müvafiq surətdə fəaliyyət göstərməyə hazırlığı, öz görüşləri, münasibətini real işlərdə, real fəaliyyətdə təcəssüm etdirməsi, yəni əqidələrin "kəsərliyi".

Ekoloji təlim inkişafetdirici olmalıdır, deməli, şagirdlərdə dərketmə fəaliyyəti, şagirdlərin təfəkkürünün inkişafına kömək etməlidir. Bunun üçün isə şagirdlər zehni fəaliyyət üsullarına yiyələnməlidirlər. Şagirdlərin təhlil, ümumiləşdirmə, müqayisə, tutuşdurma və s. üsullara yiyələnmələri vacibdir.

Təbiətə münasibət psixoloji cəhətdən mürəkkəbdir. Bu məktəblilərin ekoloji təfəkkürünü inkişaf etdirir. Təbiətə münasibətin mürəkkəbliyi bununla bağlıdır ki, bir yandan təbiətin mühafizəsi - bu heyvanların və bitkilərin təkrar istehsalı, mühitin çirklənmədən qorunması deməkdir: digər tərəfdən isə təbiətdən səmərəli istifadə etmək deməkdir. [5, № 8]

Təbiəti qorumaqla insan özünü qoruyur. Təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmə prosesi ekoloji tərbiyə adlanır. Ekoloji tərbiyə prosesində məktəblilər doğma yurd, Vətən haqqında, onun flora və faunası haqqında məlumatları mənimsəyir, doğma torpağın qorunmasının müqəddəs vəzifə olduğunu dərk edirlər.

Şagirdlər ekoloji tərbiyə prosesində öyrənirlər ki, təbiət-insan-cəmiyyət silsiləsi bir-birindən ayrılmazdır və bunların arasında bir nizam vardır. Ekoloji tərbiyə prosesində şagirdlər dərk edirlər ki, təbii ehtiyatların tükənməsi, erroziya, havanın, suyun, torpağın çirklənməsi bir çox bitki və heyvan növlərinin insanın fəaliyyəti nəticəsində yoxa çıxması insanın təbiətə mənfi təsirinin nəticəsidir. Təbiət insandan asılı olmayaraq obyektiv şəkildə mövcuddur. Təbiətə hər cür əmr etmək olmaz. İnsan təbiət üzərində dəhşətlər yaradıb, özü qaçıb gizlənə bilməz. İnsan təbiətə qanunlar diktə edə bilməz, yalnız həmin qanunları dərk etmək, onlardan öz məqsədləri üçün istifadə etmək yolu ilə tərəqqi edə bilər.

Bəşəriyyət üçün bu gün ən böyük problem ətraf mühitə laqeyd münasibətdədir, əsrlər boyu insanlar təbiətdən, onun nemətlərindən istifadə etmiş və edirlər. Heç kim dünyasını dəyişərkən özü ilə təbiətdən heç nə aparmır, əksinə, təbiətin torpaq adlanan hissəsini özünə əbədiyyət evi seçir. Buna görə də təbiət hamının indiyə kimi mövcud olan insanların, hazırda yaşayan, gələcəkdə yaşayacaq insanların mülkiyyətidir. Təbiəti qorumaq, onun ehtiyatlarından qənaətlə istifadə etmək və hər vasitə ilə çalışıb, həmin ehtiyatları artırmaq, təbiəti gələcək nəsillərə çiçəklənən bir vəziyyətdə tapşırmaq hər bir adamın, millətin müqəddəs borcu, şərəfli vəzifəsidir.

Ekoloji tərbiyə prosesində məktəblilərdə təbiətin mühafizəsinə dair mənəvi məsuliyyət formalaşır. Ekoloji tərbiyənin mühüm tərkib hissələrindən biri ekologiya və ətraf mühitin qorunmasına dair Azərbaycan Respublikası hökumətinin qərar və göstərişlərinin şagirdlərə düzgün izah edilməsi, həmin qanunların mahiyyətinin dərk olunmasıdır.

Ekoloji tərbiyə ekoloji təfəkkür və davranışın vəhdətinin təmin edilməsidir. Ekoloji tərbiyə zamanı məktəblilər insanın təbiətin bir hissəsi olduğunu dərk edirlər. Qədim yunan dramaturqu Sofokl deyir ki, dünyadakı möcüzələrin ən böyük möcüzəsi insandır. Təbiət insana ən qiymətli sərvət olan ağıl bəxş etmişdir. İnsan öz ağlının gücü ilə təbiəti dərk edib, ən qüvvətli heyvanları özünə tabe edə bilir. İnsanın kamalı, onun fikir dünyası sonsuzdur.

Ekoloji tərbiyənin vəzifələri aşağıdakılardır:

Şagirdləri ekoloji bilik, bacarıq və vərdişlərlə silahlandırır;

Şagirdləri təbiətlə düzgün davranmağa, təbiət sərvətlərindən qənaətlə istifadə etməyə istiqamətləndirir;

Məktəbliləri təbiətin qorunması kimi mühüm vəzifələrin həyata keçirilməsində fəal iştirak etməyə hazırlayır;

Şagirdlərdə təbiətə humanist münasibət, onun taleyinə məsuliyyət hissi formalaşdırır;

Təbiəti mühafizənin iqtisadiyyatla bağlı olduğunu məktəblilərə öyrədir, onları qənaətcil olmağa, təbii sərvətlərin qədrini bilməyə çağırır.

Ekoloji tərbiyə ahəngdar şəxsiyyət tərbiyəsinin mühüm tərkib hissəsidir. O, gənc nəsli ekoloji biliklərlə silahlandırmağa, ekoloji mədəniyyəti formalaşdırmağa yönələn tədbirlər sistemidir.

Ekoloji tərbiyənin əsasını təbiətə sevgi, onun mühafizəsi işi təşkil edir. İnsan təbiətin bir üzvüdür. Təbiət öz sərvətləri ilə insanı bəsləyir, yaşadır, fiziki və mənəvi qüvvələrini inkişaf etdirir, ona həyat verir. Lakin bəzən insan öz yaşamaq mənbəyini - təbiəti, ekoloji mühiti korlayır; udduğu havanı, içdiyi suyu, məhsulunu yediyi torpağı zəhərləyir. Bu yolla insanlıq öz-özünü məhvə aparır, özü üçün dəhşətli fəlakətlər, xəstəliklər yaradır.

Bunun qarşısını almaq üçün kiçik yaşlardan uşaqları təbiətə qayğılı münasibət ruhunda tərbiyə etmək, ekoloji şüuru və mədəniyyəti formalaşdırmaq lazımdır. Hər bir insan - şəxsiyyət və vətəndaş kimi öz yurdunun, bəşər övladı kimi isə dünyanın ekoloji vəziyyəti və tarazlığı üçün məsuliyyət hiss etməli, onun pozulması hallarına barışmazlıq göstərməlidir. Bu, dünyanın hər bir sakininin insanlıq borcudur. Hər bir kəs cəmiyyətdə ekoloji tərbiyəyə yiyələnməli və qarşısına qoyulan vəzifələri həyata keçirməlidir:

- ✓ böyüyən nəsildə ekoloji şüuru formalaşdırmaq;
- ✓ uşaq və gənclərdə doğma təbiətə, ətraf mühitə məhəbbət və qayğılı münasibət, onun korlanmasına qarşı barışmazlıq hissləri aşılamaq;
- ✓ təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlər formalaşdırmaq, gənc nəsli fəal ekoloji fəaliyyətə hazırlamaq. [1. s. 128]

Ekoloji tərbiyə işində müxtəlif yollardan, forma və metodlardan istifadə edilir. Ekoloji tərbiyə hələ kiçik yaşlardan, ailə və uşaq bağçasından başlanmalıdır. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxış yaratmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaqda təbiətə, heyvan və quşlara qarşı laqeydlik, hətta qəddarlıq, rəhmsizlik hissləri baş qaldıra bilər. Təbiətə qarşı qəddarlıq təbiət gözəlliklərinə laqeydlikdən, ətraf aləmə qeyri-həssas münasibətdən, bir sözlə, uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır.

Ailədə və uşaq bağçasında aparılan ekoloji tərbiyə işləri məktəbdə daha da inkişaf etdirilir və sistemli şəkil alır. Təlim prosesi ekoloji tərbiyənin çox mühüm yoludur. Ayrı-ayrı fənlərin tədrisində ekoloji təhsil və tərbiyə üçün böyük imkanlar vardır. İbtidai siniflərdə şagirdlər təbiətşünaslıq və ətraf aləmlə tanışlıq dərslərində təbiət və onun mühafizəsi haqqında ilkin təsəvvürlərə yiyələnir, onlarda təbiətə məhəbbət, onu qorumağın vacibliyi fikri aşılanır.

Orta və yuxarı siniflərdə ekoloji təhsil və tərbiyə işləri genişləndirilir. Kimya dərslərində torpağın münbitliyini saxlamaq üçün kimyəvi gübrələrdən istifadə edilməsi, sənaye və məişət tullantılarının emalı, ekoloji cəhətdən təmiz ərzaq məhsullarının istehsalı və s. barədə təsəvvürlər aşılanır. Bunlar isə şagirdlərin ekoloji təfəkkürünün inkişafına güclü təsir göstərir. Ekologiya və təbiəti mühafizə sahəsində digər fənlərdə - biologiya, zoologiya, botanika, coğrafiya dərslərində daha ətraflı biliklər verilir və onların tətbiqi aspektləri nəzərdən keçirilir.

Ekoloji tərbiyə sahəsində dərslərdə aparılan iş sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə daha da dərinləşdirilir. Yerli şəraitdən asılı olaraq təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərmək və klubları, məktəb qoruqları, meyvə bağları, şagird istehsalat briqadaları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti, ekologiya ayları, ekologiya reydləri və s. belə maraqlı formalardandır. Məktəblərdə və yaşayış yerlərində yaşıllıq iməciliklərinin keçirilməsi, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, ilk çiçək bayramlarının, meşə və quş günlərinin, təbiət dostları və gənc bağbanların müsabiqələrinin təşkili kimi tədbirləri məktəblərdə ənənə şəklinə salmaq lazımdır.

Müasir texnoloji tərəqqi əsrində dünyada əhali məskunlaşmasının və urbanizasiyasının artması, ətraf mühitin çirkləndirilməsi, təbiətdə tarazlığın pozulması, təbii ehtiyatların gələcək nəsillərə kifayət edəcək şəkildə verilməsini çətinləşdirir, insanın təbiətlə münasibəti böyük marağa səbəb olur.

Qlobal miqyasda artan, bütün bəşəriyyəti düşündürən ekoloji məsələlərə, sosial şərait heç bir vaxt mümkün olmayan imkanlar yaradır. Ümumxalq vəsaiti hesabına praktik işlər görülür. Bütün bunlara baxmayaraq cəmiyyətin inkişafı ilə bağlı durmadan artan problemlər içərisində ekologiya problemləri, o cümlədən, ekoloji tərbiyə məsələlərinin təkmilləşdirilməsi zəruriliyi bir daha qarşıya qoyulur.

Ümumtəhsil və peşə məktəbi islahatının tələbinə görə “məktəb doğma təbiətin gözəlliyini və zənginliyini düzgün başa düşmək və qiymətləndirmək bacarığı formalaşdırmalıdır”. Bunlar sözgəlişi, gözəl deyilən sözlər deyildir, təbiət həmişə insanların, ümumiyyətlə, bütün canlıların yaşayış vasitəsi olmuşdur. Buna görə də bəşər cəmiyyəti tarixinin bütün mərhələlərində böyük zəka sahibləri təbiətə, onun gözəlliyinin qorunmasına xüsusi əhəmiyyət vermişlər. Bu barədə qədim xalqımızın böyük ədəbi abidəsi olan “Kitabi-Dədə Qorqud”da, Nizami “Xəmsə”sində, Füzuli “Divan”ında və s. əsərlərdə geniş bəhs edilmişdir. Bu baxımdan Nizaminin məşhur “İskəndərnamə” poemasındakı “Bərdənin tərifi” parçasını qeyd etmək kifayətdir.

İnsanın mənəvi dünyasının saflaşmasında, gözəlliyin dərk olunması və hisslərin zərifliyi tərbiyəsində təbiətin rolu əvəzsizdir. Klassik pedaqoqlar təbiəti öyrənməyin zəruriliyinin tərbiyəvi əhəmiyyətini dönə-dönə qeyd etmişlər.

**Ədəbiyyat**

1. Abdullayev H.X., Məsimov N.M. Uşaqların ekoloji tərbiyəsi. Bakı: Maarif, 1993, 128 s.
2. Abdullayev İ.A.Ekoloji şüur və ekoloji tərbiyə: qarşılıqlı təsirin dinamikası. Bakı: Elm, 1997, 127 s.
3. Budaqov B.Ə. Təbiəti qoruyaq. Bakı: Elm, 1977, 59 s.
4. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı, Elm: 1981, s.93
5. Maqsudov F, R.Z.Xəndan. Təbiət şairi, torpaq şairi. "Ədəbiyyat və incəsənət" qəzeti, 1983.
6. Rüstəmov F.Qərb pedaqogika tarixi. Bakı, 2003.

**Mürvət Abbasov**
*abbasov-murvat@mail.ru*
Azərbaycan Dövlət Pedaqoji Universitetin Cəlilabad filialı

## AZƏRBAYCAN AŞIQ SƏNƏTİ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ

Aşıq sənəti yalnız poetik düşüncə nümunəsi deyil, xalqın müdrikliyinin, çoxəsrlik iş təcrübəsinin, mədəniyyətinin təzahürüdür. O, şifahi nitqin zənginliyi və müxtəlifliyi ilə fərqlənir, onda xalqın dilinin sadəliyi, poetikliyi və gözəlliyi, əvəzolunmaz emosionallığı əks olunur. Aşıqlar öz zəngin poetikalarını yaratmışlar. Aşıq aşıq sənətinin əsas lirik qəhrəmanı, əsas siması və aparıcı obrazıdır. Aşıq sənətində ədəbi-bədii ifadələr əks olunmaqla, onlar şifahi xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında birləşdirici halqadırlar. Öncə qeyd edək ki, qloballaşma dedikdə xalqın, millətin tarixi təcrübəsindən qaynaqlanan, əsrdən-əsrə, nəsildən nəslə ötürülərək, onun özünəməxsusluğunun, milli özünüdərkinin əsas parametrinə, obyektinə çevrilmiş dəyərlər nəzərdə tutulur. Bu dəyərləri milli dövlətçiliyin bel sütunu da adlandırmaq olar. Milli dəyərlər dedikdə milli tarixi, tarixi qələbələri, şəhidləri, milli qəhrəmanları, namusu, qeyrəti, ana dilini, dini, milli musiqini, tarixi və mədəni abidələri, milli bayrağı, gerbi, himni, milli mədəniyyət və incəsənət nümunələrini, milli geyim, paytaxt, ailə, böyük kiçik münasibətləri və digər elementləri göstərmək olar. Qloballaşma ilk növbədə dünyanın iqtisadiyyat məkanındakı qapıları açılması, ölkələrarası iqtisadi mübadiləni genişləndirilməsi deməkdir. O bəşər həyatının bütün sahələrini əhatə edən dönməz bir prosesdir (3). Qloballaşma vahid dünya məkanının, ictimai-siyasi, mədəni məkanın tədricən yaranmasına gətirib çıxarır. Bu prosesdə super güclərin mədəni dəyərləri diqtəedici rol oynayır. Nəticədə milli dəyərlərin aşınması baş verir. Mədəniyyətlərin sintezi və qarşılıqlı zənginləşməsi prosesi adı altında milli dəyərlər əslində böyük güclərin dəyərlərinin altında qalır və əzilir. Əlbəttə, bu o demək deyil ki, millətlər tamamilə öz qınına qapılıb qalmalıdır, ümumbəşəri dəyərlərdən nəyisə əxz etməməlidir. Milli mədəni dəyərlər qarşılıqlı zənginləşməyə məruz qalmalı, başqa millətlərin mədəni dəyərlərindən nəsə götürülməlidir. Çox zaman burada qarşılıqlı zənginləşmə prosesi diqtə xarakteri daşıyır. Yəni hakim güclərin milli dəyərləri bir növ diqtə şəklində kiçik xalqların, müstəqilliyini yenicə qazanmış xalqların mədəni həyatına bu və ya digər formada zorla daxil edilir. Buna da mədəniyyətə təcavüz deyirlər. Mədəniyyətə təcavüz millətin dilindən tutmuş, millətə aid olan komponentlərin hamısını ya sıradan çıxarır, ya da ona

güclü təsir göstərir. Bu mənada qloballaşmanın mədəniyyətdə təzahürü çox ağrılı və ziyanlı bir proses kimi özünü göstərə bilər. Qeyd edək ki, mədəni və mənəvi cəhətdən güclü olan xalqlar bu aşınmanın qarşısını ala bilir. Amma elə xalqlar var ki, bu aşınmadan heç cür xilas ola bilmirlər və nəticə etibarı ilə qloballaşmanın təsiri altına düşürlər. Onun təsiri ilə məcburiyyət qarşısında həmin dəyərləri qəbul etməyə məcbur qalırlar.

Bu günə qədər qloballaşma Azərbaycana da xeyli təsir göstərib. Amma şükürlər olsun ki, Azərbaycan özünə aid olan mədəniyyət nümunələrini qoruyub saxlaya bilib. Xüsusən muğam mədəniyyəti, aşıq musiqisi, mədəniyyətimizin Üzeyir Hacıbəyovla başlayan bir çox nümunələri, klassik musiqi nümunələri və s. qorunması ilə biz özünəməxsus bir mədəniyyət fomalaşdıra bilmişik. Bununla yanaşı kütləvi bazar mədəniyyəti kapitalizmin kütləvi mədəniyyəti, şou biznes kimi adlar altında həyatımıza daxil olur. Bu isə mədəniyyətin kommersiyalaşmasına və bir növ mənəvi tələbatı ödəməkdə daha çox gəlir mənbəyinə çevrilməsinə yol açır. Onda mədəniyyət artıq insanın dünyagörüşünü, onda milli özünəməxsusluğu, milli keyfiyyətləri formalaşdıran amildən daha çox, bir növ insanı kosmopolitləşdirən, öz milli mənəvi kimliyindən uzaqlaşdıran bir amil rolunu oynayır. Məhz kütləvi mədəniyyətin təsiri altında insan öz milli kimliyini itirir və yaxud başqa bir məxluqa çevrilir. Onun sözlərinə görə, qloballaşma cəmiyyətdə milli münasibətlər sisteminin bütün strukturuna təsir edir. Bu təsir bəzən dəyişdirici, bəzən dağıdıcı, bəzən də tənzimləyici olur.

Orta əsrlərin ilkin çağlarından (XIII - XIV əsrlər nəzərdə tutulur) təşəkkül tapan aşıq sənəti əslində qədim ozan sənətinin davamı və varisidir. Ozan sənəti Azərbaycan xalqının soykökündə və təşəkkülündə başlıca rol oynamış oğuz qəbilə birləşmələrinin geniş yayılmış incəsənəti olmuşdur (1). Öz rişələri ilə çox qədim köklərə, zəngin mifik təsəvvürlərə malik olan ozanlar orta əsrlərin mühafizəkar dini ideologiyası qarşısında uzun müddət müqavimət göstərsələr də, Dədə Qorqud ənənələrini qoruya bilmədilər və tədricən öz meydanlarını aşığa verdilər.Tarixin müxtəlif mərhələlərində aşıq sənətini təmsil edən saz-söz ustadları yazılı ədəbiyyatın klassikləri ilə eyni səviyyədə dayanan sənətkarlar olmuşlar. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır. Aşıq şeiri keçən əsrlərdə şifahi və yazılı ədəbiyyatın yeni zirvəyə qalxmasına güclü təkan vermişdir.Göyçə diyarında böyük bir aşıq nəsli - aşıq məktəbi şöhrətlənmişdir. Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Musa, Mirzə Bəylər, Şair Hacı Əliş ağa, Aşıq Əziz, Aşıq Əhməd, Aşıq Məhərrəm, Şişqayalı Aydın, böyük saz-söz sərrafı Aşıq Ələsgər bu məktəbin görkəmli nümayəndələridir.

XIX əsrin aşıq məktəblərini təkcə Göyçə diyarı təmsil etmirdi. Şəmkir mahalında Aşıq Hüseyn, Aşıq Qasım, Yəhya bəy Dilqəm, Qaradağda Aşıq Mahmud və Aşıq Camal, Şirvanda Cəfərqulu, Kəlbəcərdə Aşıq Qurban, Qazaxda Aşıq Səməd, Masazırda Aşıq Həsən, Bakıda Aşıq Cavad, Samurda Aşıq Rəcəb, Cəbrayılda Bağban, Şəkidə Molla Cümə, Borçalıda Şenlik, İbrahim kimi ustad sənətkarlar məşhur olmuşlar. Bu sənətkarların yaradıcılığında həm qədim aşıq sənəti ənənələri inkişaf etdirilmiş, həm də əsrin, yeni ictimai-siyasi mühitin mühüm hadisələri, həyati faktlar öz əksini tapmış, gerçəklik realist boyalarla canlandırılmışdır (2).

Qədim mədəniyyət irsinə malik olan aşıq sənətinin son dövrdə dünyada inkişaf etdirilməsi Heydər Əliyev Fondunun prezidenti UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Azərbaycan aşıq sənətinin beynəlxalq aləmdə təbliği və tanıdılması bu sənətin yaradılması qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədinə xidmət edir. Azərbaycanda saz-söz sənətinə yüksək səviyyədə dəyər verilir. Aşıq sənəti uşaq musiqi məktəblərində, musiqi və incəsənət kolleclərində, Azərbaycan Milli Konservatoriyasında,

Mədəniyyət və İncəsənət Universitetində tədris olunur. Respublikamızda keçirilən aşıq müsabiqələri, beynəlxalq aşıq festivalları gənc nəsil aşıq ifaçılarının yetişməsi üçün böyük imkan yaratmışdır.

Son illər ölkəmizin mədəni həyatında baş verən yeniliklər milli-mənəvi dəyərlərə hörmət və diqqət xalq kütlələrinin dərin rəğbətini qazanmışdır. Milli-mənəvi dəyərlərə göstərilən qayğı dövlət siyasətinin başlıca prinsiplərindən biridir. Azərbaycan Aşıq sənəti 2009-cu ilin 28 sentyabr-2 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin 4-cü sessiyası zamanı təşkilatın Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilmişdir. Bu hadisə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqləyir və ona olan dövlət qayğısının nəticəsi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyev Gədəbəy Aşıq Musiqisi Məktəbinin açılışındakı çıxışında xüsusi olaraq vurğulayır:„ aşıq sənəti bizim milli sərvətimizdir, milli sənətimizdir. Azərbaycanda aşıq sənətinin çox dərin kökləri var. Azərbaycan aşıq sənətinin vətənidir. Əlbəttə ki, sizin kimi istedadlı aşıqların fəaliyyəti, sizin əməyiniz gələcək nəsillər üçün də örnək olmalıdır. Çünki gənc nəsil vətənpərvərlik ruhunda və milli ruhda tərbiyə almalıdır. Həmişə gənclərlə görüşlər zamanı bunu qeyd edirəm ki, gənclər bilikli, Vətənə bağlı olmalıdırlar, vətənpərvər və milli ruhda böyüməlidirlər. Milli ruh da aşıq sənətidir. Milli ruh bizim musiqimizdir, muğam sənətidir, ədəbiyyatımızdır, xalçaçılıq sənətidir. Azərbaycanın bu sənəti bizim böyük sərvətimizdir, dünyanın sərvətidir...Aşıq sənətinin vətəni Azərbaycandır. Muğamın vətəni Azərbaycandır. Azərbaycan xalqı çox istedadlı xalqdır. Bu sənəti siz yaşadırsınız və gənc nəsillərə əmanət edirsiniz”.(4)

Bir sözlə, aşıq sənəti qloballaşma dövründə də hərtərəfli dövlət qayğısı sayəsində inkişaf etməkdədir.

**Ədəbiyyat**

1.Aşıq ədəbiyyatı antologiyası: 3 cilddə / tərt.: M. Qasımlı, M. Allahmanlı; elmi red. M. Qasımlı. I cild: Aşıq poeziyası. — Bakı, 2017.
2.Məmmədov Tariyel. Azərbaycan aşıq yaradıcılığı .Bakı- 2011.
3.Aslanova Rəbiyyət Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004
4. Prezident İlham Əliyev Gədəbəy Aşıq Musiqi Məktəbinin açılışında iştirak etmişdir https://president.az ·

**Qüdrət Umudlu**
qumudov1957@gmail.com,
ADPU-nun Ədəbiyyat kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

## ARXAİK FOLKLORUMUZDA “TƏBİƏT VƏ İNSAN” MÖVZUSU

Heç kəsə sirr deyil ki, insan uca Yaradanın ona lütf ilə bəxş etdiyi ruzini təbiətdən alır. Allah təbiəti insana görə yaratmışdır. İnsan özü də təbiətin bir parçasıdır. Təbiət – “təb” (ط بع) sözündən olub – “yaradılış”, “xilqət” və ya “əsər” anlamındadır. Bəşər övladını təbiətdən təcriddə təsəvvür etmək mümkün deyil və o, ilk yaranışdan üzü bəri təbiətlə daimi təmas halındadır. Həmin təmas sayəsində yaranan dünyagörüşü, zaman keçdikcə mükəmməlləşən baxışları da insanın hiss və

duyğularına, eləcə də şüuruna təbiətin göstərdiyi təsir ilə formalaşmışdır. İlkin bədii sənət nümunələri, beynəlxalq səviyyədə "folklor" adlandırılan xalq yaradıcılığı da ətraf mühitin insanın dünyagörüşünə, duyğularına təsiri ilə meydana gəlmişdir.

Təbiət hadisələrinə, kainatın tükürpədici fiziki proseslərinə animistik düşüncə ilə yanaşan ibtidai zaman insanları hər cür kataklizmi canlı sayıb, onları "idarə edən ruhları" fetişləşdirərək, həmin ruhlara – ilahlara tapınmalı olmuşlar. Ən qədim dünyanın adamları sakrallaşdırdıqları nəsnələri öz nəğmələri ilə vəsf etmiş, görüb müşahidə etdikləri hadisələri qavrayıb anlaya bildikləri kimi əsatirə çevirib mifoloji mətnlərə gətirmişlər. Əsatiri görüşlərin əks olunduğu mətnlərdən tutmuş, demək olar, bütün folklor janrlarında təbiətin fərqli təsirlərini bariz şəkildə görmək mümkündür. Məsələn, dünyanın yaranması ilə bağlı miflərdən birində belə deyilir: "Yer, Göy hələ yox imiş, onlar bitişik imiş. Dünya çalxalanır, partlayıb ortadan bölünür. Üst yuxarı qalxıb uzaqlaşır, alt da aşağı enir. Yuxarı od olur, aşağı tamam su olur. Göydə yanan Gün Yeri də qızdırır. Su quruyub çəkilir. Torpaq görünür. Torpaq olan yerlərdə dağlar, dərələr yaranır. Yerdəki torpaq canlanır, əvvəlcə bitkiləri, canlıları yaradır. Allah, axırda da insanları yaradır" (2, 194).

Əcdadlar təbiətlə təmas halında ikən uzun sürə görüb müşahidə etdikləri olaylarla bağlı düşüncələrində qənaətlər formalaşdıraraq onları inanca çevirmişlər. Məsələn: "Ay üçgünlük olanda ağac kəsilməz, budanmaz, toxum səpilməz"; "Bəhər üstə ağacı kəsməzlər, ağac yiyəsinə ziyan dəyər"; "Dağdağan ağacını kəsmək xeyir gətirməz"; "Əncir ağacının altında yatmazlar"; "Əncir ağacını kəsməzlər"; "Yarpız olan həyətdə ilan olmaz;" "Payız və yaz yağışı bərəkət gətirər" və s.
Ana təbiətə sakral münasibət arxaik folklor janrlarında daha çox özünü göstərməkdədir. Mifik düşüncənin daha çox yer aldığı əfsanələrdə, sınama – inanclarda, ovsun və fallarda, yuxu yozmaları və türkəçarələrdə, atalar sözü, zərbi-məsəl və tapmaca kimi kiçik janrlarda təbiət ünsürlərini, təbiətin gözəllik və kudsal özəlliklərini istənilən qədər görmək olar. Lakin onların hər biri haqqında bəhs edib, onlara nümunə göstərmək indilik imkan xaricindədir.

Təbiətlə bağlı atalar sözləri: "Ağacı çox olan kəndin məzarı az olar"; "Ağac yaş ikən əyilər"; "Ağac əkənin ömrü uzun olar"; "Alçaq dağa qar yağmaz"; "Bir gül ilə bahar olmaz"; "Günəş girməyən evə tez-tez həkim girər"; "Bülbülə kol dibi qızıl qəfəsdən xoşdur"; "Göy ağlamasa, yer gülməz" və s.

Təbiətin sirli və möcüzəvi təzahürləri tapmaca örnəklərində də geniş əks olunmaqdadır.

"Dəyirmi təpə,
Qızıldan küpə" (Günəş),

"Bir tabaq almaz,
Sabaha qalmaz" (Ulduz).

"Ayağı yox"dur qaçır,
Qanadı yoxdur ucur" (Bulud)

"Ağ sandığım açıldı,
İçindən nur saçıldı". (Sübh çağı).

"Bir sinidə iki toyuq,
Biri isti, biri soyuq". (Günəş və Ay)

"Yaşıldı əbası,
Sarıdı libası". (Badam) və s.

Mahiyyət baxımından mərasim folkloru iki qismə ayrılır: 1) mövsüm mərasimləri; 2) məişət mərasimləri. Mövsümlərlə bağlı mərasimlər təbiətin harmoniyası, fəsilləri ilə bağlı meydana gəlmiş və dövri olaraq bütün ili əhatə etmişdir. Mövsüm mərasimləri cillələrin təqvimə daxil olması ilə başlanmış, il uzunu müxtəlif tərz və mahiyyətdə davam edərək payızda məhsul bayramları ilə dövrə qapanmışdır. Fəsillərin əlamətləri ilə əlaqədar xalq belə demişdir:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yağıb gətirər,
Üçü vurub dağıdı..."

İlin "yağı" fəsli – qış üç qisimdir: böyük çillə 40 gün, kiçik çillə - 20 gün və boz ay – 30 gün... Xalqın bu çillələrə münasibəti fərqli olub. Bunu onlara aid nəğmələrdə də görmək olar:

Böyük çillə,
Boyu bir belə,
Gəldi elə
Gülə-gülə
Getdi gülə-gülə,
... Nə nənəmi dağlatdı,
Nə bir uşağı ağlatdı...

Kiçik çillə...
Boyu bir belə...
Hikkəsi ir belə...
Gəlişi oldu hayınan,
Gedişi oldu vayınan.
... Kəsdi neçə evin yağmasın.
Pendirin, çörəyin, ağmasın.

Kiçik çillənin ortasında yazın müjdəçisi Xıdır İlyasla bağlı "Xıdır" mərasimi təşkil olunarmış. Bunun da öz ssenarisi və nəğmələri olmuşdur. Boz ay girəndə (fevralın 20-də) ilaxır çərşənbələr başlar, Novruza qədər dörd çərşənbə keçirilərdi. Novruz bayramı Azərbaycanda həmişə çox təntənə ilə keçirilmişdir. Xalq Novruza çoxlu nəğmələr həsr etmişdir. Məsələn, xalq sevinərək belə deyərdi:

Novruz, novruz bahara,
Güllər, güllər nübara,
Baxçamızda gül olsun,
Gül olsun, bülbül olsun.
Tonqal üstən tullanan qızlar oxuyardı:
Ağrım-uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın, alov saçılsın,
Mənim baxtım açılsın.

Yazın gəlməsi ilə insanların qayğıları artar, iş-güc çoxalardı. Yaz aratına çıxan əkinçilər öküzlərini həvəsləndirmək, cosdurmaq məqsədilə oxuyardı:

Novruz gəldi, öküzüm, ho,
Novruz güldü, öküzüm, ho...
Sənin daşdabanlığını
Novruz bildi, öküzümü, ho...

Buğdam səməni oldu,
Öküzüm ha, öküzüm, ho!
Səməni yeməli oldu,
Öküzüm ho, öküzüm, ho!

Məhsul yetişənə qədər əkinçi xeyli həyəcan keçirər, qar, yağış, gah da günəş arzulayardı. O arada xalq bəzən "Yağış yağdırma", bəzən də "Günəşi dəvət" – "Qodu-qodu" mərasimlərini icra etmişdir. Həmin ritualların da özünəməxsus nəğmələri oxunmuşdur... Həftələr keçdikcə toxum göyərər, inkişaf edər, aylar keçər, sünbüllər dənlə dolub saralar, yetişər. Əkinçi xalq sevinib oxuyardı:

Tarlada tər tökərəm,
Hər yaz səni əkərəm.
Hər nazın çəkərəm,
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı.

Yaxud:

Eli, günü bəzərsən,
Gözlər üstə gəzərsən.
Hər gözəldən gözəlsən,
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı!

Ümumiyyətlə, əhalinin təsərrüfat həyatı təbiətlə tam bağlı olmuşdur. Belə ki, yetişib ərsəyə gələn taxılın biçin mərasimi, ardınca xırman mərasimi yerinə yetirilmiş və bunların hər birisi də xüsusi əmək nəğmələrilə müşayiət olunmuşdur. Yağış arzulayanda buludları qovub gətirmək, aramsız yağış yağanda isə buludları qovub uzaqlaşdırmaq, dağıtmaq diləyi ilə, xırmanda sovruq atıb

dəni zibildən təmizləyən zaman, habelə hərəkətsiz yel dəyirmanını işə salmaq üçün xalq üzünü təbiətə tutub nəğmə dili ilə yalvarmış, ondan mülayim külək istəmişdir.

“A yel Baba, Yel Baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
yaxamız əldə qaldı” – deyərək ana təbiətdən imdad diləmişdir və s.

Xalq nəsri-epik folklorumuz da təbiət təsviri və tərənnümü ilə zəngindir. Əfsanə və rəvayətlərin böyük əksəriyyəti öz obraz və personajlarını əsasən, təbiətdən almışdır. Onlarda doğma yurdun flora və faunası, çoxiqlimli relyefi, landşaftı əksini tapmaqdadır. Nağıl və dastanlarımız da doğma, füsunkar təbiətin sirli-sehrli, möcüzəvi, cana can verən, ruha ruh qatan səfalı gözəllikləri ilə süslənmiş görünür. Təəssüf ki, bir kiçik məqalədə bunlar haqqında bəhs etmək imkan xaricindədir. Azərbaycan planetin ən gözəl təbiətə malik oldu ölkələrindən biridir. Bu gün mövcud gözəlliklərin sahibi kimi bizim öhdəmizə düşən ümdə vəzifə sağlamlığımızın əsas mənbəyi olan ana təbiəti bacardıqca mühafizə etmək, gələcək nəsillər üçün əmanət bilib, yaşıl dünyamızın qayğısına qalmaqdır.

**Ulduz Murşudova**
PhD, dosent, aparıcı elmi işçi
Azərbaycan Milli Elmlər Akademiyası, Şəki Regional Elmi Mərkəzi
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Şəki filialı
ulduzshirin@gmail.com
orcid.org/0000-0001-6106-7100

## DİNİ SİNKRETİZMİN (MÜXTƏLİF İNANCLARIN QARIŞIĞI) TƏDQİQİ

Azərbaycan ərazisində dini sinkretizmin kökləri qədim türk inancları və yerli təbiət kultları ilə bağlıdır. Qədim dövrlərdə xalq Günəşi, Odu, Suyu, Ağacı, Torpağı müqəddəs sayır, bu varlıqları təbiət qüvvələrinin təcəssümü kimi qəbul etmişdir. Daha sonralar Zərdüştilik dövründə bu inanclar sistemləşərək atəşpərəstlik dini şəklini almışdır. Zərdüştilik dövründə formalaşan “xeyir və şər qüvvələrin mübarizəsi” ideyası sonradan həm xalq mifologiyasında, həm də İslam mənəviyyatında müəyyən dəyişikliklərlə davam etmişdir. VII əsrdə İslamın Azərbaycana gəlişi dini sinkretizmin yeni mərhələsini yaratdı. İslam dini rəsmi status qazansa da, əvvəlki inanclar və zərdüşti rituallar tamamilə aradan qalxmadı, xalqın adət və mərasim sisteminə uyğunlaşaraq islami çalarlarla birləşdi. Azərbaycanda dini sinkretizmin ən parlaq nümunələri xalq inancları, mərasimlər və bayramlarda müşahidə olunur:

**Od kultu** Azərbaycan türkləri arasında ən qədim inanclardan biridir. Qədim dövrlərdə od yaşamaq, istilik, işıq və həyatın mənbəyi hesab olunurdu. Zərdüştilik dövründə od müqəddəs element kimi “Ahura Mazda”nın təcəssümü sayılmış, atəşgahlar müqəddəs məkan statusu almışdır. Xalq arasında ocağa and içmək, odun üzərindən atlanmaq, ocağa su tökməmək kimi qadağalar bu inancın davamı kimi yaşamaqdadır. Novruz bayramında tonqal qalanması həm təmizlənmə, həm də həyatın yenilənməsi rəmzidir. Od kultu həm də mənəvi saflaşma və qorunma funksiyası daşıyır: odun üzərindən atlanmaqla insanın bəlalardan təmizlənəcəyinə inanılır.

**Su kultu** da od kimi xalq inanclarının ayrılmaz hissəsidir. Qədim insan suyu həyatın başlanğıcı, məhsuldarlığın və təmizliyin mənbəyi kimi dəyərləndirmişdir. Suya and içmək və ya suya dua oxumaq ənənələri xalq arasında geniş yayılmışdır. Suya tüpürmək, zibil atmaq və ya onu murdarlamaq günah sayılır. Novruz ərəfəsində "İlaxır çərşənbələrin birincisi Su çərşənbəsi" adlanır və bu, ilin təzələnməsi prosesində suyun ilkin element kimi qəbul edilməsinin göstəricisidir.
Xalq inanclarına görə, su canlı varlıqdır, o da "inciyə" bilər və bərəkətin azalmasına səbəb ola bilər. Bu düşüncə həm ekoloji, həm də dini baxımdan qədim insanların təbiətə hörmət prinsipini əks etdirir.

Od və su kultları, zərdüştilik və türk inanclarının birləşməsi ilə yaranmış dini sinkretizmin əsas nümunələrindəndir. İslam dövründə bu inanclar islami anlayışlarla uyğunlaşdırılmışdır, məsələn: Ocağa dua ilə yaxınlaşmaq, Qurban ətini su ilə yumaq, "Su müqəddəsdir" deyimi ilə təmizlik rituallarının birləşməsi kimi formalarla yaşamışdır. Bu, xalqın dini inancında keçmişlə yeni dini dəyərlərin harmoniyasını göstərir. Od və su kultları xalqın adət, mərasim, bayram və nağıllarında geniş əksini tapmışdır. Xalq nağıllarında od çox zaman qüdrət, nur və ilahi işıq simvoludur. Su isə təmizlənmə, şəfa və həyat rəmzi kimi çıxış edir.
Folklor nümunələrində "su pərisi", "ocaq ruhu", "su qızı" kimi obrazlar bu inancların poetik davamıdır. Beləliklə, od və suya pərəstiş motivləri xalqın kosmik düşüncə sisteminin, təbiətə münasibət fəlsəfəsinin ifadəsidir.

**Torpaq kultu:** Qədim türklərin "Yer-Su" inancı torpaq kultunun ilkin mərhələsini təşkil edir. "Yer Ana" anlayışı torpağın doğurucu və qoruyucu qüvvəsini ifadə edirdi. İnsan torpağı canlı, ruha malik varlıq kimi qəbul edir, ona qurban vermək, müqəddəs yerlərin torpağını qorumaq kimi rituallar bu inamın əsasını təşkil edirdi. Zərdüştilikdə torpaq dörd ünsürdən biri kimi təmiz və müqəddəs sayılırdı. Avesta mətnlərində torpağı çirkləndirmək böyük günah sayılırdı. Bu təsəvvürlər sonradan türk inancları ilə sintez olunaraq xalq düşüncəsində öz yerini qorudu. Azərbaycan bölgələrində "ocaq torpağı", "pir torpağı", "qəbir torpağı" kimi anlayışlar geniş yayılmışdır. Yerli əhali müqəddəs sayılan pirin torpağını dərdli yerə sürtür, evə bərəkət gətirmək üçün torpaqdan bir ovuc götürürlər. Bu adətlər İslamdan öncəki torpağa inamın İslam təfəkkürü ilə birləşərək sinkretik forma almasının bariz nümunəsidir. Həmçinin, xalq arasında "torpağı tapdamaq günahdır", "torpaq haqqı var" kimi ifadələr də bu kultun mənəvi davamlılığını göstərir. İslam təsəvvüründə torpaq Allahın qüdrətinin bir təzahürü, insan üçün sınaq və ruzi mənbəyidir. Lakin xalq inanclarında əvvəlki mərhələlərin izləri tamamilə itməyib: torpağa and içmək, pir və ocaq torpağından şəfa ummaq, torpağı "halal" və "haram" kateqoriyalarına ayırmaq kimi sinkretik elementlər hələ də yaşamaqdadır.

**Əcdad kultu:** Qədim türklərin inam sistemində "ata ruhu" və "baba ocağı" anlayışları xüsusi yer tuturdu. Oğuz mifologiyasında soyun və tayfanın qoruyucu ruhu əcdad hesab edilirdi. Əcdadın ruhuna dua etmək, onun adını hörmətlə anmaq və qəbirini ziyarət etmək həmin inancların əsas elementləridir. Zərdüşti mənbələrdə insanın "fravaşi" (ruhani varlığı, qoruyucu ruhu) anlayışı əcdad kultu ilə bağlıdır. Hər bir insanın və soyun "fravaşi"si onun nəslini qoruyur. Bu düşüncə sonradan xalq inanclarında öz əksini taparaq, ölülərin ruhlarının "evə gəlməsi", "yaxınlarını qoruması" kimi təsəvvürlərlə davam etmişdir. İslamın qəbulundan sonra əcdad kultu yeni dini məzmun qazandı. İslamda insanın ata-anaya hörmət etməsi, ölülər üçün dua etməsi vacib sayılır. "Valideynə yaxşılıq et" ayəsi bu inancın dini əsasını təşkil edir. Lakin xalq inanclarında bu münasibət bəzən İslamın rəsmi çərçivələrini aşaraq qədim inanclarla birləşir. Məsələn, ata-baba

qəbrinin ziyarətinə getmək, orada niyyət tutmaq, ruhuna qurban kəsmək, əcdadın ruhundan kömək diləmək bu sinkretizmin izləridir.

Yuxarıda adları çəkilən kultlar həm dini sinkretizmin, həm də milli-mənəvi kimliyin daşıyıcısına çevrilmişdir. Müasir dövrdə belə, xalq arasında ata-baba qəbrinə hörmət, ocağa sədaqət və soy yaddaşına bağlılıq bu qədim inancın canlı izlərini yaşadır.

**Xudayar Sultanlı**
ADPU Cəlilabad filialının direktoru,
aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
adpu.cf.direktorluq@mail.ru

## SƏMƏD VURĞUNUN POEZİYASINDA TƏBİƏT MOTİVLƏRİ VƏ EKOLOJİ TƏRBİYƏ

Azərbaycan poeziyasında təbiət obrazları vasitəsilə insan həyatının dərinliklərini əks etdirmək ənənəsi mövcuddur. Çağdaş Azərbaycan poeziyasında təbiət tərənnümü klassik lirikanın davamı hesab edilsə də, daha çox **düşüncə, simvolika** və **daxili təhlil** ilə zənginləşmişdir. Təbiət – artıq sadəcə təbiət deyil, o, sanki düşüncə, qorxu, sevgi və arzularımızın yaşadığı bir məkandır. Bu məkanın ahəngdarlığı, rəngarəngliyi isə çağdaş poeziyada möhtəşəm şəkildə təsvir edilmişdir.

Səməd Vurğun "Çinarın şikayəti" şeirində çinarı canlı varlıq kimi göstərir, onun dili ilə həm təbiətin hikmətini, həm də insan üçün mənəvi ibrəti çatdırır. Qoca çinar obrazı Səməd Vurğunun yaradıcılığında mühüm yer tutan təbiət və insan birliyinin simvoluna çevrilir. Şeirdə Çinar sadəcə bir ağac deyil, müdriklik, tarix və yaddaş daşıyıcısıdır.

Şair "Çinarın şikayəti" şeirində ekologiyamızın saflaşdırılmasında, təbiətimizin qorunub gözəlləşməsində çinarın və onun timsalında ağacların, yaşıllığın, nə qədər böyük əhəmiyyətə malik olduğunu göstərir.

Dindi yol üstündə Qoca bir Çinar:
Şairim, sənə bir şikayətim var:,

deyib sözə başlayan, "dünyanın şahidi" qoca çinar əvvəlcə təbiətə nə qədər gözəllik, estetik zövq bəxş etməsindən, kölgəsində insanların dincəlməsindən, yaş torpağında gül- çiçəyin açmasından, hər yarpağında quşların adının varlığından, onların çinarın ətrafında oxuyaraq dövrə vurmasından, yayda biçinçilərin yaylağı, səfərə çıxan adamların dincəlmək üçün çadırı olmağı və kölgəsinə dəstə-dəstə uşaqların yığışıb "şərqilər oxumasından" danışır və bundan necə zövq aldığını da dilə gətirir.

Fəqət deyirlər ki, yoldaş mühəndis
Məni bir arxasiz, yurdsuz, kimsəsiz
Zənn edib, plana almışdır ki, mən
İndi çıxmalıyam öz kötüyümdən...
Demək, qalmayacaq məndən yadigar.
Ancaq mühəndisə bir sualım var:
"Ömründə bir şitil, bir budaq belə,
Mühəndis əkmişmi barı əlilə
Ki, məni - bu boyda çinarı birdən
Qoparmaq istəyir durduğu yerdən?"
Mən bu şikayəti duyduqca dərin,

Dedim ki, haqlısan, qocaman çinar!
Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, nə də haqqı var!

Qoca çinar insanların yaşayışı üçün bu qədər gərəkli olduğu halda, onun əzəmət və vüqarını sındıranları, onu "kötüyündən ayıranları" tənqid edir.

Ürəyində dövr edən "nisgillərini", haqlı iradlarını ifadə edir. Təbiətə zülm edən bu mühəndisləri pisləyir. Göstərir ki, ömründə bir şitil, bir ağac əkib becərməyən bir adam, əlbəttə, qocaman çinar ağacının neçə il ərzində, hansı çətinliklər bahasına əmələ gəldiyini haradan biləcək. Qoça çinar zəhmətini etina etmədən vurub dağıdanlara etirazını bildirir. Hətta üsyankarlıqla səsini qaldıraraq, "bu boyda çinarı birdən, qoparmaq istəyir durduğu yerdən" deyərək mühəndisə qarşı çıxır. Söhbətin bu yerində şairin öz "məni" ilə daxili söhbəti çox maraqlıdır. Bayaqdan çinarın şikayəti və etirazlarını dinləyən şair düşünür ki, bu, ekologiyanın qorunması, təbiətin mühafizəsi, ətraf mühitin çirklənməsinin qarşısını alan insanların yaşam tərzində həyatı əhəmiyyət daşıyan bir hadisədir.

Əlbəttə, şeirin belə tərbiyəvi nəticə ilə sonuclanması eyni zamanda şairin özünün təbiətə münasibətini göstərir. "Çinarın şikayəti" şeiri bütövlükdə, həmçinin bu mövzuda yazılan başqa şeirlər də gənc nəslin təbiətə münasibəti və ekoloji tərbiyəsi baxımından böyük əhəmiyyətə malikdir.

S.Vurğunun "Ceyran" şeiri də təbiət gözəlliklərinin tərənnümünə həsr olunmuşdur. Şeirin ilk bəndində ritorik bir sual qoymaqla Muğan düzünün gözəlliklərinə, Muğan gözəli Ceyranın qara gözlərinə söz qoşub, nəğmə söyləyib, göy çəməndə dincini aldınmı? -deyib Muğanın təbiətini seyr edəndən sonra şair, "Muğan gözəli"nin tərifinə başlayır. Ceyranın yerişi, qaçışı, duruşu, qara gözləri, mərcan dişləri, bütün gözəlliyini dilə gətirir.

-"Bir mən deyiləm ki, hüsnünə heyran", -misrasında ceyranın gözəlliyinə hamının vurğun olduğunu nəzərə çatdırır. Ata-babalardan qalan, "uçarda turacdır, qaçarda ceyran"-ifadəsi isə bu təbiət gözəlinin qaçışının belə tərifə layiq olduğunu göstərir. Bu "Muğan gözəli"nin (yanında balası) yağış gölündən su içməsi, payız fəslində "sıxlaşıb, baş-başa" durması da gözəllikdir.

Şair, ceyran ailəsinin gecələməsini də xüsusi zövqlə qələmə alır.

On addım kənarda yatmayır təkə,
Gəzinir, oylağa baş çəkə-çəkə.
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran!

Ailənin başçısı-təkə gecələyən "ailəni" necə ciddi qoruyur. Bu vəzifəni necə zövqlə yerinə yetirir. Şeirin ən maraqlı hissəsi yenə də son bəndidir. Burada "çöllər qızı"nın, şairin təbirincə desək, Muğana necə yaraşdığını, bu təbii gözəlliyin bir-birini tamamladığını bir daha xatırladır və insanlara müraciətlə bu gözəlliyi qorumağı tapşırır.

Ovçu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən, -
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

Bu misralarda mənəvi-əxlaqi, etik-estetik tərbiyədən, gənc nəslin ekoloji tərbiyəsinədək hər şey çox gözəl, yerində və xüsusi poetik zövqlə ifadə olunmuşdur.

**Fatiməxanım Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı, müəllim
E-mail: fatimeqasimovvva95@gmail.com

# AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏ EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Bu tezisdə Azərbaycan pedaqoji fikir tarixində ekoloji tərbiyə problemlərinin formalaşması və inkişaf istiqamətləri araşdırılmışdır. Ekoloji tərbiyənin mahiyyəti, onun şəxsiyyətin formalaşmasında rolu, həmçinin milli pedaqoji irsimizdə bu sahəyə dair baxışların təkamülü təhlil olunmuşdur. Tədqiqatda XIX əsrin sonu – XX əsrin əvvəllərində fəaliyyət göstərmiş Azərbaycan maarifçilərinin (M.F. Axundov, H. Zərdabi, Ü. Hacıbəyli, C. Məmmədquluzadə, A. Səhhət, A. Şaiq və b.) əsərlərində təbiətə münasibət, ətraf mühitin qorunması və ekoloji mədəniyyətin formalaşdırılması ilə bağlı ideyalar sistemləşdirilmişdir. Müasir dövrdə ekoloji təhsilin davamlı inkişaf prinsipləri kontekstində milli pedaqoji fikrin əhəmiyyəti vurğulanmışdır. Məqalədə nəticə olaraq göstərilir ki, Azərbaycan pedaqoji irsində ekoloji tərbiyə məsələləri milli dəyərlərlə, humanist dünyagörüşü ilə və təbiətə məhəbbət hissi ilə sıx bağlı olmuş, bu ideyalar müasir ekoloji təlim-tərbiyə konsepsiyalarının formalaşması üçün mühüm nəzəri və praktik əsas yaratmışdır.
Ümummilli lider Heydər Əliyev demişdir:

**“Təbiət bizim ümumi evimizdir. Bu evi qorumaq hər bir insanın mənəvi borcudur.”**

Azərbaycan pedaqoji fikir tarixində ekoloji tərbiyə məsələləri xalqın mənəvi-mədəni inkişafı ilə sıx bağlı olmuşdur. Hələ XIX əsrin ikinci yarısından etibarən Azərbaycan maarifçiləri — Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, XX əsrdə Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə və başqaları təbiətə münasibətdə humanizm, məsuliyyət və rasional düşüncə prinsiplərini irəli sürmüşlər. Onların pedaqoji ideyalarında təbiətin qorunması, ətraf mühitə qayğı, insanın təbiətin ayrılmaz hissəsi olması kimi anlayışlar ekoloji tərbiyənin əsasını təşkil etmişdir.

XX əsrdə təbiət elmlərinin tədrisi ilə bağlı islahatlar ekoloji tərbiyənin sistemli şəkildə təhsil prosesinə daxil edilməsinə şərait yaratmışdır. Sovet dövründə ekoloji təlim daha çox istehsal və əmək tərbiyəsi kontekstində tətbiq olunsa da, ekoloji mədəniyyətin formalaşması istiqamətində mühüm təcrübə toplanmışdır.

Müstəqillik illərində ekoloji tərbiyə məsələləri milli dəyərlər və dayanıqlı inkişaf prinsipləri ilə birləşdirilərək dövlət təhsil strategiyalarında əks olunmuşdur. Müasir kurikulumlarda ekoloji tərbiyə fənlərarası inteqrasiya yolu ilə həyata keçirilir. “Həyat bilgisi”, “Biologiya”, “Coğrafiya” kimi fənlərdə ekoloji mədəniyyətin formalaşdırılmasına yönəlmiş məqsəd və fəaliyyətlər geniş yer tutur.

Azərbaycan pedaqoji fikrinin tarixi irsi bu proqramlar üçün mühüm ideoloji və mənəvi baza rolunu oynayır. Maarifçilərin irsindəki təbiətə sevgi, vətənpərvərlik və məsuliyyət prinsipləri müasir ekoloji təlim və tərbiyə prosesinin əsas istiqamətlərini müəyyənləşdirir.

Sovet dövründə ekoloji tərbiyə daha çox “təbii sərvətlərdən düzgün istifadə” və “əmək tərbiyəsi” kontekstində tətbiq edilmişdir. Lakin bəzi pedaqoqlar (məsələn, Ə. Tağıyev, M. Əlizadə və başqaları) ekoloji təlimin tərbiyəvi mahiyyətini ön plana çəkmişlər. Onlar uşaqlarda təbiətə sevgi, qoruma və təbiətin gözəlliklərini dəyərləndirmə bacarığını inkişaf etdirməyi əsas məqsəd sayırdılar.

Azərbaycan müstəqillik illərində təhsil sahəsində aparılan islahatlar ekoloji tərbiyənin sistemli şəkildə təlim proqramlarına daxil edilməsinə şərait yaratmışdır. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" (2013) və "Ətraf mühitin mühafizəsi haqqında Qanun" bu sahədə konseptual əsas rolunu oynayır. "Həyat bilgisi", "Biologiya", "Coğrafiya" və "Texnologiya" fənlərində ekoloji davranış, təbiətin qorunması və resurslardan səmərəli istifadə bacarıqlarının formalaşdırılmasına xüsusi diqqət yetirilir. Eyni zamanda, məktəbdənkənar ekoloji layihələr, "Yaşıl məktəb", "Təbiəti qoruyaq" kimi proqramlar şagirdlərin praktiki fəaliyyətini genişləndirərək ekoloji mədəniyyətin real həyatla əlaqəsini gücləndirir.

Müasir ekoloji təlim proqramlarının hazırlanmasında milli pedaqoji irsin rolu böyükdür. Azərbaycan maarifçilərinin təbiətə yanaşma prinsipləri-vətən sevgisi, humanizm, məsuliyyət və əmək tərbiyəsi-bu gün də ekoloji təhsilin dəyərlər sisteminin əsasını təşkil edir. Beləliklə, tarixi pedaqoji təcrübə müasir təlim proqramlarında dayanıqlı inkişafın mədəni əsasını təmin edir və qloballaşma dövründə milli kimliyin qorunmasına xidmət edir.

**Dini mənbələrdə ekoloji tərbiyə məsələləri**

Müqəddəs kitabımız "Quran"ın müvafiq ayələrindən görürük ki, Böyük Yaradan Yer üzünü insanlar üçün yaradıb, onu bitki örtüyü ilə örtüb, su və müxtəlif qidalarla təmin edib. Yerin altını da, üstünü də insanlar üçün zəruri, həyati əhəmiyyətli nemətlərlə zənginləşdirib. Növbənöv taxıl məhsulları, meyvələr, dərman bitkıləri, güllər, çıçəklər, ev heyvanları, quşlar, balıqlar – hamısı insanlar üçündür. Sayı-hesabı bilinməyən bu nemətlərin ən kiçik zərrəsinin də Yaradan yanında hesabı var.

Bu barədə "Məryəm" surəsinin 99-cu ayəsində deyilir: "And olsun ki, Allah onları (bütün yaratdıqlarını) hesablamış və təkrar-təkrar saymışdır". İnsanların borcu həmin nemətləri qorumaq və ondan düzgün istifadə etməkdir.

Nizami Gəncəvi də ekoloji tərbiyə məsələlərinə dair bir çox fikir və ideyalar irəli sürərək, insanı yer üzünün ən qüdrətli varlığı hesab etmişdir. O, cəmiyyətdə şəxsiyyətin təşəkkülünə təsir edən obyektiv və subyektiv amillərə geniş yer vermişdir. Həmçinin bütün insanları oxumaq, təhsil almaq, ictimai dünyanı öyrənməyə çağırırdı. O, insan şəxsiyyətinin formalaşmasına təsir edən amillər içərisində ən çox ictimai mühitə və tərbiyəyə üstünlük verirdi. Nizamiyə görə, təlimin, elmin köməyi ilə insan təbiətin və insan mənəviyyatının sirlərini öyrənə bilər. İnsanın elmlə üstünlük qazanması Nizami əsərlərinin fəqərə sütununu təşkil edir. O, belə hesab edirdi ki, təbiət elmləri vasitəsi ilə yalnız bəşərin, yer kürəsinin deyil, eyni zamanda, kainatın bütün sirlərini də öyrənmək mümkündür. Nizamiyə görə, ağıl, elm insanı şərəfli edir. O, "Sirlər xəzinəsi"ndə yazırdı ki, ətrafa öz ağlının gözü ilə baxan hər bir kəs aləmin ən qüdrətli, yenilməz hakimidir. Nizami Gəncəvi elmləri dörd qrupa bölür:

İnsanı öyrənən elmlər;

Heyvanı, bitkiləri öyrənən elmlər;

Dağı - torpağı, yeraltı sərvətləri (yəni cansız aləmi) öyrənən elmlər;

Hərb elmləri.

Nizami qəhrəmanlarının həyat tərzinə uyğun olaraq təbiət təsvirinə, suya, havaya, günəşə, aya, ulduzlara xüsusi diqqət yetirir. O, insanları təbiətin gözəlliyini qorumağa, təmiz suyun, təmiz havanın qədrini bilməyə çağırır. O, əsərlərində müxtəlif güllərin, çiçəklərin, ayın, günəşin gözəlliyindən danışır. O, flora və faunanın qorunmasını, təbiətin simmetriyasının gözlənilməsini zəruri sayır. Su, hava təmiz olmalıdır, su həyatdır, su hər şeyə təravət verir, hər şeyi təmizləyir. Nizami Roma təbiətşünası Vəlinasın dili ilə deyir ki, təbiətdəki hər şey dörd ünsürdən – od, su,

torpaq, havadan asılıdır. Ona görə də Nizami dörd ünsürə qayğı ilə yanaşmağı tövsiyə edir. Onun qəhrəmanları əkib-biçməyə, bağ salmağa, yaşıllıq yaratmağa xüsusi əhəmiyyət verirlər. Məhəmməd Füzuli də ekoloji tərbiyə məsələlərinə dair bir çox fikir və ideyalar irəli sürmüşdür. O, insan şəxsiyyətinin formalaşmasında elmin, təlim və tərbiyənin rolunu yüksək qiymətləndirərək deyirdi ki, elm hər hansı xalqda varsa, onu ədalət və insafla qiymətləndirmək və öyrənmək lazımdır.

Füzuli insanın yiyələnəcəyi mənəvi keyfiyyətlərə yüksək qiymət vermiş, adamları əməyi, Vətəni, doğma diyarı sevməyə, humanist, xeyirxah olmağa çağırmışdı. Onun fikrincə, təbiət aləmində yağan yağışların köməyi ilə gözəl bağ – bostana çevrilir, ruzigarın təsiri ilə daş rəngini dəyişib ləl olur, su qiymətli incilərə çevrilir, arası kəsilməyən damcılardan dərya yaranır. Bu qiymətli fikirlərdən Fizuli belə bir aqilanə nəticəyə gəlir ki, insan başqasına düzgün münasibətdə olsa, nəvazişlə tərbiyə etsə, o, əsl insan olur. M.Füzuli yaradıcılığı üçün səciyyəvi olan cəhətlərdən biri də təbiət təsvirlərindən məharətlə istifadə etməsidir. Bizi əhatə edən dünya, yer, göy, ay, ulduz, gül-çiçək, bir sözlə, təbiətin min bir əsrarəngiz gözəlliyi onun lirikasının ilham və mövzu mənbəyidir. Təbiət təsviri, peyzaj Füzuli lirikasında məqsəd və vasitədir. Baharın təsviri, təbiətin oyanması, güllərin açması, bülbüllərin oxuması Füzuli şeirində bədii-poetik qayə kəsb edir. Şərq şeirincə baharla bağlı işlənən bu cür təbiət təsvirlərinə **bahariyyələr** deyilir. Azərbaycan ədəbiyyatında Füzulidən əvvəl də bahariyyələr yazılmışdır. Lakin böyük şair bahar lövhələrinin təsvrindən daha poetik sənətkarlıqla istifadə etmişdir. Şairin lirikası ilə tanışlıq göstərir ki, Füzuli ilk şeirlərində bahariyyələrdən yox, baharla bağlı anlayışlardan, elementlərdən istifadə etmişdir.

Azərbaycan pedaqoji fikir tarixində ekoloji tərbiyə məsələləri çoxşaxəli və dərin mənəvi köklərə malikdir. Maarifçilərin ideyaları müasir ekoloji təlim proqramlarının formalaşmasına elmi-metodoloji baza yaratmışdır. Müasir təhsil sistemi bu ənənələri davam etdirərək gənc nəslin ekoloji mədəniyyətini, vətənə və təbiətə məsuliyyətli münasibətini formalaşdırmağa yönəlməlidir.

Ekoloji tərbiyə yalnız fənn kimi deyil, həm də şəxsiyyətin mənəvi inkişafı prosesinin mühüm tərkib hissəsi kimi qəbul edilməlidir. Ekoloji tərbiyə müasir dövrdə insanın mənəvi, sosial və intellektual inkişafının vacib tərkib hissəsidir. Qlobal ekoloji problemlərin dərinləşməsi göstərir ki, təbiətin qorunması yalnız texniki və hüquqi tədbirlərlə deyil, ilk növbədə insanın ekoloji şüur və məsuliyyət səviyyəsinin yüksəldilməsi ilə mümkündür.

Tədqiqatlar sübut edir ki, ekoloji tərbiyənin əsas məqsədi şəxsiyyətdə təbiətə qarşı düzgün münasibət, qayğıkeş davranış və məsuliyyətli həyat tərzi formalaşdırmaqdan ibarətdir. Bu tərbiyə forması uşaqlıqdan başlayaraq ailədə, məktəbdə və cəmiyyətdə sistemli şəkildə həyata keçirilməlidir.

Ekoloji dəyərlərin tədris prosesinə inteqrasiyası, təbiətə dair praktik fəaliyyətlərin (ağacəkmə, tullantıların çeşidlənməsi, suya və enerjiyə qənaət və s.) təşkili şagirdlərdə davamlı davranış vərdişlərinin yaranmasına şərait yaradır. Beləliklə, ekoloji tərbiyə yalnız bilik vermir, həm də insanın mənəvi dünyasını formalaşdırır, onun təbiət və cəmiyyət qarşısında məsuliyyətini artırır. Nəticə etibarilə, **ekoloji tərbiyə dayanıqlı inkişafın əsas şərtidir**. O, cəmiyyətin gələcək rifahını təmin edən, təbiətlə harmoniyada yaşamağı öyrədən mühüm pedaqoji və sosial proses kimi dəyərləndirilməlidir.

### Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası, Baki,2013.
2. Əliyeva S. Müasir təhsildə ekoloji tərbiyənin rolu //Azərbaycan Məktəbi, 2020, №3.

3. Kərimova Cəmilə. Azərbaycan pedaqoji fikir tarixində ekoloji tərbiyə məsələləri. Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2024
4. Hüseynzadə, Rüfət. Azərbaycan məktəb və pedaqoji fikir tarixi (Dərs vəsaiti). Bakı: ADPU nəşriyyatı, 2020
5. Azərbaycan ekologiyası: Biblioqrafiya: Məqalələr (2020). Bakı: Prezident Kitabxanası. 2020;
Gələcəyin müəllimlərinə ‘Ekoloji mədəniyyət’ fənni tədris olunacaq”. Bakı: [Xəbər]. 2025.

**Vüsalə Nəsibova**
vusala.nasibova1221@gmail.com
AMEA Folklor İnstitutu,
Mifologiya şöbəsi, böyük elmi işçi,
ADPU Filologiya fakültəsi, Ədəbiyyat kafedrası, müəllim

## QARABAĞ FOLKLOR MÜHİTİNDƏ AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

Qarabağ özünün kulturoloji coğrafiyası ilə Azərbaycan mədəniyyət sisteminin bütün janrlar sistemini özündə inikas edir. Onun fenomenallığı həm də bu amillə – cənublu-şimallı Azərbaycan mədəniyyətinin simvolu olması ilə şərtlənir. Bu cəhətdən, əsasən, klassik yazılı ədəbiyyat və musiqinin inkişaf etdiyi, Azərbaycanın musiqi konservatoriyası sayılan Qarabağda aşıq sənəti, xalq poeziyası ənənələri də güclü şəkildə inkişaf etmiş, bu bölgədə həm görkəmli ifaçı və yaradıcı aşıqlar, həm də el şairləri fəaliyyət göstərmişlər.

Bölgənin xalq yaradıcılığı ilə bağlı sənətkarlarından danışmazdan əvvəl “aşıq” və “el şairi” terminlərinin məna dairəsinə və bölgə üçün xarakterik olan funksional-semantik xüsusiyyətlərinə, qısa şəkildə də olsa, diqqət yetirmək tələb olunur. Çünki “şair” termini, adətən, yazılı ədəbiyyatla bağlıdır. Lakin həm Qarabağda, həm də digər aşıq mühitlərində “şaır” adı altında fəaliyyət göstərən, lakin yazılı ədəbiyyat janrlarında deyil, məhz aşıq şeiri janrlarında şeirlər qoşan sənətkarlar olmuşdur. Elmi ədəbiyyatlarda xalq poeziyasının bu nümayəndələri “el şairi” adı altında öyrənilir. Lakin xalq içərisində yazılı ədəbiyyatla, aşağı-yuxarı, heç bir əlaqəsi olmayan, yəni qəzəl, qəsidə və s. kimi klassik şeir janrlarında şeir qoşmayan sənətkarlara məhz “el şairi” yox, “şair” adı ilə müraciət olunmuşdur.

Bu məqam tədqiqatçıların diqqətində olmuş, məsələ ilə bağlı bir sıra qiymətli fikirlər söylənilmişdir. Onların bizim mövzumuzla bilavasitə əlaqəsi olduğu üçün həmin fikirlərə nəzər salmaq zəruridir.

Prof. İsrafil Abbaslı şair statusundan danışarkən onları üç qrupda təsnif etmişdir:

Birincisi, aşıqlar, yaxud da saz şairləri;

İkincisi, “qələm şüərası”, yəni yazılı ədəbiyyatla bağlı şairlər: bunlar təhsili olmuş, heca və əruz vəznlərində yazmış, ancaq saz çalmağı bilməmiş şairlərdir;

Üçüncüsü, el şairləri – bunlar toy məclislərini aparan aşıqlar kimi heca vəznində şeirlər qoşmuş, ancaq saz çalmağı bilməmiş şairlərdir [1, s. 9-10].

Prof. Azad Nəbiyev aşıq sənəti ilə bağlı sənətkarları iş qrupda təsnif edib:

Birincisi, ustad aşıqlar;

İkincisi, ifaçı aşıqlar;

Üçüncüsü, el şairləri [7, s. 27-29].

Bu iki bölgünü müqayisə etdikdə aralarındakı fərqləri aydın şəkildə görmək olur. İ.Abbaslı, ümumiyyətlə, yazılı və şifahi ədəbiyyat fərqi qoymadan şeir yaradıcılığı ilə məşğul olan sənətkarları təsnif etmiş, A.Nəbiyev isə aşıq mühiti ilə bağlı sənətkarları təsnif etmişdir. Bu iki alimin hər ikisinin təsnifatında üçüncü maddə üst-üstə düşür və bizi maraqlandıran da məhz bu tip şairlər, yəni bilavasitə xalq yaradıcılığı janrlarında şeirlər qoşan, saz çalmayan, lakin şeirləri el-aşıq məclislərində oxunan və yazılı ədəbiyyatla aşağı-yuxarı, əlaqəsi olmayan el şairləridir.

Arzu Dadaşova Göyçəli el şairi Şair Məmmədhüseyndən bəhs edərkən göstərir ki, o bir xalq sənətkarı olmuşdur. Məmmədhüseyn “el şairi” idi. Göyçə folklor mühitində şer qoşan, söz yaradan sənətkarları saz çalıb-oxuyanlardan fərqləndirməkdən ötrü onlara şair deyərdilər. Məsələn, Şair Aydın, Şair Alməmməd, Şair Kazım, Şair Əziz [bax: 6, s. 216-217; 4, s. 251-266, 382-283]. Borçalı elində də eyni vəziyyət müşahidə olunur [2, s. 45].

Borçalı aşıq mühitini tədqiq etmiş Tinatin İsabalı qızının da qeyd etdiyi kimi, Borçalıda şair adı ilə Şair Nəbi, Şair Qul Qarani, Şair Bayram, Şair Ağacan, Şair Qara Qərib, Şair Bağı, və başqa sənətkarları (aşıq şeir janrlarında şeir qoşan el şairləri – V.Nəsibova) tanıyırlar [3, s. 33].

Qarabağın qüdrətli aşıqlarından biri Aşıq Abbas olmuşdur. Folklor yaddaşında qorunmuş məlumatlara görə, Aşıq Abbas Laçın rayonunun Piçənis kəndində anadan olub. Atası nağara ustası olub və onu özüylə tez-tez toylara aparardı. Hətta bir dəfə toyda bir qadın Alıdan bir hava çalmasını xahiş edir, amma havanın adını düzgün demədiyindən atası onun hansı havanı istədiyini dəqiq müəyyən edə bilmir. Onda Aşıq Abbas atasının köməyinə çatır və qadından bir dəfə o tərəfə, bir dəfə də bu tərəfə getməsini xahiş edir. Qadının yerişinə görə onun hansı havanı istədiyini müəyyən edir.

Aşıq Abbas aşıqlıqdan başqa həm də dülgərliklə məşğul olurdu. Meşədə yeri vardı, orda təknə-tabaq düzəldib ondan gələn gəlirlə ailəsini dolandırırdı. Vəfat etdiyi tarix məlum deyil, amma 90 yaşlarında dünyasını dəyişdiyi deyilir və Piçənis kəndində dəfn olunub [5, s. 382-383].
Yaradıcılığı ilə bağlı bir çox şeirlər də elə rəvayətlər şəklində gəlib çatmışdır. Belə mətnlərdən birində deyilir ki, Aşıq Abbas Dərələyəzdən bir qız sevir. Məhəbbət də on cürədir. Onun doqquzu ötəri hissdir, bircəsi ilahi məhəbbətdir. Heylə vurulur bir gözələ. Demək, Dərələyəz Ermənistan tərəfdədir. Aramızda da böyük dağ silsiləsi var. Aşıq Abbas özü Piçənisdəndi. Orda qohumu da varmış. Qohumugildə qalır ki, bu gözəli görə-eliyə. Qış düşür yollar bağlanır. Qar tayalanır elə olur ki, külək yumşaq qarı gətirir iyirmi-otuz metr qar zirvəsi yaranır. Keçmək mümkün olmur. Orda deyir ki:

Necə gedim Kürdhajıya,
Tutuf yolum selim gədiy.
Qala bilmirəm qürbətdə,
Yada düşüb elim, gədiy.
Təkədonduran yavadı,
Qırx qız dərdimə davadı.
Oylağım Sarı babadı
Mıxtökəndi yolum, gədiy.
Yaz ola yollar işdiyə,
Aşam Şəlviyə, Daşdıya.
Aşıq Abbas, Qışqaşdıya

Düşə bir də yolun, gədiy [5, s. 394].

Bu gəraylı onun bədii sözlə işləmək, ona cila vermək, sözlərin, səslərin düzümündən necə estetik fonomelodika yaratmaq qabiliyyətindən soraq verir. O, bir sənətkar kimi fitri istedada malik olmuş, mənsub olduğu el-aşıq mühitinin zəngin bədii-estetik və sənət ənənələrini davam etdirmişdir. Əldə olan şeirlərindən aydın olur ki, Aşıq Abbas mövcud poetik ənənələr fonunda öz sənətkar kimliyinin fərdi cizgilərini də təcəssüm etdirməyi bacarmışdır:

Kürkü geydim, baldırımı sarıdım,
Arvad-uşaq heş bilmədi varıdım,
Qoydular qapıda sərgi qorudum
Dedilər toyuğa kiş demir zaman.
Həşdatdan, doxsannan yüzə yaşadım,
Arvadı, uşağı onda boşadım,
Bir də uşağ oluf yerə iş...m,
Durdum gördüm yerim yaşdı bir zaman.

Başqa bir şeirində deyir:

Elin pisi kürdhacılıdı,
Tamam sözdəri acıdı.
Paşa bəyi qatmağ olmaz,
Hamısı ağıl möhtacıdı [5, s. 394-395].

Bu bir bənd şeir parçası göstərir ki, Aşıq Abbasın poeziyasının ictimai məna qatı da var. Yəni o, təkcə lirik mövzularda şeirlər qoşmamış, eyni zamanda, mənsub olduğu cəmiyyətin cari problemlərinə də öz münasibətini bildirmiş və bununla da, necə deyərlər, "Aşıq elin anasıdır" deyimini öz sənətkar kimliyində təcəssüm etdirmişdir.

Qarabağın başqa bir görkəmli sənətkarı Aşıq Möhübbət Məhəmməd oğlu Həsənov Laçın rayonunun Zağaltı kəndində anadan olub. Ağcabədi rayonunda dünyasını dəyişib. Deyilənə görə, aşıqlıqdan əlavə, həm də gözəl at çapırdı. Hətta bir dəfə toyda at çapışı zamanı atının tapırı qırılır, yəhəri düşür. Çılpaq atnan yenə hamını keçməyi bacarır [5, s. 408].

Əldə olan şeirləri onun həyat dolu bir sənətkar olduğunu göstərir. Məsələn "Arvad" şeirində deyir:

Aman günnü, yazıx, arvadı zalım,
Deyirsən götürmür söz bizim arvad.
Sən xoşbaxtsan taleyinə şükür elə,
Dağ çəkif sinəmə yüz bizim arvad.
Vay o günə evdə bir söz deyilə,
Onda gərək varım-yoxum söyülə,
Tutur xirtdəyimdən basır çeyilə,
Döşüyür qarnıma diz bizim arvad.
Nə ağıllıya bənzər, nə də dəliyə,
Dindirəndə söyür təzə ölüyə,
Ayı kimi payız girir çiliyə,
Bir də gözün açır yaz bizim arvad.
Möhübbət yolunda gəlifdi cana,
Çalışıram gəlmir dinə-imana,
Yazıram, car olsun Azərbaycana,

Bir kəlmə deməbdi düz bizim arvad [5, s. 408-409].

Bu şeir, əlbəttə, zarafat xarakterlidir və məclisdəkiləri əyləndirmək, güldürmək, onların kefini açmaq, şuxluq yaratmaq məqsədilə söylənmişdir. Ancaq şeirdə sözləri ahəngdar düzülüşü, deyingən, narazı, həyasız qadınların xarakterik cizgilərinin böyük ustalıqla təsviri Aşıq Möhübbətin söz yaradıcılığının güclü olduğunu göstərir.

Sənətkarın ictimai ruhlu “Dərdimi” şeirində deyilir:

Ehtiyacı heç nadana bildirmə,
Gedib tez çatdırar elə dərdini.
Desən də, de barı mərd oğlu mərdə
Şərikləşib sənnən bölə dərdini.
Tut ovsarı bu sarvanı çəkincə,
Qəvvas torun bu dəryadan çəkincə,
Qüssə var ki xəlvət özün çəkincə,
De bir igid əhli bilə dərdini.
Açılası sirr deyilsə, demə, get,
Ac olsan da, namərd aşın yemə, get.
Oynaq danış, söhbətə get, dəmə get,
Möhübbət, çək gülə-gülə dərdini [5, s. 409].

Bu şeirdə Azərbaycan insanı üçün xarakterik olan yüksək mənəvi dəyərlər öz əksini tapmışdır. Aşıq, bu cəhətdən, təsəvvür etdiyi ideal insan tipini belə təqdim etmişdir:

1. İnsan öz ehtiyacını hər gələnə danışıb, özünü alçaltmamalı, kişi vüqarını namərdlərin ayaqları altına atmamalıdır.
2. İnsan öz problemlərini yalnız mərd adamlarla bölüşməlidir. Çünki yalnız mərd adamlar başqalarının dərdinə yanar, qəm-kədərinə şərik çıxarlar.
3. İnsan öz dərdini kiminləsə bölüşməsə, yüngülləşə bilməz və qəm-kədər onu məhv edər. Lakin dərdi hər kəslə bölüşmək olmaz: dərdi yalnız “igid əhli” olan insanlarla bölüşmək olar.
4. Həyatda elə sirlər vardır, onlar insanla bərabər qəbirə getməlidir. O sirlər insanla Allah arasında qalmaqla bir kişinin mərdliyinin əsas göstəricisi kimi çıxış edir.
5. İnsanın əsas xarakter göstəricisi onun həyatdakı bütün hadisələri gülə-gülə, yəni Allahın qəzası və təqdiri kimi qarşılamasıdır.

Qarabağın məşhur sənətkarlarından biri də Şair Səyyah Məhəmməd adlı el şairidir. Həsənov Məhəmməd İbrahim oğlu, başqa adla Zindani Səyyah Məhəmməd Didərgin 1923-cü ildə Dərələyəz mahalında anadan olmuşdur. Səyyah Məhəmməd İrəvan Müəllimlər İnstitutunu bitirmişdir. II Dünya müharibəsinə iştirak edən şair döyüşlərdə ağır yaralanır və baş leytenant rütbəsi ilə ordudan təxris olunur. Müharibədən qayıtdıqdan sonra Qərbi Azərbaycanın bir sıra kəndlərində müəllim və məktəb direktoru vəzifələrində işləyir.

1947-ci ildə həbs olunur və 16 il Sibirdə sürgün həyatı yaşayır. Sibirdən qayıtdıqdan sonra ailəsi ilə birlikdə Laçın rayonuna köçür və rayonunun Qarabəyli, Qorçu kəntlərində müəllimlik edir. Sovet hökuməti ilə barışmayan şairin başı daim bəlalar çəkmişdir. 1974-cü ildə Ukraynaya köçən şair 1977-ci il sentyabrın 1-də orada vəfat etmiş və Donetsk vilayətinin Karmatorsk şəhərində dəfn olunmuşdur [5, s. 411].

Onun haqqında olan rəvayətlərdən birində deyilir ki, Səyyah Məhəmməd bir dəfə bir keçi gətirir bazara. Uşaxlar bunu danışdırmağ üçün deyillər ki, ə, bu keçi neçiyədi? Bir qiymət deyir. Deyillər, yox, baha deyirsən. O gəlir danışdırır, bu gəlir danışdırır. Deyir:

Xəbər alsan, bu keçinin əhvalın,
Qırx kilo qanqor yeyən keçidi.
Namərdin min tüməninə verməməm,
Mərdin qəpiyinə dəyən keçidi.

Belində var bircə kilo qəzili,
Əti kifdə üçün yaxşı əzili,
Bülün düzdü, cinsi Məzdili
Həyatda namərdə söyən keçidi.

Çoban hər ay alır altı şahı hak,
Həqiqi sözdəri demərəm nahax,
Səyyaham deyirəm, hər axşam sabah,
Şivlərimi soyub yeyən keçidi [5, s. 411-412].

Bu şeirdə diqqətçəkən məqam, onun, bir növ, deyişmə xarakterində olmasıdır. Deyişmə – iki sənətkar arasında şeirlə yarışmadır. Burada belə bir yarışma yoxdur. Ancaq Səyyah Məhəmməd bu şeiri ona zarafatla sataşan uşaqlara cavab kimi deyir. Yəni deyişmədə olduğu kimi, sənətkar bu şeiri bədahətən yaratmışdır.

El şairi "Dəyməsin" adlı qoşmada deyir:

Vətən davasında vurdu haramı,
Yellər əsdi sızıldatdı yaramı,
Payızın çovğunu, qışın boranı
Mənə dəysin, nazlı yara dəyməsin...[5, s. 417-418].

Azərbaycan el-aşıq şeiri ənənələrinin ən gözəl poetik xüsusiyyətlərini özündə əks etdirən bu şeirdə sənətkarın həyata, insana və dünyaya baxışları öz əksini tapmışdır. Müharibədə yaralanan, qar-çovğunda üşüyən şair sevgisi yolunda bütün dərdlərə dözməyə hazırdır. O, özünə bir bəla gəlməsinə razı olsa da, ancaq doğma Vətəni Azərbaycanı xoşbəxt, firavan görmək istəyir və bu yolda öz şirin canını "uf" demədən verə biləcəyini açıq ürəklə bəyan edir.

Əlbəttə, Qarabağın aşıq və el şairləri təkcə burada adları çəkilən sənətkarlarla məhdudlaşmır. Zəngin sənət və ədəbiyyat mühiti olan Qarabağda bir çox sənətkarlar yaşamış, bölgənin və ümumiyyətlə Azərbaycan el-aşıq ədəbiyyatının inkişafında çox böyük rol oynamışlar.

Qarabağ folklor mühitinin daha bir özəlliyi onda ifadə olunur ki, burada zəngin yazılı ədəbiyyat (klassik ədəbiyyat) ənənələri inkişaf etmişdir. Bu cəhətdən, xalq poeziyası, el-aşıq şeiri ilə klassik yazılı ədəbiyyat ənənələri arasındakı əlaqələr də bölgənin mədəni həyatının xüsusi məna səviyyəsini təşkil edir. Bu cəhətdən, belə hesab edirik ki, Qarabağ ədəbi mühitinin daha geniş mənzərəsinin yaradılması aşıqlar, el şairləri və yazılı ədəbiyyat şairlərinin yaradıcılığına bütöv kontekstdə yanaşılmasını nəzərdə tutur.

## Ədəbiyyat


1. Abbasov İ. Müqəddimə // Azərbaycan aşıqları və el şairləri.
2. Dadaşova A.F. Şair Məmmədhüseyn: həyatı, mühiti və yaradıcılığı (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı: 2011, 160 s.
3. İsabalı qızı T. Borçalı aşıq mühiti. Bakı: Elm, 1999, 168 s.

4. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.
5. Qarabağ: folklor da bir tarixdir / IV kitab. Topla yanlar İ.Rüstəmzadə, S.Bağdadova. Tərtib edən: İ.Rüstəmzadə. Bakı: Elm və təhsil, 2013, 458 s.
6. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 310 s.
7. Короглы X., Набиев А. Азербайджанский героический ерос. Баку: Язычы, 1996, 305 с.

**Aysel Həşimzadə**
ayselabdulla705@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

## AŞIQ ƏLƏSGƏRİN QOŞMALARINDA ANTROPONİMLƏRİN MÜXTƏLİFLİYİ

Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Ələsgər yaradıcılığının müxtəlif sahələrində dərin iz qoymuş sənətkardır. Xalq dilinin ifadə imkanlarından ustalıqla istifadə edən sənətkar gəraylı, təcnis, müxəmməs, qoşma və digər şeir formalarında həm məzmun, həm də forma baxımından yüksək poetik dəyərə malik nümunələr yaratmışdır. Bu baxımdan Aşıq Ələsgər həm Azərbaycan, həm də ümumtürk poetik düşüncəsinin inkişafına əvəzsiz töhfələr vermişdir.
Azərbaycan dilçiliyində xüsusi adlar sistemini — onomastikanı araşdıran onomalogiya sahəsinin inkişafı göstərir ki, xüsusilə aşıq poeziyasında onomastik vahidlərin bədii funksiyası böyükdür. Aşıq Ələsgər yaradıcılığı da bu baxımdan zəngindir: onun qoşmalarındakı xüsusi adlar həm məkan və zaman koloritini yaradır, həm obrazların kimliyini müəyyənləşdirir, həm də lirik ifadəni gücləndirir.

Onomastik vahidlər sırasında antroponimlər xalqın dili və etnoqrafiyası barədə dəyərli məlumat verən xüsusi bir qat təşkil edir. Professor A.Qurbanovun qeyd etdiyi kimi, aşıq ədəbiyyatında işlənən adların böyük əksəriyyəti Azərbaycan mənşəli olub dil faktları baxımından mühüm mənbədir.

Klassik aşıq poeziyasında antroponimlərin semantik baxımdan fərqli qruplara ayrılması onların funksional çoxcəhətliliyini göstərir: tarixi şəxsiyyət adları, dini-əfsanəvi adlar, simvolik obraz adları və aşıqların yaratdıqları bədii qəhrəmanların adları bu sıradadır. Aşıq Ələsgər isə əsərlərində şəxs adlarını mövzu və ideya ilə üzvi şəkildə əlaqələndirərək onlara bəzən simvolik, bəzən də konkret üslubi funksiya yükləmişdir.

Tarixi şəxslərin adlarının işlədilməsi, əsasən əsərlərin məzmunu ilə bağlı olaraq onlara müəyyən tarixi kolorit verməyə xidmət edir, çox zaman isə bədii müqayisə funksiyasını yerinə yetirir.

Gün kimi aləmi tutubdur adı
İyidlər sultanı, xanı Dəli Alı.
(Aşıq Ələsgər, «Dəli Alı»)

Endiribən məclisimə gəlmirsən,
Yoxsa taxtın Süleymana dönübdü?!
(Aşıq Ələsgər, «Dönübdü»)

Dini-əfsanəvi şəxsiyyətlərin adlarından əsasən öz sənətinin, sözünün qüdrətini tərənnüm etmək və daha qabarıq nəzərə çarpdırmaq məqsədilə istifadə etmişlər və bu şeirlərdə dini dəyərlərin təbliği, demək olar ki, hiss olunmur.

Əzrayıl bir kəsdi, görünməz gözə,
Nə ağıla baxır, nədə ki sözə.
(Aşıq Ələsgər, «Dünyada»)
Cəbrayıl dəryadan çıxardı bir daş,
İçində yarpağı yaşıldı, yaşıl.
(Aşıq Ələsgər, «Yaşıldı, yaşıl»)

Simvolik obraz xarakteri daşıyan ədəbi qəhrəmanların adları daha çox bədii rəmz xarakterli məqamlarda müqayisə obyekti kimi işlədilir və məhəbbət şeirlərinin bədii təsir gücünü artırmağa xidmət edir.

Gözüm qaldı hilal qaşın tağında,
Məcnun oldum, qaldım Leyli dağında.
(Aşıq Ələsgər, «Qaşların»)
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.
(Aşıq Ələsgər, «İncimərəm»)

Ayrı-ayrı konkret aşıqların öz ədəbi qəhrəmanlarının adları sənətkarların tərcümeyi-halının müxtəlif məqamlarını əks etdirməklə yanaşı, həm də onların şeirlərində öz ifadəsini tapmış zaman-məkan koloritinin daşıyıcısı kimi çıxış edir. Aşıq poeziyasında xüsusi yer tutan gözəlləmə şeir növü konkret olaraq ayrı-ayrı qadınların, qızların zahiri və mənəvi gözəlliyinin tərənnümünə həsr olunur. Bu baxımdan Aşıq Ələsgərin poeziyası xüsusilə səciyyəvidir. Onun qoşma janrında olan gözəlləmələrində işlədilmiş qadın adı bildirən antroponimlər böyük bir portret qalereyası təşkil edir.

Bülbül özün oda vurar, yandırar,
Qönçə meylin versə xara, Bəyistan!
(Aşıq Ələsgər, «Bəyistan»)

Kirpiklərin oxdu, qaşların kaman,
Gözlərin qəsd eylər cana, Gülpəri!
(Aşıq Ələsgər, «Gülpəri»)
Qabaq ayna, qaşın yaya bənzəyir!
Qiymət yoxdu ala gözə, Müşgünaz!
(Aşıq Ələsgər, «Müşgünaz»)

Bu gözəlləmə nümunələrindən də göründüyü kimi, qadın adı bildirən Azərbaycan antroponimlərində əsas motivləşmə gözəllik, zəriflik anlayışları ilə bağlı olduğu kimi, aşıq poeziyasında bu adların işlədilməsi əsasən bədii obrazların zahiri və mənəvi gözəlliyinin, əhdinə və sevgisinə sədaqətinin tərənnümü olmuşdur.

Kişi adı bildirən antroponimlər qadın adlarından fərqli olaraq, igidlik, mərdlik, səxavət, güc, ağıl kimi motivlər əsasında formalaşmışdır və şeirlərdə də əsasən ədəbi qəhrəmanların bu kimi keyfiyyətlərinin tərənnüm olunmasına xidmət edir:

Fağıra məhəbbətli, dosta mehriban,
Yaxşı keçər qiyamatı Bəylərin.
(Aşıq Ələsgər, «Bəylərin»)

Bu yerdə gördüyüm bəylər içində
Səxada hamıdan başdı, Annax bəy!
(Aşıq Ələsgər, «Annax bəy»Nərə çəkib təpinəndə saldata,
Sel kimi axıdır qanı, Dəli Alı...
(Aşıq Ələsgər, «Dəli Alı»)

Klassik aşıq poeziyasında işlənmiş şəxs adlarından bəhs edərkən burada müasir dilimiz üçün arxaikləşmiş bir sıra antroponimlərə rast gəlindiyini qeyd etmək lazımdır. Həm qadın, həm də kişi adı bildirən arxaik antroponimlərə Aşıq Ələsgərin yaradıcılığında da çox rast gəlinir.

Minəş günə bənzər, Əsli bir aya,
Şəms olub aləmə salıbdı saya.
(Aşıq Ələsgər, «Gözəllər»)
Eyvanın, otağın mübarək olsun,
İmarətin al qumaşdı, Annax bəy.
(Aşıq Ələsgər, «Annax bəy»)
Bir saat camalın görməsəm, ölləm,
Görsəm də yanaram nara, Bəyistan.
(Aşıq Ələsgər, «Bəyistan»)

Aşıq Ələsgərin qoşmalarında bir neçə dəfə işlənən “Annax” antroponimi “anlaq” sözünün tələffüz nəticəsində yaranmış variantıdır. Azərbaycan dilində söz sonundakı cingiltili samitin karlaşması fonetik qanunauyğunluq olduğundan, aşıq şeirlərinin yazıya alınmasında da bu prinsip qorunmuşdur. “Anmaq” felindən yaranan bu söz müasir dildə tam arxaikləşməsə də, işlənmə tezliyi azalmışdır. Aşıq Ələsgərin dilində isə “Annax” nəcib, səxavətli, anlayışlı kimi mənaları ifadə edən poetik bir sinonim səviyyəsində işlənmişdir. Maraqlıdır ki, başqa bir şeirində Aşıq Ələsgər həmin kökdən düzələn antonim sözü də işlətmişdir:

Aşıq Ələsgərəm, zarü dil, xəstə,
Gözüm yolda qaldı, qulağım səsdə.
Bir gəliş gələrəm annamaz dosta,
Dəyməmiş tökülər kalı, Məhəmməd
(Aşıq Ələsgər, «Məhəmməd»)

Aşıq Ələsgərin poetik dilində şəxs adları ilə yanaşı müxtəlif ləqəb və təxəllüslər də mühüm yer tutur. Aşıq ənənəsinə uyğun olaraq bu adlar, adətən, insanın xarakteri, rəftarı, peşəsi və ya ictimai mövqeyi əsasında formalaşaraq xalq tərəfindən verilən ikinci ad funksiyasını daşıyır. Ələsgərin qoşmalarında işlənən ləqəblər obrazı daha konkret və canlı təsvir etməyə xidmət edir, onun xarakterini dəqiqləşdirir və poetik mətnə xüsusi kolorit gətirir. Bu tip adlar həmçinin əsərdə əks olunan real həyat mənzərəsinin bədii təsvir vasitəsi kimi çıxış edir və şeirin ifadə imkanlarını genişləndirir.

Qul Ələsgər işin müşküldü müşkül,
Dərdini deməyə yoxdu əhli-dil.
(Aşıq Ələsgər, «Kəsildi»)
Sənin kimi mərd iyidin yolunda
Qurbandı aşığın canı, Dəli Alı!
(Aşıq Ələsgər, «Dəli Alı»)
Səni də aldatdı dünyanın malı,
Zəhər Qələndərin pencər payına.
(Aşıq Ələsgər, «Qohum bildik, qoyduq adam yerinə»)

Klassik aşıq poeziyasında, xüsusilə də Aşıq Ələsgərin poetik dilində işlənən antroponimlər Azərbaycan onomastikasının zənginliyini və xalq dilinin ifadə imkanlarını əks etdirən qiymətli dil

faktlarıdır. Şairin qoşma və gəraylılarında şəxs adları ilə yanaşı müxtəlif ləqəb və təxəllüslər də geniş yer tutur. Aşıq ənənəsinə məxsus olan bu adlar, adətən, insanın xarakteri, davranışı, peşəsi və ya ictimai mövqeyi əsasında formalaşır və xalq tərəfindən verilən ikinci ad funksiyasını daşıyır. Aşıq Ələsgərin poetik mətnlərində rast gəlinən antroponimlər həm leksik-semantik baxımdan, həm də qrammatik quruluş və funksionallıq etibarilə geniş çeşidliliyi ilə seçilir. Bu adlar müxtəlif söz quruluşu modelləri əsasında yaranır və nitq hissələri üzrə fərqli mənsubluğa malik olması ilə diqqət çəkir. Şairin poetik dilində işlənən adlar obrazın xarakterini canlandırır, poetik təsvirin ifadəliliyini artırır və xalq həyatının canlı mənzərəsini daha dolğun təqdim edir. Beləliklə, Aşıq Ələsgərin istifadə etdiyi antroponimlər onun poeziyasına həm dil zənginliyi, həm də bədii kolorit qatır.

**Firidə Mustafayeva**
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: firide.mustafayeva@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialı

## AŞIQ YARADICILIĞINDA RİYAZİ QANUNAUYĞUNLUQLARIN TƏHLİLİ

Aşıq sənəti Türk–Azərbaycan mədəniyyətinin ən qədim şifahi ənənələrindən biri olmaqla yanaşı, özündə yüksək dərəcədə riyazi quruluş və sistemlilik daşıyan poetik-musiqi janrıdır. Bu yaradıcılıq təkcə estetik deyil, həm də riyazi dəqiqlik, ritm, say simvolizmi və struktur sabitliyi ilə seçilir

Aşıq yaradıcılığı Azərbaycanın ən qədim söz-sənət məktəblərindən biri olmaqla yanaşı, özündə sistemli struktura malik poetik model daşıyır. Bu modelin əsasında isə ritmik, ölçülü, simmetrik və formalaşmış riyazi konstruksiyalar dayanır. Xalq poeziyası xüsusilə qoşma, gəraylı, təcnis kimi janrlarda ciddi riyazi nizam tələb edir. Şeir ölçüləri, bənd quruluşları, heca sayı, qafiyələnmə sistemi və ritmik dövrlər "söz musiqisinin riyaziyyatı" kimi çıxış edir. Aşıq yaradıcılığı yalnız poetik və musiqi janrı deyil, həm də struktur quruluşuna görə ciddi riyazi qaydalarla işləyən sistemli bir sənətdir. Aşığın söylədiyi hər şeir, çalıb-oxuduğu hər hava, yaratdığı hər dastan daxili məntiqi ardıcıllığa, ölçü sabitliyinə və riyazi harmoniyaya malikdir.

Azərbaycan aşıqlarının qoşmaları, gəraylıları, divaniləri və təcnisləri **daxili say ardıcıllığı, bölgü, həcm sabitliyi, qafiyə nizamı, ritmik dövrilik** kimi riyazi xüsusiyyətlərə malikdir. Bununla yanaşı, şeirlərdə **məcazi və real riyazi ifadələr, saylar, müqayisələr, ölçülər** geniş şəkildə işlənir. Aşıq sənəti Azərbaycan xalqının minillik söz və musiqi yaddaşını daşıyan ən mühüm mədəni fenomenlərdəndir. Bu sənət yalnız lirika, dastan və qəhrəmanlıq motivləri ilə deyil, həm də öz içində gizlənmiş **riyazi qanunauyğunluqlar, ölçülülük, say sistemləri, ritm, harmoniya** və **simmetriya** ilə seçilir.

Aşıq şeirinin riyazi strukturu

Ölçü, heca və say sabitliyi: Aşıq şeiri əsasən 7, 8 və 11 hecalı ölçülərdə qurulur. Bu ölçülər riyazi baxımdan sabit modul təkrarlanan ritm vahidi say üzrə ritmik bloklar kimi çıxış edir.

Qafiyə sxemlərinin riyazi modelləri

Aşıq poeziyasında yayılmış qafiyə quruluşları müəyyən riyazi ardıcıllıqla formalaşır:

**aaba** → bayatı
**axax** → gəraylı
**aaab** → qoşma variantı
**abcb** → divani strukturu

Bu sxemlər kombinator yanaşma ilə ədəbiyyatın "qafiyə matrisi" kimi modelləşdirilə bilər. Məsələn, qoşmanın hər bəndi 11 heca → 11 = 6+5 və ya 4+4+3 kimi daxili bölünmə variantlarına malikdir. Bu bölünmələr ritmik periodiklik yaradır.

**Şeir nümunəsi – Aşıq Ələsgər**
**Görmədim dünyanın mənli məhşərın,**
**Oxşamaz bir-birin heç bir dövranı.**
**Könlümün açarı, qapısı varın,**
**Ağıl açar, ürək bağlar bu canı.**
**Heca quruluşu:** 11 heca, **ritm:** 6+5 daxili bölünmə
**Qafiyə sxemi:** a a a b (qoşmaya xas şəkildə)
Bu riyazi baxımdan sabitlik göstərir: 11 heca × 4 misra → invariant forma.
Aşıq Alıdan nümunə

Dağlar başı duman olar, ay duman,
Gözəl yarın xatırası canıma can,
Hər baxanda könlüm olur qərarsız an,
Gözüm yolda qalar hər gün, ay gülüm.

Burada birinci üç misra eyni qafiyə üzərində qurulur – **a a a b modeli**.
Aşıq şeirlərində bəndlərin 4 misradan ibarət olması simmetrik strukturdur.
Bu quruluş həm riyazi balansı, həm də musiqi ahəngini qoruyur.

Aşıq Şəmşirdən nümunə:
Elə bil nazıyla oynar küləklər,
Dağlara çökəndə duman nə gözəl.
Sazına söz qoşub çağıran ellər,
Şəmşiri dinləyə-dinləyə nə gözəl.

Simmetriya – hər bənd 4 misradır; qafiyə isə **a b a b** variasiyasındadır.

Aşıq yaradıcılığı təkcə poetik deyil, həm də riyazi əsaslı bir sənət sistemidir. Heca sayı, ritm dövrləri, qafiyə sxemləri, bənd simmetriyası, permutasiyalar və say simvolları Azərbaycan xalq poeziyasının strukturunda elmi–riyazi model meydana gətirir. Aşıqların ustalıqla qurduğu bu riyazi harmoniyalar aşıq musiqisi ilə birləşərək minilliklər boyu dəyişməyən poetik ənənə yaradıb. Ritm, heca sayı, qafiyə, simmetriya, dövrilik, ölçülülük, say metaforaları – bunların hamısı aşıq sözündə özünəməxsus şəkildə mövcuddur.

Aparılan araşdırmalar göstərir ki:
Aşıq yaradıcılığı riyazi quruluş baxımından yüksək dərəcədə sistemli və sabit formaya malikdir.
Şeir formaları (qoşma, gəraylı, bayatı) riyazi invariantlıq və periodiklik üzərində qurulur.
Aşıq musiqisi ritmik dövrülük, interval nisbətləri və harmoniya qanunlarına əsaslanır.
Dastanların süjet strukturu məntiqi ardıcıllıq, təkrar modelləri və say simvolizminə söykənir.
İmprovizasiya kombinasiyalar nəzəriyyəsinə uyğun şəkildə formalaşır.
Beləliklə, aşıq yaradıcılığı riyazi təfəkkürlə poeziya və musiqinin harmonik birliyini özündə birləşdirən nadir sənət sahəsidir.

**Təranə Əkbəri**
Biologiya üzrə fəlsəfə doktoru, baş müəllim
*akbarietmp@gmail.com*
ADPU-nun Şamaxı filialı

## EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA TƏHSİL SİSTEMİNİN ROLU

Qlobal miqyasda baş verən ekoloji proseslər – iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması, təbii ehtiyatların qeyri-sabit istismarı və ətraf mühitin çirklənməsi – cəmiyyətlərin ekoloji davranış və düşüncə

tərzinə yenidən baxmasını zəruri edir. UNESCO-ya (2020) görə, ekoloji problemlərin kökündə təkcə texnoloji və iqtisadi çatışmazlıqlar deyil, həm də insan davranışlarının idarə olunmasında boşluqlar dayanır. Bu isə ekoloji mədəniyyətin formalaşdırılmasını dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirir.

Azərbaycanın son illər qəbul etdiyi strateji sənədlər — "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri", "Yaşıl Artım Konsepsiyası", işğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji Zonası" elan edilməsi — ekoloji siyasətin ölkə inkişafının mərkəzində dayandığını göstərir. Bu siyasətin uğurla həyata keçirilməsi isə yalnız texnoloji və infrastruktur layihələri deyil, ekoloji cəhətdən məsuliyyətli və şüurlu vətəndaş yetişdirmək bacarığı ilə bağlıdır. Bu baxımdan, təhsil sistemi ekoloji mədəniyyətin təşəkkülündə həlledici rol oynayır.

**Ekoloji mədəniyyətin elmi-teorik əsasları.** Ekoloji mədəniyyətın mahiyyəti yalnız ekoloji biliklərin mənimsədilməsi ilə deyil, insanın təbiətə münasibətini tənzimləyən dəyərlər, düşüncə vərdişləri, davranış modelləri və sosial məsuliyyət hissi ilə müəyyən edilir (Genc & Akilli, 2019). Müasir ədəbiyyatda ekoloji mədəniyyət aşağıdakı komponentlərin sintezi kimi izah olunur:

1. Ekoloji biliklər – ekosistemlər, iqlim dəyişiklikləri, resurs tükənməsi və təbiət qanunauyğunluqları haqqında məlumatlar.
2. Ekoloji dəyərlər – təbiətə hörmət, məsuliyyət, etik münasibət, nəsillərarası ədalət.
3. Davranış vərdişləri – tullantıların azaldılması, enerji qənaəti, suya qənaətli istifadə və s.
4. Fəal iştirak – icma layihələrinə qoşulma, könüllülük və ekoloji təşəbbüslərə dəstək.

Sterling (2014) bu modeli "daha davamlı düşüncə sisteminə keçid" kimi xarakterizə edir və təhsil sisteminin burada mühüm vasitəçi rolunu vurğulayır.

Ekoloji Mədəniyyətin Formalaşmasında Qlobal Təhsil Yanaşmaları. UNESCO-nun Dayanıqlı İnkişaf üçün Təhsil (ESD) Yanaşması ekoloji mədəniyyətin mərkəzinə tənqidi düşüncə, sistemli yanaşma, gələcəyə yönəlik planlaşdırma, kooperativ fəaliyyət kimi kompetensiyaları yerləşdirir. ESD yalnız ekologiya dərslərinə inteqrasiya edilmir, eyni zamanda məktəbin idarəetməsinə, pedaqoji prosesə və sosial fəaliyyətə sirayət edir.

UNEP-nin Yaşıl Universitetlər Təşəbbüsü (2014) universitetlərin üç istiqamət üzrə "yaşıl transformasiyası"nı tövsiyə edir: kurikulumun ekoloji əsaslarla zənginləşdirilməsi, kampus infrastrukturunun "yaşıl standartlara" uyğunlaşdırılması, universitet–icma əməkdaşlığının gücləndirilməsi.

OECD-nin Davranışyönümlü Ekoloji Savadlılıq Modeli (2021) ekoloji mədəniyyəti "şəxsin ekoloji agentlik qabiliyyəti" ilə əlaqələndirir — yəni insanın ekoloji problemləri dərk edib real fəaliyyət göstərə bilməsi. Bu model ekoloji tərbiyədə davranış yönümlü pedaqogikanın önəmini qabardır.

Azərbaycanın təhsil sistemində ekoloji mədəniyyətin formalaşması. Azərbaycan təhsil sistemində ekoloji yönümlü tərbiyə son illər daha sistemli xarakter almışdır. "Azərbaycan 2030" sənədi ekoloji təhlükəsizliyi və yaşıl iqtisadiyyatı inkişaf prioritetlərindən biri kimi müəyyən edir. Eyni zamanda 2020–2026-cı illər üzrə təhsil strategiyasında ekoloji maarifçilik və təbiətə məsuliyyətli yanaşmanın gücləndirilməsi xüsusi qeyd olunur.

Ümumtəhsildə ekoloji təlim-tərbiyə. Fənlər üzrə kurikulumlarda ("Həyat bilgisi", "Biologiya", "Coğrafiya", "Kimya", STEAM modulları) ekoloji anlayışlar geniş yer tutur. Son illər məktəblərdə ekoloji ekskursiyalar, təbiət müşahidələri, su və torpaq analizi üzrə mini-laboratoriya dərsləri, təkrar emal layihələri, məktəb həyətlərində bio-müxtəliflik guşələrinin yaradılması kimi fəaliyyətlər genişlənmişdir. Araşdırmalar göstərir ki, açıq havada təşkil olunan dərslər şagirdlərdə real davranış dəyişikliyi yaradan ən təsirli metodlardandır (Erdoğan, 2020).

Ali təhsildə ekoloji mədəniyyət. Universitetlərdə ekoloji fənlərin xüsusi çəkisi artmış, yeni Ekologiya və təbiəti mühafizə, Ətraf mühitin monitorinqi, Bərpa olunan enerji mühəndisliyi, Ətraf mühit menecmenti. mütəxəssis hazırlığı proqramları açılmışdır. ADA Universiteti, Bakı Dövlət Universiteti,

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti kimi ali məktəblər enerji səmərəliliyi, bərpa olunan enerji texnologiyaları və iqlim araşdırmaları üzrə layihələr həyata keçirir. Bəzi universitetlər "yaşıl kampus" modelinə mərhələli keçidi hədəf götürmüşdür.

**Qlobal və milli yanaşmaların müqayisəli təhlili.** Qlobal təcrübə göstərir ki, ekoloji mədəniyyətin formalaşması yalnız biliklə deyil, dəyərlər, davranışlar və icma fəaliyyətləri ilə tamamlanmalıdır. Azərbaycan təhsil sistemi bu istiqamətdə mühüm addımlar atmış olsa da ekoloji mövzular daha çox təbiət fənləri ilə məhdudlaşır, davranış yönümlü motivasiya mexanizmləri zəif inkişaf edib, məktəb və ali məktəb infrastrukturunda ekoloji standartların tətbiqi geniş xarakter almamışdır, "yaşıl məktəb" və "yaşıl universitet" modelləri hələ tam institusional səviyyədə deyil. Bu isə göstərir ki, Azərbaycan modeli qlobal standartlara yaxınlaşır, lakin daha sistemli yanaşmaya ehtiyac duyulur.

Bu sahədə əsas problemlər bilik–davranış ,müəllim hazırlığında boşluqlar, infrastrukturun məhdudluğu, icma əməkdaşlığının zəifliyi, interdisiplinarlığın azlığıdır.

**Təkliflər**

1.Kurikulumda ESD-nin bütün fənlər üzrə inteqrasiyası.

2.Müəllimlər üçün iqlim təhsili, ekoloji davranış psixologiyası və layihə əsaslı ekoloji təlim üzrə təlim proqramları.

3.Məktəblərdə "Yaşıl Məktəb Modeli": enerji auditləri, tullantıların çeşidlənməsi, məktəb bağları, bio-müşahidə sahələri.

4.Universitetlərdə "Yaşıl Kampus Standartı": su, enerji, tullantı idarəetməsi üzrə indikatorlar.

5.Şagird və tələbələr üçün ekoloji könüllülük və icma layihələrinin genişləndirilməsi.

6.Ekoloji davranışların stimullaşdırılması (müsabiqələr, ekoloji sertifikatlar, yaşıl kredit sistemi).

Ekoloji mədəniyyətin formalaşması yalnız təbiət haqqında biliklərin şagirdlərə çatdırılması ilə məhdudlaşmır; bu proses dəyərlərin, sosial məsuliyyətin və davamlı davranışların sistemli şəkildə formalaşdırılmasını tələb edir. UNESCO, UNEP və OECD modelləri göstərir ki, ekoloji savadlılıq sırasında ən mühüm məqam real davranış dəyişikliyinin baş verməsidir. Azərbaycan təhsil sistemində bu istiqamətdə nəzərəçarpacaq uğurlar mövcud olsa da, daha geniş və dərin transformasiya üçün ESD-nin sistemli tətbiqinə, müəllim hazırlığının gücləndirilməsinə və ekoloji infrastrukturun inkişafına ehtiyac vardır. Təklif olunan tədbirlərin həyata keçirilməsi ölkənin "yaşıl inkişaf" kursu ilə uzlaşaraq ekoloji məsuliyyətli vətəndaşların yetişdirilməsinə töhfə verəcək.

**Ləman Mustafayeva**
*Lemanmustafayeva32@gmail.com*
Azərbaycan Dövlət Pedaqoji Universiteti Şamaxı filialı

## MEDİANIN VƏ SOSİAL ŞƏBƏKƏLƏRİN EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ

Müasir dövrdə qlobal ekoloji problemlərin sürətlə artması cəmiyyətin ekoloji maarifləndirilməsini zərurətə çevirir. Bu prosesdə ənənəvi media və sosial şəbəkələr mühüm kommunikasiya vasitəsi kimi çıxış edir. İnformasiya texnologiyalarının geniş yayılması, xüsusilə sosial medianın operativliyi və əlçatanlığı ekoloji düşüncənin formalaşmasında yeni imkanlar yaratmışdır. Media cəmiyyətin ekoloji davranışına təsir göstərən əsas ideoloji alətə çevrilərək, həm maarifləndirmə funksiyasını yerinə yetirir, həm də ekoloji fəallığı stimullaşdırır. Televiziya, radio və qəzetlər uzun illərdir ekoloji problemlərin işıqlandırılmasında aparıcı rol oynayır. Xüsusilə ekologiya ilə bağlı sənədli filmlər, araşdırma reportajları, ekspert müsahibələri və xüsusi verilişlər ictimaiyyətin təbii ehtiyatların qorunması barədə biliklərini artırır. Ekoloji jurnalistikanın inkişafı ətraf mühit problemlərinin ictimai nəzarətə çıxarılmasına da şərait

yaradır. Media yalnız məlumatlandırmır, həm də davranışları formalaşdırır. Çirklənmənin nəticələri, iqlim dəyişikliyi, tullantıların düzgün idarə olunmaması kimi məsələlərin kütləvi şəkildə işıqlandırılması vətəndaşlarda məsuliyyət hissini artırır. Reklam çarxları və sosial kampaniyalar ("ağac ək", "tullantıları çeşidlə", "suya qənaət et") ekoloji mədəniyyətin yüksəlməsində əhəmiyyətli rol oynayır. Sosial şəbəkələr (Facebook, Instagram, TikTok, YouTube və s.) ekoloji məlumatların qısa zamanda geniş auditoriyaya çatdırılması üçün effektiv platformadır. Video, qrafik, infoqrafika və canlı yayımlar vasitəsilə ekoloji problemlər daha cəlbedici formada təqdim olunur. Sosial şəbəkələr ekoloji problemlərlə bağlı cəmiyyətin fəallaşmasını təmin edən ən güclü kommunikasiya platformalarından biridir. Bu media vasitələri həm fərdlərin ekoloji məsələlərə münasibətini formalaşdırır, həm də kütləvi hərəkətlərin təşkil olunmasını asanlaşdırır. Sosial fəallığın güclənməsi bir neçə mexanizm üzrə özünü göstərir: Ekoloji aksiyaların təşkilinin asanlaşması. Sosial şəbəkələr insanların qısa müddətdə böyük kütlələri səfərbər edə bilməsinə imkan yaradır. Ağacəkmə kampaniyaları, çimərlik və meşə təmizlik aksiyaları, iqlim yürüşləri, ictimai diskussiyalar sosial media vasitəsilə daha tez və effektiv şəkildə təşkil olunur.

Aktiv ictimai qrupların yaranması və genişlənməsi. Facebook qrupları, Telegram kanalları, İnstagram səhifələri kimi platformalarda ekoloji yönümlü icmaların yaranması sosial fəallığın artmasına şərait yaradır. Bu qruplar vasitəsilə istifadəçilər məlumat mübadiləsi edir, tədbirlər haqqında məlumat alır, müxtəlif ekoloji problemlərlə bağlı təşəbbüslər irəli sürürlər. Belə qruplar həm də yeni aktivistlərin yetişməsi üçün mühit formalaşdırır. Fəalların səsini qaldırmaq imkanının artması. Ənənəvi mediadan fərqli olaraq, sosial şəbəkələr hər bir vətəndaşa öz mövqeyini sərbəst ifadə etmək imkanı verir. Ekoloji fəallarla yanaşı, adi vətəndaşlar da çirklənmə, ağacların kəsilməsi, su ehtiyatlarının yanlış idarə olunması və digər problemlər barədə video və foto paylaşımlar edərək ictimai reaksiyanın formalaşmasına səbəb olur. Bu cür aktivlik dövlət qurumlarının diqqətini çəkmək baxımından da mühüm rol oynayır. Xəbərdarlıq və ictimai nəzarət funksiyası. Sosial media cəmiyyətin "ictimai nəzarət" funksiyasını yerinə yetirməsinə şərait yaradır. Vətəndaşlar ekoloji pozuntular haqqında dərhal məlumat paylaşaraq problemi geniş auditoriyaya çatdırır, bu isə aidiyyəti qurumların operativ tədbir görməsini stimullaşdırır. Beləliklə, sosial şəbəkələr ekoloji nəzarətin güclənməsinə şərait yaradan unikal vasitəyə çevrilir.

Fəallığın beynəlxalq səviyyəyə çıxması. Sosial şəbəkələr ekoloji hərəkatları lokal səviyyədən beynəlxalq arenaya daşıyır. Bir ölkədə başlayan ekoloji aksiya qısa zamanda digər ölkələrdə də geniş yayılır. "Fridays for Future", "Plastic Free July" kimi beynəlxalq təşəbbüslərin milyonlarla insan tərəfindən dəstəklənməsi sosial medianın qlobal təsir gücünün nəticəsidir. Azərbaycan gənclərinin də bu kampaniyalarda aktiv iştirakı sosial fəallığın regional hüdudlardan çıxmasına səbəb olub. Ekoloji mövzularda paylaşılmış təsirli videolar, heyvanların xilas edilməsi barədə hekayələr, təbiətə zərər vurulmasının real görüntüləri insanlarda emosional reaksiya yaradır. Emosional motivasiya isə sosial fəallıq üçün ən güclü amillərdən biridir. Bu cür kontent insanların ekoloji hərəkatlara qoşulmasını artırır və hissiyat üzərində qurulan sosial təzyiq mexanizmi yaradır. Sosial şəbəkələr könüllülük hərəkatlarının geniş kütləyə çatdırılmasını təmin edir. Bir çox ekoloji QHT və təşəbbüs qrupu sosial media vasitəsilə könüllülər cəlb edir, təlimlər və aksiyalar təşkil edir. Gənclər sosial şəbəkədə gördükləri ekoloji təşəbbüslərə könüllü qoşularaq həm təbiətin qorunmasına, həm də sosial məsuliyyət hissinin möhkəmlənməsinə töhfə verirlər. Sosial şəbəkələrin ekoloji mədəniyyətin formalaşmasına təsir göstərən ən mühüm mexanizmlərindən biri ekoloji yönümlü sosial məsuliyyət davranışlarının inkişaf etdirilməsidir. Sosial media insanların gündəlik həyatında mühüm yer tutduğu üçün burada yayılan ekoloji mesajlar, çağırışlar və sosial nümunələr istifadəçilərin davranışlarına birbaşa təsir göstərir. Sosial şəbəkələrdə ekoloji fəalların, məşhurların və adi istifadəçilərin davamlı həyat tərzini nümayiş etdirməsi (plastiksiz alış-veriş, təkrar istifadə, "zero waste" həyat tərzi, suya və enerjiyə qənaət vərdişləri və s.) digərləri üçün nümunə formalaşdırır. İnsanlar sosial mühitdə qəbul edilən normaya uyğun davranmağa meyillidirlər, bu isə ekoloji sosial məsuliyyətin yayılmasını sürətləndirir. Sosial şəbəkələr "kütlə psixologiyası"nın formalaşmasında mühüm rol oynayır. Bir çox istifadəçi ekoloji paylaşımları gördükdən

sonra belə bir fikrə gəlir ki, bu, geniş yayılmış norma və ya cəmiyyətin tələbi halına gəlib. Beləliklə, sosial şəbəkələr kollektivi vahid ekoloji dəyər ətrafında birləşdirərək insanların davranışlarına təsir gücünü artırır. Məsələn, qlobal “Earth Hour”, “World Cleanup Day” kimi aksiyalara milyonlarla insanın qatılmasında sosial şəbəkələrin rolu çox böyükdür. Sosial media xüsusilə gənclər arasında ekoloji məsuliyyətin formalaşmasında həlledici rola malikdir. Gənc istifadəçilər ekoloji problemləri daha yaxşı qavrayır, trendləri asan mənimsəyir və sosial şəbəkələr vasitəsilə ekoloji hərəkatlarda aktiv rol oynayır. TikTok və Instagram kimi platformalarda yayılan qısa, vizual kontent ekoloji mövzuları daha cəlbedici edir və gəncləri ekoloji məsuliyyətə təşviq edir. Sosial şəbəkələrdə ekoloji davranışlar həm də sosial təzyiq mexanizmi hesabına formalaşır. Məsələn, tullantıların yandırılması, zibilin ətrafa atılması və ya heyvanlara zərər verilməsi kimi neqativ hərəkətlər sosial mediada ciddi qınaqla qarşılanır. Bu qınaq, əslində, cəmiyyətdə ekoloji məsuliyyətin yüksək olduğunu göstərir və fərdləri daha düzgün davranış sərgiləməyə təşviq edir. Sosial şəbəkələr könüllülük fəaliyyətlərini təşviq edən ən güclü alətlərdən biridir. İstifadəçilər ağacəkmə aksiyaları, ərazi təmizliyi kampaniyaları, ekoloji maarifləndirmə tədbirləri və ekoloji sosial layihələr haqqında məlumatları sosial mediada gördükdə həmin tədbirlərə qoşulmaqda daha həvəsli olurlar. Bu isə ekoloji məsuliyyətin fərdi səviyyədən sosial səviyyəyə keçməsini təmin edir. Sosial media davamlı həyat tərzinin gündəlik praktika kimi qəbul edilməsinə şərait yaradır. Məsələn: “Bir gün plastik istifadə etmə”,“Hər ay bir ağac ək”, “Tullantıları çeşidlə” kimi çağırışlar insanların gündəlik vərdişlərinə təsir göstərir. Sosial mediada bu fəaliyyətlər barədə məlumat paylaşmaq isə digər istifadəçilərdə motivasiya yaradır və ekoloji məsuliyyət davranışını sabitləşdirir. Gənclər sosial mediada gördükləri ekoloji çağırışlar, nümunəvi davranışlar və aktivist çıxışları əsasında öz ekoloji mədəniyyətlərini formalaşdırırlar. “Yaşıl həyat tərzi”, “plastiksiz alış-veriş”, “eko-məhsullar” kimi trendlər sosial şəbəkələrin təsiri ilə gündəlik vərdişlərə çevrilir. Sosial mediada bəzən elmi əsası olmayan məlumatların yayılması ekoloji savadsızlıqla nəticələnə bilər. Məsələn, iqlim dəyişikliyini inkar edən saxta məlumatlar və ya tibbi-ekoloji yanlış məsləhətlər cəmiyyət üçün təhlükə yaradır. Bəzi səhifələr və şəxslər ekoloji mövzuları yalnız izləyici toplamaq üçün istifadə edir. Bu isə cəmiyyətdə yanlış təsəvvür yarada, real ekoloji problemləri kölgədə qoya bilər.

Nəticə olaraq, media və sosial şəbəkələr ekoloji mədəniyyətin formalaşmasında mühüm rol oynayır. Onlar cəmiyyəti maarifləndirir, ekoloji məsuliyyəti artırır və insanları ətraf mühitin qorunması uğrunda birləşdirir. Eyni zamanda, bu platformalarda yanlış məlumatların yayılması təhlükəsi mövcuddur. Buna görə də ekoloji informasiya siyasətinin düzgün qurulması və etibarlı media mənbələrinin gücləndirilməsi vacibdir. Effektiv istifadə olunduqda media və sosial şəbəkələr ekoloji cəmiyyət quruculuğunun əsas dayaqlarından birinə çevrilə bilər.

**Yaqut Qasımova**
yaqut.qasimova.65@bk.ru
ADPU-nun Şamaxı filialı, baş müəllim

## İQLİM DƏYİŞMƏLƏRİ FONUNDA EKOLOJİ MƏDƏNİYYƏTİN VACİBLİYİ

Müasir dövrdə qlobal problemlər arasında ən təhlükəlilərindən biri iqlim dəyişmələridir. Dünyanın müxtəlif bölgələrində temperaturun artması, ekstremal hava hadisələrinin çoxalması, su çatışmazlığı, torpaqların deqradasiyası və biomüxtəlifliyin azalması kimi proseslər insan həyatına birbaşa təsir göstərir. Bu şəraitdə ekoloji mədəniyyətin formalaşması və gücləndirilməsi təkcə ekoloji siyasətin deyil, həm də cəmiyyətin davamlı inkişafının əsas şərti kimi ön plana çıxır. Ekoloji mədəniyyət insanın təbiətə münasibətdə məsuliyyət hissinin inkişafı, dayanıqlı davranış vərdişlərinin formalaşması və ətraf mühitin

qorunmasına aktiv şəkildə qoşulması deməkdir. Bu baxımdan iqlim dəyişmələrinin mövcud gedişatı ekoloji mədəniyyətin vacibliyini daha da artırır.

Son onilliklərdə müşahidə edilən qlobal istiləşmə dünya üzrə ekoloji tarazlığın pozulmasına səbəb olur. Xüsusilə Arktika buzlaqlarının əriməsi, dəniz səviyyəsinin qalxması və quraqlıq bölgələrinin genişlənməsi kimi proseslər insan fəaliyyətinin nəticəsi olan karbon emissiyalarının artması ilə sıx bağlıdır. Bu vəziyyət cəmiyyətlərin ekoloji davranış normalarını yenidən nəzərdən keçirməsini tələb edir. Ekoloji savadlılıq və mədəniyyət yalnız bu təsirlərin azalmasına deyil, həm də gələcək nəsillərə sağlam ətraf mühitin ötürülməsinə xidmət edir.

Cəmiyyətin ekoloji mədəniyyətinin formalaşması kompleks və uzunmüddətli prosesdir və bu prosesə fərdlərin, təhsil müəssisələrinin, ailələrin, dövlət qurumlarının və ictimai təşkilatların birgə fəaliyyəti təsir göstərir. Ekoloji mədəniyyət insanların təbiətə münasibətini müəyyən edən dəyərlər sistemi, davranış normaları və ekoloji məsuliyyət anlayışı ilə sıx bağlıdır. Bu səbəbdən onun formalaşması yalnız ekoloji biliklərin verilməsi ilə məhdudlaşmır, həm də cəmiyyətdə ekoloji düşüncə tərzinin inkişafını nəzərdə tutur.

Təhsil müəssisələri ekoloji mədəniyyətin inkişafında aparıcı rol oynayır. Məktəblərdə, liseylərdə və ali təhsil müəssisələrində ekoloji təlimlərin təşkili, ətraf mühitə dair təcrübə dərslərinin keçirilməsi, ekoloji layihələrə tələbə və şagirdlərin cəlb olunması ekoloji şüurun erkən yaşlardan formalaşmasına şərait yaradır. Təhsilin bütün pillələrində ekologiya ilə bağlı fənlərin tədrisi gənclərdə təbiətə qarşı məsuliyyətli münasibətin yaranmasına və ekoloji problemlərin dərk edilməsinə imkan verir.

Ailə mühiti də ekoloji mədəniyyətin formalaşmasında əvəzsiz rola malikdir. Valideynlərin uşaqlara təbiəti mühafizə etməyin vacibliyini anlatması, suya və enerjiyə qənaət, tullantıların düzgün idarə olunması kimi vərdişləri gündəlik həyat tərzinin bir parçası kimi göstərməsi ekoloji davranışın təməlini qoyur. Erkən yaşlarda formalaşan bu dəyərlər gələcəkdə cəmiyyətin ümumi ekoloji mədəniyyət səviyyəsinə ciddi təsir göstərir.

Cəmiyyətdə ekoloji şüurun güclənməsində ictimai kampaniyaların xüsusi əhəmiyyəti var. “Təmiz şəhər”, “Ağac əkək”, “Plastiksiz gün” kimi təşəbbüslər geniş ictimaiyyəti ətraf mühitin qorunmasına cəlb edir, insanların ekoloji problemlərə daha həssas yanaşmasına səbəb olur. Bu cür kampaniyalar ekoloji davranış vərdişlərinin formalaşmasına həm motivasiya, həm də praktik imkan yaradır.

Dövlət və qeyri-hökumət təşkilatlarının həyata keçirdiyi ekoloji proqramlar da ekoloji mədəniyyətin inkişafının mühüm tərkib hissəsidir. Milli parkların mühafizəsi, yaşıllaşdırma siyasəti, tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi, “yaşıl enerji” layihələrinin genişləndirilməsi ekoloji dəyərlərin cəmiyyətdə yayılmasına şərait yaradır. Bu proqramlar həm ekoloji təhsilin genişləndirilməsinə, həm də ekoloji məsuliyyət hissinin artırılmasına xidmət edir. Enerjiyə qənaət ekoloji davranışın əsas istiqamətlərindən biridir. Elektrik enerjisindən səmərəli istifadə, enerji qənaət edən məişət avadanlıqlarının seçilməsi, istifadə olunmayan zaman işıqların söndürülməsi kimi sadə addımlar atmosferə atılan karbon emissiyalarını nəzərəçarpacaq dərəcədə azalda bilər. Eyni zamanda, binalarda istilik izolyasiyasının gücləndirilməsi, günəş enerjisi kimi alternativ enerji mənbələrindən istifadə iqlim dəyişmələrinin yavaşladılmasına mühüm töhfə verir.

Su ehtiyatlarının rasional idarə olunması da ekoloji davranışın ayrılmaz hissəsidir. Su israfının azaltılması, suyu təkrar istifadə imkanlarının artırılması, məişətdə suya qənaət edən sistemlərin tətbiqi təbii ehtiyatların qorunmasına xidmət edir. Xüsusilə qlobal miqyasda su çatışmazlığının artdığı bir dövrdə bu davranış modeli həm ekoloji, həm də sosial baxımdan həyati əhəmiyyət daşıyır.

Tullantıların azaldılması və yenidən emal prosesinə töhfə vermək ekoloji mədəniyyətin inkişafında vacib istiqamətlərdəndir. Məişət tullantılarının çeşidlənməsi, plastikdən istifadənin minimuma endirilməsi, təkrar emal mərkəzlərinə dəstək verilməsi ətraf mühitin çirklənməsinin qarşısını alır. Tullantıların düzgün idarə olunması həm təbiətin özünütənzimləmə imkanlarını gücləndirir, həm də təkrar emal olunan materialların iqtisadi dövriyyəyə qaytarılmasına şərait yaradır.

İctimai nəqliyyatdan istifadənin təşviqi, velosipedlə hərəkət, piyada gəzinti kimi alternativlər karbohidrogen yanacaqlarına olan tələbatı azaldaraq havaya atılan zərərli qazların səviyyəsini aşağı salır. Bu davranış tərzi həm şəxsi sağlamlıq üçün faydalıdır, həm də şəhərlərdəki karbon izinin azalmasına səbəb olur.

Ekoloji davranışların tətbiqi yalnız fərdlərin səylərinə deyil, həm də cəmiyyətin ümumi ekoloji maarifləndirilməsi səviyyəsinə bağlıdır. İnsanların ekoloji məsələlərə həssas yanaşması, müsbət nümunələrin cəmiyyətdə yayılması, məktəblərdə və digər təhsil müəssisələrində ekoloji tərbiyənin gücləndirilməsi dayanıqlı ekoloji mədəniyyətin formalaşmasını sürətləndirir. Bu baxımdan, ekoloji davranış iqlim dəyişmələri ilə mübarizənin mikrosəviyyədə həyata keçən, lakin makrosəviyyədə böyük nəticələr doğuran ən təsirli üsullarından biri hesab olunur.

**Rövşən Qurbanov**
filologiya üzrə fəlsəfə doktoru
Rovsen.f@mail.ru
ADPU Cəlilabad filialının baş müəllimi

## FOLKLORUN NƏĞMƏ JANRININ EKOLOJİ TƏRBİYƏDƏ ROLU

Bu gün pedaqoqların, təhsil işçilərinin qarşısında duran ən ümdə məsələ təhsil ocaqlarında gənc nəslin təlim-tərbiyə işini düzgün təşkil etmək, bacarıqlı, bilikli şəxsiyyətlər yetişdirmək, bir sözlə yeni nəsildə vətəndaş şüurunun formalaşmasını təmin etməkdən ibarətdir. Bu prosesin həyata keçirilməsində əsas istiqamətlərdən birini də ekolooji təhsil və tərbiyə təşkil edir. Gənc nəsildə ekoloji tərbiyənin formalaşdırılması və vərdiş halına salınması gələcəkdə onlarda humanizm, vətənpərvərlik kimi keyfiyyətlərin xarakterlərinə aşılanmasına çox müsbət təsir göstərəcəkdir. Təhsil müəssisələrində ekoloji tərbiyə işi mütəşəkkil və planlı şəkildə aparılmalıdır.

Təəssüflə qeyd etməliyik ki, istər ölkəmizdə, istərsə də dünyada ekoloji vəziyyətin pisləşməsi davam edir. Bu hal dövlət səviyyəsində müxtəlif tədbirlərin, əsasən də, təbiəti mühafizə təbliğatının geniş miqyasda həyata keçirilməsini, insanlar arasında maarifləndirmə işinin gücləndirilməsini, daha effektiv və optimal qaydaların müəyyənləşdirilib tətbiq edilməsini zəruri edir. Bu problemin həlli baxımından ümumtəhsil məktəblərində keçirilən əksər fənlər ölkəmizin gələcək vətəndaşları olacaq şagirdlərin ətraf mühiti mühafizə fəaliyyəti üçün geniş imkanlara malikdir.

Təbiətə, onun predmetlərinə həsr olunmuş mövzularla zəngin olan dərsliklərdəki məlumatlardan elmi əsaslarla, səmərəli istifadə olunarsa, ekaloji tərbiyənin qarşı tərəfə aşılanmasında daha effektiv nəticələr əldə etmək olar.

Orta məktəblərdə şagirdlər ekoloji tərbiyə və biliklərə, əsasən, həyat bilgisi, biologiya, coğrafiya, kimya, fizika kimi fənləri mənimsəməklə yiyələnirlər. Bu fənlərlə yanaşı, ədəbiyyat fənni də, xüsusilə folklor sahəsi ekoloji mədəniyyətin və tərbiyənin gənc nəsillərdə formalaşdırılmasında geniş imkanlara malikdir. Həm yazılı, həm də şifahi ədəbiyyatda təbiətin tərənnümü, peyzaj lirikası məktəblilərin təbiətə, ətraf aləmə düzgün yanşmasında xüsusi yer tutur.

Orta məktəblərdə ədəbiyyat fənnində lirik zövqün formlaşdırılması işində, Azərbaycan dili fənnində dil qaydalarının mənimsənilməsi və anlaşılması üçün verilən mətnlərdə, musiqi fənninin tədrisində təbiət hadisələrinin, flora və faunamızın tərənnümü ilə zəngin olan, şifahi xalq ədəbiyyatı nümunəsi sayılan nəğmələrə və digər janrlara lazımı qədər yer vermək, heç şübhəsiz gənc nəsildə təbiətə, onun flora və faunasına, ətraf mühitin mühafizəsi işinə diqqətin güclənməsinə, məhəbbətin yaradılmasına effektiv təsir göstrərəcəkdir.

Şifahi xalq ədəbiyyatının əksər janrları ekoloji dünyagörüşü, ekoloji tərbiyəni, mədəniyyəti əks etdirən və təbliğ edən motivlərlə zəngindir. Bu baxımdan folklorun nəğmə janrını xüsusi qeyd etmək olar. Xüsusilə, əmək nəğmələri, mövsüm nəğmələri, məişət nəğmələri və mərasim nəğmələri təbiətə məhəbbət, canlı aləmə qayğı hisslərinin təbliği ilə olduqca zəngindir.

Folklorun nəğmə janrının təbiətin tərənnümü ilə bağlı diqqət çəkən maraqlı məqamlarından biri bu janrın nümunələrinin hansı mövzu ilə bağlı olmasından asılı olmayaraq bədii nümunənin ilk mısralarının hər hansı bir təbiət obyektinin tərənnümü və təsvirini özündə əks etdirməsi ilə bağlı olmasıdır. Bu xüsusiyyət laylalarda, nazlamalarda, ağılarda, toy nəğmələrində daha çox özünü göstərir.

Layla bülbülüm layla
Sarı sünbülüm layla
Bağçalarda gül çoxdur
Bir qızılgülüm layla

Şan bağlayan arılar
Qonar gülə, sarılar,
Balama qurban olsun
Yaşı ötmüş qarılar.

Dağ döşündə sarı gül,
Yarı qönçə, yarı gül.
Tez açıldın, tez soldun,
Açmayaydın barı, gül.

Gördüyümüz kimi bu bədii nümunələrdə əsas ideya körpə uşaqların əhval-ruhiyyəsini yüksəltmək, onları sakitləşdirmək, dünyasını dəyişmiş bir şəxs üçün kədərini ifadə etmək olsa da, bununla yanaşı, ilk misralarda təbiətin tərənnümünə, təbliğinə də yer verilmişdir. Bununla da bir folklor nümunəsində eyni anda iki obyektə – övlada, insana və təbiətə məhəbbətin təbliğ olunduğunu görürük.

Əmək nəğmələrində isə ortaya çıxan mənzərə bir qədər fərqlidir. Min illər boyu insan övladı həyatda öz varlığını sürdürmək üçün ağır əmək fəaliyyəti ilə məşğul olmuşdür və bu ağır əmək fəaliyyətini qismən yüngülləşdirmək üçün əmək nəğmələrindən iş prosesində istifadə etmişdir.

Öküz, öküz, xan öküz
Boynu qızıldan öküz
Çək çayırı çəməndən
Sənə can qurban öküz.

Qara kəlim gündə sən
Kölgədə mən, gündə sən
Sən yat qaya dibində
Qoy qaralım gündə mən.

Nənəm a narış qoyun
Yunu bir qarış qoyun
Çoban səndən küsübdü
Südü ver barış qoyun.

Nümunələrdən də aydın olur ki bu əmək nəğmələrində əməyə, zəhmətə məhəbbətin təbliği ilə yanaşı, insanların çətin həyat şəraitini asanlaşdıran canlıların tərənnümünə, onlara qayğı və məhəbbətlə yanaşılmasına da yer verilmişdir.

Mövsüm nəğmələrində isə təbiət hadisələri və onların insan həyatındakı zəruri rolu təbliğ və tərənnüm olunur.

A yel baba, yel baba
Qurban sənə, gəl, baba
Taxılımız yerdə qaldı
Yaxamız əldə qaldı

Yağmur, yağmur nə istər?
Yağmur, yağmur bal istər
Qaşıq, qaşıq bal istər
Qonur göz qurban istər

Gün çıx, gün çıx
Kəhər atı min çıx.
Oğlun qayadan uçdu
Qızın təndirə düşdü.

Bu nümunələrdə insanların yağışın yağması, küləyin əsməsi, günəşin çıxması kimi təbiət hadisələrinin insan həyatındakı önəmli roluna diqqət çəkilərək, insan həyatının təbiətdən asılı olduğu bədii yolla dilə gətiririlir.

Göstərilən nümunələr və fikirlər bir daha göstərir ki, ümumtəhsil müəssisələrində ekoloji mədəniyyətin və biliklərin intensiv təbliği və təşkilini həyata keçirmək müasir təhsilimizin ən aktual məsələlərindən biridir. Biz təhsil müəssisələrində elə gənclər yetişdirməliyik ki, hansı peşənin, hansı düşüncənin sahibi olmasından və harada yaşamasından aslı olmayaraq ekoloji mühitin və tarazlığın qorunması işində məsuliyyət hiss etməli, təbiətin çirklənməsi və təbiətə ziyan vurulması hallarına qarşı barışmazlıq mövqeyi göstərməlidir. Qarşıya qoyulan bu məqsədə çatmaq üçün uyğun fənlərə aid orta məktəb dərslikləri hazırlanarkən şagirdlərdə ekoloji mədəniyyəti, şüuru formalaşdıra biləcək mövulara, bununla bağlı yazılı və şifahi ədəbiyyat nümunələrinə geniş yer vermək lazımdır.

**Sevinc Baxşiyeva**
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Şamaxı filialı
Email:sevinc.baxsiyeva65@gmail.com

## ŞİRVAN TƏRƏKƏMƏ FOLKLOR NÜMUNƏLƏRİNİN DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Tarixdən bəllidir ki, keçmiş zamanlarda Azərbaycan əhalisinin böyük bir qismi ancaq heyvandarlıqla məşğul olmuşdur. Əsasən heyvandarlıqla məşğul olan "Azərbaycanın etnogenizində iştirak etmiş türkdilli tayfalar" tərəkəmələr hesab edilir.Əvvəllər Sır-Dəryanın sağ sahilində yaşamış və ərəb istilasından sonra türkmən adlandırılmış oğuz türkmənləri XI əsrdən Iran, Zaqafqaziya, Kiçik Asiya və Mesapotomoyaya yayılmışdır. Köçəri həyat sürən oğuzların bir hissəsi tərəkəmə adlandırılmışdır. Azərbaycanda Kür-Araz ovalığı, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində yaşamışlar. Şirvan regionunda da bir çox tərəkəmə elatları olmuşdur. Hal-hazırda oturaq həyat tərzi keçirən Kolanı, Şamlı, Padar, Quşçu, Uduli, Şıxzərli, Təklə, Nabur və başqa tayfalar tərəkəmə ömrü yaşamışdır. Köçəri həyat yaşayan bu elatların Küdrü düzündə qışlağı, Şamaxının şimal ərazilərində isə yaylaqları olmuşdur.

Şirvan regionundan toplanan folklor nümunələri tərəkəmələrin həyat tərzini özündə yaşadan, qoruyan bir çox örnəklər – and, qarğış, sayaçı sözləri, ağı, bayatı, mərasim nəğmələri, el şairlərinin yaradıcılığı onların dilə münasibətini göstərir. Bu örnəklərin özünəməxsus spesifik cəhətləri ondadır ki, onlarda "tərəkəmə ağzı", "tərəkəmə sadəliyi", "tərəkəmə yumoru" tərəkəmə sözü və tərəkəmə gözü ilə əks olunur.

Tərəkəmə el sənətkarlarının əsərlərindən aydın olur ki, onların dili öz ilhamını bir tərəfdən laləli-nərgizli, güllü-çiçəkli yamyaşıl yaylaqlardan, yovşanlı çərən-qarağanlı, gəngizli, sirkanlı qışlaqların təbiətindən alıbsa, digər tərəfdən də xalı-xalçalı alaçıqlarda qurulan məclis, mağar – bir sözlə, tərəkəmə dünyasından almışdır.

Həmin el şairlərinin şeirləri üzərində apardığımız müşahidələr göstərir ki, onların leksikasının əsasını ədəbi dilimizdən fərqlənməyən ümumişlək sözlər təşkil edir: ot, yer, qışlaq, qız, görüş, inək, maral, oba, danışmaq, qarğa, qaz,nənə, quzu və s.

Quzuçuyam, quzu məndə,
Yığıb tökərəm kəndə.
Al, alagöz tat qızı,
Yaylığın qaldı məndə.

Yaylığın yanı buta,
Yudum, qurutdum suda.
Həsrətinlə bitən ömür,
Çətin səni unuda.

Nümunələrdən də göründüyü kimi, materialın əsas leksik tərkibi ümumişlək sözlərdən ibarətdir. Tərəkəmə elatının folklor nümunələrində dialekt və şivə sözlərinə aid istənilən qədər sözlər vardır: güz, güzəm, güzdək, arxac, yazı, bitik,şişək, üçəm, puş, ovşar,kabaç və s.

Nənəmin qış quzusu,
Güzdə qalmış quzusu.
Gözün aydın yaz gəldi
Qurtardı qış, quzusu.

Saya arxacı,
Sanlı saya arxacı.
Acan dadansa ağla,
Viran qoyar arxacı.

Yazı-çöl, şişək-dişi damazlıq qoyun, ovsar-dəvənin ovsarı,zağa-torpağın altında tövlə, qurut-süzmə qatıq, yapıncı-üst geyimi, əncər-otun xırdası, dölləy-qoyunun balalama dövrü, tarçığ vaxtı-yazda otun göyərən vaxtı, ağız südü-yenicə doğmuş heyvanın südü və s.

Tərəkəmə elatlarının bənzərsiz həyat tərzi onların dil materiallarında da aydın görünür. Yaylağa-qışlağa köçmək, heyvan məhsulları ilə qış ruzusu dəyişmək, cıdıra çıxma,motal bağlamaq və s. kimi məişət qayğılarının adlandırılmasında da tərəkəmələrin özünəməxsus söz və ifadələri işlənmişdir.

| | |
|---|---|
| Küdrünün örüş yeri, | Qoyunumun yunu ağ. |
| Ot yeri, örüş yeri. | Qaymağı tabax-tabax. |
| Qışlağın zağaları | Qoyma ki, çox ağlasın |
| Qızların görüş yeri. | Balasını tez burax. |

**Ədəbiyyat**

1.S.Qəniyev. Şirvan foluklor mühiti, Bakı,1997
2.F.Xəlilov S.Abdullayev. M.Musayev Tərəkəmə foluklоru, Bakı-2017
3.A.Qurbanov Müasir Azərbaycan ədəbi dili, Bakı, 2010
4.Şirvan foluklor antologiyası, Bakı, 1993

**Şəlalə Seyidova**
psixologiya üzrə fəlsəfə doktoru
seyidova.s.h.h.4@mail.ru
ADPU Şamaxı filialı

## FOLKLOR NÜMUNƏLƏRİNİN İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN EMOSİONAL İNKİŞAFI VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN TƏRBİYƏSİNDƏ ROLU

İbtidai sinif yaş dövrü uşaqların emosional dünyasının formalaşdığı, milli-mənəvi dəyərlərin əsaslarının qoyulduğu ən həssas mərhələlərdən biridir. Bu dövrdə uşaqların davranış motivləri, emosional reaksiyaları və sosial münasibətləri daha çox müşahidə, modelləşdirmə və emosional təsir yolu ilə inkişaf edir. Azərbaycan folkloru isə həm emosional təsir gücü, həm də tarixi-mədəni irsi əks etdirməsi ilə bu prosesi dəstəkləyən ən əlçatan və təsirli mənbələrdən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Folklorun obrazlı dili, insan münasibətlərinə dair dərin müşahidələri və mənəvi dəyərləri ibtidai sinif şagirdlərinə həm anlaşılan, həm də təsirli formada çatdırılır. Bu baxımdan folklor nümunələri emosional inkişaf və milli kimliyin formalaşması üçün pedaqoji cəhətdən ideal vasitədir.

**Nağılların emosional inkişafa təsiri**

Nağıllar ibtidai sinif şagirdlərinin emosional dünyasının formalaşmasında aparıcı rol oynayır. Nağıllarda yer alan konfliktlər, qəhrəmanların yaşadığı qorxu, cəsarət, sevinc, ümid kimi emosiyalar uşaqlara öz hisslərini tanımağı və ifadə etməyi öyrədir. Məsələn, “Cırtdan” nağılında əsas qəhrəmanın cəsarəti uşaqlara öz gücünə inanmağı təlqin edir; “Tıq-tıq xanım” isə ehtiyatlılıq və düzgün qərarvermənin əhəmiyyətini göstərir.

Nağılların kollektiv dinlənilməsi, müzakirəsi və səhnələşdirilməsi uşaqlarda empatiya və sosial münasibət bacarıqlarını inkişaf etdirir. Uşaq özünü qəhrəmanla eyniləşdirərək onun emosiyalarını yaşayır və başqalarının hisslərini daha yaxşı dərk etməyə başlayır.

**Atalar sözləri və bayatıların emosional dəyərləndirməyə təsiri**

Atalar sözləri və bayatılar qısa, lakin emosional çalarlara malik olduqları üçün uşaqlarda duyğuların dərk olunmasını asanlaşdırır.

• “Ağlamaqla dərd çıxmaz” kimi ifadələr emosional tənzimləməyə dair ilkin təsəvvürləri formalaşdırır.

• Bayatıların ritmik quruluşu və lirizmi uşaqlarda estetik duyumu, poetik hissləri və emosional incəliyi gücləndirir.

**Dastan və aşıq yaradıcılığının emosional-estetik təsiri**

“Koroğlu” dastanındakı ədalət və mərdlik motivləri, “Göyçək Fatma” kimi nağıllardakı saflıq və humanizm ideyaları uşaqların mənəvi dünyasında dərin iz buraxır. Bu mətnlər uşaqlarda milli kimlik, vətənə sevgi və doğruluq kimi dəyərlərin formalaşmasına xidmət edir.
Məktəbdə bu nümunələrin şərhi zamanı uşaqlar qəhrəman davranışlarını qiymətləndirir, nəticə çıxarır və mənəvi dəyərləri öz sosial təcrübələri ilə əlaqələndirirlər.

**Folklorun milli-mənəvi tərbiyədə rolu**

Folklor xalqın yaddaşını, mübarizəsini və həyati hikmətini daşıdığı üçün milli kimlik və dəyərlərin formalaşdırılmasında mühüm yer tutur. “Atalar sözləri”, “bayatılar”, “Yalançı çoban”, “Ağ atlı oğlan” kimi nümunələr dürüstlük, əməksevərlik, mərhəmət, sədaqət və böyüyə hörmət kimi mənəvi keyfiyyətləri uşaqlara aydın və yadda qalan şəkildə təqdim edir.

**Folklorun tədrisdə tətbiqi: metodik model.** Folklor nümunələrinin ibtidai siniflərdə tətbiqi həm emosional inkişafı, həm də milli-mənəvi dəyərlərin formalaşmasını dəstəkləyən effektiv pedaqoji vasitədir. Lakin folklorun təsir gücündən maksimum istifadə etmək üçün tədris prosesində məqsədyönlü və psixoloji əsaslandırılmış metodik model tətbiq olunmalıdır. İbtidai sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğunlaşdırılmış aşağıdakı metodik yanaşma tətbiq oluna bilər:
Yaş səviyyəsinə uyğun material seçimi Folklor nümunələrinin seçilməsi zamanı uşaqların idrak səviyyəsi, emosional qavrayışı və sosial təcrübəsi əsas götürülməlidir.

• Nağıl seçilərkən süjetin sadəliyi, obrazların aydınlığı və müsbət qəhrəmanın uşağa nümunə ola bilməsi önəmlidir. Məsələn, “Tülkü ilə siçan” kimi qısa və aydın məzmunlu nümunələr əxlaqi mesajların qəbulunu asanlaşdırır.

• Bayatı və atalar sözləri uşağın qısa mətnləri yadda saxlama qabiliyyətini və ritmik düşüncəsini inkişaf etdirdiyi üçün daha effektlidir.

• Həmçinin müəllim folklor materialının psixoloji uyğunluğuna – şiddət səhnələrinin olmamasına, qorxu və gərginlik yaradan epizodların minimum olmasına diqqət etməlidir. Bu, uşağın emosional təhlükəsizliyini və dərsə marağını təmin edir.

Emosional müzakirə Folklor nümunələri ilə tanışlıqdan sonra müəllimin məqsədi uşağın oxuduğunu yalnız anlamaq deyil, həm də hiss etməsinə imkan yaratmaqdır. Bunun üçün:

• Qəhrəmanların emosiyaları barədə yönləndirici suallar verilir: “Sizcə, qəhrəman bu vəziyyətdə nə hiss edirdi?”, “Sən onun yerində olsaydın nə edərdin?”

• Uşaqlar hissləri sözlə ifadə etməyə təşviq olunur, bu isə emosional savadlılığı artırır.

• Müəllim uşaqların cavablarını şərh edərək davranış–emosiya əlaqəsini izah edir. Məsələn, qəhrəmanın qorxduğu, amma düzgün qərar verdiyi halları vurğulamaq uşaqlarda cəsarət və məsuliyyət duyğusunu inkişaf etdirir.

Dəyərin müəyyənləşdirilməsi Folklor nümunələrinin əsas üstünlüyü onların dərin mənəvi mesaj daşımasıdır. Bu mərhələdə müəllim şagirdlərə mətndə gizlənən dəyərləri kəşf etdirməyə çalışır:

• “Bu nağıl bizə nəyi öyrədir?”, “Qəhrəmanın davranışından hansı nəticəyə gəlirik?” kimi suallar vasitəsilə uşaqlar müsbət və mənfi davranış nümunələrini ayırd etməyi öyrənir.

• “İnsanlıq, yardımsevərlik, əməksevərlik, vətənpərvərlik, böyüyə hörmət” kimi dəyərlər sistemli şəkildə vurğulanır.

• Uşaqların kollektiv müzakirəyə cəlb olunması həm sosial bacarıqları, həm də mənəvi refleksiyanı gücləndirir.

Tətbiqi fəaliyyət Teorik müzakirə uşağın davamlı öyrənməsi üçün kifayət deyil. Ona görə də folklor materialı praktik fəaliyyətlərlə möhkəmləndirilməlidir:

• Səhnələşdirmə – uşaqlar nağıl qəhrəmanlarının davranışını təkrarlamaqla həm emosional identifikasiya yaşayır, həm də sosial rolları öyrənir.

• Rəsmləndirmə – şagirdlər səhnələri təsvir etməklə emosiyalarını rəng və forma vasitəsilə ifadə edir.

• Rollu oyunlar – uşaqlara müxtəlif situasiyalarda qərar vermək imkanı yaradır, bu da davranış modellərinin öyrənilməsini asanlaşdırır.

• Qrup işi – kollektiv əməkdaşlıq, birgə qərarvermə və empatiyanın yaranmasına xidmət edir. Refleksiya tədris prosesinin ən mühüm mərhələlərindən biri şagirdlərin öz fikirlərini və hisslərini ifadə edə bilməsidir. Bu, həm emosional tənzimləmə, həm də öyrənilən dəyərlərin daxilləşdirilməsi baxımından vacibdir.

• Müəllim "Bu hekayədən sən hansı dərsi götürdün?", "Hansı qəhrəman səni daha çox təsirləndirdi? Niyə?" kimi suallarla uşaqları düşündürür.

• Refleksiya həm şifahi, həm də yazılı formada ola bilər: qısa cümlə, şəkil, emosional kartlar vasitəsilə hisslərin ifadəsi.

• Bu mərhələ nəticəsində şagirdlər yalnız mətni başa düşmür, eyni zamanda öz daxili aləmi ilə əlaqə qurur, dəyərləri şəxsiyyətlərinin bir hissəsinə çevirirlər. Bu metodik model folklorun həm emosional, həm də dəyəryönümlü potensialını maksimum gücləndirir. Folklor ibtidai sinif şagirdlərinin emosional inkişafında və milli-mənəvi dəyərlərinin tərbiyəsində güclü təsirə malikdir. Folklor mətnləri uşaqlarda empatiya, özünütənzimləmə, sosial davranış, milli kimlik və mənəvi dəyərlərin formalaşmasını intensiv şəkildə dəstəkləyir. Tədrisdə folklor nümunələrinin sistemli tətbiqi uşaqların şəxsiyyət inkişafını gücləndirir və milli-mədəni irsin yaşadılmasına mühüm töhfə verir.

**Zərifə Həmidova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialın müəllimi,
zerifehemidova16@mail.ru
https://orcid.org/0000-0002-5041636

## EKOLOJİ MAARİFLƏNDİRMƏNİN İNSAN HƏYATINDA ROLU

Ətraf mühitdə hər hansı bir problemi yaradan səbəbləri və onların həllində hər bir insanın məsul şəxs kimi iştirakının təmin olunması üçün düşüncə tərzi və idrakı, bütünlüklə dəyərlər sistemini dəyişmək mütləqdir. Bu səbəblə ekoloji təhsil və ümumiyyətlə təhsil sisteminin bütün sahələrinin bu mövzuya cəlb olunması müasir cəmiyyət üçün xüsusi əhəmiyyət qazanmışdır. Məktəblilərin ekoloji maarifləndirmə əhatəsini genişləndirmək, onların ətraf mühitin qorunmasında fəal iştirakını təmin etmək, onlara ekoloji tərbiyə və mədəniyyətin aşılanması məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi ilə birgə "Yaşıl şəbəkə" ekoloji maarifləndirmə proqramını tərtib etmişdir. Proqramın əsas məqsədi: fasiləsiz ekoloji təhsilin təmin olunması, uşaq və gənclərin ətraf mühitin mühafizəsi tədbirlərində iştirakının artırılmasıdır.

Ekoloji təhsil müasir qlobal kontekstdə ətraf mühitin mühafizəsi, müxtəlif xalqların, dövlətlərin bütünlüklə yer kürəsinin davamlı inkişafına nail olmaq üçün ictimai hərəkatın ən vacib aparıcı hissəsi kimi qəbul olunur. Bir sıra beynəlxalq təhsil sistemlərinin modernləşdirməsi üçün hazırlannmış hüquqi-normativ aktlarda prioritet istiqamətlərdən biri dayanıqlı inkişafın təmin olunması üçün nəzərdə tutulmuş ekoloji maarifləndirmə proqramlarıdır. Mövcud ekoloji mühitin yaxşılaşdırılması, ətraf mühitdə hər hansı bir problemi yaradan səbəbləri və onların həllində hər bir insanın məsul şəxs kimi iştirakının təmin olunması üçün düşüncə tərzi və idrakı, bütünlüklə dəyərlər sistemini dəyişmək mütləqdir. Bu səbəblə ekoloji təhsil və ümumiyyətlə təhsil sisteminin bütün sahələrinin bu mövzuya cəlb olunması müasir cəmiyyət üçün xüsusi əhəmiyyət qazanmışdır. Məktəblilərin ekoloji maarifləndirmə əhatəsini genişləndirmək, onların ətraf mühitin qorunmasında fəal iştirakını təmin etmək, onlara ekoloji tərbiyə və

mədəniyyətin aşılanması məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi ilə birgə "Yaşıl şəbəkə" ekoloji maarifləndirmə proqramını tərtib etmişdir. Proqram 2016-cı il ərzində ətraf mühitin mühafizəsi və ekoturizmin inkişafı ilə bağlı silsilə tədbirlərin, ekskursiyaların, düşərgələrin təşkilini, bir sıra yerli və beynəlxalq layihələrin icrasını və yeni əməkdaşlıq əlaqələrinin qurulmasını nəzərdə tutur. "Yaşıl şəbəkə" ekoloji maarifləndirmə proqramı çərçivəsində 2016-ci il üçün məktəblilərin "Qış məktəbi", "Yay məktəbi", "I Ekoloji Forum", "Məktəblərin yaşıl şəbəkəsi", yerli və beynəlxalq təşkilatlarla birgə kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır. "Yaşıl şəbəkə" ekoloji maarifləndirmə proqramının ideyası ətraf mühitin mühafizəsi sahəsində ölkədə həyata keçirilən geniş miqyaslı tədbirlərdə məktəblilərin fəal iştirakını təmin etmək, gələcək nəslin sağlam mühitdə böyüməsi, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin qorunmasının təmin olunması üçün illik tədbirlər planının hazırlanmasından ibarətdir. Proqramın əsas məqsədi: fasiləsiz ekoloji təhsilin təmin olunması, uşaq və gənclərin ətraf mühitin mühafizəsi tədbirlərində iştirakının artırılmasıdır.

"Yaşıl şəbəkə" ekoloji maarifləndirmə proqramının əsas vəzifələri:

- Uşaq və gənclərdə təbii ehtiyatların səmərəli istifadəsi və sağlam həyat tərzi barədə biliklərin formalaşdırılması;
- Uşaq və gənclərin ətraf mühitdə elmi-tədqiqatçılıq fəaliyyətinə istiqamətləndirlməsi məqsədilə əlavə ekoloji biliklərin verilməsi;
- Uşaq və gənclərin yerli ekoloji problemlərin həllinə yönəldilmiş ekoloji tədqiqatçılıq fəaliyyətinə cəlb olunması;
- Uşaq və gənclərin ekoloji elmi-praktik məşğələlərə, təcrübələrə cəlb olunması ilə yanaşı, onlara ekoloji tərbiyənin və ekoloji mədəniyyətinin aşılanması;
- Uşaq və gənclərin ekoturizmlə tanışlığı, yay məktəblərinin və düşərgələrdə iştiraklarının təmin olunması;
- Qarşıya qoyulan məqsədə çatmaq üçün qarşılıqlı və effektiv əməkdaşlıq əlaqələrinin qurulması;
- Mərkəzlərin nəzdində fəaliyyət göstərən ekoklubların, ekologiya, turizm, diyarşünaslıq profilli dərnəklərin vasitəsilə daha çox məktəblinin ətraf mühitin problemləri və onların həlli istiqamətində görülən işlərə fəal cəlb olunması, bu məqsədlə müxtəlif formatlı maarifləndirmə və təbliğat xarakterli kütləvi tədbirlərlərin keçirilməsi.

Ümumtəhsil, internat və ilk peşə ixtisas müəssisələrinin şagirdləri, tələbələr, valideynlər, müəllimlər və ictimaiyyətin nümayəndələri proqramın həyata keçirilməsində iştirak edir. İlkin mərhələdə Bakı şəhərində yerləşən 25 pilot məktəbin iştirakı nəzərdə tutulur. Sonrakı mərhələdə proqramın regionlarda həyata keçirilməsi planlaşdırılır. Gözlənilən nəticələr: - Şagirdlərin, müəllimlərin və valideynlərin ümumi ekoloji mədəniyyətinin artırılması; - Şəhərlərdə və regionlarda ətraf mühitin ekoloji vəziyyətinin yaxşılaşdırılması; - Ekoloji tərbiyə və təcrübəçilik, turizm mərkəzlərinin ekoloji təhsil sahəsində orta təhsil müəssisələri ilə tərəfdaşlığının təmin olunması; - Uşaq və gənclərinin ətraf mühitin mühafizəsində, ekolji problemlərin həllində iştirakının artırılması; - Ətraf mühitin mühafizəsi məsələsinə ümumi marağın və diqqətin artması. Proqramın nəticələrinin qiymətləndirilməsi: Proqramın nəticələri ekologiya və turizm sahəsində uşaq və gənclərin yaradıcılıq meyllərinin artması, müxtəlif layihələrin keçirilməsi, tədqiqatçılıq fəaliyyətinin genişləndirilməsi, təhsil müəssisələrində ekoloji fəaliyyətə daha çox məktəblinin cəlb olunması ilə əldə olunmuş nəticələrin keyfiyyətinin ölçülməsi ilə qiymətləndiriləcəkdir.

İnsan təbiətin bir hissəsi olub onunla sıx bağlıdır. İnsanın həyatında və fəaliyyətində təbiətin rolunu qiymətləndirmək olduqca çətindir. Təbiət insanların yaşayış mühiti vəzifəsini görür, onun vəziyyəti cəmiyyətin rifah və inkişaf səviyyəsini təyin edir.

XX əsrin başlanğıcında yer kürəsinin əhalisi təmiz hava alır, saf su içirdilər. Dünya sonsuz, təbii sərvətlər isə tükənməz hesab edilirdi. Lakin bir neçə onilliklərdən sonra dünya olduqca təhlükəli ekoloji fəlakət hüdudunda qaldı. Ekoloqların fikrincə əgər bəşəriyyət bu yolu davam etdirərsə, yaxın bir neçə nəsildən sonra onu fəlakət gözləyir.

XX əsrin ikinci yarısından başlayaraq əhalinin sürətlə artımı və elmi-texniki inqilab biosferdə deqradasiya proseslərinin əlamətlərini yaratdı. Milyon illər ərzində formalaşan təbii ekosistemlər ciddi dəyişikliyə məruz qalaraq insanın xarici təsirinə qarşı davamsız vəziyyətə düşdü. XX əsrin əvvəlində Yer üzərində əhalinin sayı cəmi bir milyarda yaxın idi, əsrin sonunda isə, yəni bir əsr ərzində bu rəqəm 6 dəfə artaraq 6 milyarda çatdı. Ekoloqların əksəriyyəti belə hesab edirlər ki, təbii resursların tükənməməsi və texnogen fəaliyyət nəticəsində dəyən ziyanın təbii yolla bərpa olunması üçün Yer üzərində əhalinin sayı 1-1,5 mlrd. nəfər hüdudunda olmalıdır. Elmi-texniki inqilab həyatda məlum olmayan və ağıla sığmayan çox böyük gərginliklər yaratdı: aviasiya və avtomobil nəqliyyatı, nüvə energetikası, kimya sənayesi və s. Bu və digər sahələr təbiət üçün zərərli olmaqla yanaşı, həm də təbii resursların azalmasına, bəzən tükənməsinə səbəb oldu. Belə ki, materiallardan və enerjidən istifadə XX əsrdə son dərəcə sürətlə artaraq, hətta əhali artımını da keçdi. Enerjidən istifadə 10 dəfə, materiallardan istifadə isə 9 dəfə çoxaldı. İnsan fəaliyyəti və onun təbiətlə qarşılıqlı əlaqəsi bu gün dünya əhalisinin əksəriyyətinin həyat şəraitinin dəyişməsinə səbəb oldu. Antropogen fəaliyyətin nəticələri aşağıdakı kimi təzahür olunur.

• Meşələrin məhv edilməsi, bozqırların (çöllərin) şumlanması, meliorasiya, süni göllərin və dənizlərin yaradılması, meqapolislərin salınması, yol, kanal və trasların tikilməsi nəticəsində yer səthinin landşaftı dəyişir. Təbii ekosistemlərin sahəsi hər il 1 % sürətilə azalır, o cümlədən meşələrin (xüsusilə tropik meşələrin) sahəsi ildə 200 min ha azalır, səhraların sahəsi isə ildə 60 min km2 genişlənir. Hazırda pozulmayan (təbii) ekosistemlərin yalnız 40 %-ə qədəri qalmışdır.

• Atmosferdə parnik (istilik) effekti yaradan toz və qazların toplanması nəticəsində yerin istilik balansı dəyişir, qlobal istiləşmə baş verir.

• Ozon təbəqəsinin ildə 1-2 % nazilməsi, ozon «bacalarının» (deşiklərinin) əmələ gəlməsi müşahidə edilir.

• Torpağın deqradasiyası (şorlaşma, şorakətləşmə, eroziya, münbitliyin aşağı düşməsi) baş verir.

• Torpaqda, suda, havada zərərli maddələr toplanır.

• Okeanın səviyyəsi qalxır (ildə 2 mm-dən 1 sm-ə qədər)

• Bitki və heyvanların bilavasitə məhv edilməsi və antropogen mühitin onlara mənfi təsiri, həmçinin yeni heyvan cinslərinin və bitki çeşidlərinin yaradılması və onların yeni sahələrə köçürülməsi, nəticəsində növ, populyasiya və ekosistemlər səviyyələrində növ müxtəlifliklərinin aşağı düşməsi (kasatlaşması) hesabına bitki örtüyü və heyvanat aləminin tərkibi dəyişir.

• Zərərli fiziki sahələrin (səs, infrasəs, elektromaqnit sahəsi) təsiri yaranır və intensivliyi yüksəlir.

• Texnogen qəzaların və təbii fəlakətlərin sayı, onların vurduğu ziyanlar, ölümün sayı hər il 5-10 % artır.

• Həyatın (yaşayışın) keyfiyyəti (genetik və yeni xəstəliklər, immun statusu) müəyyən dərəcədə pisləşir. Ekoloji tarazlığı, onun mürəkkəb və bir-birilə sıxı bağlı mexanizmlərini, ətraf mühitin (təbiətin) insanın təsirinə reaksiyasını, təbii sistemlərə yol verilə biləcək yükü bilmədən, yəni ekoloji biliyə dərindən yiyələnmədən təbiətdən, onun ehtiyatlarından səmərəli istifadə etmək, təbii mühiti həyat üçün yararlı (davamlı) halda saxlamağı proqnozlaşdırmaq mümkün deyildir. Bu baxımdan ekologiya elminə tələbat və maraq günü-gündən artır.

Planetimizin səthində geoloji zaman ərzində bir-birini əvəz edən proseslərin əksəriyyətinə sırf fiziki, kimyəvi və ya fiziki-kimyəvi hadisələr (yuyulma, həllolma, çökmə, hidroliz və b.) kimi baxılırdı. Vernadski isə ilk dəfə olaraq canlı orqanizmlərin geoloji rolu təlimini yaradaraq göstərdi ki, canlıların fəaliyyəti Yer qabığının dəyişməsində əsas faktor sayılır. Vernadski yazırdı ki, Yerin geoloji tarixində hər bir orqanizmin ayrılıqlı iştirakı cüzidir, lakin yerdə canlılar hədsiz dərəcədə çoxdur və onlar yüksək

çoxalma potensialına malik olub yaşama mühiti ilə aktiv qarşılıqlı əlaqədədir, son nəticədə birgə (müştərək) xüsusi qlobal miqyasda inkişaf faktoru olub yerin üst qabığını dəyişdirir. - Canlı orqanizmlər hədsiz müxtəlifdir, hər yerdə geniş yayılmışdır, bir çox nəsillərdə təkrar yenidən təzələnir və təbiətin digər komponentləri ilə müqayisədə seçmə biokimyəvi fəaliyyətə və müstəsna yüksək kimyəvi aktivliyə malikdir.

Şişirtmədən təsdiq etmək olar ki, planetimizin, biosferin zahiri qabığının kimyəvi vəziyyəti bütövlükdə həyatın təsiri altındadır, canlı orqanizmlərlə təyin olunur, şübhəsiz, biosferə adi görünüş verən enerji kosmik mənşə daşıyır. O, Günəşdən şüa enerjisi formasında çıxır. Lakin məhz canlı orqanizmlər, həyatın məcmusu bu kosmik şüasının enerjisini Yerin kimyəvi enerjisinə çevirir və həyatımızın sonsuz müxtəlifliyini yaradır. Bu canlı maddələr özünün tənəffüsü, qidalanması, metobolizmi, ölümü (məhv olması) və özünün parçalanması, daim öz maddəsindən istifadə etməsi, başlıcası isə yüz milyon illərlə fasiləsiz olaraq nəsillərini dəyişməsi, özünün doğulması, çoxalması, biosferdən başqa digər yerdə mövcud olmayan müdhiş planetar hadisələrdən birini törədir. Yer sətinə daxil olan enerjinin 99%-dən çoxunu Günəş şüalanması təşkil edir. Bu enerji hidrosfer, atmosfer və litosferdə əksər fiziki və kimyəvi proseslərə hava və su kütlələrinin qarışmasına, buxarlanmaya, maddələrin yenidən paylanmasına, qazların udulmasına, ayrılmasına və s. sərf olunur. Biosenozun (biotanın) ətraf mühitin formalaşmasında və sabitləşməsində rolunu onun qlobal funksiyaları (energetik, destruktiv, konsentrasiya, mühit yaratma, nəqletmə) ilə göstərmək olar. Canlı maddələrin mühityaratma funksiyası bütün funksiyaların birgə nəticəsi hesab olunur: energetik funksiya bioloji dövranın bütün həlqələrini enerji ilə təmin edir; destruktiv və konsentrasiya funksiyaları dağınıq (seyrək), lakin həyat üçün çox mühüm elementlərin təbii mühitdən çıxarılması və toplanmasına şərait yaradır.

**Ədəbiyyat**


1.Q.Məmmədov, M.Xəlilov. Ekologiya, ətraf mühit insan. Ali məktəblər üçün dərslik. Bakı, 2006, 608 s.

2.T.Xəlilov, Ş.Göyçaylı. Ekologiya və ətraf mühiti mühafizəsinin əsasları. Dərslik. Bakı, 2009, 232 s.

3.Alternativ və Bərpa olunan Enerji mənbələrindən İstifadə olunması üzrə Dövlət Proqramı (2004)

4.Azərbaycan – 2020 - Gələcəyə Baxış İnkişaf Konsepsiyası

5.2008-2015-ci İllərdə Azərbaycan Respublikasında Əhalinin Ərzaq Məhsulları ilə Etibarlı Təminatına Dair Dövlət Proqramı (2008 - 2015)



**Firuzə Mirzəyeva**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı

firuzamirzayeva06@gmail.com

( +994) 10-728-11-44)

Elmi rəhbər: Aydın İbişov


## “SÖZƏ ÇEVRİLƏN MƏNZƏRƏ: AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA TƏBİƏTİN TƏRƏNNÜMÜ”

Öncəliklə, qeyd etmək istərdim ki, təbiət sözü özlüyündə böyük bir aləmi əks etdirir. Yazıçı, ictimai xadim M.S.Ordubadi "Bahar haqqında” məqaləsində deyir: “Təbiət konsepti” Azərbaycan ədəbiyyatının demək olar ki, bütün nümayəndələrinin yaradıcılığında öz əksini tapmışdır. Bu mövzu ya birbaşa təbiətin tərənnümü, ya da təbiət ünsürləri ilə həmahəng olan sevginin təsviri ilə ifadə olunmuşdur.” Aşıq yaradıcılığı da bu silsilədən ayrılmamış, daim aşıqlarımızın sözlərində, sazlarında təbiətin füsunkarlığı, əsrarəngizliyi tərənnüm olunmuşdur. Yaradıcılığında təbiət motivlərinə xüsusilə yer

vermiş Aşıq Ələsgər bu baxımdan daha dəyərlidir. Bəlkə də, doğulub boya-başa çatdığı Göyçə onu bir təbiət sevdalısına çevirmişdir.

Ulu Göyçə gölü - səma rəngli şam,
Verir bu torpağa özgə ehtişam.
Salman, bu yerlərdən alıbdı ilham,
Ustad Ələsgərin eşqi, xəyalı.

Onun “Dağlar”,“Yaylaq”,“ Gördüm”,“Bu dağlar mənim”,“ Bənzərsən” və s. rədifli qoşmalarında ~ başı qarlı dağların təmiz havası, çayların şırıltısı, çiçəklərin ətri və təravəti, bir sözlə doğma yurdun gözəllikləri tərənnüm olunmuşdur.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzər olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Ələsgər bu misralarda deyir ki, dağlar xəstə insanlar üçün şəfa, dərdli olanlar üçün dəvadır. Dağlarda hər cür çiçək açır, ətraf gülüstan olur. Bu mənzərəyə şahid olan adamın nə ürək sıxıntısı, nə də dərdi-səri qalar.

Xalq yazıçısı, akademik M.İbrahimov Aşıq Ələsgər irsini Azərbaycan xalqının poetik fikrinin inkişafında parlaq səhifə kimi dəyərləndirir: "...hələ bədii sözə onun kimi məharətlə, böyük zövq və incəliklə naxış vuran olmayıb.” Ələsgər təbiətdən yazanda doğma təbiətin dili ilə danışır, təbiəti Göycə ləhcəsində danışdırır. Bu yaradıcılıq prosesində doğma ana dilimizin bədii ifadəsi nümayiş etdirilir.

Dədə Ələsgər dağları elə tərənnüm edir ki, qışın çilləsində belə bu misraları dinləyəndə insan qəlbi çiçək açır: “1-ci “Dağlar” şeirində yaz fəsili təsvir olunur:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar

Aşıq Ələsgərin tərənnüm etdiyi dağlar yalnız süsəninə, sünbülünə görə gözəl sayılmır, ona görə gözəl hesab edilir ki, bu dağlar çox ədalətlidir. Onlar yoxsulla ərbab, şahla gəda arasında heç bir fərq qoymur, hamısını eyni səmimiyyətlə qarşılayır. Ələsgərin “Dağlar” rədifli birinci qoşmasında biz əzəmət, ucalıq simvolu olan vətən dağlarının ilin ayrı-ayrı fəsillərində büründüyü görkəmin təsvirini görürük. Ancaq ikinci “Dağlar“ qoşmasında güclü nisgil, narahatlıq əhval-ruhiyyəsi vardır. Bu qoşmasında bədnam qonşularımız – erməni daşnaklarının aşığın yaşadığı yurdda qırğın törətməsi, günahsız insanların öz yurdlarını tərk etməyə məcbur olması öz əksini tapır. Dədə Ələsgər bu qoşmasında elin dərdini ürək yanğısı, yanıqlı ifadələrlə söyləyə bilmişdir. Dağları antropomorflaşdıran və insanla bir vəhdətdə götürən ustad sənətkarın kədəri ictimai mahiyyət daşıyır. Qoyub getdiyi dağları yetim kimi boynu bükük, pərişan görəndə sinəsi qubar bağlayan Dədə Ələsgər keçirdiyi xoş günləri xatırlayır:

Hanı mən gördüyüm qurğu büsatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?

Hanı bu yaylaqda yaylayan ellər?!
Görəndə gözümdən car oldu sellər...
Seyr etmir köysündə türfə gözəllər,
Sançılmır buxağa güllərin, dağlar!.

Və yaxud;

İgid nərəsindən, güllə səsindən,
Dəyməmiş tökülür kalların, dağlar.

Dağların vəziyyətində dövrün, zamanın vəziyyəti, ağrı-acısı verilir.

"Kitabi-Dədə Qorqud" dastanında olduğu kimi Dədə Ələsgər yaradıcılığında da oğuzların dağdan və onun ruhundan güc almaları ilə bağlı olan mifik elementlər qabarıqdır. Məsələn, Dədə Qorqudun səkkiz boy sonucunda alqış kimi dediyi "Qarlı qara tağların yıqılmasun!" ifadəsi fikrimizi təsdiqləyir. Yurdun rəmzi işarəsi olan "Dağ ruhunun" dağı tərk etməsi dağın yıxılmasıdır, dağın yıxılması isə dağ ruhunun öz dağ bədənindən qopmasıdır. Aşıq Ələsgər əzəmətli dağlardan ayrı düşdüyü, elsiz yaşadığı üçün özünü məzəmmət edir və dərin kədər içində deyir:

Arsız aşıq elsiz niyə yaşadı,
Ölsün Ələsgərtək qulların, dağlar!

Aşıq təbiətin gözəlliklərini nəzmə çəkəndə, bunları insandan ayrı təsəvvür eləmir. Sanki insansız olanda, bu gözəlliklər natamamdır. Payız gələndə, soyuqlar düşəndə, güllər-çiçəklər saralıb-solanda yaylaqda olanlar arana köçməli olurlar. Aşıq isə bunları tamam başqa cür mənalandırır:

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı.

Bu misralardan belə nəticə çıxır ki, ellər köçüb "aralı" düşdüyü, dağların gül-çiçəyi bu "firqətə" dözə bilmədiyi üçün saralır. Sanki ellər köçməsəymiş, qış gəlib çatsa da, "gül-nərgiz" saralmazmış.

Doğru mühakimədir: Ələsgərə görə bütün gözəlliklər insanla gözəldir, o da ancaq bu gözəlliklərin vəhdətinə, bir-birini daha da gözəlləşdirən gözəlliklərin şəninə dastan deyir.

Hər yetən gözələ "gözəl" demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.

**Çapa imzalanmışdır: 19.12.2025**
**Kağız formatı 210x297, 1/16 çap vərəqi 10.2**
**Sifariş 120, sayı 100**

**PrintEra Poliqrafiya Mərkəzi**
**Ünvan: Cəlilabad rayonu, İlqar Zeynalov küçəsi**
**Telefon:(+99455)277-47-51**